**SƏADƏT DAVUQ QIZI MƏMMƏDOVA**

# RƏQƏMSAL SOSİOLOGİYA: NƏZƏRİ, METODOLOJİ VƏ TARİXİ ASPEKTLƏRİ

**BAKI - 2025**

**Elmi redaktor: İlham MƏMMƏDZADƏ**
**fəlsəfə elmləri doktoru, professor**

**Rəyçi: Tahirə ALLAHYAROVA**
**fəlsəfə elmləri doktoru, professor**

**Səadət Davud qızı Məmmədova. Rəqəmsal sosiologiya: nəzəri, metodoloji və tarixi aspektləri. Bakı: "Fyuzat", 2025, 240s.**

XXI əsrdə formalaşan rəqəmsal cəmiyyət ümumilikdə elmin, o cümlədən müxtəlif elm sahələrinin və ilk növbədə sosiologiyanın yeni istiqamətinin – rəqəmsal sosiologiyanın inkişafına səbəb olmuşdur. Rəqəmsal sosiologiyanın nəzəri, metodoloji və tarixi aspektlərinin öyrənilməsilə bağlı olan monoqrafiyada yeni sosial, həmçinin rəqəmsal münasibətlərin, rəqəmsal cəmiyyətin sələfləri olan postmodern və ya bilik cəmiyyətinin inkişaf tarixi, həmçinin rəqəmsallaşmanın yeni istiqaməti olan süni intellektin formaılaşması ilə bağlı araşdırmalar təqdim edilir. Burada texnoloji tərəqqinin nəticəsi olan rəqəmsal imperializmin qlobal manipulyasiya imkanlarının genişlənməsi və bu manipulyasiyaya qarşı anti və ya alter qarşıdurmaların mahiyyəti araşdırılır. Monoqrafiyada elmi texniki tərəqqinin təsirilə elmin sosial təsisat kimi rəqəmsallaşması xüsusiyyətləri analiz edilir. Elmi fəaliyyətin subyekti olan alimin elmin aparıcı qüvvəsi kimi tədqiqat imkanlarının genişlənməsi, rəqəmsallaşmanın sinerji xüsusiyyətlərinin mahiyyətinin metodoloji əsasları kimi *"sosial sinergetik institutlaşma"* nəzəriyyəsi əsaslandırılır. Monoqrafiyada həmçinin Azərbaycan elminin inkişaf istiqamətləri və rəqəmsallaşması, ölkəmizdə rəqəmsal dövlət və rəqəmsal cəmiyyətin formalaşmasının əsasları, ağıllı kənd və ağıllı şəhərlərin inkişafı şərh edilir.

Monoqrafiya ali və orta ixtisas müəssisələrinin professor, müəllim heyəti və tələbələri, habelə geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**© *Səadət Davud q. Məmmədova, 2025***

# MÜNDƏRİCAT

ÖN SÖZ......................................................................................6

RƏQƏMSAL SOSİOLOGİYANIN TƏDQİQAT OBYEKTİ: RƏQƏMSAL CƏMİYYƏT........................................................15

RƏQƏMSAL CƏMİYYƏTİN SƏLƏFLƏRİ: POSTMODERNIZM, YOXSA BİLİK CƏMİYYƏTİ................29

RƏQƏMSAL CƏMİYYƏTİN İNKİŞAF İSTİQAMƏTLƏRİ. SÜNİ İNTELLEKT..................................................................39

TEXNOLOJİ, YOXSA RƏQƏMSAL İMPERİALİZM: KONSEPSİYADAN HAKİMİYYƏTƏ......................................56

AĞILLI CƏMİYYƏT, YOXSA QLOBAL MANİPULYASİYA: ANTİ VƏ YA ALTER QARŞIDURMALAR.............................74

RƏQƏMSAL ELMİN SOSİOLOGİYASI VƏ XXI ƏSRDƏ ELMİN İNSTİTUTLAŞMASI XÜSUSİYYƏTLƏRİ.............................................................105

RƏQƏMSAL CƏMİYYƏTİN YARADICISI: ALİM FENOMENİ.........................................................................134

"SOSİAL SİNERGETİK İNSTİTUTLAŞMA" RƏQƏMSAL ELMİN METODOLOJİ ƏSASLARI KİMİ.............................150

AZƏRBAYCAN ELMİNİN İNKİŞAF İSTİQAMƏTLƏRİ. RƏQƏMSALLAŞMA...........................................................166

AZƏRBAYCANDA RƏQƏMSAL DÖVLƏT VƏ RƏQƏMSAL CƏMİYYƏT.........................................................................177

RƏQƏMSAL, YOXSA AĞILLI KƏND..................................194

AĞILLI ŞƏHƏRLƏR RƏQƏMSAL CƏMİYYƏTİN YENİ MƏRHƏLƏSİ KİMİ............................................................202

NƏTİCƏ......................................................................................216

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT.......................................220

## ***<u>ÖN SÖZ</u>*: "Rəqəmsal Sosiologiya: Cəmiyyətin rəqəmsallaşmasından sosial elmin rəqəmsallaşmasına"- çağırışlara cavab**

Rəqəmsal eranın başlanması elmin müxtəlif sahələrində tədqiqatçılar üçün ciddi çağırışlar ortaya çıxardı. "Müasir cəmiyyətdə, dünyada nə baş verir, sosial proseslər və münasibətlər necə dəyişir?" - sualına adekvat cavab verməyə çalışan dünya sosiologiya elmi də bu çağırışlardan kənarda qalmayıb.

Son onilliklərdə sürətlə inkişaf edən rəqəmsallaşma XXI əsrin üçüncü onilliyində, rəqəmsal texnologiyaların təkmilləşdirilməsi və Süni İntellektin kəşfi ilə görünməmiş templərlə davam edir. Bu proseslər fonunda qlobal və yerli cəmiyyətlərdə paralel olaraq yeni kommunikasiya formalarının yaranması, sosial münasibətlərin qarşılıqlı təsirini, ümumilikdə mədəniyyətin və cəmiyyətin sosial varlığını köklü şəkildə dəyişməkdədir.

Etiraf edək ki, Azərbaycanda sosial elmlərin rəqəmsal texnologiyaların cəmiyyətə və ilk növbədə, sosiologiya elminin özünə təsirini nəzərə almaq baxımından, rəqəmsallaşma fenomeninin təhlilinə həssaslıq aspektində daha ehtiyatlı, hətta ləng reaksiya verməsi müşahidə edilir.

Sosiologiya elmləri doktoru Səadət Məmmədovanın təqdim etdiyi **"Rəqəmsal sosiologiya: nəzəri, metodoloji və tarixi aspektləri**" adlı monoqrafiyanın məqsədi son illərdə intensiv sürətlə inkişaf edən yeni sosioloji istiqamətin – rəqəmsal sosiologiyanın (ing. "Digital Sociology") mahiyyəti və məzmununu, ümumi mənzərəsini-hüdudlarını və perspektivlərini göstərməkdir. Müəlllif bu yeni sosial tədqiqat sahəsinin araşdırdığı obyekt və predmetin müəyyənləşdirilməsinə töhvə vermiş xarici tədqiqatçıların məqsədlərini, mövzu ilə bağlı tədqiqatların əhatəli icmalını, "rəqəmsal sosioloqların" fərqli statusunu oxucuya çatdırmağa çalışıb.

Kitabdan aydın olur ki, yeni həmkarlarımızın-rəqəmsal sosioloqların diqqəti əsas rəqəmsal texnologiyalar (informasiya-kommunikasiya şəbəkələri, "Böyük Verilənlər"(BV) texnologiyaları, alqoritmlər və mürəkkəb alqoritmik sistemlər, platformalar, süni intellekt texnologiyaları, bulud hesablamaları, əlavə-augmented və virtual reallıq texnologiyaları və s.) ilə təmsil olunan müasir sosio-texnoloji infrastrukturun inkişafı və tətbiqi nəticəsində yaranan rəqəmsal cəmiyyətə yönəlib.

Yeni elm sahəsi kimi rəqəmsal sosiologiya tərəfindən həm texnoloji dəyişikliklərə, həm də informasiyanın sürətli toplanmasına və təhlilinə, məlumatların strukturlaşdırılmasına şərait yaradan informasiya-kommunikasiya texnologiyalarının yayılmasına, XXI əsrin reallıqlarında - rəqəmsallaşma əsrində, böyük verilənlərdə, siyasi proseslərin virtual qavrayışında və siyasi proseslərə təsir edən virtual məkanda tədqiqat apararkən alətlərin, texnologiyaların işlənib hazırlanması təcrübəsində sosioloqların iştirak tendensiyalarına diqqət yetirilir.

Kitabla tanışlıqdan məlum olur ki, rəqəmsal sosiologiya dünya və Azərbaycan elmi üçün həm elmi, həm də, praktiki sahələrdə yeni istiqamət kimi bilavasitə aşağıdakı prosesləri tədqiq edir:

-rəqəmsal kütləvi informasiya vasitələrinin (ilk növbədə sosial media-sosial şəbəkələr: META (Facebook), Instagram, "X", YouTube, Linkedİn,Threads və s.) insanların gündəlik həyatının bir hissəsinə çevrilməsi ilə bağlı sosial təcrübənin, eləcə də, bu təcrübələrin sosial-psixoloji nəticələrinin təhlil edilməsi;

-müxtəlif rəqəmsal sosial texnologiyaların insan davranışı və sosial qarşılıqlı münasibətlər modellərini necə formalaşdırdığının tədqiq edilməsi;

-real və virtual məkanlarda(ilk növbədə sosial şəbəkələrdə) baş verən sosial proseslərin qarşılıqlı təsirinin öyrənilməsi.

Rəqəmsal sosiologiya rəqəmsal Kütləvi Informasiya Vasitələrinin (KİV), rəqəmsal medianın insanların gündəlik

həyatının bir hissəsi kimi istifadəsinin dərk edilməsinə və bu müxtəlif texnologiyaların insan davranış modellərinə, cəmiyyətdə sosial münasibətlərə və özünü reallaşdırma və özünüidarəetmə proseslərinə necə töhfə verməsini öyrənməyə yönəlmiş yeni elmi istiqamətdir.

"Rəqəmsal sosiologiya" elmi istiqaməti çərçivəsində tədqiqat fəaliyyətinin çoxşaxəli mövzuları sırasında aşağıdakı sahələr mühüm yer tutur:

-sosial media və onların sosial proseslərin dinamikasına təsiri;

-istifadəçi şəxslərin rəqəmsal profili və İnternetdəki davranışının xüsusiyyətləri;

-ilkin sosial məlumatların əldə edilməsi üçün rəqəmsal üsullar;

-sosial proseslərin təhlilində "Big Data", "Böyük verilənlər" (BV) dən istifadə;

-sosioloji onlayn sorğuların metodologiyası və onların təkmilləşdirilməsi;

-rəqəmsal məkanda sosial texnologiyaların tətbiqi məsələləri.

Beləliklə, XXI əsr rəqəmsal cəmiyyətin formalaşaraq inkişaf etdiyi tarixi dövrdür.

Rəqəmsallaşma prosesinin sosial rifahın yüksəldilməsilə bağlı tərəqqi yönlü nəticələri olduğu kimi sosial aşınmaya səbəb olan xüsusiyyətləri də mövcuddur:

1.Siyasi sferada rəqəmsallaşma demokratikləşmə ilə qloballaşma arasındakı qarşılıqlı əlaqə və asılılıq prosesini sürətləndirir;

2."Rəqəmsal təhsil", "rəqəmsal elm", "rəqəmsal mədəniyyət", "rəqəmsal mənəvi həyat", "rəqəmsal etika", "rəqəmsal ideologiya" və s. yenidən dərketmənin və yeni konseptual yanaşmaların formalaşmasını zəruri edir.

3. Rəqəmsal ədalət və rəqəmsal bərabərsizlik problemi "ədalət" və "sosial bərabərsizlik" anlayışlarına

yeni anlam verir və sosial münasibətlərin mahiyyətində dəyişikliklərə səbəb olur;

4.Texnologiyaların inkişafı nəsillərarası münasibətlərdə rəqəmsal uçurum haqqında danışmağa imkan yaradır.

5.Rəqəmsal cəmiyyətdə yeni virtual reallıq və virtual mühitlər inkişaf edir, virtual etika və estetika, virtual əxlaqi mühit, şəbəkəli icmalar, virtual submədəniyyətlər və s. yaranır.

6.Qlobal və lokal Rəqəmsal İdarəetmə yeni prinsip və metodlar əxz edir, "rəqəmsal suverenlik", "rəqəmsal müstəmləkəçilik", "rəqəmsal konstitusionalizm" kimi rəqəmsal idarəetmə konsepsiyaları formalaşır. Qloballaşmanın yeni mərhələsi olan rəqəmsallaşma bəşər cəmiyyətinin yeni inkişaf imkanlarını həm təklif edir, həm də təhrik edir.

Rəqəmsallaşmanın genişlənməsində mərkəzləşmiş fəaliyyət təqdim edən elmi tədqiqat müəssisələri əsaslı rola malikdir.

Məlumdur ki, ilkin rəqəmsallaşma mərkəzlərinin yaranma tarixi XX əsrin 40-cı illərinə bağlanır. ENIAC (Electronic Numerical Integrator And Computer: Elektronik Rəqəmsal İnteqral Hesaplayıcı) ABŞ tərəfindən yaradılan və II Dünya müharibəsində fəaliyyət göstərən ilk data mərkəzlərdən idi.

XX əsrin 80 – 90-cı illərində kömpüter istifadəsinin kütləviləşməsi data və ya rəqəmsal mərkəzlərin çoxalmasına ehtiyacı artırmış oldu və məlumatlara əsasən "*1997-2000-ci illərdə dot-com qabarcığı zamanı məlumat mərkəzlərinin bumu baş verdi*" (Cynthia Harvey (July 10, 2017)).

İlk dövrlərdə ümumi adla Bulud məlumat mərkəzləri (CDC) adlanan bu data və ya rəqəmsal mərkəzlər XXI əsrdə öz fəaliyyətlərini genişləndirərək xüsusi proqram və layihələr çərçivəsində və daha qlobal hədəflər istiqamətində fəaliyyət göstərirlər.

Rəqəmsallaşmanın əhatə dairəsinin genişlənməsinin nəticəsidir ki, bu gün tərəqqiyə yönələn hər bir idarəetmə sistemi özünün data bazasına malikdir. Bu gün Azərbaycanda rəqəmsal məlimatların idarə edilməsi ilə məşğul olan təsisatlar arasında 2019-cu ildə yaradılmış Sosial Tədqiqatlar Mərkəzi beynəlxalq və respublika əhəmiyyətli data baza olaraq fəaliyyət göstərir.

XXI əsrdə rəqəmsallaşma dövlətin inkişafı və insanların sosial rifahı anlamını daşıyır. Azərbaycan dövləti tərəqqinin göstəricisinə çevrilmiş rəqəmsallaşma istiqamətində əsaslı islahatlar həyata keçirir. Ölkəmizin rəqəmsallaşdırılması geostrateji xarakter daşıyır və Azərbaycan Respublikasının prrezidenti İlham Əliyev ölkəmizin bölgədə rəqəmsallaşma mərkəzi kimi formalaşmasını hədəfləmişdir. 2017-ci ildən Azərbaycanda GPON (Gigabit Passiv Optik Şəbəkələr) texnologyasının tətbiqi əsasında "Onlayn Azərbaycan" layihəsi həyata keçirilir və 2021-ci ildən bu layihə bütün ölkə ərazisində reallaşdırılır.[1]

Ölkəmizdə rəqəmsal hökumətin və cəmiyyətin təşviqi istiqamətində Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 1859 nömrəli Sərəncamı ilə "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı" təsdiq edilmişdir. Bu sənəddə verilən məlumatlara əsasən ölkənin rəqəmsallaşdırılması istiqamətində təkcə 2022-ci ildə "*...42 dövlət qurumunun inteqrasiya edildiyi Elektron Hökumət İnformasiya Sistemi tərəfindən ...450-dən çox elektronlaşdırılmış xidmətin təqdim olunması...*", həmçinin Elektron Hökumət portalının *"...1 milyondan çox istifadəçisinin..."* olması "*...və vətəndaşların müxtəlif dövlət xidmətləri ilə əlaqədar hər ay orta hesabla 2,5 milyon dəfə portaldan istifadə etməsi...*"[2] qeydə

[1] Onlayn Azərbaycan//URL: https://mincom.gov.az/az/layiheler/onlayn-azerbaycan

[2] Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 1859 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.

alınmışdır ki, bu da bütövlükdə cəmiyyətin rəqəmsallaşması ilə bağlı uğurlu fəaliyyətin nəticəsi kimi qəbul edilməlidir.

Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 16 yanvar tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası”nda rəqəmsallaşanın qlobal trendləri olaraq –

-*Rəqəmsal iqtisadiyyatın üstünlüyü;*

-*Rəqəmsal idarəetmə modelləri;*

-*Kibertəhlükəsizlik prioriteti;*

-*Süni intellektin tətbiqi;*

-*Rəqəmsal savadlılıq proqramları;*

-*Startap ekosisteminin gücləndirilməsi;*

-*Dayanıqlı texnologiyaların tətbiqi* – müəyyən edilmişdir.[3]

Qeyd edilməlidir ki, rəqəmsallaşma ilə bağlı başlıca problemlərdən birincisi bu yöndə kütləvi savadlılığın aşağı olmasıdır. Bu məsələ, bəlkə də, müəyyən bir dövlətin rəqəmsallaşmasından daha ciddi bir problemdir. Belə ki, qurulan “ağıllı kəndlər” və “şəhərlər”də, ağıllı və ya rəqəmsal cəmiyyətlərdə, ağıllı bina və evlərdə və s. sakinlərin rəqəmsallaşma haqda məlumatlarının olması, həmçinin innovativ texnologiyalardan yararlanmaq üçün bilik və bacarıqlarının olması ilkin şərtdir.

“Rəqəmsal inkişaf konsepsiyası”nda təqdim edilən məlumatlara əsasən 2023-cü ildə Azərbaycanda, “*əhalinin 88%-i internet istifadəçisidir. Dünya Bankı 2022-ci ilin noyabrında “GovTech Maturity” İndeksi (GTMI) üzrə 198 ölkə arasında ilkin reytinqləri açıqlamış, Azərbaycan 2020-ci ildəki B qrupundan 2022-ci ildə A qrupuna (Liderlər) yüksəlmişdir. BMT-nin “e-Government Survey 2022” hesabatında isə Azərbaycan “Elektron Hökumətin İnkişafı İndeksi” üzrə 193 ölkə arasında 83-cü yeri*

[3] Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 16 yanvar tarixli Fərmanı ilə təsdiq edilmişdir.// URL: https://static.president.az/upload/Files/2025/01/16/7b72d9ce4de45ac4fee0c4b1c8ffb392_5253488.pdf

*tutmuş, o cümlədən "Onlayn Xidmətlər İndeksi" üzrə 100 mümkün baldan 61 bal 5 (dünya üzrə orta bal 56), "Telekommunikasiya İnfrastrukturunun İnkişafı İndeksi" üzrə 68 bal (dünya üzrə orta bal 58), "İnsan Kapitalı İndeksi" üzrə isə 79 bal (dünya üzrə orta bal 70) toplamışdır".*[4]

Bu göstəricilər deməyə əsas verir ki, Azərbaycanda əhalinin rəqəmsal məlumatlılığı və istifadə vərdişləri formalaşmışdır. Bu, rəqəmsal cəmiyyətin vacib məqamının təzahürü kimi rəqəmsal xidmətlərin istehlakçılarının olması deməkdir.

Rəqəmsallaşmanın başlıca trendlərindən biri süni intellektin tətbiqi ilə bağlıdır. 19 mart 2025-ci il tarixində Azərbaycan Respublikasının prezidenti İlham Əliyev tərəfindən "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt strategiyasının təsdiq edilməsi haqqında" Sərəncam verilmişdir. Strategiyada rəqəmsallaşmanın növbəti, bəlkə də daha təkmilləşdirilmiş və daha həssas mərhələsi olan süni intellektin inkişafı və təşviqi istiqamətində başlıca məqsədlər müəyyənləşdirilmişdir:

-"*süni intellekt üzrə idarəetmənin təkmilləşdirilməsi;*

*- süni intellekt siyasətinin formalaşdırılması;*

*-məsul dövlət orqanlarının müəyyən edilməsi və dövlət–özəl sektor əməkdaşlığının genişləndirilməsi;*

*-süni intellektdən etik dəyərlər çərçivəsində və məsuliyyətlə istifadəni təmin etmək üçün normativ hüquqi bazanın hazırlanması".*[5]

---

[4] Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 16 yanvar tarixli Fərmanı ilə təsdiq edilmişdir.//URL: https://ict.az/uploads/7b72d9ce4de45ac4fee0c4b1c8ffb392_5253488.pdf

[5] "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası. Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin 19 mart 2025-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir. https://static.president.az/upload/Files/2025/03/19/5a0fb1886a7316cb1b95458f366c1bd6_3415396.pdf

Sərəncamda ölkəmizin bu istiqamətdə əldə etdiyi nailiyyətlər öz əksini tapmışdır. Burada göstərilir ki, "Süni intellekt Qlobal indeksi"ndə Azərbaycan 2024-cü ildən etibarən yer almaqdadır və 83 ölkə arasında 78-ci yerdədir. Təqdim edilən göstəricilər və Azərbaycanın rəqəmsallaşması istiqamətində həyata keçirilən tədbirlər, proqram və layihələr ölkəmizin regionun rəqəmsal mərkəzinə çevrilməsi prosesnin davamlılığını nümayiş etdirir. Süni intellektin çoxistiqamətli tətbiqinin dərinləşdirilnəsi ilə bağlı strategiya deməyə əsas verir ki, Azərbaycan rəqəmsallaşmanın yeni – süni intellekt mərhələsinə daxil olur. Süni intellekt mərhələsi – cəmiyyətin elmi idarə edilməsi mərhələsi kimi müəyyənləşdirilə bilər.

Təqdim edilən monoqrafiya - ölkəmizdə ilk dəfə olaraq, rəqəmsallaşma ilə bağlı geniş istiqamətli sosioloji tədqiqatdır.

Burada Sosiologiyanın yeni istiqaməti olan rəqəmsal sosiologiyanın nəzəri-metodoloji əsaslarının təhlili, yeni koordinatlara malik olan rəqəmsal cəmiyyətin inkişaf xüsusiyyətləri və tarixi nəzərdən keçirilir. Postmodernizm və bilik cəmiyyəti Rəqəmsal cəmiyyətin inkişafına gətirən mühüm tarixi dövrlər olaraq müəyyənləşdirilir. Süni intellektin yaranması tarixi öyrənilir və yeni dövrdə süni intellektin tətbiqi imkanlarının yaranması nəticəsində rəqəmsal cəmiyyətin tərəqqisinin mümkünlüyü şərh edilir. Müəllif rəqəmsal cəmiyyətin müsbət tərəflərilə yanaşı mənfi tərəflərini işıqlandırır, texnoloji tərəqqinin insanları idarə etməsini onların azadlıqlarının məhdudlaşdırılması kimi dəyərləndirir.

Burada "Rəqəmsal elm sosiologiyası", müasir dövrdə elmin institutlaşması məsələləri və elmin, o cümlədən tərəqqinin subyekti olan alim şəxsiyyətlərinin sosial və psixoloji mahiyyətinin açılmasına cəhd edilir.

Daha bir yenilik - "Sosial sinergetik institutlaşma" rəqəmsal elmin metodoloji əsasları kimi – başlıqlı hissədə rəqəmsallaşmanın nəzəri-metodoloji imkanlarının açıqlanması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Monoqrafiyanın xüsusi əhəmiyyətə malik mahiyyəti onunla bağlıdır ki, burada Azərbaycanda rəqəmsal dövlət və rəqəmsal cəmiyyətin formalaşdığı müasir dövrdə, müvafiq olaraq rəqəmsal sosial tədqiqatların yeni istiqamətləri kəmiyyət və keyfiyyət analizi metodları ilə təhlil edilir.

Kitabda rəqəmsallaşma nəticəsində yaranan "ağıllı kəndlər" və "ağıllı şəhərlər"in sosial rifahın yüksəldilməsi istiqamətindəki əhəmiyyəti və ölkəmizdə bu istiqamətdə həyata keçirilən tədbirlər sosioloji tədqiqata cəlb edilir.

Kitabla tanışlığın başlıca qənaətlərindən biri bu kimidir: rəqəmsal cəmiyyətin öyrənilməsi üçün -rəqəmsal sosiologiya alternativi olmayan olduqca vacib elmi istiqamətdir.

Hesab edirik ki, sosiologiya elmləri doktoru Səadət Məmmədovanın "Rəqəmsal sosiologiya: nəzəri, metodoloji və tarixi aspektləri" adlı monoqrafiyası həmkarların, oxucu auditoriyasının yeni sosial elm sahəsi ilə bağlı çoxsaylı suallarına cavab tapdığı əhəmiyyətli, həm də çox faydalı tədqiqat əsəri kimi dəyərləndiriləcəkdir.

**Zahid ORUC**
Sosial Tədqiqatlar Mərkəzinin
İdarə Heyətinin Sədri

# RƏQƏMSAL SOSİOLOGİYANIN TƏDQİQAT OBYEKTİ: RƏQƏMSAL CƏMİYYƏT

XXI əsr yeni tipli cəmiyyətin inkişafı ilə xarakterizə edilir. Elm və texnologiyanın nailiyyətlərinin təcəssümü olan yeni rəqəmsal cəmiyyət qloballşamanın daha da dərinləşməsinə, yeni istiqamətli inkişafına əsas verir. Bu dövrdə rəqəmsallaşma qloballaşmanın, süni intellekt isə rəqəmsallaşmanın növbəti mərhələsi kimi təzahür edir. ***Qloballaşma – rəqəmsallaşma – süni intellekt*** kimi tarixi inkişaf mərhələlərini ***İttena dairəsi*** formasında təsəvvür edə bilərik. Burada hansı mərhələnin əvvəl başlaması və hansının daha güclü təsirə malik olması haqda danışmaq çətindir. ***İttena dairəsi***ndə rənglər oynayaraq biri digərinə keçdiyi kimi – ***qloballaşma, rəqəmsallaşma və süni intellekt*** faktorlarından hansının və hansı məqamda üstünlük nümayiş etdirərərək transformativ səmərəliliyə nail olacağı proqnozlaşdırıla bilər.




İttena dairəsinin başlıca xüsusiyyətləri ağıdakılara uyğun olaraq şərh edilir:

1.Komplementarlıq (Tamamlayıcı). Dairədəki rənglər bir-birini tamamlayaraq, bir rəngdən digərinə keçirlər və bu zaman yeni çalarlar əldə edirlər. Bu, cəmiyyətdə innovativ dəyişikliklər zamanı bütün səviyyələrdə baş verən sosial transpozisiyanı xatırladır. İttena dairəsində hər hansı bir rəng, cəmiyyətdə isə hansısa bir element xüsusi təsir dairəsinə malik olur.

2. Kontrast üçlük. İttena dairəsində rənglər bir-birinə keçərək yeni çalarıların yaranmasına səbəb olduğu kimi,

cəmiyyətdə də sosial mobillik intensivləşir, sosial inteqrasiya və sosial differensiasiya prosesinin dərinlşəşməsilə müşaiyət olunur.

3.Sinerji xüsusiyyəti. İttena dairəsinədə müəyyən bir əlavə və dəyişiklik sistemli şəkildə dairənin öz potensialı hesabına tənzimlənir və idarə edilir. Cəmiyyət də özünü tənzimləmə, özünü idarəetmə xüsusiyyətlərinə malikdir və lazımi məqamlarda sosial elemementlərin yerdəyişməsi əsasında sosial strukturda tədrici yerdəyişmə zərurətindən meydana çıxan yenidən təşkilatlanma baş verir. Rəqəmsal cəmiyyətin yaranması prosesi də İttena dairəsindəki yerdəyişməni xatırladır.

Rəqəmsallaşma cəmiyyətin əsaslarını təşkil edən sosial institutların keyfiyyətcə dəyişməsinə və sosial münasibətlərin yeni xarakter almasına gətirib çıxarır. Rəqəmsal cəmiyyətin əsas göstəricilərindən biri həyatın bütün sahələrinin rəqəmsallaşmasıdır. Rəqəmsal cəmiyyətdə sosial siniflər arasında münasibətlərin transformasiyası, təbəqələşmə prosesində əsaslı dəyişiklik və sosial transpozisiya prosesinin intensivləşməsi baş verir. Rəqəmsallaşma nəticəsində özünəməxsus inkişaf qanunauyğunluqlarına malik "virtual cəmiyyət" formalaşır və bu cəmiyyətin qayda və qanunları real cəmiyyətdə sosial hadisə və proseslərin istiqamətinin müəyyənləşməsinə əsaslı təsir göstərir. Bəzən real və rəqəmsal məqamlar o qədər yaxınlaşır ki, sosial reallığı aydınlaşdırmağa ehtiyac yaranır. Bu proses həm də rəqəmsal texnologiyaların manipulyasiya rolunu artırır.

Müxtəlif ölkələrin texnoloji hökmranlıq məqsədlərinin də həyata keçirilməsinə vəsilə olan Rəqəmsal Cəmiyyət insanın öz üzərində nəzarət və manipulyasiya imkanlarını təkmilləşdirdiyi yeni formatlı sosium olaraq, sosial həyatın müxtəlif sahələrində – idarəçilik, transformasiyalar, sosial mühitlər və texnologiyaların inkişafını tənzimləyir.

Rəqəmsal cəmiyyətin inkişafı ilə müəyyənləşən texnolji imperialism rəqəmsal texnologiyaların təhsildə, sosial, siyasi, iqtisadi həyatda tətbiqi nəticəsində məhdudlaşdırıcı və manipulyativ fəaliyyət imkanlarını təkmilləşdirmişdir.

Yeni rəqəmsal nizam sosial reallığın qarşılıqlı keçid (mutual transition) məkanına çevrilməsilə xarakterizə olunur. İlk mərhələdə hadisə və proseslərlə bağlı məlumatların qeydiyyatı zəruri fəaliyyət kimi təqdim edilir və informasiyanın idarə edilməsi baş verir, yəni informasiya idarəetmə obyektinə çevrilir. Növbəti mərhələdə, artıq informasiya idarəetmə subyekti kimi çıxış edir. Sosial reallıq informasiya tərəfindən idarə edilməyə başlayır, data bazalar kəmiyyət və keyfiyyət dəyərləndirilməsini həyata keçirir. Rəqəmsallaşmanın yaratdığı görünməyən, şəffaf hüdudlar texnoloji manipulyasiyanın nəticəsi kimi təzahür edir. Rəqəmsallaşma sosial rifahın yüksəlməsinə və sosial təhlükəsizliyin möhkəmlənməsinə şərait yaratmaqla yanaşı, manipulyativ sosial nəzarət və idarəçiliyin dərinləşməsinə səbəb olur.

Cəmiyyətdə müxtəlif istiqamətli münasibətlər sisteminin qurulması, konseptual əsaslarının müəyyənləşdirilməsi tarixi prosesin alternativ istiqamətinin seçilməsidir. Elmi yanaşma yalnız kiçik sosial qrupların deyil, həm də böyük sosial birliklərin idarə edilməsini və tərəqqisini mümkün edir. Deyə bilərik ki, elmin inkişafı ilə cəmiyyətin sürətli transformasiyası kütləvi şüur tərəfindən çox zaman dərk edilmədən, hazır nəticələr formasında qəbul edilir və kütləvi manipulyasiyaya gətirir.

İctimai proseslərin sosial tənzimlənməsi amili kimi çıxış edən elm cəmiyyətin tələbatlarına təsir edir və rasional idarəetmənin əsas mexanizminə çevrilir. Hər bir innovasiya sübut edilmiş elmi əsaslar tələb edir. Sosial mədəni tənzimləmənin mahiyyətini müəyyənləşdirən elm cəmiyyətin tərbiyə, təlim sisteminə, cəmiyyət üzvlərinin tədqiqat fəaliyyətinə və elmi etosa qoşulması imkanlarına təsir edir. [6]

Elmi əsaslarda qurulan ideologiyalar elmi idarəetmənin yeni səviyyələrinə imkanlar açır. Elmi idarəetmə ilə yanaşı elmin idarə edilməsi prosesinin dərinləşməsi diqqət çəkir. Elmin idarə edilməsi çox vaxt tarixi həqiqətlərin aşkar olunmasına və gələcək

---

[6] Кохановский В.П., Золотухина Е.В., Лешкевич Т.Г., Фатхи Т.Б. Философия для аспирантов: Изд 2-е. – Ростов н/Д: Феникс, 2003. – С.19.

nəsillərə ötürülməsinə, elmin davamlı inkişafının təmin edilməsinə şərait yaradır. Bir çox hallarda isə elmin və elmi yaradıcılığın manipulyasiyası, həmçinin elmdən, elmi nailiyyətlərdən istifadə edərək sosiumun manipulyasiyası müşahidə edilir.

Bu istiqamətdə fəaliyyət bilavasitə elmi tədqiqat mərkəzləri, təşkilatları, cəmiyyətləri və s. tərəfindən həyata keçirilir.

Bəşəri idrakın törəməsi kimi rəqəmsal cəmiyyətin formalaşdırdığı sosial reallıq müvafiq funksional qanunauyğunluqlar sistemini əmələ gətirir. Bu zaman klassik sosial struktur və onun subsistemləri kimi sosil təsisatlar fərqli mahiyyət əldə edir.

2016-cı ildə Klaus Şvab özünün "Dördüncü sənaye inqilabı" adlı kitabında yeni dövrün başlandığını bəyan etdi. O, elm, təhsil və innovasiyaları yeni cəmiyyətdə - "biliklərə əsaslanan iqtisadiyyat"ın təməl resursu, təkanverici qüvvələri kimi müəyyənləşdirmişdir.[7]




Klaus Şvabın təqdim etdiyi cəmiyyətdə dövlətin və cəmiyyətin başlıca inkişaf resursları: elmi texniki potensial, kadr

[7] Klaus Schwab . The Fourth Industrial Revolution. // URL:7https://www.weforum.org/about/the-fourth-industrial-revolution-by-klaus-schwab

potensialı, texnoloji istehsal potensialı, innovasiya potensialı, maliyyə iqtisadi potensial olaraq müəyyənləşdirilirdi.

Dördüncü sənaye inqilabının inkişaf potensialları elmin yeni istiqamətdə inkişafına – rəqəmsallaşmasına və nəticə olaraq rəqəmsal dövlətin və cəmiyyətin formalaşaraq inkişaf etməsinə gətirmişdir.

A.V.Tixinov və V.S.Boqdanov yaşadığımız dövrü "*informasiya texnologiyalarının transformasiyası və hibrid infososial sistemlərin modelləşdirilməsi*" kimi xarakterizə edirlər. Belə deyə bilərik ki, biz rəqəmsallaşma dövrünün ilkin mərhələsini, sosial mühitin rəqəmsal mühitə transformasiyasını yaşayırıq. V.S.Yeqorov kimi bir çox alimlər bu prosesi "*təfəkkürün böhranı*" olaraq müəyyənləşdirir və bu böhrandan çıxışı "*fərqli təfəkkür tərzlərinin inteqrasiyasında*" axtarırlar.[8]

İnsan təfəkkürünün bəhrəsi olan rəqəmsal cəmiyyətin yaratdığı sosial reallıq özünəxas funksional qanunauyğunluqlar sistemi təqdim edir. Burada ənənəvi sosial struktur və onun alt-sistemləri olan ayrı-ayrı sosil təsisatlar yeni xarakter alır. Rəqəmsallaşmanın hədəfi sosial münasibətlərin virtuallaşmasıdır. Dövlət idarəçiliyinin rəqəmsallaşmasında ilk mərhələ kimi meydana çıxan elektron hökumət rəqəmsal və ağıllı cəmiyyətin formalaşmasına istiqamətlənmişdir. İlkin mərhələdə münasibətlərin virtuallaşması ilə nəticələnən rəqəmsallaşma tədricən idarəetmədə ciddi dəyişikliklərə gətirdi. Əvvəlcə rəhbərsiz özünüidarəetmə, sonra isə ağıllı idarəetmə formalaşdı. Ağıllı idarəetmə ağıllı kənd, ağıllı şəhər və ağıllı cəmiyyətin formalaşmasına yol açdı. [9]

Yeni mahiyyətli sosial birliklər müvafiq əlaqə və münasibətlər, dəyərlər sisteminin, submədəniyyətlərin

---

[8] Mammadova, S. (2023). Dijital Sosyolojinin Kavramsal Temelleri Akademik Tarih ve Düşünce Dergisi, 10 (6), 2502-2511. // URL: https://dergipark.org.tr/tr/pub/atdd/issue/81046/1416795

[9] Mammadova, S. (2023). Dijital Sosyolojinin Kavramsal Temelleri Akademik Tarih ve Düşünce Dergisi, 10 (6), 2502-2511. // URL: https://dergipark.org.tr/tr/pub/atdd/issue/81046/1416795

formalaşmasına təkan verdi. Real və ya ənənəvi cəmiyyəti təşkil edən sosial qruplar virtual məkanda yenidən yeni mahiyyətdə formalaşır. Real sosial qruplarda və virtual sosial qruplarda şəxsiyyətin fərqli təqdimatı, yaxud "ikiləşməsi" imkanları açılır.

Deyə bilərik ki, rəqəmsallaşmanın sosial mühitin ayrılmaz ünsürünə çevrilməsi prosesinin müvafiq şəkildə qərarlaşıb inkişaf istiqamətini müəyyənləşdirməsi imkanları müəyyən mənada bizdən asılıdır. Belə ki, hazırda rəqəmsal sosial məkanda mövcud olan xaos yaranmaqda olan dəyərlər sisteminin əlaqəli uyğunlaşdırılması ehtiyacının olduğunu göstərir. [10]

Ştat hökumətlərində sayma maşınlarının inkişafı və istifadəsinin tarixi 1890-cı ilə, ABŞ-da Hollerith tərəfindən istehsal edilmiş perfokart maşınlarında (elektrik göstəriciləri olan 80 sütunlu kartlar) siyahıyaalma aparıldığı vaxta təsadüf edir. 1924-cü ildə IBM-in yaradılmasından sonra bu maşınlar biznesdə məlumatların emalının mexanikləşdirilməsi üçün istifadə edilməyə başlamışdır. Həmin dövrdə Sosial Müdafiə nömrəsinin yaradılması federal, əyalət və yerli hökumətlərin ehtiyaclarını ödəmək üçün məlumat emalı sistemlərinin geniş tətbiqinə səbəb oldu. Bu, əsasən, çoxsaylı işçilərin uçotu, materialları, əsas vəsaitləri, fondları (o cümlədən bank hesabları), binalar, inventar və əmək haqqı fondu ilə əlaqəli inzibati sahələrdə baş verdi. [11]

Tezliklə Avropada da siyahıyaalma mexanizasiyası IBM tərəfindən aparılmağa başladı. 1931-ci ildə Avropada perfokart maşınlarının istehsalına başlayan Fransız Bull şirkətinin əsası qoyuldu. Bir çox Avropa ölkələrində istifadə olunmağa başlayan IBM və UNIVAC ofis işlərində məlumatların işlənməsini və idarəetmə və iqtisadiyyatda əmək haqqı fondunu mexanikləşdirməyə imkan yaratdı. XX əsrin əvvəllərində Mərkəzi

[10] Mammadova, S. (2023). Dijital Sosyolojinin Kavramsal Temelleri Akademik Tarih ve Düşünce Dergisi, 10 (6), 2502-2511. // URL: https://dergipark.org.tr/tr/pub/atdd/issue/81046/1416795

[11] Mammadova, S. (2023). Dijital Sosyolojinin Kavramsal Temelleri Akademik Tarih ve Düşünce Dergisi, 10 (6), 2502-2511. // URL: https://dergipark.org.tr/tr/pub/atdd/issue/81046/1416795

və Şərqi Avropada daha ucuz çexoslovak maşınları olan "Aritma" və Sovet (Belarus) CAM maşınlarından istifadə edilmişdir. Bu hesablayıcı maşınlar vasitəsilə İkinci Dünya Müharibəsi zamanı (1939-1945) yaxşı təşkilatçılığı dəyərləndirən almanlar bir sıra Avropa ölkələrində (xüsusilə Fransa, Hollandiya və Polşa) yəhudilərin də daxil olduğu "arzuolunmaz elementləri" saxlamaq üçün mexanikləşdirilmiş siyahıyaalmalarda istifadə edirdilər. [12]

İkinci Dünya Müharibəsi zamanı (1939-1945) yaxşı təşkilatçılığı dəyərləndirən almanlar bir sıra Avropa ölkələrində (xüsusilə Fransa, Hollandiya və Polşa) yəhudilərin də daxil olduğu "arzuolunmaz elementləri" saxlamaq üçün mexanikləşdirilmiş siyahıyaalmalardan istifadə edirdilər.

XX əsrin 50-ci illərində ABŞ-ın informasiya texnologiyalarının inkişaf etdirilməsi çağırışına cavab olaraq, Prezident Şarl de Qoll Fransada kompüterlərin istehsalını və istifadəsini təşviq etmək üçün Plan hazırladı. Bu planın nəticəsi olaraq CII (Compagnie International pour Informatique) şirkəti yaradıldı. 1966-cı ildə yaradılan Delegue pour l'informatique şirkəti Plan Hesablamasının həyata keçirilməsinə və nizamlanmasına ciddi nəzarət edirdi. Beləliklə, amerikanların hesablama, verilənlərin emalı, informatika, proqram təminatı terminlərinə əlavə olaraq fransızlar informasiyanın işlənməsi texnikası mənasını verən Informatique sözünü də tətbiq etdilər. Beş ildən sonra Polşada da belə bir plan qəbul edildi. [13]

1967-ci ildə Jean-Jacques Servan-Schreiberin "Le Défi Américain" (Amerika Çağırışı) kitabı nəşr olundu. Kitabda kompyuterləşmənin Avropanın bütün cəbhələrdə: idarəetmə üsulları, texnoloji alətlər və tədqiqat imkanları üzrə tamamilə üstün

[12] Mammadova, S. (2023). Dijital Sosyolojinin Kavramsal Temelleri Akademik Tarih ve Düşünce Dergisi, 10 (6), 2502-2511. // URL: https://dergipark.org.tr/tr/pub/atdd/issue/81046/1416795
[13] Mammadova, S. (2023). Dijital Sosyolojinin Kavramsal Temelleri Akademik Tarih ve Düşünce Dergisi, 10 (6), 2502-2511. // URL: https://dergipark.org.tr/tr/pub/atdd/issue/81046/1416795

mövqe əldə etməsinə və səssiz iqtisadi müharibə aparmasına açıqlıq gətirilirdi.[14]

XX əsrin 80-ci illərindən başlayaraq fərdi kompüterlərin ictimaiyyətə təqdim edilməsi prosesi başladı. 1989-cu ildə icad edilmiş Ümumdünya Şəbəkəsi 2001-ci ildən etibarən sosial həyata əsaslı təsir göstərməyə başlamışdır. Məhz bu ildə Wikipedia və iTunes fəaliyyətə başlamışdır. 2003-cü ildə LinkedIn, 2004-cü ildə Facebook, Reddit, Flickr və 2005-ci ildə YouTube, 2006-cı ildə Twitterin açılışı virtual dünyanın formalaşmasına və tədricən geniş sosial xarakter almasına gətirmişdir. 2007-ci ildə Smartfonların, 2008-ci ildə Spotifayın, 2010-cu ildə Instagram və planşet kompüterlərin kütləvi istehsalı və istehlakı, 2011-ci ildə Pinterest (ideyalar şəbəkəsi) və Google şəbəkələrinin açılması dünyanın "qlobal kəndə" çevrilməsi prosesini sürətləndirdi. XXI əsrdə təxminən hər saatda yenilənən və təkmilləşdirilən rəqəmsal texnologiyalar "qlobal vətəndaşlıq" anlayışının gerçəkləşməsinə səbəb olmuşdur. Belə ki, rəqəmsal texnologiyalar vasitəsilə insanın harada olmasından asılı olmayaraq izlənməsi və yönləndirilməsi prosesi genişlənmişdir. Hazırda rəqəmsal texnologiyaların insan davranışını və hisslərini manipulyasiya etdiyini əminliklə demək olar. Hələ 2013-cü ildə ABŞ Milli Təhlükəsizlik Agentliyində (NSA) işləyən amerikalı podratçı Edvard Snouden rəqəmsal texnologiyalar vasitəsilə ABŞ-ın və Britaniya, Avstraliya, Kanada və Yeni Zelandiya kimi bir çox hökumətlərin öz vətəndaşlarına və ölkə əhalisinə rəqəmsal nəzarət həyata keçirdiklərini sübut edən sənədlər təqdim etdi. Sənədlər göstərdi ki, bu fəaliyyətlərə ABŞ, Böyük Britaniya və Avropada telefon qeydlərinə, mətn mesajlarına, e-poçtlara daxil olmaq və cib telefonlarının yerlərini izləmək, habelə vətəndaşların internetlə qarşılıqlı əlaqəsinə və bir çox siyasi və biznes liderlərinin telefon danışıqlarına nəzarət daxildir. Məlum olub ki, NSA və onun britaniyalı həmkarı Hökumət Rabitə Qərargahı (GCHQ) Google, Apple, Microsoft və Facebook daxil olmaqla,

[14] Deborah Lupton. Digital sociology. Routlege: Taylor&Francis Qroup. 2015, 236p.

Amerikanın böyük internet şirkətlərindən olan istifadəçilərin şəxsi metaməlumatlarına daxil ola bilir, həmçinin internetdən məlumatların ələ keçirilməsinə nail olur.[15]

Rəqəmsal sosiologiyanın konseptual əsaslarının ilkin tədqiqi Manuel Kastelsin adı ilə bağlıdır. O, 2000-ci illərdə “şəbəkə cəmiyyəti” konsepsiyasını inkişaf etdirmişdir. Manuel Kastels onlayn şəbəkələri müasir cəmiyyətin sosial strukturunu və hakimiyyət münasibətlərini formalaşdıran başlıca amil kimi xarakterizə etmişdir. Kastelsə görə informasiya əsrində istehsal prosesləri elektron kommunikasiyalarla əvəz edilmişdir, rəqəmsal informasiya iqtisadi istehsalın əsasına çevrilmişdir, rəqəmsal texnologiyalar yeni sosial strukturun, qlobal iqtisadiyyatın və virtual mədəniyyətin formalaşmasında mühüm rol oynamışlar.[16]

Beer, Featherstone, Lash, Mackenzie, Savage və Burrows kimi alimlər hesab edirlər ki, cəmiyyətin rəqəmsallaşması dünyanı dərkin yeni vasitəsini təqdim etmişdir. Bu müəlliflər düşünürlər ki, rəqəmsallaşma biliyin transformasiyasına səbəb olmuşdur. Naycela Trift informasiya iqtisadiyyatını “bilik kapitalizmi” kimi müəyyənləşdirir. Naycela Trift göstərir ki, Google, Facebook, Apple və Amazon şirkətləri imperiyası rəqəmsal dünyaya ağalıq edir və biliklərin istehsalı və təkrar istehsalı prosesinə təsir edir. [17]

Q.Bell və P.Durişin həmmüəllif olduqları “Rəqəmsal gələcək haqqında təxəyyüllər: hesablamalarda iğtişaş və mifologiya” adlı kitabda qlobal kompüterləşmə və ya 1980-ci illərin sonlarında Xerox PARC-də yaranmış Ubiquitous Computing (və ya ubicomp) hesablama texnologiyasının "üçüncü dalğası" haqqında danışırlar. Bu dövr müəlliflərə görə “daşınan və ya xarici dünyaya quraşdırılmış kiçik və güclü hesablama

---

[15] Deborah Lupton. Digital sociology. Routlege: Taylor&Francis Qroup. 2015, 236p.

[16] Castells M. Materials for an exploratory theory of the network society. // British Journal of Sociology, 2000, 51 ( 1 ), p.p.5 – 24

[17] Mammadova, S. (2023). Dijital Sosyolojinin Kavramsal Temelleri Akademik Tarih ve Düşünce Dergisi, 10 (6), 2502-2511.// URL: https://dergipark.org.tr/tr/pub/atdd/issue/81046/1416795

cihazları ilə xarakterizə edilir. Ubicomp tədqiqat proqramı internetə qoşulan milyonlarla telefonlar, GPS cihazları, simsiz şəbəkələr və ağıllı məişət texnikası istifadəçiləri üçün reallığa çevrilib". Ubicomp-u təkcə texniki baxımdan deyil, həm də mədəni, sosial, siyasi və iqtisadi baxımdan anlamaq ehtiyacının olduğunu qəbul edən müəlliflər rəqəmsal cəmiyyətə xas sosial reallığı tam şəkildə əhatə etmiş ubicomp relyefini xəritəyə alırlar, infrastruktur, mobillik, məxfilik və ev rahatlığı kimi mövzularda ubicomp-da dominant mövzuları analiz edir, həmçinin metodologiya və konseptual çərçivələrlə bağlı gələcək tədqiqatlar üçün istiqamətlər təklif edirlər.

Bununla yanaşı K.Best "*Cəmiyyətdə nəzarətli həyat: rəqəmsal ekranın və istifadəçilərin müşahidəsi texnologiyaları*" (2010) adlı əsərində göstərir ki, əslində insanlar nəzarətli həyat yaşadıqlarını bilirlər, onların bəziləri bu vəziyyətdən məmnundurlar, digərləri isə belə bir vəziyyətin fərqində deyillər.[18]

Yeni virtual məkanda formalaşan xüsusi sosial münasibətlər sisteminin araşdırılması sosiologiya elminin yeni metodlar sisteminin formalaşmasına təkan vermişdir. Hazırda C.Wright Millsin klassik "sosioloji təsəvvür" ifadəsi rəqəmsal sosial tədqiqatın yeni istiqamətlərini izah etmək üçün istifadə olunur. Ənənəvi sosioloji metodlar virtual dünyadakı sosial münasibətlərin quruluşu, transformasiya imkanları və sosial kimliklər və s. haqda əhatəli məlumatlar toplamaqda acizdir. Rəqəmsal sosial tədqiqatın yeni müvafiq metodları sosial şəbəkələrdə yaranan virtual münasibətləri təhlil etmək, eyni zamanda ənənəvi sosial reallıq və real sosial münasibətlərlə bağlı daha geniş araşdırmalar aparmaq imkanları açır. [19]

---

[18] Best K. Living in the control society: surveillance, users and digital screen technologies . International Journal of Cultural Studies , 2010, V.13 (1), p.p.5 – 24

[19] Mammadova, S. (2023). Dijital Sosyolojinin Kavramsal Temelleri Akademik Tarih ve Düşünce Dergisi, 10 (6), 2502-2511. // URL: https://dergipark.org.tr/tr/pub/atdd/issue/81046/1416795

Bu istiqamətdə tədqiqatlar aparan K.Best göstərir ki, rəqəmsal sosial tədqiqatlar təbii və ya real vaxtda "*istifadəçilər tərəfindən yaradılmış*" əhali səviyyəsində məlumat toplanması ilə fərqlənir. Bu zaman sosial prosesləri öyrənmək üçün fərqli tədqiqat alətləri və seçilmiş məlumat toplularından istifadə ilə bağlı indiyədək olmayan bir fürsət təqdim edilir. Bu tədqiqat potensialının reallaşdırılması Cardiff Online Sosial Media Rəsədxanası kimi rəqəmsal "rəsədxanaların" inkişafına təkan vermişdir. Rəqəmsal rəsədxanaların "panoptik", həmçinin "sinoptik" imkanları və "işarə elminin" yeni xüsusiyyətləri arasındakı gərginliyə diqqət yetirilir, siyasi və etik, eləcə də texnoloji nəticələr əldə edilir. [20]

Yuxarıda qeyd edilən müəlliflərlə yanaşı R.Eklend 2013-cü ildə "*Sosial elmlər internetdə: rəqəmsal dövrdə sosioloqlar üçün konsepsiyalar, göstəricilər, alətlər*"; B.Aslinqer və N.Xantemann "*Rəqəmsal media gələcəyi araşdırır*" (2013); D.Bir və R.Berlouz "*Kütləvi mədəniyyət, rəqəmsal arxivlər və göstəricilərin yeni həyatı*" (2013); M.Kastels "*Şəbəkə cəmiyyətinin kəşfiyyat nəzəriyyəsi üçün materiallar*" (2000); M.Kastells "*Qəzəb və Ümid Şəbəkələri: İnternet Çağında Sosial Hərəkatlar*" (2012 ); M.Weller "*Rəqəmsal Alim: Texnologiya Elmi Təcrübəni Necə Transformasiya edir*" (2011); J.Wynn "*Rəqəmsal sosiologiya: sahədə və sinifdə ortaya çıxan texnologiyalar*" (2009); E.Hargittai və A.Hinnant "*Rəqəmsal bərabərsizlik: gənc yetkinlərin internetdən istifadəsində fərqlər*" (2008); F.Lapenta "*Lokal media və məkanın, yerin və informasiyanın rəqəmsal vizuallaşması*" (2011); N.Marres "*Metodların yenidən bölüşdürülməsi: rəqəmsal sosial tədqiqatlara müdaxilə haqqında*" (2012); C.Newell və G.Goggin "*Rəqəmsal Əlillik: Yeni Mediada Əlilliyin Sosial Quruluşu*" (2003); K.Orton-Johnson and N.Prior "*Rəqəmsal sosiologiya:*

[20] Edwards A. , Housley W., Williams M., Sloan L. and Williams M. Digital social research, social media and the sociological imagination: surrogacy, augmentation and re- orientation. // International Journal of Social Research Methodology. 2013, V.16 (3),p.p. 245 – 260 .

*Tənqidi Perspectivlər*" (2013); R.Rogers "*Rəqəmsal Metodlar"* (2013); A.Salovaara, S.Helfenstein and A.Oulasvirta "*İnformasiya texnologiyalarının gündəlik mənimsənilməsi: rəqəmsal kameraların yaradıcı istifadəsinin öyrənilməsi*" (2011); T.Sauter "*Ağlınızda nə var?' Facebook-da özünü formalaşdırmaq üçün bir vasitə kimi yazmaq*" ( 2013 ); M.Savage "*Metodların sosial həyat": tənqidi giriş"* (2013); M.Savage və R.Burrows "*Empirik sosiologiyanın yaxınlaşan böhranı*" (2007); M.Savage və R.Burrows "*Empirik sosiologiyanın yaxınlaşan böhranı haqqında bəzi əlavə fikirlər*" (2009); M.Savage, F.Devine, N.Cunningham, M.Taylor, Y.Li, J.Hjellbrekke, B.Le Roux, S.Friedman və A.Miles "*Sosial sinif modeli?*" (2013); T.Scholz "*Giriş: niyə rəqəmsal əmək indi vacibdir?*" (2013 ); T.Starner "*Google Glass aparıcısı: texnologiyanı bədənimizə taxmaq əslində onun yolumuzdan çıxmasına necə kömək edir"* (2013); P.DiMaggio, E.Hargittai, W.R.Neuman və J.Robinson "*İnternetin sosial təsirləri*" (2001); A.Edvards, W.Housle, M.Williams, L.Sloan və M.Williams "*Rəqəmsal sosial tədqiqat, sosial media və sosioloji təxəyyül: surroqat analıq, böyütmə və yönləndirmə*" (2013); S.Fox və J.L.Boyles "*Rəqəmsal Çağda Əlillik*" (2012); C.Graham, E.Laurier, V.O'Brien və M.Rouncefi "*Yeni vizual texnologiyalar: dəyişən sərhədlər, paylaşılan anlar*" (2011); L.Qrant "*Böyük verilənlər vasitəsilə təhsili anlama*" (2013) mövzularında geniş tədqiqatlar aparmışlar. [21]

Rəqəmsal sosiologiyanın anlayışlar bazasına aşağıdakı terminlər daxildir: affektiv əlaqə, onlayn sosial xidmətlər, alqoritmik səlahiyyət, alqoritmik identifikasiya, alqoritmik nəzarət, rəqəmsal kiborq, alqoritmik nüfuz, kiber nəzəriyyə, kiber mədəniyyət, kiber məkan, kiber zorakılıq, kiber cinayətkarlıq, rəqəmsal analiz, rəqəmsal sosial antropologiya, rəqəmsal kiborq qruplar, rəqəmsal məlumat arxivləri, rəqəmsal sosial bərabərsizliklər, rəqəmsal cəmiyyət, rəqəmsal ayrı-seçkilik,

[21] Mammadova, S. (2023). Dijital Sosyolojinin Kavramsal Temelleri Akademik Tarih ve Düşünce Dergisi, 10 (6), 2502-2511. // URL: https://dergipark.org.tr/tr/pub/atdd/issue/81046/1416795

rəqəmsal nəzarət, rəqəmsal tullantılar, materialların rəqəmsallaşdırılması, rəqəmsallaşdırılmış məlumat obyektləri, bədənin onlayn təqdimatları, qlobal informasiya iqtisadiyyatı, rəqəmsal məlumatların mobilliyi, yerli rəqəmsal məlumat obyektləri, şəbəkə jurnalistikası, şəbəkə cəmiyyəti, şəbəkə məxfiliyi, akademik şəbəkələr, rəqəmsal aktivlik, açıq məlumatların qorunmasına rəqəmsal nəzarət, onlayn icmalar, onlayn kurslar, onlayn fərdi təqdimatlar, virtual reallıq və s. [22]

Rəqəmsal sosiologiya klassik sosiologiyanın metodlarını yeni imkanlar çərçivəsində daha geniş miqyasda tətbiq etməyə nail olur. [23]

Rəqəmsallaşmanın genişlənməsi bir çox elm sahələri və ilk növbədə sosiologiyanın başlıca tədqiqat predmeti olaraq özünü göstərir. Rəqəmsal sosiologiya yeni xarakter almış bəşər cəmiyyətinin inkişaf perspektivlərinin öyrənilməsinə yönəlmişdir. Rəqəmsal cəmiyyətin öyrənilməsi ilə məşğul olan sosiologiya aşağıdakı məsələlərin tədqiqi ilə məşğuldur:

-Rəqəmsallaşmanın sosiallaşma və asosiallaşma prosesinə təsiri, yeni tip şəxsiyyət "Mən"inin formalaşması;

-Sosial təfəkkürün rəqəmsallaşması və manipulyasiya imkanlarının genişlənməsi;

-Sosial münasibətlərin klassik mahiyyətinin dəyişməsi, insanların qarşılıqlı virtual təsir, qarşılıqlı manipulyasiya, qarşılıqlı virtual asılılıq və s. bacarıqlarının formalaşması, sosial təbəqələşmədə transpozisiya prosesinin genişlənməsi (virtual dünyada təfəkkür tərzi və maraq dairəsinə görə qruplaşmalar);

-rəqəmsal medianın sosial institutların və sosial strukturların inkişafına təsiri imkanları;

---

[22] Mammadova, S. (2023). Dijital Sosyolojinin Kavramsal Temelleri Akademik Tarih ve Düşünce Dergisi, 10 (6), 2502-2511. // URL: https://dergipark.org.tr/tr/pub/atdd/issue/81046/1416795

[23] Mammadova, S. (2023). Dijital Sosyolojinin Kavramsal Temelleri Akademik Tarih ve Düşünce Dergisi, 10 (6), 2502-2511. // URL: https://dergipark.org.tr/tr/pub/atdd/issue/81046/1416795

-Rəqəmsal mədəni məkan və rəqəmsallaşmış sosial mədəniyyətin dəyərlər sisteminin yaradılması.[24]

Bu gün rəqəmsallaşma ilk növbədə elmin, o cümlədən sosiologiyanın tədqiqat metodlarının, metodologiyalarının, həmçinin araşdırma məkanlarının yenilənməsi ilə xarakterizə olunur. Rəqəmsallaşmanın təqdim etdiyi yeni texnologiyalar və metodlar sistemi vasitəsilə biz elmin müxtəlif sahələrində geniş tədqiqatlar aparmaq imkanları əldə etmiş oluruq. Rəqəmsallaşma elmin yeni istiqamətlərinin yaranması və inkişafına, o cümlədən tədqiqat texnologiyalarının təkmilləşdirilməsinə şərait yaradır.

Sosial tədqiqatların vizual texnologiyalarının inkişafı virtual sosiologiya haqqında danışmağa imkan yaradır.[25] Virtuallaşmanın və ya virtual aləmin sosiologiyasının tədqiqat predmeti olaraq, yeni virtual texnologiyaların, virtual ailə modellərinin, virtual həyatın tənzimlənməsinə kömək edən metodologiyanın formalaşdığını görürük. Virtual aləmin sosiologiyası "virtual sosiumda" formalaşan münasibətlər sistemini, ünsiyyət formalarını, əxlaqi və mənəvi dəyərlər toplusunu, virtual cəmiyyətdə qarşılıqlı əlaqə və asılılıqların virtual idarə edilməsi xüsusiyyətlərini, insanların özlərini görmək istədikləri kimi etdikləri təqdimatları və müvafiq rolları təhlil edilir. Hazırda fərqli təfəkkürlü insanlar qrupu formalaşmışdır ki, onlar real ünsiyyətə daxil ola bilmirlər və istəmirlər. Bu insanlar sosial şəbəkələrə və qruplara da daxil omaq istəmirlər. Onlar özləri ücün avatarlar sosiumu yaradırlar. Buradakı qrafik personajlara özləri xarakter verirlər, müəyyən ssenarili hadisələr qururlar və buradakı personajlarla ünsiyyətdə olurlar. Bu, müəyyən mənada fantaziyaların təcəssümü olan və müəyyən mənada reallaşan virtual birliklərin, cəmiyyətlərin yaranmasını

---

[24] Mammadova, S. (2023). Dijital Sosyolojinin Kavramsal Temelleri Akademik Tarih ve Düşünce Dergisi, 10 (6), 2502-2511. // URL: https://dergipark.org.tr/tr/pub/atdd/issue/81046/1416795

[25] Mammadova, S. (2023). Dijital Sosyolojinin Kavramsal Temelleri Akademik Tarih ve Düşünce Dergisi, 10 (6), 2502-2511. // URL: https://dergipark.org.tr/tr/pub/atdd/issue/81046/1416795

ehtiva edir. “Avatarlar cəmiyyətinin” personajları arasında real aləmə xas olan hiss və həyəcanlar, münaqişələr, dostluqlar və s. yaranır. Virtual aləmin sosiologiyası virtual sosiumu, insan fantaziyasının virtual aləmdə canlandırdığı ünsiyyətlər sistemini araşdırır. Rəqəmsal sosiologiya isə real cəmiyyətin inkişaf imkanlarının, transformasiyasının öyrənilməsində yeni texnologiyaların tətbiqi imkanlarını araşdırır. Rəqəmsal sosiologiyanın özünəxas metodlar sisteminin formalaşması sosioloji tədqiqatlardan daha qısa zaman müdətində daha əhatəli və səmərəli nəticələr əldə etməsinə şərait yaradır. C.Graham, E.Laurier, V.O’Brien və M.Rouncefi “Yeni vizual texnologiyalar: dəyişən sərhədlər, paylaşılan anlar” adlı tədqiqat işində qeyd edirlər ki, “*Vizual texnologiya bir sıra mühüm sahələrdə nəzərəçarpacaq dərəcədə dəyişdirilmiş və dəyişməkdədir. Vizual daşıyıcılar (məsələn, mobil şəbəkələr, İnternet), istehsal texnologiyaları (məsələn, rəqəmsal videokameralar və kameralar, mobil telefonlar), displey texnologiyaları (məsələn, ictimai displeylər, mobil telefon proyektorları) və xidmətlər (məsələn, Flickr, MMS, bloglar) əsasında hadisələrin gedişatını tam şəkildə müşahidə etmək olar*”.[26]

Rəqəmsal sosiologiya istiqamətində tədqiqatlar aparan müəlliflər əmindirlər ki, rəqəmsallaşmış cəmiyyətdə müsbət tərəflərlə yanaşı mənfi tendensiyalar da mövcuddur. Bir tərəfdən cəmiyyətin rəqəmsallaşması problemlərin sürətli həlli inmaknlarını açırsa, digər tərəfdən individuallığın itirilməsinə gətirir. Müasir bəşəriyyət yeni rəqəmsal dəyərlərin tam qəbul edilməsinə hazır deyil. V.P.Filimonov rəqəmsal cəmiyyəti yeni quldarlıq cəmiyyəti olaraq xarakterizə edir. Belə ki, rəqəmsal imkanlar insanların manipulyasiya edilməsini dərinləşdirir, sosial şəbəkələr vasitəsilə ötürülən məlumatlar eyni düşünən, eyni

[26]Mammadova, S. (2023). Dijital Sosyolojinin Kavramsal Temelleri Akademik Tarih ve Düşünce Dergisi, 10 (6), 2502-2511. // URL: https://dergipark.org.tr/tr/pub/atdd/issue/81046/1416795

qərarlar verən və nəhayət, oxşar mənliklərə malik olan yeni tip insanların formalaşmasına səbəb olur.[27]

Rəqəmsallaşma Postmodernizm və ya bilik cəmiyyətinin növbəti mərhələsidir. Bu anlayışların dəqiq tərifinin olmaması tarixi dövrün xüsusiyyətlərindən irəli gəlir. Müasir sosial reallığın yenidən dərki forması olan postmodernizm və ya bilik cəmiyyəti informasiya böhranı mərhələsi olaraq səciyyələndirilə bilər. Belə ki, rəqəmsal cəmiyyətdə artıq süni intellekt lazımi informasiyanı seçib istifadə etmə imkanları açmışdr. İnformasiya cəmiyyətində nizamsız informasiya axını seçim etməkdə çətinliklər yaradırdı və qərar qəbulu ilə bağlı qeyri-müəyyənlik vəziyyəti hakim idi. Rəqəmsal cəmiyyətdə isə süni intellekt bu böhranın qarşısını alır və informasiya sistemləşdirilərək müvafiq şəkildə istifadə edilir. Eyni mövzu ilə bağlı sonsuz və müxtəlif mahiyyətli tədqiqatlar, şərhlər, gerçəkliyin mənşəyi və əlamətləri haqqında təqdim edilən informasiyanın həqiqətləri nə dərəcədə obyektiv əks etdirməsi ilə bağlı problemlər texnologiyanın inkişafı və rəqəmsallaşmanın genişlənməsi ilə öz həllini tapır. Məhz rəqəmsallaşma, yaxud ağıllı texnologiyanın müxtəlif istiqamətli tətbiqinin informasiya böhranının aradan qaldıracağına inam postmodern cəmiyyətin yeni mərhələsinin başlıca xüsusiyyəti kimi təzahür etməkdədir.

---

[27] Saadat Mammadova. DİJİTAL SOSYOLOJİNİN KAVRAMSAL TEMELLERİ. // AMEA Fəlsəfə və Sosiologiya İnstitutu. URL: https://philosophy.edu.az/index.php?newsid=2356

# RƏQƏMSAL CƏMİYYƏTİN SƏLƏFLƏRİ: POSTMODERNIZM, YOXSA BİLİK CƏMİYYƏTİ

Elm və biliklərin yenidən emalı və istifadəsi əsasında mövcud olan müasir cəmiyyətin tərəqqisi yenidən dərketmədən keçir. İnformasiya xaosunu yaşadığımız bilik cəmiyyəti lazımi qərarların qəbul edilməsi prosesini mürəkkəbləşdirir, yeni – çoxşaxəli seçim imkanları yaradır. Bilik cəmiyyətinin təqdim etdiyi sinergizm elmin tərəqqipərvər xüsusiyyətlərini yüksəltmişdir. Belə ki, Post-İnformasiya, yaxud Bilik cəmiyyətinin fərqli xüsusiyyəti sosial idarəetmənin elmiləşməsi, həmçinin indiyədək mövcud olan konsepsiya və nəzəriyyələrin müvafiq formada ümumiləşdirilərək tətbiqi imkanları ilə seçilir.

XX əsrin son üçdə birində bəşəriyyətin düşdüyü tarixi-mədəni vəziyyət müxtəlif elmi cərəyanların tədqiqatçıları tərəfindən "*radikal plüralizm vəziyyətində*" (V. Uels) və "*immanent məkan və xaosun eyniliyi*" (J.Deleuze, F. Guattari), "*ikinci inqilab*" (J.Bodrilard) və "*post-ənənəvi nizama keçid*" (E.Giddens, J. .Habermas) kimi müəyyənləşdirilmişdir. B.Martdanın fikrincə, burada "*iğtişaş ideologiyası*" hökm sürür və F.Jamieson post-modern cəmiyyətdə "*fəlakətli və ya xeyirli gələcəklə bağlı hisslər isə dünyanın sonu haqqında fikirlələ əvəz olunur*".[28]

"Postmodernizm" anlayışı ilk dəfə 1870-ci ildə ingilis rəssamı C.Çapman tərəfindən rəssamlıqda yeni cərəyan olaraq qeyd edilmişdir. Cəmiyətin post-modern inkişaf mərhələsilə bağlı ilk tədqiqatçılar S.Best və D.Kelner olmuşlar. Onların "Postmodernizm nəzəriyyəsi" adlı əsərində terminin izahı təqdim edilmişdir. 1917-ci ildə R.Panvits "Avropa mədəniyyətinin böhranı" adlı monoqrafiyasında XX əsrdə ilk dəfə "postmodernizm" ifadəsini işlədir. "Post-modernizm" anlayışının sosioloji aspektdə istifadəsi XX əsrin ilk onilliklərinə təsadüf edir.

[28] Dickens, D. Postmodernism and social inquiry / D. Dickens, A. Fontana. – New York : The Guilford Press, 1994. – 260 p.

Postmodern cəmiyyətin nəzəriyyəçiləri təkcə cari dövrün i-mkanlarını və potensialını deyil, həm də müasir dünyaya xas olan sosial problemləri: kütlələrin sosial passivliyini, fərdiləşmə və sosial yadlaşma, ideoloji məcburiyyət və manipulyasiya proseslərini şərh edirdilər.

Postmodernizm nəzəriyyəçiləri sırasında Jan Bordiyar öz orijinal fikirlərilə xüsusi mövqe təqdim edir. Sosioloqun "Simulyakrlar və simulyasiya" adlı əsərində post modern dövrün mahiyyəti açıqlanır. O, postmodernizmi müəyyən mənada "*reallığı onun təmsili ilə əvəz edən bir şey*" kimi müəyyənləşdirir. Simulyakralar ya orijinal olmayan, şeyləri təsvir edən nüsxələrdir. Simulyasiya real dünyadakı bir prosesin və ya sistemin zamanla işləməsinin imitasiyasıdır, görüntünün təqlididir. Simulyasiya bütövü təqlid edən bir prosesdir, fiziki aləmdə mövcuddur, ən əsası orijinalın funksiyasını təqlid edir.[29] Beləliklə, Borduyar postmodern dövrü modernizmi yeni çalarlarda imitasiya edən, modernizm üzərində qurulan bir mərhələ, bəlkə də alt mərhələ kimi təqdim edir. Belə ki, modernizm və post-modernizm arasındakı fərq quldarlıq və feodalizm arasındakı fərq qədər əsaslı və inqilabi deyil.

Müasir tədqiqatçılar postmodern cəmiyyətin bilik cəmiyyəti olması iddiasındadırlar. Bilik cəmiyyəti haqda konsepsiyalar XX əsrin 60-cı illərindən başlayaraq formalaşsa da, bu konsepsiyaya ciddi yanaşma və onun təkamülü XX əsrin 90-cı illərinə təsadüf edir. Bilik cəmiyyəti nədir? Müxtəlif tədqiqatçılar bilik cəmiyyətinin inkişaf istiqamətlərini fərqli şəkildə şərh etməklə öz konsepsiyalarını təqdim etməyə çalışırlar.

Marin Dinu qeyd edir ki, "*biliyə əsaslanan cəmiyyətin əsl problemi meta-bilikdir*". Müəllif qeyd edir ki, "*bilik cəmiyyəti... post-kartezyen bəşəri cəmiyyətidir. ...yaradıcılıq qeyri-müəyyən dolğunluğa can atdıqda, bilik cəmiyyəti ...post-kartezyen*

[29] Felluga, Dino (25 June 2003). "Modules on Baudrillard: On Simulation". Introductory Guide to Critical Theory. *Retrieved 4 August 2015.* https://www.cla.purdue.edu/academic/english/theory/postmodernism/modules/baudrillardsimulation.html

*cəmiyyətə çevrilir", "...cəmiyyət həmişə bilik cəmiyyəti olub, lakin o... təbiətin istehlakı üçün nəzərdə tutulmuş yeni biliyə susamışdır.".* [30]

Karteziançılığın azad təfəkkürü bəşəriyyəti bilik və rəqəmsal cəmiyyətə qədər gətirib çıxarmışdırsa, postkarteziançılıq mərhələsi insanların düşncələrinin və yaşamlarının manipulyasiyası dövrü olaraq xarakterizə edilə bilər. Vaxtı ilə "*Mənə materiya və hərəkət verin və mən sizə Kainat qurum*" – ifadəsilə sanki Allahın və "*Düşünürəmsə varam*" müddəası ilə insanın mahiyyətini açmağa çalışan Dekartın antiteoloji yanaşması XXI əsrdə yeni xüsusiyyət qazanmışdır. Müasir insan öz "Mən"inin axtarışlarında ilkin yaradıcıdan uzaqlaşaraq yeni ideologiyalar axınında əriyir, kütləviləşir, karteziançılığın gətirdiyi azad təfəkkürdən və azad iradədən məhrum olur. Marin Dinunun fikirlərindən çıxış edərək, onu da qeyd edə bilərik ki, müasir biliklər cəmiyyətinin istehlak hədəfi insanın tükədilməsinə yönəlmiş, yəni insanın özünə qarşı çevrilmişdir.

"Bilik cəmiyyəti"ni araşdıran tədqiqatçılardan Tan Yigitcanlar bilik cəmiyyətinin konkret mahiyyətini şəhərlərin inkişafı baxımından izah etməyə çalışır: "*Texnoloji yeniliklərin və institusional transformasiyanın yaratdığı müasir sosial dəyişikliklər nəticəsində formalaşan yeni cəmiyyət özü ilə təkcə texnoloji yenilikləri deyil, həm də insanları, onların şəxsi inkişafını və fərdi yaradıcılığını, təcrübəsini, cəmiyyətin həyatında iştirakını və yeni biliklərin formalaşmasını gətirir. Bilik cəmiyyətində şəhərlərin əsas rolu onların bilik ehtiyatlarının hər bir nəsil tərəfindən ötürülməsini və təkmilləşdirilməsini təmin etməkdir.*".

Müəllif sosiumun bu yeni formasını müxtəlif tərəflərdən şərh etməyə çalışır:

-*Biliyə əsaslanan şəhərin* inkişafı bilik iqtisadiyyatının yeni paradiqması kimi iqtisadi çiçəklənməyə, ekoloji sabitliyə,

---

[30] Marin Dinu. What is the Knowledge Society? // Theoretical and Applied Economics, Asociatia Generala a Economistilor din Romania - AGER, 2008. vol. 2(2(519)), pages 45-50

ədalətli sosial məkan nizamına və şəhərlərdə səmərəli idarəetməyə yönəlir. Bilik şəhəri biliyin istehsalını və yayılmasını təşviq edir. *Bilik şəhəri*: Bütün sahələrində dəyər yaratmağa can atan və yüksək həyat standartlarını, mədəni dəstək və iqtisadi inkişaf, o cümlədən daha yüksək gəlir səviyyəsi, təhsil, təlim və tədqiqatlar da daxil olmaqla digər aspektləri inkişaf etdirən şəhərdir. Eyni zamanda tədqiqat, texnologiya və beyin gücü vasitəsilə yaradılmış və biliyin inkişafını təşviq etmək üçün məqsədyönlü şəkildə hazırlanmış yüksək əlavə dəyər ixracına malik regional bilik iqtisadiyyatına əsaslanan şəhərdir.

-*Bilik Bölgəsi*: Biliyin istedadlı bilik işçiləri tərəfindən yaradıldığı, paylaşıldığı və satıldığı şəhər klasteri. Müasir təcrübə elm və texnologiya parkları, innovasiya parkları kimi işə yönümlü bilik sahələrindən çoxşaxəli bilik icma sahələrinə, yəni iş, həyat, oyun və kiberməkana transformasiya olunur. [31]

-*Bilik İcması Məntəqəsi*: Qarışıq istifadəli postmodern şəhər mühiti, məsələn, çevik, kontekstsizləşdirilmiş, anklavlaşdırılmış, parçalanmış, o cümlədən həyatın sərhədlərinin bulanıqlaşmasının faydalarını əldə etmək üçün nəzərdə tutulmuş bilik müəssisələrinin və qabaqcıl şəbəkə infrastrukturlarının kritik kütləsidir.

- *Biliyə əsaslanan inkişaf*: Humanist və perspektiv inkişaf prosesi yeni imkanlar ələ keçirmək, iqtisadiyyatı və cəmiyyəti inkişaf etdirmək, davamlı və qlobal bilik iqtisadiyyatında uğurla rəqabət aparmaq, ümumi baxışa və dəyərlər toplusuna əsaslanan müxtəlif bilik idarəetmə sistemlərindən və yanaşmalarından istifadə etməyə əsaslanır.

-*Bilik mühiti*: fərdlərin, firmaların, şəhərlərin, cəmiyyətlərin və millətlərin biliyə əsaslanan inkişafını dəstəkləyən mühit; daha konkret desək, biliyin, mübadilənin və marketinqin birgə yaradılmasını asanlaşdıran sosial təcrübələrdən,

[31] Yigitcanlar, Tan (2015) Knowledge based urban development. In Khosrow-Pour, M (Ed.) // *Encyclopedia of information science and technology, 3rd edition.* IGI Global, United States of America,. pp. 7475-7485 (Pages: 10384)

texnoloji və fiziki mexanizmlərdən ibarət olan süni, ekoloji və sosial mühitdir.

-*Bilik işçisi*: Post-sənaye iqtisadiyyatında peşəsi ən daşınabilən iş olan, biliyin hər hansı sadə məhsul və ya əmtəədən daha yüksək dəyəri olan və hər şeyi bildiyi üçün bütün işçilər arasında ən yüksək maaş alan şəxsdir. Bilik işçisi həm də savadlı kompüter istifadəçisi, alim, simvolik analitik, maliyyə sehrbazı, yazıçı, rəssam və bohem kimi də görülə bilər. O, hər səhər nə edəcəyinə qərar verən şəxsdir.

- *Bilik İqtisadiyyatı*: Təşkilatlarını və insanları daha çox iqtisadi və sosial inkişaf üçün daha səmərəli bilik əldə etməyə, yaratmağa, yaymağa və istifadə etməyə təşviq edən iqtisadiyyatdır və o, iqtisadiyyatın ayrıca bir bölməsi kimi qəbul edilir. *Bilik İqtisadiyyatında* yeni və əksər hallarda texnoloji biliklər yaranır.[32]

Susheel Chhabra and Muneesh Kumar bilik cəmiyyəti deyərkən "*sosial və iqtisadi inkişafa nail olmaqda biliyin mühüm rolunu və töhfəsini qiymətləndirən və tanıyan cəmiyyəti*" nəzərdə tutur.[33]

Leo Tan Wee Hin və R.Subramaniama görə "*İnformasiya cəmiyyəti konsepsiyası insanların bilikli olması öhdəliyinin götürülməsini ehtiva edir. İnformasiya cəmiyyəti informasiyanı iqtisadi məhsuldarlığı artıran ən vacib vasitə kimi görür. Bu cəmiyyətdə böyük insan qrupları informasiya sahəsində çalışırlar*" [s.18]. Müəlliflər "*bilik cəmiyyətini informasiya cəmiyyətinin daha geniş konsepsiyası*" kimi qəbul edərək, göstərirlər ki, bilik cəmiyyəti "*şəxslərin bilən kimi öhdəlik götürməsinə səbəb olur.*" İnformasiya cəmiyyətini bilik

[32] Yigitcanlar, Tan (2015) Knowledge based urban development. In Khosrow-Pour, M (Ed.) // *Encyclopedia of information science and technology, 3rd edition.* IGI Global, United States of America,. pp. 7475-7485 (Pages: 10384)
[33] Susheel Chhabra and Muneesh Kumar. Civic Engagement Frameworks and Strategic Leadership Practices for Organization Development. Delhi: Maharaja Agrasen Institute of Technology, 2020. P.313

cəmiyyətinin ilkin mərhələsi kimi qəbul edən müəlliflər bura daha çox nəzərə çarpan amilləri aşağıdakı kimi təsnif edirlər:

1. *İnformasiya və Kommunikasiya Texnologiyaları*: Müxtəlif kompüter və İnternet əsaslı tətbiqlərdən ibarət olan yeni rəqəmsal texnologiya. Məlumat yaratmaq və paylaşmaq, həmçinin yeni ünsiyyət formaları yaratmaq üçün istifadə olunur.

2. *Rəqəmsal Bölünmə*: Müxtəlif sosial qrupların rəqəmsal xidmətlərə çıxışını, müxtəlif rəqəmsal imkanlardan istifadə etmək imkanlarını təsvir edir.

3. *Rəqəmsal səriştə*: İKT səriştəsinin daha geniş konsepsiyası. Əsas İKT bacarıqlarından, eləcə də xüsusi kontekstdə tələb olunan yeni və mürəkkəb kontekstlərdə rəqəmsal cihazların və tətbiqlərin necə istifadə edilməsi haqqında biliklərin dərk edilməsindən ibarətdir.

4. *Rəqəmsal Oyun*: Əyləncə və mediadan istifadənin məşhur forması olub, öyrənmə imkanları təklif edir. Məsələn, kompüter, video oyunlar, mobil cihaz və ya interaktiv televizor kimi rəqəmsal oyunlar oynamaq üçün nəzərdə tutulub.[34]

Andrew Targowski bilik cəmiyyətini "*Bilikləri bütün cəmiyyət üzvləri üçün ümumiləşdirən, əldə edilməsini asanlaşdıran və bilikləri ötürən cəmiyət, həmin biliklərdən insanların həyat şəraitinin yaxşılaşdırılması üçün istifadə edir*"- kimi xarakterizə edir. Tədqiqatçı bilik cəmiyyətinin başlca anlayışları kimi "artırılmış və ya əlavə edilmiş reallıq", "ağıllı şəhər", "Texnologiyanın Tətbiqi üçün Konstitusiya", "İnformasiya cəmiyyəti", "e-idarəetmə", "Firewall" və s. anlayışları bilik cəmiyyəti ilə bağlayır. Andrew Targowski "artırılmış və ya əlavə edilmiş reallıq" dedikdə, "Kompüter məlumatı ilə təkmilləşdirilmiş və ya dəyişdirilmiş real mühit" nəzərdə tutur. Müəllif "ağıllı şəhər" anlayışının ilk tərifini verənlərdən biri kimi göstərir ki: "ağıllı şəhər - şəhər infrastrukturunu təkmilləşdirmək üçün kompüter texnologiyası və

[34] Leo Tan Wee Hin and R. Subramaniam. Handbook of Research on New Media Literacy at the K-12 Level: Issues and Challenges (2 Volumes). Singapore: National Institute of Education, Singapore. 2009. Pages: 1076

elektron məlumatlardan istifadə edir”. Andrew Targowski yaranmış yeni reallığın özünə xas konstitusiyasının olmasına əmindir və o, TTK (CAT): "Texnologiyanın Tətbiqi üçün Konstitusiya" mənasını verən qısaltmadan istifadə edir. Müəllifni fikrincə, “*TTK-lar cəmiyyətdə texnologiyadan istifadəni tənzimləmək, qadağan etmək və ya asanlaşdırmaq üçün qəbul edilmiş standartlaşdırılmış strategiyalardır*”. Bu strategiyalar virtual reallığın idarə edilməsini və ya e-idarəetmənin “*səmərəliliyini artırmaq məqsədi daşıyaır və dövlət və inzibati tapşırıqları yerinə yetirmək üçün kompüter texnologiyasından məqsədəuyğun istifadə edilməsini*” etiva edir. Tədqiqatçı bu strategiyada yer alan “*firewall və ya şəbəkə trafikinə nəzarət etmək üçün kompüter şəbəkələrində istifadə olunan təhlükəsizlik sisteminin*” zəruriliyini diqqətə çatdırır.[35]

Fortunato Sorrentino təkamül nəzəriyyəsindən çıxış edərək, bilik cəmiyyətini “*sənaye cəmiyyəti”nin ardınca gedən “informasiya cəmiyyəti”nin davamçısı kimi*” təqdim edir. İnformasiya cəmiyyəti ilə bilik cəmiyyətinin fərqlərini izah edən müəllif bildirir ki, birinci (İC) “*kompüterlərin, məlumatların işlənməsi sistemlərinin və kommunikasiyaların meydana gəlməsi ilə baş verən nəhəng məlumat axını səbəbindən belə adlandırıldı. Bilik cəmiyyətində sadəcə məlumat deyil, bilik ən qiymətli sərvətdir. Bu, insanların zehnində olan (lazımi bilik) və fiziki dünyada, çap və ya insan mübadilələri (açıq bilik) kimi hiss edilə bilən və yeni minillikdə iqtisadiyyatı hərəkətə gətirən bilikdir*”.

Sadə şəkildə desək, bu, obyektin özü, forması və dizaynına görə ondan istifadə etmək üçün bir yol təklif etdiyi və ya "səlahiyyət verdiyi" zaman obyektin xüsusiyyətləri ilə əlaqəli anlayışdır. Bununla belə, münasibliyin təfsiri birmənalı deyil və istinad edilən düşüncə məktəbindən asılıdır. Alim J. J. Gibson tərəfindən təqdim edildikdən sonra, konsepsiya ilə əlaqəli anlayışlar toplusunda əsas dəyişiklik onu sənaye dizaynı və insan-

[35] Andrew Targowski.The Strategies of Informing Technology in the 21st Century. USA: Independent Researcher, 2022. Pages: 557

kompüter qarşılıqlı əlaqəsi çərçivəsində müzakirə edən D. Normanın adı ilə bağlıdır.[36]

Nwachukwu Prince Ololube qeyd edir ki, "*Bilik cəmiyyəti sosial, iqtisadi, siyasi, mədəni və s. maraqları oxşar olan və öz maraq sahələrində öz kollektiv biliklərindən səmərəli istifadə edən, bununla da milli tərəqqiyə və qlobal inkişafa səbəb olacaq əlavə biliklərə töhfə verən insanların birliyidir*". O, bilik cəmiyyətilə bağlı bir sıra anlayışları təqdim edir: Kompüter münasibəti, Kompüter Rabitəsi, Kompüter Narahatlığı, Kompüter fobiyası, Rəqəmsal bölünmə.[37]

Jose Ernesto Rangel əmindir ki, "*Elm və texnologiyanın inkişafı iqtisadiyyatın və sosial inkişafın mühərrikinə çevrilir*".[38]

Lech W. Zacher "*Qabaqcıl cəmiyyətlər əsasən biliyin istehsalına və istifadəsinə əsaslanan inkişaf mərhələsinə qədəm qoyurlar*" – fikrindədir.[39]

Antonio Padilla-Meléndez and Aurora Garrido-Moreno göstərirlər ki, "*Bilik cəmiyyətində xalqın rifahı biliklərin yaradılması, mübadiləsi və istifadəsindən qaynaqlanır*". [40]

Leesha Nicole Roberts "*Bilik cəmiyyəti qlobal iqtisadi və ictimai vəziyyətdən istifadə etməklə rifah yaratmağa yönəlmiş bir ölkə və ya cəmiyyətə aiddir*" – fikrini əsaslandırmağa çalışır.[41]

---

[36] Fortunato Sorrentino. Ambient Intelligence// Encyclopedia of Information Communication Technology (2 Volumes). Italy: University of Cassino and Southern Lazio, 2009. Pages:926

[37] Nwachukwu Prince Ololube. Computer Communication and ICT Attitude and Anxiety Among Higher Education Students. Nigeria: NOVENA University Ogume,. 2009. Pages: 6

[38] Jose Ernesto Rangel Delgado and Antonina Ivanova Boncheva Higher Education and Employment: Highlights From the Economic History of Mexico //International Perspectives on the Youth Labor Market: Emerging Research and Opportunities. Mexico: University of Colima, 2020. 217 P.

[39] Lech W. Zacher Modeling Knowledge Society// Encyclopedia of Information Communication Technology (10 Volumes). USA : Information Resources Management Association, 2015. Pages:10384

[40] Antonio Padilla-Meléndez and Aurora Garrido-Moreno. Use of E-Collaboration Technologies Among Students of Management // Encyclopedia of E-Collaboration. USA: Texas A&M International University, 2008, 750 p.

Leonor María Martínez Serrano "*Bilik cəmiyyəti – fərdlərin sərmayəsi və istedadı ilə yanaşı, xalqların iqtisadi yüksəlişinə, inkişafına və azadlığına töhfə verən, biliyin insan birliklərinin ən böyük sərvəti olduğu indiki cəmiyyətə verilən addır*" – deyə qeyd edir.[42]

Tədqiqatlar belə deməyə əsas verir ki, bilik cəmiyyəti:

- biliyin yaradılmasına və öyrənilməsinə yönələn cəmiyyətdir və burada əsas istehsal amili bilikdir, onun iqtisadi və mədəni inkişafı, yenilik etmək və paylaşmaq qabiliyyəti biliklərin inkişafından asılıdır.
- elmi biliklər əsasında inkişaf etmiş, bilik texnologiyalarını araşdıran, inkişaf etdirən, istehsal edən və istifadə edən cəmiyyətdir.
- insanın həyat şəraitini yaxşılaşdırmaq üçün istifadə edilə bilən bilik formalarını yaradır, cəmiyyətin bütün üzvlərinə paylaşır və təqdim edir.
- intellektual kapital cəmiyyətlərdə ən güclü sərvət istehsalçısıdır.[43]

Sosiologiyada informasiya və bilik cəmiyyəti post-modern cəmiyyət tipi kimi öyrənilir. Nəzəriyyəçilər iddia edirlər ki, 1970-ci illərdən başlayaraq qlobal miqyasda sənaye cəmiyyətindən informasiya cəmiyyətinə çevrilmə baş verib.[44]

Elm insanın intellektual inkişafının ən yüksək pilləsi, onun mədəniyyətinin və özünəməxsus nailiyyətlərinin zirvəsidir. O,

---

[41] Leesha Nicole Roberts. Primary School Teachers' Perceived Factors Affecting the Integration of ICT in an Educational District // Redesigning Teaching, Leadership, and Indigenous Education in the 21st Century. The University of Trinidad and Tobago, Trinidad and Tobago, 2021. 350 p.

[42] Leonor María Martínez Serrano. CLIL, Bilingual Education, and Pluriliteracies: Bridging the Language Gap in the Knowledge Society (pages 1-13) (University of Córdoba, Spain) // International Approaches to Bridging the Language Gap. Spain: University of Córdoba, 2020 |Pages: 31

[43] What is Knowledge Society. https://www.igi-global.com/dictionary/knowledge-based-urban-development/16456

[44] Christine Onyango. The knowledge society. https://www.academia.edu/22523854/The_knowledge_society

həm də insan fəaliyyətinin sferası kimi fəaliyyət göstərən, reallıq haqqında obyektiv bilikləri formalaşdıran və sistemləşdirən ictimai şüurun formasıdır.

Bəşər tarixinin təkamülü prosesində elmi biliklər əsaslı gücə və təşkilatlanmış sosial münasibətlər sistemi olan sosial təsisata çevrilmişdir. Sosial institut olan elmin təşkilatlanması xüsusiyyətlərinin, elmin yaradıcısı və yönləndiricisi olan alimlərin normativ davranış modellərinin, sosial statusları, mövqeləri və rollarının sosioloji tədqiqi günümüzün aktual problemi kimi sosiologiyanın tədqiqat obyektlərindən ən mühümüdür. Elm cəmiyyətinin müxtəlif disiplinlər tərəfindən tədqiqi məhz elmin və elmi münasibətlərin sosioloji təhlilindən başlanğıc almışdır.

Bu gün “İnformasiya cəmiyyəti”, “Bilik cəmiyyəti”, “Texnoloji cəmiyyət”, “Risklər cəmiyyəti”, “Eksperimental cəmiyyət”, “Rəqəmsal cəmiyyət” və s. anlayışlardan geniş istifadə edilir. Bütün bu anlayışlar elmin sosioloji əsaslarının təqdiqinin necə böyük aktuallığa malik olduğunu bir daha sübut edir. Beləliklə də, elm bu gün birbaşa olaraq dövlətin və cəmiyyətin həyat fəaliyyətinə yaxından təsir edən amil qismində çıxış edir.

# RƏQƏMSAL CƏMİYYƏTİN İNKİŞAF İSTİQAMƏTLƏRİ. SÜNİ İNTELLEKT

XX əsrdən etibarən səsləndirilən "rəqəmsal cəmiyyət" konsepsiyası artıq XXI əsrdə reallığa çevrilərək, müxtəlif istiqamətli inkişaf meylləri ilə fərqlənir. Rəqəmsal cəmiyyət və ya ağıllı cəmiyyət müəyyən mənada texnologiyaların inkişafından asılı olan bir cəmiyyət kimi xarakterizə edilə bilər.

XX əsrin sonlarında rəqəmsal texnologiyaların yaranması ilə cəmiyyətdə rəqəmsal inqilabi dəyişikliklərin əsası qoyuldu. İnnovativ mahiyyətli rəqəmsallaşma tədricən iqtisadiyyatın və cəmiyyətin rəqəmsallaşmasına gətirdi. XXI əsrin ilk onilliklərində rəqəmsallaşma özünün ilkin mərhələsi prosesindədir və bu mərhələyə uyğun olaraq yeni rəqəmsal peşələrin, rəqəmsal idarəetmənin, rəqəmsal məkanların formalaşması və tədrici təkmilləşdirilməsi baş verir. İlkin mərhələnin başlıca xüsusiyyəti bu prosesin konseptual və tədricən hüquqi-normativ əsaslarının formalaşması ilə bağlıdır. Rəqəmsal cəmiyyətin sələfi olan informasiya cəmiyyəti həm ictimai şüurda, həm sosial struktur baxımından, həm də nəzəri əsaslarda möhkəmlənmişdir və bura aid olan fərqliliklər nəzərə çarpmır. Lakin daha dərin nüfuzetmə imkanlarına malik olan rəqəmsal cəmiyyət kütləvi dərk edilmədiyindən yeni və qeyri-müəyyən bir sosial məhfum olaraq qalır.

"Rəqəmsal cəmiyyət" anlayışını izah edərkən "rəqəmsal", "rəqəmsallaşma" anlayışlarının mahiyyəti açıqlanmalıdır.

"Rəqəmsallaşma müəyyən informasiya ilə bağlı siqnalın mövcudluğunu və ya mövcud olmamasını göstərmək üçün məlumatın 1 və 0 nömrələri seriyası kimi qeyd edilməsi və yadda saxlanmasıdır".[45] Vaxtı ilə Pifaqor iddia edirdi ki, "*dünya rəqəmlərdən ibarətdir: hər bir şeyin öz nömrəsi var və hətta*

[45] Digital.https://dictionary.cambridge.org/dictionary/english/digital

*birdən çox ola bilər, çünki əşyaların elementlərinin də öz nömrələri var".*[46]

Cəmiyyətin rəqəmsallaşma meylinin formalaşması tarixi qədimdir. Belə ki, öz rifahını yüksəltmək üçün insanlar qədim dövrlərdən özlərinə onları müəyyən mənada əvəz edə biləcək köməkçi vasitələr hazırlamağa çalışmışlar. Bu cəhdlərin tarixi antik dövrə söykənir.

İnsan tərəfindən yaradılan köməkçi robotlar haqqında fikirlər qədim Yunanıstan miflərinə aiddir. Bir çox sənətlərin mahir ustası olmuş Hefest haqqındakı əfsanədə göstərilir ki, o, ayaqları zəif olduğu üçün gəzərkən yardımçı olmaq məqsədilə özünə qızıldan iki qız, Feak çarı Alkinoyun sarayını qorumaq üçün qızıl və gümüşdən sehirli it, Kolxida çarı Eeta üçün süd, çaxır, su qaynaqlı bulaqlar düzəltmişdir.[47]

Qeyd edilən əşyalar robotlar və mexaniki maşınlar haqqında ilk təsəvvürlər kimi qəbul edilir. Ümumiyyətlə, insanların canlandırılmış oyuncaqlar haqqında ötürdükləri məlumatlara nağıllarda və əfsanələrdə tez-tez rast gəlmək mümkündür. Pinokio haqqındakı nağılda insan tərəfindən yonulmuş taxta oyuncaq canlanaraq sosial münasibətlərə daxil olmuş, müəyyən məqamlarda insanların köməkçisinə çevrilmişdi.

Eramızın 1-ci əsrində yaşamış İsgəndəriyyəli Heron bəşəriyyət tarixinin ən böyük mühəndisi olmuşdur. "Pnevmatika" adlı əsərdə o, qızdırılan və ya sıxılmış hava və ya buxarla hərəkətə gətirilən müxtəlif humanoid mexanizmləri təsvir etmişdir: buxarla işləyən fırlanan top (aeolipil), avtomatik qapı açıcı, yanğın nasosu, müxtəlif sifonlar, su orqanı, mexaniki kukla teatrı və s.[48]

Eramızdan əvvəl 400-cü ildə. e. Yunan filosofu Akritas uçan qartal və göyərçin və sürünən ilbiz dizayn etmişdir. O,

---

[46] «Все есть число»? К интерпретации «основной доктрины» пифагореизма.

[47] Серви Катерина. Греческая мифология. Афины, 2008, 184 стр.

[48] Герон Александрийский. Большая Российская Энциклопедия.// URL: https://bigenc.ru/c/geron-aleksandriiskii-899ba0

Misir fironu II Ptolemey Filadelfin dövründə (e.ə. III əsr) tərtib edilmiş qədim papiruslardan əldə edilən dəlillər əsasında mexaniki insan yaratmışdı.[49]

Orta əsrlər tarixi teoloji fikrin hakim mövqedə olduğu mərhələdir. Bununla belə bu dövrdə süni intellektin yaranmasına aparan böyük kəşflər edilmişdir. Eyni zamanda məhz bu dövrdə robota bənzər köməkçilər haqda ideyalar və bəzən də nümunələr nəzərə çarpır.

Orta əsrlər dövründə cəmiyyət üçün qeyri-adi görünən kəşflər şeytan işi adlandırılıb cəzalandırllrdl və bu 10-cu əsrdə yazıçı və alim kimi məhşur olan Papa II Silvester suallara "bəli" və "xeyr" deyə cavab verə bilən maşın hazırlamışdı. Gerbert astronom, orqan ustası və musiqi nəzəriyyəçisi, riyaziyyatçı, filosof və nəhayət, II Silvestr (999-1003) adlı Papa olmuşdu. Herbert Avropaya ərəb rəqəmlərini ilk dəfə təqdim etdi, hesablamaları sürətləndirmək üçün abakusu icad etdi, bərabərtərəfli üçbucağın sahəsi üçün rasional yaxınlaşma tapmışdı. Herbert dəqiq gündüz müşahidələri üçün ekvator qurğusunu düzəltmişdi. Görmə borularının köməyi ilə müvafiq günlərdə Günəşi müşahidə etməklə bərabərlik və gündönümünü müəyyən eedə bilirdi. Bu ağıllı alətlərlə yanaşı Herbert II Silvestin Terofim adlı danışan maşın yaratması haqda məlumatlar var. Əfsanəyə görə bu maşınlar suallara "hə" və ya "yox" cavabları verirdilər.[50]

Kataloniya missioneri, şairi, orta əsr filosofu Raymond Lull XIII əsrdə kainatla bağlı suallara cavab verə biləcək bir maşın yaratmağı düşünürdü. Alimlər bu konsepsiyanı Süni İntellektlə bağlı ilk məlumat kimi qəbul edirlər.

XIII əsrdə isə Rocer Bekon və Böyük Albert başlara bənzəyən və danışa bilən maşınlar yaratmağa çalışmışdılar.

---

[49] Жигунов А. От Герона до робота – шпиона. // Control Engineering. Россия №4 (46), 2013, с.28-31

[50] C. Sigismondi. Gerbert of Aurillac: astronomy and geometry in tenth century Europe // Proceedings of the Third Galileo — Xu Guangqi meeting, October 11-15, 2011.

Böyük Albert danışa bilən maşınların gələcəyi proqnozlaşdıra biləcəyini iddia edirdi. Rəvayətə görə, Böyük Albert danışmaq və düşünmək qabiliyyətinə malik olan metal heykəl düzəltmişdi. Bir gün bir rahib (sonrakı əfsanələrdə o, Tomas Akvinalı adını alacaqdı) hücrəsində Alberti axtarmağa gedir. Albert orada olmadığı üçün heykəl cavab verir. Rahib bunun bir büt olduğuna qərar verir və Müqəddəs Yazıları rəhbər tutaraq onu məhv edir. Albert baş verənlərdən xəbər tutanda çox qəzəblənir və tələbəsinə otuz ildir ki, ağıllı heykəli yaratdığını söyləyir.[51]

Bu dövrdə müxtəlif mexaniki heyvanlar və quşlar vasitəsilə saatı təqdim etməyə çalışan saatsazlar süni intellektin tarixində ilk addımlar atmışdırlar.

XVI əsrdə hazırlanmış İspan rahibi Süni İntellektin inkişafı və robot hazırlama tarixində xüsusi əhəmiyyət daşıyır. 450 ildən çox yaşı olan robot rahib indi İspaniyada muzeydə saxlanılır, eynilə yaradılan dublikatı isə ziyarətçilərə nümayiş etdirilir. Bu robotun yaradılması ilə bağlı tarixi hekayədə deyilir ki, 1560-cı ildə İspaniya kralı II Filipin oğlu xəstələnir. Allaha dua edən hökmdar əgər Allah padşahın oğlunu sağaltsa, Allaha xidmət edəcəyini deyir. Sağalan oğlu atasına yüz il əvvəl vəfat etmiş müqəddəs bir rahibin onun yanına gəldiyini deyir. Rahib keçəl idi və iri, iti burnu var idi. II Filipp saray mexaniki Xuanelo Turrianoya, oğlunu xilas edən övliyanın oxşarı olan mexaniki rahib düzəltməyi əmr etdi. Hazırlanmış avtomat rahibin sol əlində xaç var idi, o, göz bəbəklərini tərpədirdi və səssiz dualar edirdi, xaçı dodaqlarına qaldırıb öpürdü. Avtomat rahib avtomat təkərlər üzərində hərəkət edirdi.[52]

1637-ci ildə Rene Dekart öz-özünə hərəkət edə bilən maşınlar haqda yazırdı: "*Məncə, insan bədəni sadəcə bir heykəl*

[51] Речкин А. История роботов. Говорящая голова.// «Троицкий вариант» №354, 31 мая 2022 года.. с.15-16 URL: https://www.trv-science.ru/2022/05/istoriya-robotov-govoryashhaya-golova/

[52] Карпов М. Заводной монах XVI века, который молился за короля Испании. URL: https://www.computerra.ru/217069/zavodnoy-monah-xvi-veka-kotoryiy-molilsya/

*və ya torpaqdan hazırlanmış bir maşındır... biz saatlar, süni fəvvarələr, dəyirmanlar və digər oxşar maşınlar görürük ki, onlar insanlar tərəfindən düzəldilsə də, hərəkət etmək gücünə malikdirlər*".

Bununla belə, R.Dekart mexaniki maşınların fəaliyyət hüdudlarını təsvir edir və insan tərəfindən düzəldilmiş hər hansı bir mükəmməl maşının insan ola bilməyəcəyini vurğulayır: "*[Biz] şübhəsiz ki, elə qurulmuş bir maşını təsəvvür edə bilərik ki, o, sözlər danışır, hətta ... ...uyğun bədən hərəkətlərilə danışır (məsələn, ona bir yerdə toxunsan, ondan nə istədiyini soruşur, başqa yerə toxunsan, qışqırır... və s.). Ancaq belə bir maşının... ...ağıllı cavab vermək üçün müxtəlif söz ardıcıllığı yaratması ağlasığmazdır... [Və]... belə maşınlar bəzi şeyləri bizim etdiyimiz kimi və ya bəlkə də daha yaxşı edə bilsələr belə, qaçılmaz olaraq müəyyən hərəkətlərdə uğursuz olacaqlar...",* çünki onlar *"öz fəaliyyətləri ilə başa düşdüklərini göstərir"*. Dekarta görə insanın davranışı təkcə ağılla deyil, həm də hisslərlə bağlı olduğundan, *"...bütün praktik məqsədlər üçün bir maşının həyatın bütün gözlənilməz vəziyyətlərində hərəkət etməsi üçün kifayət qədər sayda müxtəlif orqanlara sahib olması qeyri-mümkündür..."*.[53]

İsveçrədə Pierre Jaquet-Droz oğulları ilə birlikdə 1773-1774-cü illərdə robototexnikanın üç şah əsərini yaratmışdılar: xəttat, rəssam və musiqiçi. 1773-cü ildə tamamlanan və altı min hissədən ibarət ən mürəkkəb avtomat olan Xəttatın başı çinidən, bədəni isə ağacdan hazırlanmışdır. Taxta masa arxasında oturmuş, qırmızı jilet, şalvar və ağ köynək geyinmiş yetmiş santimetrlik kuklanın yaradılmasına ən azı iyirmi ay vaxt sərf olunmuşdu. Xəttat çalışqan şagirdə oxşayırdı, antropomorfik hərəkətlər edirdi: qələmi mürəkkəbə batırır, sonra ləkə salmamaq üçün yumşaq silkələyir, gözəl yuvarlaq hərflər yazarkən qələmin ardınca gözlərini və başını tərpətdirirdi. Saat mexanizmi olan oğlan əvvəlcədən proqramlaşdırılmış istənilən ifadələri yaza bilirdi. Rəssamın iki min hissədən ibarət mexanizmi xəttatın qoyduğu

[53] Descartes, Rene (1960). Discourse on Method and Meditations. Laurence J. Lafleur (trans). New York: The Liberal Arts Press., (172p.), p.139

prinsiplər əsasında yaradılmışdır. Təbii ki, avtomat yalnız əvvəlcədən proqramlaşdırılmış bəzi şeyləri çəkirdi. Məsələn, android Fransada XVI Lüdoviqə təqdim edildikdə, rəssam monarxın dəfnə çələngi ilə bəzədilmiş portretini çəkmişdi. Robot musiqiçi – on iki və ya on üç yaşında bir qız barmaqlarını düymələrə basaraq miniatür klavesin çalırdı. O, Henri-Louis Jaquet-Drozun yazdığı beş melodiyanı ifa edə bilirdi. Xəttat və rəssam kimi klavesin də müəyyən hərəkətləri yerinə yetirməyi, başını tərpətməyi və barmaqlarının basdığı düymələri gözləri ilə izləməyi bacarırdı.[54]

XVIII əsrdə İsveç Kraliçası Kristina Valentin Merbitsə onun üçün danışan baş düzəltməyi tapşırdı. Hekayələrə görə bu baş 5 dildə danışa bilirdi və işləmək üçün ventriloqizmdən istifadə edirdi.

Qeyd edilməlidir ki, danışan başlar əsasən XVIII əsrdə yaradılmışdır. Bu dövrdə Abate Mical Parisdəki Kral Elmlər Akademiyasında 30 illik tədqiqatların nəticəsi kimi söhbət edə bilən iki danışan baş yaratmışdı. Lavoisier və Laplas bu maşınların təsviri və daxili mexanizmi haqda əsər yazmışdılar.

XVIII əsrdə Volfqanq von Kempelen də eyni mahiyyətli maşın qurmağa nail olmuşdu.

XIX əsrdə ilk dəfə avstriyalı ixtiraçı Cozef Faber Eufonia adlı qadın qiyafəsində və maskasında danışan maşın yaratmıdır. Eufonia  insan səsini xatırladan səslər çıxara bilirdi.

1939-cu ildə Bell Telefon Laboratoriyaları tərəfindən ilk elektron səs sintezatoru olan Voderi təqdim etdi. Voder fərqli səslərə malik, əl ilə idarə olunan sistem idi.[55]

[54] Речкин А. Андроиды и говорящие машины эпохи Просвещения.// «Троицкий Вариант» №17(361), 2022. с.14-15. URL:https://elementy.ru/nauchno-populyarnaya_biblioteka/436549/androidy_i_govoryashchie_mashiny_epokhi_prosveshcheniya

[55] Talking Heads: A history of Conversational Interfaces from the Middle Ages to our days. https://cristinasantamarina.com/2020/01/11/history-of-conversational-interfaces/

XX əsrin birinci yarısında elmi fantastika dünyanı süni intellektli robotlar anlayışı ilə tanış etdi. 1950-ci illərdə artıq süni intellekt (və ya AI) anlayışını inkişaf etdirən alimlər, riyaziyyatçılar və filosoflar nəsli var idi. Belə insanlardan biri süni intellektin riyazi imkanlarını tədqiq edən gənc ingilis polimatı Alan Turinq idi. 1950-ci ildə Alan Turing "Computing Machinery and Intelligence" əsərini nəşr etdi. Turinq qeyd edirdi ki, insanlar problemləri həll etmək və qərarlar qəbul etmək üçün mövcud məlumatlardan, həmçinin ağıldan istifadə edirlər, bəs niyə maşınlar eyni şeyi edə bilmirlər? Bu, onun 1950-ci ildə yazdığı "Hesablama Maşınları və Kəşfiyyat" başlıqlı əsərində öz əksini tapmışdır. Bu kitabda Turinq yaradacağı avtomat kuklaların və ya robotların və onların intellektinin necə yoxlamadan keçiriləcəyini təhlil edirdi. Bir neçə il keçdikdən sonra, onun konsepsiyası Allen Nevell, Cliff Shav və Herbert Simon tərəfindən reallaşdırıldı.

1956-cı ildə Makkarti Dortmund Konfransında süni intellektə həsr olunan ilk peşəkar görüş keçirildi. Burada ilk dəfə "Süni intellekt" termini istifadə edilmiş oldu. 1957-ci ildə Noam Chomsky Təbii Dil Emalının öyrənilməsi üçün əsas olan generativ qrammatika nəzəriyyəsini təqdim edir.

1960-cı illərdə dünya Süni İntellektin yenidən doğulduğunu görür və ilk mətn əsaslı çatbotlar Eliza (1966) və Parry (1972) yaradılır. 1967-ci ildə Frank Rosenblatt, sınaq və səhvlərə baxmayaraq "öyrənən" neyron şəbəkəyə əsaslanan ilk kompüter olan Mark 1 Perceptron'u qurur. Cəmi bir il sonra Marvin Minsky və Seymur Papert neyron şəbəkələr haqqında "Perceptrons" adlı kitab nəşr etdirirlər.

1970-ci ildə Winograd, qrafik interfeys vasitəsilə nümayiş etdirilən məhdud piramida və prizma dünyasındakı obyektlərlə işləyə bilən təbii dil prosessoru olan SHRDLU layihəsini nəşr etdi. Ardıcıl olaraq, Jabberwaky (1988), ALICE (1995) və ya Microsoft Office üçün tanınmış agent Clippy danışıq interfeysləri yaratmağa başladı.

1970-ci ildə Marvin Minski "Life Magazine"-ə müsahibəsində – "*Üç ildən səkkiz ilədək orta insanın ümumi intellektinə malik maşınımız olacaq*" – demişdi.[56] Bu layihə reallaşmasa da robortların inkişafı istiqamətində irəli sürülən əsaslı iddia idi.

1980-ci illərdə özünü öyrətmək üçün geri yayılma alqoritmindən istifadə edən neyron şəbəkələri AI tətbiqlərində geniş istifadə olunmağa başladı.

1995-ci ildə Stuart Russell və Peter Norvig, süni intellektin öyrənilməsində aparıcı dərsliklərdən birinə çevrilən "Süni intellekt: Müasir bir yanaşma" araşdırmasını nəşr etdilər. Burada onlar kompüter sistemlərini rasionallıq və düşünmə ilə hərəkətə görə fərqləndirən dörd potensial məqsəd və ya süni intellekt tərifini araşdırmışdılar.

1990 və 2000-ci illərdə süni intellektin inkişafında olduqca əhəmiyyətli müvəffəqiyyətlər əldə edildi. 1997-ci ildə IBM-in Deep Blue süni zəkasına qarşı oynanan bir sahmat maçında (və revanş maçında), dünya çempiyonu və şahnmat ustası Garry Kasparov IBM-in şahmat kompüter programı Deep Blue tərəfindən yenildi. Bu süni intellektlə qərar qəbul etmə proqramına doğru böyük bir addım idi. Elə həmin il Dragon Systems tərəfindən hazırlanmış nitqin tanınması proqramı Windows-da tətbiq olundu. Cynthia Breazeal tərəfindən hazırlanmış robot Kismet duyğuları tanıya və nümayiş etdirə bilirdi. [57]

2004-cü ildə Con MakKarti "Süni intellekt nədir?" adlı məqalə yazır və AI-nin tez-tez istinad edilən tərifini təklif edir.

2006-cı ildə böyük şirkətlər danışıq interfeysləri ilə bağlı müxtəlif layihələr təqdim etməyə başladılar. 2011-ci idə Apple Siri təqdim edildi.

[56]Rockwell Anyoha. The History of Artificial Intelligence. https://sitn.hms.harvard.edu/flash/2017/history-artificial-intelligence/
[57]Rockwell Anyoha. The History of Artificial Intelligence. https://sitn.hms.harvard.edu/flash/2017/history-artificial-intelligence/

2011-ci ildə IBM Watson şahmat çempionları Ken Jennings və Brad Rutter-i məğlub etdi.

2015-ci ildə Baidu-nun Minwa superkompüteri adi insandan daha yüksək dəqiqlik dərəcəsi ilə təsvirləri müəyyən etmək və təsnif etmək üçün konvolyusiya neyron şəbəkəsi adlanan xüsusi növ dərin neyron şəbəkəsindən istifadə etməyə başladı.

2016-cı ildə dərin neyron şəbəkəsi ilə təchiz edilmiş DeepMind-in AlphaGo proqramı beş oyunluq matçda "Go game" üzrə dünya çempionu Li Sodolu məğlub etdi. [58]

Beləliklə, bu gün kütləvi şəkildə istifadə edilən iPhonlar, müxtəlif tipli kompüter cihazları "danışan başların" təkmilləşmiş variantıdır. Bu gün robot texnologiyasının zirvəsi Alise/Eva hesab edilir. 2008-ci ildə Hanson Robotics Cenevrə Universitetində MIRALab üçün aktivləşdirilən Alice/Eva INDIGO konsorsiumunun bir hissəsi kimi koqnitiv robototexnika tədqiqatlarına xidmət edir. Alice/Eva özünün canlı qadına bənzərliyilə diqqəti çəkir. Alimlər Alisə yalnız məntiqi ağıl deyil, həm də emosiyalar əlavə edirlər. Digər Hanson humanoidləri kimi, onun Frubber ™ dərisi altında yatan servo mühərrikləri insana bənzər üz ifadələrinin geniş spektrini canlandıra bilir. Alisin yanaqları, ağzı, gözləri və qaşları axıcı olub hərəkət edir. Alisin simasında kədər, qəzəb, şok, həzz və digər insan reaksiyaları əks oluna bilir. Alisanın (Eva) yaradıcıları onun yaxın gələcəkdə teatr tamaşalarında aktrisa kimi çıxış etməsini hədəfləyiblər. Alisa 2017-ci ilin fevral ayında Sürixdəki Roten Fabrik teatrında ilk aktyorluq debütü etmişdir.[59]

Süni intellektin ən son nailiyyətləri sırasında 2023-cü ildə Böyük dil modellərinin və ya ChatGPT kimi LLM-lərin artmasını göstərmək olar. Süni intellektin (AI) cəmiyyətə təsiri ilə bağlı müzakirələr getdikcə daha tez-tez müşahidə edilir. Bu

---

[58] Talking Heads: A history of Conversational Interfaces from the Middle Ages to our days. https://cristinasantamarina.com/2020/01/11/history-of-conversational-interfaces/

[59] Alice. Custom Character Robot. https://www.hansonrobotics.com/alice-eva/

müzakirələrdə süni intellektin müsbət və mənfi tərəflərinin şərhi xüsusi yer tutur. Arizona ştatında ilk piyada özünüidarəedən avtomobil tərəfindən öldürüldü, bu da təhlükəsizlik və məsuliyyətlə bağlı narahatlıqları artırdı. Koronavirus pandemiyası zamanı üz-üzə qarşılıqlı əlaqə ilə bağlı risklərin insan işçilərinin süni intellekt və avtomatlaşdırma ilə əvəzlənməsinə təkan verdi.[60]

XXI əsrin ikinci onilliyində Robotlaşma və ya süni intellektin müsbət və mənfi tərəflərinin araşdırılması onun tətbiqi istiqamətindəki inkişaf mərhələlərinin fərqli xüsusiyyətlərini müəyyənləşdirməyə imkan vermişdir:

-Birinci nəsil robotlar (proqram idarəetməsi ilə) – dəzgahlara, preslərə, sobalara, qaynaq qurğularına və maşınlara xidmət göstərmək, əsas texnoloji proseslərin yerinə yetirilməsi (kəsmə, yığma, qaynaq), yükləmə, boşaltma və anbar əməliyyatlarını icra edirdi.

-İkinci nəsil robotlar birinci nəsil robotlardan fərqli olaraq, daha həssas cihazlar (toxunma, televiziya ilə görmə) kimi daha mürəkkəb idarəetmə qurğusuna malik olmuşdur.

-Üçüncü nəsil robotlar (inteqrasiya edilmiş robotlar), ikinci nəsil robotlardan fərqli olaraq, hiss orqanlarından alınan (sensor) məlumatları emal edir. Bu robotlar naxışların tanınması (rəsmdən işləmə) tələb olunan işlərdə, həmçinin mürəkkəb və dəyişən şəraitdə baş verən işlərdə istifadə olunur.[61]

Yeni dövrdə robotlaşmanın və ya süni intellektin inkişafında əsasən üç mərhələni fərqləndirən bir sıra müəlliflər isə: "- əvvəlcədən təyin edilmiş sərt proqrama əsasən işləyən proqram təminatı ilə idarə olunan robotlar (birinci nəsil robotlar);

- adaptiv idarəetmə ilə robotlar (ikinci nəsil robotlar);

---

[60] Semuels, A. (2020). Millions of Americans Have Lost Jobs in the Pandemic—And Robots and AI Are Replacing Them Faster than Ever. https://time.com/5876604/machines-jobs-coronavirus

[61] О мобильных роботах: роль и перспективы промышленного и бытового применения, популярные модели. URL: https://vektorus.ru/blog/mobilnye-roboty.html

-ağıllı idarə olunan robotlar (süni intellektə malik) (üçüncü nəsil robotlar)"ı fərqləndirirlər.

Hazırda son nəsil – süni intellektə malik olan robotların beş əsas növü fərqləndirilir və onlar proqramlaşdırılma xüsusiyyətlərinə görə sənaye, xidmət, tibbi, hərbi və əyləncə sahələrində geniş istifadə edilir.[62]

Bir çox tədqiqatlarda robotlaşma və ya süni intelektin 5-ci nəsli haqda məlumat verilir və 6-cı nəsil robotların yaradılması və onların daha həssas və fərdi fəaliyyətlə bağlı olacaqları proqnozlaşdırılır.

Çoxları süni intellekt və səhiyyənin gələcəyi, bərabərsizliklər, müharibə, iş və s. ilə bağlı narahatlıqlarını dilə gətirirlər.

Bu gün süni intellektin inkişafı ilə bağlı alimləri narahat edən əsas problemləri aşağıdakı kimi təsnif etmək olar:

1.Süni intellekt və sosiallaşma imkanları.
2.Süni intellekt və şəxsiyyət.
3.Süni intellekt və cəmiyyət.
4.Süni intellektlə bağlı anlayışlar.
5.Süni intellekt və sosial münasibətlər.

Sosial həyatın ayrılmaz bir hissəsinə çevrilən süni intellekt qərarlar qəbul etməkdə, evi, məişəti idarə etməkdə, o cümlədən yaşadığımız planeti və kosmik məkanı fəth etməkdə insanlara yardımçı olurlar. Süni intellekt insanın arzularından və bəlkə də idrakından üstün imkanlar təqdim edir. Süni intellektin təqdim etdiyi imkanlar müasir insanın fantaziyalarından da irəli gedir. Süni intellektin aça biləcəyi mümkünlüklər hüdudsuzdur.

Süni intellekt insanlarla sosial münasibətlər yarada bilirmi və bu münasibətlər hansı hüdudlara qədərdir? Süni intellektlərin cəmiyyəti haqda düşünmək mümkündürmü, yoxsa süni intellektə xas imkanların hüdudları insanla məhdudlaşır?

---

[62] Мобильные роботы, их типы, возможности и применение. https://top3dshop.ru/blog/mobile-robots-types-and-applications.html?srsltid=AfmBOopJMluvuJcMRZFvolSzm1X822NCH_aw-RFAZGXQjOTLRGIV0-zM

Bu gün sosiologiyanı düşündürən vacib məsələlər süni intellektin təqdim etdiyi münasibətlər və yeni yaranan qruplar, sosial nizam və sosial proseslər, sosial stratifikasiya və s. çərçivəsində süni intellektin səbəb olduğu transpozisiyalarla bağlıdır. Bu transpozisiyalar sosial mühitə necə təsir edəcək? Süni intellektin "sosiallaşması" haqda danışmaq olarmı? Son nəsil robotlar insanların dünyadakı mahiyyətini və yerini necə dəyişəcək? Süni intellektin tətbiqi yeni mahiyyətli istehlak cəmiyyətinə aparırmı?

Maraq doğuran suallar sosiologiyanın tədqiqat obyektinin mahiyyətcə dəyişəcəyini deməyə əsas verir.

Sosiologiya çərçivəsində süni intellektlə bağlı müzakirə və araşdırmaları iki ümumi paradiqma istiqamətində təsnif etmək mümkündür:

-Birincisi, süni intellekti sosial və mədəni quruculuq, sosial problem sahəsi kimi qəbul edən humanist (insan mərkəzli) yanaşma. Humanist yanaşma süni intellektin istehsalı, tətbiqi və sosial təsirlərinə diqqət yetirir, bu sahənin sırf mühəndislik və dizaynla bağlı olduğu fikrini qəbul etmir, sosial əsasları ilə bağlı müzakirələr aparır.[63]

XX əsrdə elmi humanizmin aparıcı nümayəndəsi K.Kayzer "Humanizm və elm" əsərində qeyd edirdi ki, elm müasir humanizmin dünya birliyi, dünya həmrəyliyi və dünyəvi kooperasiya haqqında ideyalarının əsası və qoruyucusu kimi çıxış edir. K.Kayzerin fikrincə, humanizm demokratiyaya, sənayenin inkişafına, təhsilin universallaşmasına, dünya birliyinin yaranmasına şərait yaradır və bu inkişafda elm aparıcı qüvvə kimi çıxış edir. Elmi humanizm tərəfdarları yeni beynəlxalq iqtisadi nizam, dünya birliyi və həmrəyliyi, sosial dəyişikliklərdə humanizmin rolu və s. ilə bağlı ideyalar irəli sürürdülər.[64]

---

[63] Emin Baki Adaş, Borabay Erbay. Yapay Zekâ Sosyolojisi Üzerine Bir Değerlendirme. // Gaziantep Üniversitesi Sosyal Bilimler Dergisi. Yıl 2022, Cilt: 21 Sayı: 1, 326 – 337.

[64] Костин А.И. «Экополитология и глобалистика», изд. «Аспект Пресс», С-Петербург, 2005.

XXI əsrdə elmi humanism artıq yeni bir istiqamətdə - süni intellektə humanist yanaşma və cəmiyyətdə süni intellektin tətbiqi ilə bağlı ümumi humanism prinsiplərinin üstün tutulması ideyasını inkişaf etdirir.

Süni intellektin inkişaf etdiyi cəmiyyətdə ictimai həyatın humanist təşkili prinsipləri isə aşağıdakıları ehtiva edir:

- istehsal iqtisadi sistemin tələblərinə deyil, insanların real ehtiyaclarına xidmət etməlidir;
- insanlarla təbiət arasında istismara deyil, əməkdaşlığa əsaslanan yeni münasibətlər qurulmalıdır;
- qarşılıqlı antaqonizm yerini həmrəyliyə verməlidir;
- bütün sosial transformasiyaların məqsədi insanların rifahı və pisliyin qarşısının alınması olmalıdır;
- maksimuma deyil, insanların yaxşılığına töhfə verən ağlabatan istehlaka çalışmaq lazımdır;
- fərd cəmiyyətin həyatında passiv iştirakçı deyil, fəal olmalıdır.[65]

-İkincisi, post-fenomenologiya və post-humanist yanaşmadır.

Post-humanist yanaşma sosiallığı insanmərkəzli konseptuallaşdıran klassik perspektivi tənqid edir, lakin süni intellekt texnologiyası post-humanist yanaşmanı gücləndirən keyfiyyətə malikdir. Post-humanist yanaşma süni intellekti humanoid xüsusiyyətlərə malik lakin insanla bağlı olmayan əşyaların istehsalçı-agenti kimi qəbul edir.[66]

Hazırda süni intellektin son nailiyyətləri sırasında olan pilotsuz təyyarələr, sürücüsüz maşınlar, özü-özünü işə salan və iş fəaliyyətini sonlayan məişət və iş texnologiya vasitələri, müxtəlif cərrahi əməliyyatlar aparan, insanı fərdi və sosial münasibətlər

[65] Дзялошинский И. М. Искусственный интеллект: гуманитарная перспектива // Вестник НГУ. Серия: История, филология. 2022. Т. 21, № 6: Журналистика. С. 20–29.

[66] Emin Baki Adaş, Borabay Erbay. Yapay Zekâ Sosyolojisi Üzerine Bir Değerlendirme. // Gaziantep Üniversitesi Sosyal Bilimler Dergisi. Yıl 2022, Cilt: 21 Sayı: 1, 326 – 337.

çərçivəsində araşdıran, keçmiş və gələcək haqda məlumat verən robot texnologiyaları və s. qeyd edilə bilər. Hazırda süni intellect özünün nəzəriyyədən praktikaya keçid dövrünün başlanğıc, cəmiyyətə və sosial münasibətlərə ilkin adaptasiya mərhələsindədir.

Süni intelleklə bağlı əldə edilən nailiyyətlər müasir rəqəmsallaşma prosesinin və hətta mürəkkəb sistem olan rəqəmsal cəmiyyətin yeni konseptual əsaslarını formalaşdırır. Universal rəqəmsallaşmanın təkanvericisi olan rəqəmsal texnologiyaların formalaşması bu prosesin başlanğıc mərhələsidir. Artıq rəqəmsal cəmiyyət elə bir mərhələdədir ki, süni intellekt yeni texnika və texnologiyaları yaradır. Belə ki, məhz müəyyən rəqəmli hesablamalara və sxemlərə əsaslanaraq qurulan rəqəmsal texnologoyalar universal rəqəmsallaşmaya təkan vermişdir.

Rəqəmsal texnologiyalar verilənləri yarada, ümumiləşdirə, yadda saxlaya və ya emal edə bilən alətlər, sistemlər və cihazlar kimi istinad edilir. Rəqəmsal texnologiyaların verilənlərin emalı və məntiqi imkanları müxtəlif funksiyaları yerinə yetirmək üçün proqramlaşdırılmış mikroproseslər vasitəsilə işə salınır.

İqtisadi və sosial institutlar, maliyyə və bank islahatları, populyar mədəniyyət, o cümlədən kommunikasiya və istehlak sahələrində süni intellekt geniş şəkildə istifadə edilir. Bir tərəfdən sosial institutların rəqəmsallaşması, digər tərəfdən isə rəqəmsallaşmanın institutlaşması prosesi davam edir.

Artıq fiziki və rəqəmsal dünyaları ayıran xətt inkişaf sürəti ilə çulğaşmaqda davam edir. Müştərilərinin artan gözləntilərini qarşılamaq üçün biznes və media şirkətləri öz biznes modellərini dəyişdirirlər. Eynilə, dövlət xidmətləri rəqəmsal cəmiyyətdə özlərini yenidən kəşf edirlər. XX əsrin son onilliklərində fiber optika, hesablamalar və peyklər kimi texnologiyanın rəqəmsallaşması və inkişafı bütün dünyaya yayılaraq Ümumdünya Şəbəkəsini və İnterneti geniş şəkildə istifadə və qəbul etdi. Bu gün, rəqəmsal inqilab irəlilədikcə, biz maşın

öyrənməsi və alqoritmlər[67] tərəfindən dəstəklənən məlumat istifadəsi və süni intellekt tətbiqlərində artımın şahidi oluruq. İstehsalatda və məişət proqramlarında robototexnika, blokçeyn texnologiyaları[68], neyron şəbəkələri və kvant hesablamaları, eləcə də istifadə olunan digər texnologiyaların meydana çıxdığını görürük.

Kelly Joyce, Laurel Smith-Doerr, Sharla Alegria, Susan Bell, Taylor Cruz, Steve G.Hoffman, Safiya Umoja Noble və Benjamin Shestakofsky kimi tədqiqatçılar əmindirlər ki: "*Bu texnoloji yeniliklər peşəkar təcrübənin, biliyə əsaslanan proseslərin, biznes və idarəetmə paradiqmalarının və dünya miqyasında sosial şəbəkələrin yeni dünyalarını yaratmağa xidmət edir. Yeni ekosistemlər yarandıqca, rəqəmsal texnologiyalar biznes modellərini, özəl və dövlət qurumlarını kökündən dəyişdirərək bütün cəmiyyət üçün ciddi problemlər yaradır*".

Müəlliflər süni intellektlə bağlı yaranan problemlərin iki istiqamətini müəyyənləşdirirlər:

"- *Birincisi, orta sinfin əhəmiyyətli hissəsi yaxınlaşan işsizlik böhranı təhlükəsindədir*.

- *İkincisi, rəqəmsal inqilabın çağırışları yeni oliqopoliyalar və gücün təmərküzləşməsinə gətirir*". [69]

Massimo Ragnedda, Felice Addeo və Maria Laura Ruiu birgə tədqiqatlarında belə nəticəyə gəlirlər ki, "*rəqəmsal inqilab*

---

[67] Massimo Ragnedda, Maria laura Ruiu. Social capital and the three levels of digital divide. September 2017.
https://www.researchgate.net/publication/333693226_Social_capital_and_the_th-ree_levels_of_digital_divide

[68] Massimo Ragnedda, Giuseppe Destefanis. Blockchain. A distruptive technologies // In book: Blockchain and web 3.0: Social, economic, and technological challenges. Publisher: Routledge. July 2019.
https://www.researchgate.net/publication/340716275_Blockchain_A_distruptive_technologies

[69] Kelly Joyce, Laurel Smith-Doerr , Sharla Alegria ,Susan Bell, Taylor Cruz, Steve G. Hoffman ,Safiya Umoja Noble, and Benjamin Shestakofsky. Toward a Sociology of Artificial Intelligence: A Call for Research on Inequalities and Structural Change //Socius Sociological Research for a Dynamic World. 2021, 7(4):1-11

*fərdlərin iqtisadiyyatına və sosial həyatına təsir edir. Bu Qlobal Şimal adlanan bölgədə aydın görünür. ...dünyanın bəzi bölgələri texnologiyaları mənimsəməkdə daha yavaşdır və Qlobal Şimalla müqayisədə onların imkanları daha məhduddur. Çümki ...hətta ölkə səviyyəsində rəqəmsal inqilabın gətirdiyi faydalar müxtəlif sosial-iqtisadi və sosial-demoqrafik mənşəli vətəndaşlar arasında bərabər bölüşdürülmür*”.[70]

Rəqəmsallaşmanın gətirdiyi üstünlüklərdən yararlanma ilə bağlı fərqlər ikinci və üçüncü dünya ölkələrində daha çox nəzərə çarpır. Belə ki, inkişaf etmiş dünya ölkələrində rəqəmsallaşma kütləvi mərhələyə keçdiyindən əhalinin rifah halının yüksəlişi nəzərə çarpır. İnkişaf etmiş ölkələrdə ağıllı şəhərlərin və ağıllı kəndlərin quruculuğu davam edir.

Amisha, Paras Malik, Monika Pathania və Vyas Kumar Rathaurun Hindistan cəmiyyəti ilə bağlı araşdırmaları göstərir ki, Hindistan kimi “*kasıb ölkələrdə İKT-nin mənimsənilməsində fərqlər motivasiya, bacarıq və həyat tərzi, eləcə də sosial-iqtisadi və sosial-demoqrafik sferalarda dinamika baxımından özünü göstərir. Artıq sosial sahədə üstünlük əldə edənlər də rəqəmsal texnologiyaların qəbulu və istifadəsindən ən çox faydalanmağa meyllidirlər*”.[71]

Kasıb ölkələrdə rəqəmsallaşmanın zəif gedişatı ilə bağlı Massimo Ragnedda və Maria Laura Ruiu “*rəqəmsal təcrid və rəqəmsal bərabərsizliklər*” haqda danışırlar. Müəlliflər bu bərabərsizliyin “*mədəni, sosial, iqtisadi və siyasi kontekstdə*” nəzərə çarpdığını, həmçinin “*sosial quruluşun bərabərsizlikləri və rəqəmsal dünyanın bərabərsizliklərinin bir-birinə bağlı*” olduğunu vurğulayırlar. [72]

---

[70] Massimo Ragnedda, Felice Addeo, Maria Laura Ruiu. How offline back-grounds interact with digital capital.//New media society. April 202426(4):2023-2045

[71] Amisha, Paras Malik, Monika Pathania, and Vyas Kumar Rathaur. 2019. “Overview of Artificial Intelligence in Medicine.” Journal of Family Medicine and Primary Care 8(7):2328–31.

[72] Massimo Ragnedda & Maria Laura Ruiu. Digital society: risks and challeng-es. // Culture e Studi del Sociale-CuSSoc, 2021, 7(1), pp. 3-9

Qeyd edilənlər deməyə əsas verir ki, rəqəmsallaşmanın gətirdiyi risklər cəmiyyətlərin müdafiəsi və təhlükəsizliyi ilə bağlı davamlı strategiyaların qəbulunu aktual problemə çevirmişdir. Rəqəmsallaşma strateji mahiyyət almış bir proses kimi qlobal münasibətlərin tənzimlənməsinə təsir edir. Kütləvi rəqəmsallaşmanı inkişafın yeni mərhələsi kimi qəbul edən ölkələrdə süni intellektin əsas nümunələri olan ağıllı robotlar, ağıllı evlər, ağıllı şəhərlər, ağıllı kəndlər, ağıllı cəmiyyət və ağıllı dövlət/elektron hökumət reallaşmaqdadır.

# TEXNOLOJİ, YOXSA RƏQƏMSAL İMPERİALİZM: KONSEPSİYADAN HAKİMİYYƏTƏ

Tarixən müxtəlif dövrlərdə fərqli ideologiyaların asılılığında olan bəşəriyyət XXI ərdə də sanki özünə yeni "boyunduruq" və ya asılılıq forması yaradır və davamlı olaraq bu asılılığı təkmilləşdirməyə çalışır. Bir tərəfdən insanların sosial rifahının yüksəlməsinə xidmət edən texnologiyalar, digər tərəfdən "texnoloji və ya rəqəmsal imperializm" kimi yeni qlobal idarəetmə formasının yaranmasına əsas olur. Rəqəmsal/Texnoloji imperializmin yaratdığı qlobal manipulyasiya müxtəlif – kommersiya, sosial, hərbi və ya siyasi və s. sahələrdə müxtəlif məqsədlərlə tətbiq edilən alqoritmlər yaradır, bilavasitə onlayn rəqəmsal texnologiyalarla İnternet və sosial media manipulyasiyası həyata keçirir. Rəqəmsal platformalar media vasitəsilə davamlı və məqsədyönlü ideologiyalar istehlakı ilə məşğul olur. Gündəlik ünsiyyətin təxminən 70%-ni təşkil edən virtual ünsiyyət çox zaman dezinformasiyanın yayılmasına səbəb olur. Bu dezinformasiya çox zaman müxtəlif maraqlar tərəfindən yaradılır və idarə edilərək sosial şəbəkələr vasitəsilə informasiya istehlakçılarına təqdim edilir, "yeni ideologiyaların", "inamların" "virtual qruplaşmaların" və s. yaranmasına təkan verir.

Rəqəmsal texnologiyalar vasitəsilə sosial, siyasi, iqtisadi, mədəni, texnoloji və bir çox digər yönlü məqsədlərlə yayılan məlumatlar çox zaman manipulyasiya xarakterli olub, ictimai rəyin formalaşdırılmasına, insanların şüuruna və davranışlarına təsir edərək yönləndirilməsinə hədəflənir. Məhz rəqəmsal/texnoloji imperializm vətəndaşların siyasi və sosial qütbləşməsinin, bir çox siyasi dissidentlərin yaradılmasının əsası kimi müəyyənləşir. Bu prosesi kiberləşmə kimi müəyyən edən bir çox tədqiqatçılar bu prosesi belə şərh edirlər: "*kiberləşmə rəqəmsal texnologiyaların cəmiyyətin müxtəlif aspektlərinə, o cümlədən biznes, hökumət və gündəlik həyata inteqrasiyası prosesinə aiddir. Bu transformasiya səmərəliliyi, əlaqəni və innovasiyanı təkmilləşdirmək üçün rəqəmsal alətlərin, şəbəkələrin*

*və sistemlərin tətbiqini nəzərdə tutur. Kiberizasiya təşkilatlara prosesləri tənzimləməyə, daha effektiv ünsiyyət qurmağa və yeni inkişaf imkanlarına daxil olmağa imkan verir. Bununla belə, bu, kibertəhlükəsizlik, məxfilik və rəqəmsal asılılıq ilə bağlı narahatlıqları da artırır. Kiberizasiya inkişaf etməyə davam etdikcə sənayeləri, iqtisadiyyatları və sosial qarşılıqlı əlaqələri əsaslı şəkildə dəyişir*”.[73]

Müəyyən mənada rəqəmsallaşmanın fərqli adı və ya təmayülü olan kiberləşmə qlobal manipulyasiyanın genişlənməsinə və güclənməsinə, həmçinin dünyanı idarə edən qlobal qüvvələrin daha da qüdrətlənməsinə səbəb olur.

Lloyd Amoahın qeyd etdiyi kimi “*...kiberizasiya müasir həyatın yeni qaçılmaz reallığıdır. ...kiberizasiya dövrünün vasitəçiliyi ilə... ...informasiya və texnologiyalar qlobal miqyasda misli görünməmiş gücün reallaşmasını sürətləndirdi*”.[74]

XXI əsrdə sosial reallığın ayrılmaz hissəsinə çevrilən rəqəmsallaşma və süni intellektin çoxistiqamətli təsir etmə imkanları elmin müxtəlif sahələrində bu fenomenin araşdırılmasını aktual etmişdir. Bu gün süni intellektin təkmilləşdirilməsinə çalışan proqramçı alimlərlə yanaşı, ekoloqlar, filosoflar, sosioloqlar, psixoloqlar, mühəndislər və başqaları onun obyektiv aləmə təsiri aspektlərini araşdırmağa və öz baxış bucaqlarından “Süni intellekt (AI)” konsepsiyasının mahiyyət və məzmununu təyin etməyə çalışırlar. Lakin, bu cəhdlərə baxmayaraq, AI-nin tərifi hələ də standartlaşdırılmaqdadır.

Süni İntellekt müasir texnoloji imperializmin yeni istiqamətli inkişafını ehtiva edir. Hələ XX əsrin 60-70-ci illərində Roma klubu nümayəndələri Elm və texnologiyanın inkişafını və istifadəsi istiqamətlərini bəşəriyyətin gələcəyi ilə bağlı təhlükə

---

[73] Киберизация - синонимы, произношение, значение, примеры предложений. // URL: https://ru.opentran.net/dictionary

[74] Lloyd Amoah. Digital Imperialism and the Cyberization of Contemporary Life: A Ghanaian Perspective. // In book: Examining the Rapid Advance of Digital Technology in Africa (pp.1-25). Publisher: IGI GLOBAL, 2024

olaraq qəbul edərək bildirirdilər ki, "*yüksək inkişaf etmiş texnoloji sivilizasiya özünübərpa bacarıqlarını itirir. Əgər o, hər hansı bir kataklizm nəticəsində süqut etsə, onu bərpa etmək mümkün olmayacaq. Əgər bəşəriyyət sağ qalsa belə, o, dəmir dövrünə qayıdacaq, çünki əsas təbii ehtiyatlar tükənmək üzrədir və onların əldə edilməsi üçün daha mürəkkəb texnologiya tələb olunur. Müasir texniki dünyanın məhv olması nəticəsində yarana biləcək sivilizasiya yalnız aqrar cəmiyyət olacaq*". Roma klubunun tədqiqatarı məhz cəmiyyət və ətraf mühitin qarşılıqlı münasibətlərinin analizinə əsaslanırdı. Klubun təklifi ilə ilk tədqiqatları kompüter modelləşdirilməsi üzrə mütəxəssis amerikalı C.Forrester aparmışdı. Onun "Dünya dinamkası" (1971) adlı kitabında göstərilirdi ki, təbii ehtiyatların müasir sürətlə istifadəsi 2020-ci ildə ümumdünyəvi ekoloji böhrana gətirəcək. D.Medouzun "İnkişafın hüdudları" (1972) başlıqlı əsəri C.Forresterin işinin davamı idi. Bu hesabat elmi bestseller oldu, onlarla dilə tərcümə olundu. Bu kitabın müəllifləri əhalinin artım meylləri və təbii ehtiyatların istifadə olunması sürətini təhlil əsasında bir neçə model hazırlamışdılar. Roma klubu nümayəndələri əmin idilər ki, standart modelə görə, əgər XXI əsrin əvvəllərində sosial inkişafda keyfiyyət dəyişməsi baş verməsə, sənaye istehsalında, sonra isə, dünya əhalisinin sayında sürətli tənəzzül başlayacaq. Təbii ehtiyatlar artsa, da qlobal böhran yalnız XXI əsrin ortalarına qədər ləngiyə bilər. Belə təhlükəli vəziyyətdən yeganə çıxış yolu dünyəvi miqyasda *qlobal tarazlıq* modelinə keçid, yəni sənaye istehsalının və əhali sayının düşünülmüş konservasiyası ola bilər. [75]

D.X.Medouz və D.L.Medouz hətta dünya dinamikasının fundamental qanunauyğunluğu ilə bağlı təqdim etdikləri ssenaridə bəşəriyyət və biosferanın qarşılıqlı təsiri problemini təhlil edirdilər və göstərirdilər ki, bəşəriyyət və biosferanın qarşılıqlı təsiri dünyanın həddindən artıq gərginliyinə səbəb olub və artıq 2025-ci ildə ənənəvi, yaxud mövcud dünyanın tənəzzülü təhlükəsi

[75] Ю.Латов Римский Клуб (Club of Rome) - www.oecd.org/...

yaranacaq. Bu ssenaridə dünya cəmiyyətinin daxili qarşılıqlı təsir imkanları nəzərdən qaçmışdı.[76]

Roma klubunun ilk hesabatlarında Elmi Texniki İnqilabın nəticələrinin pozitiv tətbiqi ilə bağlı fikirlər irəli sürülür və göstərilirdi ki, bərpa olunmayan ehtiyatların istifadəsini və ətraf mühitin çirklənməsi ilə yanaşı yeni ehtiyatların mənimsənilməsini, ehtiyatlara qənaət edən və ekoloji təmiz texnologiyaların tətbiq edilməsini sürətləndirə bilər. Gözlənilən qlobal ekoloji böhranla bağlı proqnozların təsiri altında Roma klubunun sonrakı hesabatları böhranın qarşısının alınması yollarının təhlilinə yönəlmişdi. E.Vaytszekker, E.Lovins və L.Lovinsin "Dörd amil: sərvətin artırılması, ehtiyatlara iki dəfə artıq qənaət" adlı hesabatlarında təbii ehtiyatlara qənaət edən texnologiyaların inkişafı analiz edilirdi və müəlliflər belə bir nəticəyə gəlirdilər ki, 2050-ci ildə gözlənilən qlobal böhrandan sonra əhalinin sayının və sənaye istehsalının sabitləşməsini, ətraf mühitin çirklənməsinin azalcağını güman etmək olar.

Sosial qlobal problemlərin əmələ gəlməsi inkişaf etmiş "zəngin Şimal" və inkişaf etməkdə olan "kasıb Cənub" ölkələri arasındakı ziddiyyətlərlə bağlıdır. İnkişaf etməkdə olan ölkələr əvvəllər müstəmləkə və yarımmüstəmləkə ölkələr olublar və indi də dünya təsərrüfatında kənar mövqeləri tuturlar.

Qlobalistlər qaçılmaz olan qlobal təhlükənin qarşısını almaq üçün fənlərarası tədqiqatlar aparılması tərəfdarı olaraq çıxış edirlər. Qlobalistlərin görkəmli nümayəndələrindən olan German Kann əmin idi ki, məhz elm və texnikanın inkişafı bəşəriyyəti qlobal təhlükədən xilas edəcək. Kann və onun tərəfdarları "texnooptimistlər", onların opponentləri isə "ekopessimistlər" adını almışdılar və bu iki tərəf arasında daimi mübarizə gedir. 70-ci illərdə iki cəbhəyə bölünmüş dünyada sosialist sistemli ölkələrdə texnooptimistlərin, kapitalist sistemli ölklərdə isə ekopessimitslərin tərəfdarları çoxalmışdı. XX əsrin 80-cı illərində ekopessimitslərin opponentləri olan digər bir cərəyan – "alternativ

[76]Федотов А.П. Глобалистика: начала науки о соврем. Мире, М.: Аспект Пресс, 2002. - 224 С.

sivilizasiya" meydana gəldi. Alternativ sivilizasiya tərəfdarları gözlənilən qlobal təhlükədən xilas olmaq yolunu keyfiyyətcə fərqli, alternativ sivilizasiyaya keçiddə görürdülər. Hələ 1978-ci ildə M.Satin "Yeni eranın problemləri: özünü və cəmiyyəti xilas edərkən" əsərində 1847-1967-ci illərdə alternativistika ilə bağlı 270 əsərin nəşr olunduğunu göstərmişdi. 80-cı illərdə mövzu ilə bağlı G.Gendersonun "Alternativ gələcəyin qurulması", M.Fergyusonun "Dolçanın sui-qəsdi və 80-cı illərdə şəxsi və ictimai transformasiyalar", L.Broun "Sabit cəmiyyətin qurulması", J.Roben "Dövrlərin dəyişilməsi", E.Veytszekker və L.Lovinsovun "Dörd amil: itki – yarı, fayda – iki dəfə artıq" və s. əsərlər nəşr olunmuşdu. Rusiyada 1990-cı illərdə V.Q.Budanovun "İctimai tərəqqi alternativi: homo agens", İ.M.Savelyevin "Alternativ dünya: modellər və ideallar", A.N.Çumakovun "Qlobalistikanın fəlsəfəsi: sivilizasiyaların sağ qalması yollarının axtarışı", L.N.Vodviçenkonun "Alternativistlərin sosial-siyasi baxışlarının formalaşması", İ.V.Bestujev-Ladanın "Alternativ sivilizasiya", "XXI əsrə dair qlobal texnoloji proqnoz", N.N.Moiseyevin "Sabahkı günə çox qalıbmı?", "Bəşəriyyət olsun yoxsa, olmasın", V.L.İnozemtsevin "İqtisadi cəmiyyətin hüdudlarında", "Parçalanmış sivilizasiya" və s. əsərləri nəşr olunmuşdur. E.Şumaxerin "Günəş dövrü siyasəti: iqtisadi alternativ" və "Tərəqqi paradiqması: iqtisadiyyat hüdudlarında həyat", D.X.Medouz, D.L.Medouz, Y.Randers "İnkişafın hüdudlarında" (1994), A.C.Toynbi "Sivilizasiya tariximəhkəmə qarşısında" (1995), İ.Vallerstaynın "Dünya sisteminin təhlili və müasir dünyanın vəziyyəti" (2001), Y.Xabermas "Son kapitalizm dövründə sistem və dünyəvi həyat arasında münasibətlər" (1993), "Modern haqqında fəlsəfi müzakirələr" (2003), F.Fukuyama F. "Tarixin sonu və sonuncu insan" (2004), C.E.Stiqlitz "Qloballaşma və onun doğurduğu narazılıqlar" (2004), S.Hantinqton "Sivilizasiyaların toqquşması" və s. əsərləri meydana çıxdı.

Gələcək inkişafın tədqiqatçıları belə hesab edirlər ki, cəmiyyətin bu və ya digər forması enerji əsasında müəyyən

edildiyinə görə alternativ sivilizasiya qlobal yanacaq-enerji və xammal bazasının, demoqrafik, ekoloji tarazlığın keyfiyyətcə yenidən bərpa olunması, silahlanmanın qarşısının alınması və yüksək insani dəyərlər sistemi əsasında qurula bilər.[77]

XX əsrdə özünütəşkilatlandıran sistemlərin dəyişməsi və inkişafı xüsusiyyətlərinin təhlilinə yönəlmiş *sosiosinergetik yanaşma*, sosial proqnozlaşdırmanın sinergetik, yaxud futurosinergetik metodları geniş vüsət aldı. Futurosinergetika nəzəriyyəsinin tərəfdarları gələcəkdə sosial-siyasi və ekoloji böhranların qaçılmaz olduğunu, sosial mədəni vəhdətin itirilməsi imkanları haqqında məlumat verirlər və əmindirlər ki, böhranın qarşısının alınması üçün radikal sistemli dəyişikliklər zərurdir. Yeni tarixi subyekt elmi-texniki inqilabın növbəti mərhələsində yeniləşə bilər. Y.V.Yakoves və S.Y.Qlazyevə görə, tsiklik dinamikanın və sosiogenetikanın qanunauyğunluqları XXI əsrdə bəşəriyyətin altıncı, "postinformasiya", yaxud texnoloji cəmiyyətə keçidindən xəbər verir. Bu keçid daha inqilabi xüsusiyyətlərə malik olub, dünyagörüşündə əsaslı dəyişikliklərlə müşayiət olunacaq və dünya sivilizasiyasının təkamülü prosesi V.Vernadskinin noosfera konsepsiyasına uyğun olacaq. Sistemli böhran vəziyyəti bəşəriyyəti bifurkasiyalı (haçalı) inkişaf qarşısında qoyub və onun gələcək inkişafı çoxvariantlı xüsusiyyət daşıyır.[78]

Göründüyü kimi, beynəlxalq ticarət ümumdünya ehtiyatlarını bölüşdürür. Hazırda kömək adı altında zəif inkişaf etmiş ölkələrə lazımsız istehsal malları gətirilir, onların enerji ehtiyatları götürülür, əvəzində böyük qiymətlərlə onlara silah satılır. Həmçinin geridə qalan ölkələrin ərazisində təhlükəli kimyəvi və nüvə tullantıları basdırılır.

---

[77] Бестужев-Лада И.В., Наместникова Г.А. Социальное прогнозирование. Курс лекций. М.: Педагогическое общество России. 2001.( Məmmədova S.D. Sosial proqnozlaşdırma və layihələşdirmə. Bakı: Elm, 2009, 292 s. URL: https://ebooks.az/az/book/poR4Ie3V)

[78]Лесков Л. В. Синергетическое моделирование будущего России // Теория предвидения и будущее. М., 1997; Лесков Л.В. Космическое будущее человечества. М., 1996.

Texnologiyanın inkişafının insan cəmiyyətini dəyişmə imkanlarını proqnozlaşdıran Futurosinergetik yanaşmanın tərəfdarlarıdan biri – L.V.Leskov Qərb sivilizasiyasının alternativ inkişaf ssenari modellərini və modellərin qurulması ilə bağlı əsas amilləri müəyyənləşdirməyə çalışmışdır:

1. Müasir vəziyyətin saxlanması ssenarisi (Qərb transmilli korporasiyalar hesabına Ümumi Milli Məhsul üzərində nəzarəti təmin edə və öz ehtiyatlarının bir qismini sərf etməklə regionlarda yaranan bu və ya digər qeyri-sabitliyin qarşısını ala bilər və bu əsasda müasir ictimai birlikləri enyi səviyyəli məsuliyyətə cəlb edərək, qlobal problemləri həll edə bilər).

2. Dünyəvi totalitar sistem ssenarisi (Bu ssenari Qərbin dünya üzərində ümumi nəzarətinin təmin olunmasına yönəlmiş ideologiya ilə bağlı olub, “qızıl milyard” strategiyası və modernizmin təhlilinə yönəlir. Bu məqsədə nail olmaq üçün ümumplanetar informasiya magistralının yaradılması əsas şərt kimi qəbul edilir. Gözlənilən ekoloji böhranın qarşısını almaq üçün dünya əhalisi 10 dəfə azaldılmalı, yaxud təbii istehlak ehtiyatları 10 dəfə artırılmalı, ətraf mühitə texnogen təsirin qarşısı alınmalıdır).

3. Yeni orta əsrlər ssenarisi (Bu ssenari orta əsrlərdəki maliyyə böhranı, Mərkəzin gücsüzlüyü və ölkənin tənəzzülü, əhalinin yoxsullaşması, elmin və təhsilin zəifləməsi, cəhalətin genişlənməsi, şəhərlərdə və yollarda quldurluq və s. hadisələrlə bağlı həyat tərzinin müasir dövrdə baş verən proseslərlə oxşarlığını əks etdirir. Əgər ikinci ssenari yüksək texnologiyalara əsaslanaraq qlobal totalitarizm ideyasının inkişafına yönəlirsə, üçüncü ssenari elmi-texniki tərəqqini rədd etməyi təklif edir).

4. Dünya birliyinin parçalanması ssenarisi (Bu ssenari dünyanın çoxsaylı güc mərkəzlərinə parçalanmasının təhlilinə yönəlir).

5. Ekoloji böhran ssenarisi (Beşinci ssenari qlobal ekoloji böhran, qlobal tənəzzülün tədqiqi ilə bağlıdır. Özünütəşkilatlandıran sistemlər nəzəriyyəsinə görə, böhran

prosesi sürətlə inkişaf edir və qarşısının alınması üçün tədbirlər görülməyə başladıqda artıq gec olacaq).

6. Noosferaya keçid ssenarisi (Noosferaya keçid mürəkkəb, çoxsahəli proses olub, insan varlığının bütün aspektlərini – dünyagörüşü, elmi, texnoloji, mədəni, təhsil, etik, sosial siyasi, dini və s. əhatə edir. Noosfera nəzəriyyəsi istehlak və fərdiyyətçilik fəlsəfəsindən uzaqdır və yalnız qlobal, ümumbəşəri səviyyədə noosferaya keçid mümkündür).[79]

Bu ssenari modellərin qurulmasında istifadə ediləcək əsas amillər dünya bazarına nəzarət, Ümumi Milli Məhsulun səviyyəsi, inkişaf etmiş ölkələrin texnoloji strukturunun yeniləşdirilməsi, "qızıl milyard" strategiyası, üçüncü dünya ölkələrinin zəif inkişaf sürəti və bu ölkələrdəki demoqrafik partlayış, texnoloji ləngimə, Qərbin sosial mədəni vəhdətini itirməsi, dünya güc mərkəzləri arasında ziddiyyətlərin kəskinləşməsi, sabitləşmə imkanlarının tükənməsi, regionlarda çoxsaylı hərbi münaqişələr, terrorizm, planetin ekoloji vəziyyətinin kəskinləşməsi, fundamental elmin, yüksək texnologiyaların, təhsilin müdafiəsi, dünya vəhdətinin möhkəmlənməsi kimi müəyyənləşdirilir.

Qlobal problemlərin təhlili istiqamətində inkişaf etmiş *futuroloji konsepsiya* xüsusi maraq kəsb edir. "Gələcəyin fəlsəfəsi" kimi keçmiş və indiki dövr sosial istiqamətlərə qarşı duran futurologiyanı XX əsr alman filosofu K.Manngeym "ideologiya" və "utopiyaya" bölürdü. Futurologiya anlayışını ilk dəfə 1943-cü ildə alman sosioloqu O.Flextgeym "Tarix və futurologiya" adlı əsərində təqdim etmişdi. Bu əsərdə müəllif "gələcəyin obyektiv fəlsəfəsi"nin yaradılması ideyasını irəli sürürdü. "Gələcək haqqında elm", "gələcəyin tarixi" adlandırılan futurologiyanın tədqiqat predmeti mövcud təzahürlərin, ilk növbədə sosial təzahürlərin inkişaf perspektivləridir. Futurologiya anlayışı XX əsrin 60-cı illərində Qərbdə başlanmış proqnozlar axını əsasında belə bir məzmun daşımağa başladı. 1960-cı illərin

[79] Məmmədova S.D. Sosial proqnozlaşdırma və layihələşdirmə. Bakı: Elm, 2009, 292 s. URL: https://ebooks.az/az/book/poR4Ie3V

futurologiyasında həm texnokrat optimistlər, həm realistlər, həm də pessimistlər mövcud idi.

XX əsrin 60-cı illərindən başlayaraq industrializm və postindustrializm nəzəriyyələri tənqid olunmağa başlandı. Xüsusilə reformizm, yaxud konvergensionizm və apokalipsis nəzəriyyələr bu sıradandır. Konvergensionizm nəzəriyyəsinin tərəfdarları elmi-texniki inqilab şəraitində kapitalizmin olduğu kimi saxlanacağına şübhə ilə yanaşırdılar və sosial-reformist xüsusiyyətli cərəyanlara istinad edərək, kapitalizmin islahatlar yolu ilə dəyişdirilməsi tərəfdarı kimi çıxış edirdilər. Bu cərəyanın görkəmli nümayəndələrindən olan F.Bade "2000-ci ilə doğru yarışma" əsərilə çıxış etmişdi. Lakin "dünya sosializm sisteminin" böhranı bu nəzəriyyənin tənəzzülünə səbəb oldu.

Apokalipsis nəzəriyyənin nümayəndələri ekzistensializm, teyardizm yaxud neopozitivizm fəlsəfəsinə istinad edirdilər və elmi-texni inqilabın nəticələrinin bəşəriyyətin gələcək inkişafında istifadə edilmə imkanlarına şübhə ilə yanaşırdılar və müasir qərb sivilizasiyasının süqütuna dair fikirlərlə çıxış edirdilər. Bu istiqamətin ən görkəmli nümayəndələrindən olan K.Yaspers "Atom bombası və bəşəriyyətin gələcəyi" adlı əsərilə çıxış etmişdi.

XX əsrin 70-ci illərinədək Kann və Venerin "2000-ci il" əsəri futuroloqların diqqət mərkəzində idi. Lakin 60-cı illərin ortalarında "gələcəyin tarixi" ilə keçmişin tarixinin uyğun şəkildə öyrənilməsi cəhdləri nəticəsində artıq 70-ci illərdə futurologiya öz mənasını dəyişdi. 60-cı illərdə başlanan siyasi böhran zəncirvari şəkildə sosial, siyasi və ideoloji dəyişikliklərə və antifuturoloji fikirlərin genişlənməsinə şərait yaratdı. İlk *antifuturoloji dalğa* təbii mühitin çirklənməsi ilə əlaqədar olaraq dünya ictimaiyyətinin həyəcanı əsasında genişləndi. Bu dövrdə ekoloji böhranla bağlı minlərlə kitab nəşr olundu və təbiətin qorunması ilə bağlı istifadə olundu. 1971-ci ildə R.Folk "Bizim planetimiz təhlükədədir" adlı əsərində ekoloji təhlükə ilə bağlı həyəcan təbili çalırdı. Aydın oldu ki, postindustrial cəmiyyət ideal cəmiyyət olmayacaq.

Antifuturoloji dalğanın ikinci inkişaf mərhələsi XX əsrin 70-ci illərində başlandı. Bu dövrdə təbiətin çirkləndirilməsi səbəbləri və günahkarları axtarılmağa başlandı. Energetika sənayesinin inkişafı, neft, qaz və kömür ehtiyatlarının yandırılması, milyonlarla hektar meşələrin qırılması; kənd təsərrüfatı sahələrinin tutulması, suyun, havanın zəhərlənməsi, nəqliyyat, urbanizasiya prosesinin sürətlənməsi və s. ekoloji böhranın əsas səbəbi kimi göstərilirdi. Problemlə əlaqədar olaraq, "texnologiyanın qiymətləndirilməsi" kampaniyası yaradılmışdı. Bu dövrdə amerika futuroloqları M.Serton və B.Batrokun "Dinamik mühitdə texnologiyanın qiymətləndirilməsi" kitabı nəşr edilmişdi. XX əsrin 70-ci illərinin ortalarında birinci və ikinci antifuturoloji istiqamət birləşmişdi. Qərbdə bu dövrün əsas şüarı "futurologiyasız müasir texnologiya" idi. Antifuturalist istiqamətin üçüncü mərhələsi ikinci mərhələ ilə təxminən eyni vaxtda başlanmışdı. Bu istiqamət sürətli siahlanma, kütləvi məhvetmə ilə bağlı atom, kimyəvi, bakterioloji silahların inkişaf etdirilməsi, təbii mühitin çirkləndirilməsi, demoqrafik və informasiya partlayışı və çox sayda böhranlara səbəb olan elmi-texniki tərəqqiyə qarşı çıxırdı. Bu istiqamətin tərəfdarları alimləri elmdən yanlış istifadə etməkdə günahlandırırdılar və "elmi ləğv etmək" şüarı ilə çıxış edirdilər. C.Plattanın "İnsana doğru addım" əsərində bu fikirlər inkişaf etdirilirdi.

Bu təzyiqlər nəticəsində futurologiyanın siması dəyişməyə başladı. Futuroloji əsərlərdə artıq gələcək ideal olan kimi təsvir edilmirdi, gələcək inkişafla bağlı mümkün ekoloji böhranlar, texnoloji təsir və s. nəzərə alınmağa başlandı. Atrıq bu istiqamətin görkəmli nümayəndəsi olan Q.Kannın əsərlərində də gələcəyə yeni yanaşma öz əksini tapırdı. D.Bell postindustrial cəmiyyət nəzəriyyəsinə yeni əlavə və düzəlişlər etmiş oldu. D.Bellin 1973-cü ildə nəşr olunmuş "Postindustrial cəmiyyətin yaxınaşması: sosial proqnozlaşdırmaya ekskurs" əsərində yeniliklər öz əksini tapmışdı: kapitalizm və sosializm arasındakı prinsipial fərqlər nəzərə alınırdı, hər adambaşına düşən Ümümi Milli Məhsulun inhisarı inkar edilirdi, bəşəriyyət qarşısında duran təhlükələrin

ciddiliyi etiraf edilirdi. D.Bell 1976-cı ildə nəşr edilmiş kitabında belə bir nəticəyə gəlirdi ki, "*sonda kapitalizm özü-özünü məhv edəcək*". Bell sosial prosesləri səmərələşdirmək üçün dinə müraciət etməyə üstünlük verirdi.

A.Toffler 1970-ci ildə "Futuroşok" adlı əsərində elmi-texniki inqilabın bəşəriyyəti tənəzzülə apardığını göstərirdi. Həyatın sürəti artır, paltar, ev şəraiti, avadanlığı, insanın mühiti əvvəlki dəyərini itirərək dəyişir. İnsanın nüfuzu onu əhatə edən əşyaları dəyişmə imkanlarına görə müəyyənləşir, istifadə edilən əşyalar hökmranlğa başlayır. Ata evinin mahiyyəti itir, ailə və nigah, dostluq institutları dağılır, cinayətkarlıq, narkomaniya, kütləvi mənəviyyatsızlıq genişlənir. Sürətlə yaranıb dağılan komitələr, mərkəzlər, komissiyalar, institutlar, korparasiyalar formalaşır və iqtisadiyyat, siyasət və mədəniyyətin inkişafına təsir edir. Sabit idarəçilik təşkilatları əvəzində problemli idarəçilik təşkilatları yaranır. Mövcud bürokratik və pulokratik idarəçilik əvəzində cari vəziyyət üçün nəzərdə tutulan "adxokratiya" və "ad (reklam) xok komitələri" yaranır və onları prezident və direktorlar deyil, "bir saatlık xəlifələr" idarə edirlər. KİV – mətbuat, radio, televiziya insanların kütləvi kütləşdirilməsi, manipulyasiyası vasitələrinə çevrilir. İncəsənət dəyişkən dəb vasitəsinə çevrilir. Elm insanların kütləşdirilməsinin və manipulyasiyasının elmi əsaslarını işləməyə başlayır, homo sapiens kibernetik orqanizmə çevrilməyə başlayır. Belə bir şəraitdə insan gələcəklə toqquşaraq futuroşok vəziyyətinə düşür. Tofflerin qeyd etdiyi kimi, bütün bunlar hələ başlanğıcdır. Gələcək mənfi nəticələrin qarşısını almaq üçün –

1) gələcəyi tədqiq etmək, proqnozlaşdırma - məqsədli ehtimallaşdırma – planlaşdırma – proqramlaşdırma – layihələşdirmə - idarəetmə vahid sistemdə inteqrasiya edilməlidir;

2) məktəblərdə, universitetlərdə, KİV ilə, insanları elmi-texniki inqilabın nəticələrilə tanış edərək, onların gələcəyə uyğunlaşmasını asanlaşdırmaq lazımdır;

3) gələcək üçün süni meydan hazırlamaq məqsədilə sosial eksperimentləri genişləndirmək lazımdır.

Tofflerin bu fikirləri uzun müddət mühakimə olunmuşdur.[80]

XXI əsrdə texnologiyaların inkişafının sosial rifaha təsirini araşdıran texno-optimist tədqiqatçılar müsbət nəticələrə əmindirlər. Onlar qeyd edirlər ki, texnologiyanın inkişafı cüzi mənfi nəticələrə malik ola bilər, lakin bu vəziyyət elə texnologiyalar vasitəsilə də aradan qaldırılacaq.[81]

Hazırda "*texnooptimizm sosial tərəqqi prosesində yaranan problemlərin və ziddiyyətlərin müzakirəsində texniki nailiyyətlərin və bütövlükdə elmi-texniki tərəqqinin ali əhəmiyyət kəsb etdiyi bir ideologiya, istinad çərçivəsidir. Texnopessimizm ideologiyasına ...görə isə elmi-texniki tərəqqi və onun nailiyyətləri cəmiyyətlə təbiət arasındakı münasibətlərdə tarazlığın pozulmasının, ekoloji, resurs, sosial sərvət və s. ilə bağlı problemlərin geniş mahiyyət qazanmasına səbəb olmuşdur*".[82]

Onu əminliklə qeyd edə bilərik ki, tətbiqi sahəsindən asılı olaraq texnoloji inkişaf qlobal hakimiyyətin yaradıcısına və təsir qüvvəsinə çevrilmişdir. Elmi texniki tərəqqinin nailiyyəti olaraq formalaşan sputniklər internet şəbəkələrinin yaranmasına və şəbəkəli virtual münasibətlərin formalaşmasına əsas olmuşdur. İnternet şəbəkələri dünyanın qloballaşma imkanlarını sürətləndirmiş, qlobal virtual münasibətlərin formalaşmasına və genişlənməsinə əsas olmuşdur. Yeni məkanda müxtəlif aspektlili

---

[80] Бестужев-Лада И.В., Наместникова Г.А. Социальное прогнозирование. Курс лекций. М.: Педагогическое общество России. 2001. (Məmmədova S.D. Sosial proqnozlaşdırma və layihələşdirmə. Bakı: Elm, 2009, 292 s. URL: https://ebooks.az/az/book/poR4Ie3V)

[81] Danaher, J. (2022). Techno-optimism: an analysis, an evaluation and a modest defence. Philosophy &Technology, 35(54), 8.
https://doi.org/10.1007/s13347-022-00550-2
(PDF) What is Techno-Optimism?. Available from:
https://www.researchgate.net/publication/361975237_What_is_Techno-Optimism [accessed Nov 21 2024].

[82] Chumakov Alexander. Technooptimism, technopessimism.
https://www.researchgate.net/publication/292155355_TECHNOOPTIMISM_TECHNOPESSIMISM

yeni münasibətlər həm real, həm də virtual məkanda müvafiq sosial problemlərin formalaşması ilə müşayiət olunur və artıq qlobal sosial problemlər xarakteristikası qazanaraq, qısa zaman ərzində qlobal təhlükə və təhdidə çevrilir.

Texnoloji imperializm konsepsiyasını irəli sürən müəlliflər onun bir qolu kimi Elmi imperializm haqqında məlumat verirlər. Elmi imperializm dedikdə, əsasən elmi biliklərin vahid internet şəbəkədə cəmləşdirilməsi, elmi fikrin dövriyyəsi və idarə edilməsi, elmlə məşğul olan insanların müəyyən standartlara tabe edilməsi və beləliklə də azad yaradıcılıq imkanlarının məhdudlaşdırılması və s. nəzərdə tutulur. İlkin dövrlərdə bu konsepsiya elmin bəşəri inkişafa xidmətinin genişləndirilməsini nəzərdə tuturdu. Lakin hazırda elm özü sanki qlobal texnoloji imperializmin köləsinə çevrilib. Elmi imperializm konsepsiyasının başlıca nəzəri əsaslarından olan "Elmi metodun birləşdirilməsi" nəzəriyyəsinin banisi M.Fridman maddi və qeyri-maddi dünya obyektlərinin məcmusunun yaradılması fikri ilə çıxış edirdi.[83]

Hazırda elmi fikirlərin məcmusunu özündə birləşdirən Qlobal internet şəbəkəsi müəyyən mənada elmin qlobal imperializm institutları tərəfindən idarə edilməsinə səbəb olmuşdur. Bu isə elm sahəsində məşğul olan insanların azad fəaliyyətinin məhdudlaşdırılmaslna səbəb olmuşdur. Elmi imperializmin mənfi tendensiyaları aşağıdakılarla bağlıdır:

- məqalələrin nəşrinin ləngiməsi və nəticədə akgtuallığın zəifləməsi;

- milli tədqiqat mədəniyyətinin itirilməsi, plagiat imkanlarının genişlənməsinə səbəb olmuşdur;

-tədqiqat nəticələrinin təqdim edilməsinin indeksləşdirilmiş məlumat bazalarının tələblərinə

[83] Friedman M. Explanation and Scientific Understanding //Journal of Philosophy. 1974. Vol. 71. No. 1. P. 5–19. 13. Friedman N. L. New Orders and Old: Historians, Educationists, and the Dynamics of Academic Imperialism // The American Behavioral Scientist. 1965. October. P. 24–29.

uyğunlaşdırılması, elmin və alimin fəaliyyətinin manipulyasiyasının başlıca vasitəsi kimi çıxış edir.

Elmi imperializm konsepsiyasının aparıcı nümayəndələrindən olan P.Kitçer elmi metodların üfüqi genişləndirilməsinin zəruriliyi fikrini inkişaf etdirmişdir. C.Düpre M.Fridman və P.Kitçer isə ümumiyyətlə elmi imperializmin məhud tətbiq imkanlarını şərh edərək, göstərirdilər ki, elmi anlayışların standartlaşdırılması nəticəsində elmi biliyin təhlili imkanları daralır, bu, elmi anlayışlar bazasının fənlərarası xüsusiyyətinin artırılmasını tələb edir.

Elmi imperializmi texnoloji və texniki imperializmin manipulyativ vasitəsi kimi görən S.Klark və A.Uolş onun siyasi imperializmlə oxşar xüsusiyyətlər əxz etdiyini və hətta siyasi imperializmin köləsinə çevrilsiyini sübut etməyə çalışırlar.[84]

U.Makki elmi imperializmin üç kateqoriyasını müəyyən etmişdir:

- domen imperializmi (ekspansionist intizam başqa bir disiplin sahəsinə aid hadisələri izah etməyə çalışır);
- üslub imperializmi (bir fənnə xas olan tədqiqat metodları, standartları və üslubları digər fənlərə ötürülür);
- imperializm mövqeyi (akademik nüfuz, güc, resurslar, bir fənnin texnoloji aktuallığı digər fənlərə ötürülür).[85]

U.Makkinin fikirlərinə əlavə olaraq qeyd edə bilərik ki, əslində elm bir tərəfdən bəşəriyyətin idarə edilməsi mənbəyinə çevrilir, müxtəlif texnologiyaların tətbiqi elmin əhəmiyyətini, zəruriliyini nümayiş etdirir.

Digər tərəfdən isə, elmi yaradıcılıq texniki vasitələrlərlə məhdudlaşdırılır və texnoloji manipulyasiyası baş verir. Məsələn, müdafiə zalında ekspert komissiyanın bütün üzvlərinin iştirak

[84] Clarke S., Walsh A. Scientific Imperialism and the Proper Relations between the Sciences // International Studies in the Philosophy of Science. 2009. Vol. 23. No. 2. P. 195–207.
[85] Maki U. Scientific Imperialism: Difficulties in Definition, Identification and Assessment // International Studies in the Philosophy of Science. 2013. Vol. 27. No. 3. P. 325–339.

etməsinə baxmayaraq texnoloji vasitələr müəyyən məhdudiyyətlər yaradaraq onların işini ləngidə və bir sözlə manipulyasiya edə bilər.

Eyni zamanda müxtəlif elm sahələrində metodiki və metodoloji əsasları möhkəmləşdirmək və təkmilləşrimək imkanları açan elmi texniki tərəqqi sanki özü-özünü istehsal edən bir sistemə çevrilir. Bir tərəfdən müxtəlif elm sahələrinin inkişafını stimullaşdırılır, digər tərəfdən isə bu inkişafı özündən asılı vəziyyətə salır. Məsələn, elm və texnikanın "nailiyyəti" olan süni intellektlə idarə olunuan müxtəlif tipli silahlarla öldürülən insanlar həmin elmi-texniki tərəqqinin nailiyyətləri olan tibbi vasitələrlə müalicə olunurlar.

Elmi-texniki tərəqqinin nailiyyətləriundən yararlanma imkanları müxtəlif ölkələrdə fərqlidir. Belə ki, yeni kəşf edilən texnologiyalar və texniki vasitələrin əlçatanlığı baxımından sosial bərabərsizlik dərinləşir. Varlı Şimal ölkələri sosial rifahın yüksəldilməsi məqsədilə elmin bütün sahələrində əldə edilən nailiyyətləri mənimsəyirlər. Kasıb Cənub ölkələrinə yalnız müəyyən tarazlığın saxlanması məqsədilə bu nailiyyətlərdən qismən yararlanma imkanları yaradılır. Bu da müasir "elmi imperializm"in başlıca xüsusiyyəti kimi təzahür edir.

P.Vilmshurst "Elmi imperializm" adlı məqaləsində "elmi imperializmin" əsaslı bir istiqamətini şərh edir. O, tibbi tədqiqatların nəticələrinin inkişaf etmiş ölkələrin sakinləri üzərində sınaqdan keşirildiyini, nəticə müsbət olarsa əldə edilən "nailiyyətin" kasıb insanlar üçün əlçatanlıq imkanlarının sıfıra endirildiyini bildirir. Digər tərəfdən – "*...inkişaf etməkdə olan ölkədəki yoxsul insanlara təhlükəli dərmanın mənfi təsirləri varsa, beynəlxalq dərman şirkətinin məhkəməyə verilməsi ehtimalı yoxdur. Əgər məhkəməyə müraciət etsələr, məhkəmə xərcləri inkişaf etmiş dünyadakından az olacaq. Hindistan hökuməti xarici təşkilatlar tərəfindən yalnız Hindistan subyektləri üzərində aparılan yeni və ya sübut olunmamış müalicələrin sınaqlarına daha dözməyəcəyini elan etmişdir. ...İnkişaf etməkdə olan ölkələrdə bəzi təcrübələrdə xəstələrin iştirakdan imtina*

*etməsi çətin olur. İnkişaf etmiş dünyada xəstələrin əksəriyyəti təsadüfi sınaqlarda iştirak etməkdən imtina edə və bunun əvəzinə ən yaxşı sübut edilmiş müalicəni seçə bilər. İnkişaf etməkdə olan ölkələrdə sınaqda iştirak etmək hər hansı müalicə almaq üçün yeganə şans ola bilər*”.[86]

“Elmi imperializmin” digər bir istiqaməti “beyin axını” problemi ilə bağlıdır. Kasıb ölkələrdən “beyin axınına” şərait yaradan Qərb ölkələrinin başlıca məqsədi Şərqi özündən asılı və daha zəif vəziyyətdə saxlamaqdır. Məhz “beyin axını” və elmi kəşflərin Qərbdə mərkəzləşdirilməsi prosesi “elmi imperializmin” başlıca amilləridir.

“Elmi imperializm”in digər bir istiqaməti isə elmi tədqiqatların nəzarət altında saxlanılmasıdır. Belə ki, müxtəlif istiqamətli elmi tədqiqat işlərini, həmçinin ölkələrin elmi inkişaf imkanlarını idarə etmək məqsədilə müxtəlif indeksləşdirilmiz bazalar yaradılır və bütün tədqiqatların burada yerləşdirilməsinə təşviq edilir. “Akademik bazalar” tərəfindən tədqiqatlarla bağlı irəli sürülən tələblər yenilik kimi təqdim edilsə də, əslində lazımi informasiyanın mənimsənilməsi və məqsədəuyğun şəkildə istifadə edilərək tətbiqinə yönəlir.

Dupré bu prosesi belə izah edir: “*Elmi imperializm dedikdə, mən uğurlu elmi ideyanın öz ilkin məskənindən çox-çox kənarda tətbiq olunma meylini nəzərdə tuturam və ümumiyyətlə, uğurun azalması ilə onun tətbiqi daha da genişlənir*”.[87]

Duprenin fikirlərindən belə qənaətə gəlmək olar ki, bəşəriyyətin tərəqqisinə səbəb olan hər hansı bir elmi kəşf elmi imperializmin genişlənməsinin başlıca amilidir. Bu mənada rəqəmsal texnologiyaların inkişafı və qlobal miqyasda tətbiqi,

---

[86] Wilmshurst P. Scientific Imperialism: poor people in the developing world should not be used in research if they do not benefit from the findings // Biological Medical Journal. 1997. Vol. 314. P. 840.
[87] Uskali Mäki. Scientific Imperialism: Difficulties in Definition, Identification, and Assessment // https://tint.helsinki.fi/maki/materials/MakiScImperialismISPS3sept2012.pdf

həmçinin süni intellektlə bağlı əldə edilən nailiyyələr elmi imperializmin genişlənməsinə və dərinləşməsinə səbəb olmuşdur.

Digər tərəfdən, "elmi imerializm" qlobal bazarın yeni istiqaməti kimi inkişaf edir. Artıq "beyin axını" ilk dövrlərdəki kimi aktual deyil. Yaradılan indeksli bazalarda elmi nəticələrin yerləşdirilməsi bir tərəfdən kəşfiyyat xarakteri daşıyır, digər tərəfdən isə "akademik bazarın" formalaşmasına gətirir. Belə ki, ayrı-ayrı ölkələrin elmi tədqiqat mərkəzlərinə edilən beynəlxalq təzyiqin nəticəsi olaraq, elmlə məşğul olan insanlar ödənişli əsaslarda indeksləşmə bazalarında qeydiyyata alınan jurnallarda çap olunmaq məcburiyyətində qalırlar. "Akademik imperializm" eyni əsaslarda sosial bərabərsizliyin dərinləşməsinə, elmin alqı-satqı obyektinə çevrilməsinə səbəb olur. Bu gün elmi araşdırma bacarığı olmayan, lakin sifarişlə yazılan əsərləri və s. almaq üçün böyük maddi imkanlara malik olan "alimlər təbəqəsi" formalaşmış və qlobal xüsusiyyət qazanmışdır. Belə ki, müxtəlif saytlar elmi işləri yazmaq təklifini irəli sürən reklamlarla zəngindir. Bu bir tərəfdən elmin kommersiyalaşmasının qloballaşdırıldğını nümayiş etdirir, digər tərəfdən isə "sifarişlə yazılan elmi işlər" bazarının yarandığını və geniş miqyas aldığını, həmçinin "leqallaşdırıldığını" göstərir.

E.Popo, N.Popova, D.Kochetkov "Elmi imperializm haqqında" adlı məqalədə "elmi imperializmin" ümumiləşdirilmiş xüsusiyyətlərini aşağıdakı cədvəldə təqdim edilər:

**Cədvəl. Elmi imperializm institutlarından istifadənin mənfi nəticələri**[88]

| **Elmi imperializmin institutları** | **Mənfi nəticələr** |
|---|---|
| İngilis dilində Elmi Nəşrlər İnstitutu | – "İngiliscə səslənən" soyadlı müəlliflərə daha sadiq münasibət; – Anglofon cəmiyyətlərinə aid mövzulara maraq; – müəlliflərin əlyazma- |

[88] Попо Е., Попова Н., Кочетков Д., «О «Научном империализме» // Общество и Экономика, № 6, 2017 , стр. 106=123

| | |
|---|---|
| | larının nəşr şansını artırmaq üçün ingilisdilli mənbələrə istinad etmək istəyi. |
| Elmi Materialların Təqdimatının Standartlaşdırma İnstitutu | mürəkkəb elmi problemləri həll edərkən yaradıcılıqdan yayınma; – problemin formalaşdırılması və səbəb-nəticə əlaqələrinin müzakirəsi zərərinə tədqiqat prosedurunun təsvirinin üstünlük təşkil etməsi; – məqalələrin mətninin mədəni özünəməxsusluğunun itirilməsi. |
| İki Dünya Verilənlər Bazasında Məqalələrin İndeksləşdirilməsi İnstitutu | ingilisdilli olmayan jurnallardan məqalələrin indeksləşdirilməsinin ayrı-seçkilik xarakteri; bir sıra elmi sahələrdə jurnallardan məqalələrə sitat gətirmək hüququnun pozulması. |

Göründüyü kimi müəlliflər “elmi imperializmin” institulaşması xüsusiyyətlərini şərh etməyə çalışırlar.“Elmi imperializmin” başlıca xüsusiyyətlərindən biri də elmi camiyyənin əməkdaşlığının genişlənməsinə səbəb olmasıdır. Bu əməkdaşlığın intensivləşməsi elmin və elmi biliklərin mübadiləsinə geniş zəmin yaratmışdır. Elmi imperializm texnoloji imperializmin başlıca mahiyyətini ehtiva etməklə yanaşı, həm də manipulyativ gücünün daha da artmasını nümayiş etdirir.

# AĞILLI CƏMİYYƏT, YOXSA QLOBAL MANİPULYASİYA: ANTİ VƏ YA ALTER QARŞIDURMALAR

Rəqəmsal xarakter alaraq, daha dərin nüfuzetmə xüsusiyyətlərinə malik olan rəqəmsal/texnoloji imperializmin başlıca məqsədi qlobal manipulyasiya sistemi vasitəsilə daha müti təbəələr və istehlakçılar yaratmaq, daha çox mənfəət əldə edərək, qlobal səviyyəli sosial bərabərsizlik formalaşdırmaqdır. Müasir dünyada texnologiyalara daha çox çıxışı olan, rəqəmsallaşmış cəmiyyətlər və dövlətlər dünyanı manipulyasiya edirlər və müəyyən mənada özləri daha çox manipulyasiyaya məruz qalırlar. Bu əsasda rəqəmsallaşmanın qloballaşmaya yeni çalarlar qatdığını və ya qlobal əlaqələr torunu daha da sıxlaşdırdığını, qlobal kommunikasiyalara yeni məzmun bəxş etdiyini söyləmək olar.

Prof. İlham Məmmədzadə qloballaşmanı "*kommunikasiyaların... ...cəmiyyətin sosial və digər transformasiyalarında rolunu..., ...ideyalar mübadiləsinin sürətləndirilməsini şərtləndirən*" proses kimi izah edərək, vurğulayır ki, qloballaşmanın yeni məzmunu "*keçmişin mahiyyətinə və cəmiyyət, xalq və millətlərin təşəkkülü prosesinin tədqiq olunması üsullarına münasibəti kökündən dəyişir*". İ.R.Məmmədzadə qloballaşmanın identikliklə bağlı yaratdığı ziddiyyətləri izah edərkən, mədəni mübadilənin özünütəyinetməyə təsiri xüsusiyyətlərini şərh edir.[89]

Qloballaşmanın milli identikliklərin aradan qaldırılması və standart düşünüən, danışan, dünyagörüşünə malik olan cəmiyyətlər yaratmaqla bağlı olan başlıca mahiyyəti qlobal manipulyasiya prosesinin sürətləndirilməsini ehtiva edir. Qloballaşmanın dərinləşməsinə səbəb olan rəqəmsallaşma və süni

[89] Məmmədzadə İ.R. Süni intellektin arixi-mədəni epistemologiya kontekstində tətbiqi xüsusiyyətləri. // Müasir fəlsəfə, süni intellekt və qeyri-səlis məntiq.Bakı: Elm və Təhsil, 2022, s.272 (364 s.)

intellekt mədəni mübadiləni sürətləndirir. İlk dövrdə GPS-lər vasitəsilə insanların idarəçiliyini nəzərdə tutan rəqəmsal cəmiyyətlərdə insanların və süni intellekt daşıyıcısı olan robotların milli özünütəyini və ya identifikasiyası haqda danışarkən hansı göstəricilər əsas götürüləcək? Rəqəmsal cəmiyyətlərdə dəyərlər sistemi, etnik və milli identifikasiya məsələləri yeni anlam alır.

Rəqəmsal cəmiyyətlərdə daha çox fərdin rəqəmsal identikliyi aktuallıq qazanır. Rəqəmsal identiklik fərdi məlumatlarla bağlı olub, hər hansı bir şəxs haqqında ümumi məlumatlar almaq imkanlarını genişləndirir. "*Rəqəmsal identiklik – istifadəçi adları və parollar, axtarış tarixçələri, doğum tarixləri, sosial təminat nömrələri və onlayn satınalmaların qeydlərini əhatə edə bilən şəxsin internetdəki fəaliyyəti ilə əldə edilən məlumatlarının tam spektrindən ibarətdir. Bu cür şəxsi məlumat ictimai domendə əlçatan olduqda, başqaları tərəfindən şəxsin oflayn şəxsiyyətini birləşdirmək üçün istifadə edilə bilər. Bundan əlavə, bu məlumat "data double" yaratmaq üçün tərtib edilə bilər. Data profil insanın müxtəlif platformalarda səpələnmiş rəqəmsal identikliyini – şəxsi məlumatlarını əhatə edir*".[90]

Şəxsiyyətin sosial identikliyi onun mənəviyyatı, dünyagörüşü, baxışlar və münasibətlər sistemi və s. mənəvi-mədəni dəyərlərini əhatə etdiyindən əsasən real sosial münasibətlər sistemində təzahür edir. Bu zaman biz şəxsin etnik və milli identikliyinin təzahürü olan mədəni ünsiyyət xüsuiyyətlərini də müşahidə edir və bundan əyani şəkildə təsirlənə bilirk.

Lakin rəqəmsal identiklik yalnız data göstəricilərlə bağlı olduğundan fərdin real şəxsi keyfiyyətləri və identikliyi haqda məlumat verə bilmir. Bununla belə, data göstəricilərdə əksini tapan məlumatlar, fərdin nailiyyətləri onun məqsəd və hədəflərini

[90] Jones, Kyle M. L. (May 1, 2018)."What is a data double?".Data Doubles. Retrieved May 3, 2023.; Haggerty, Kevin D.; Ericson, Richard V. (December 2000). The surveillant assemblage (PDF).// British Journal of Sociology.51(4): 606–618.

müəyyən etməyə, rəqəmsal psixoloji portretini qurmağa imkan yaradır.

Qloballaşma və onun gətirdiyi müxtəlif yönlü (fərdi, sosial, qlobal və s.) problemlərin araşdırılması və həlli yollarının tapılması istiqamətində ilk tədqiqatlar hələ XX əsrin 90-cı illərində Roma klubunun nümayəndələri tərəfindən aparılmışdır. Qloballaşmanın ideoloqları olan bu mütəfəkkirlər eyni zamanda anti qlobal hərəkatın da metodoloqları hesab edilə bilərlər. Roma klubunun yaradıcısı A.Peççei qloballaşma prosesinin mahiyyətini izah edərkən qeyd edirdi ki, "*insan minlərlə saplarla digər insanlarla bağlıdır, onun indiki vəziyyəti gələcəyini müəyyənləşdirir*". A.Peççei qloballaşmanın mənfi tərəfləri ilə bağlı belə nəticəyə gəlirdi ki, planetin ölçülərinin sonlu olması insanın təbiəti istismarı hədlərini müəyyən etməyi tələb edir. A.Peççeiyə görə, insanın inkişaf hədləri problemi mahiyyətcə mədəni problemdir və bəşəriyyət tədricən ümumi istehlak cəmiyyətindən mühafizə cəmiyyətinə keçməlidir, sənayenin məhdud inkişafı zəruridir və mümkündür. Bu məqsədlə böyük gəlirə malik olan zəngin dövlətlərlə kasıb ölkələr arasındakı bərabərsizliyi azaltmaq lazımdır. Bunun üçün bütün cəhdlər insanın mahiyyətini və bu yolla da sivilizasiyanı dəyişməyə yönəlməlidir. A.Peççei bu istiqamətdə bütün planetin sakinlərinin insani xüsusiyyətlərinin daha da yaxşılaşdırlmasına yönəlmiş yeni humanizmin yaradılmasını təklif edirdi. O, insanı, onun həyat tərzini, əsas diqqət mərkəzinə çəkməyin tərəfdarı idi və əmin idi ki, yeni dünya nizamı da məhz insanın mənəvi keyfiyyətləri və bacarıqlarından asılı olaraq formalaşacaq. A.Peççeiyə görə, insanın tərəqqipərvər inkişafı və onun insani keyfiyyətlərinin yaxşılaşdırılması insanın özünə və ümumiyyətlə insana, onun rolu və məsuliyyətinə radikal yanaşmağa şərait yaradacaq və insana öz gələcəyini rasional şəkildə planlaşdırmağa kömək edəcək.[91]

XX əsrin 80-cı illərində Roma klubunun məhdud inkişaf konsepsiyası üzvi inkişaf və fasiləsiz inkişaf konsepsiyası ilə əvəz olundu. Yeni modeli əsaslandırmaq üçün D.Medouz,

[91] Печчеи Аурелио. Человеческие качества. Москва: Прогресс,1980 304 с.

M.Mesaroviç və başqaları qeyd edirdilər ki, hissənin (hər hansı bir ölkənin, regionun) inkişafı yalınz o, digər hissələrə (ölkə və regionlara) zərər vermədiyi halda mümkün ola bilər. Məhz bu ideya qlobal problemlərin həlli strategiyasının əsası olmuşdur. Beləliklə, inkişaf etmiş ölkələr bəşəriyyətin qalan hissəsinin fəaliyyəti üçün əsas modelə çevrilməlidir. Əslində Roma klubunun ekoloji problemlərin həlli ilə bağlı təklif etdiyi konsepsiya kosmopolitizm və müəyyən mənada qlobalizm ideologiyasının yayılmasına şərait yaratmış oldu . Roma klubu güman edir ki, vahid dünya dövləti, yaxud vahid dünya hakimiyyəti bütün müasir qlobal problemlərin həli ilə bağlı məsuliyyəti və nəzarəti öz üzərinə götürə bilər. Roma klubunun üzvləri qlobal problemlərin həlli məqsədilə beynəlxalq əməkdaşlığın genişləndirilməsini təklif edirlər, lakin bu əməkdaşlıq inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələr üzərində imperiya ağalığının qurulmasına gətirməməlidir.[92]

Roma klubunun tədqiqatları qlobal problemlərin həlli istiqamətində yeni cərəyanların yaranmasına səbəb olmuşdur. Onların araşdırmaları sırasında qloballaşmanın ekologiyaya, ayrı-ayrı ölkələrin təbiətinə mənfi təsiri məsələlərinin araşdırılması olmuşdur. Digər tərəfdən Roma klubu nümayəndələri müharibələrin mahiyyəti, qlobal problemə çevrilməsi və qlobal problemlərin tipologiyasının genişlənməsinin başlıca səbəbi olması məsələlərilə bağlı müxtəlif ölkələrdə əhatəli tədqiqatlar aparmışlar.

Qlobal ekoloji problemlərin həlli, təbii-ekoloji mühitin qorunub saxlanması istiqamətində qloballaşmaya qarşı aktiv fəaliyyəti ilə seçilən digər QHT-larından biri də Yaşıllar hərəkatı olmuşdur. Bu təşkilat qlobal tədbirlərlə bağlı 3 əsas konsepsiyasını irəli sürür:

- təbii sərvətlərin tükənməzliyi konsepsiyasından onların sonlu olması konsepsiyasına keçid;
- təbiətin və cəmiyyətin inkişafı üst-üstə düşməlidir;

[92] Яковец Ю.В. Глобализация и взаимодействие цивилизаций. Москва: ЗАО "Изд-во "Экономика"", 2003. 441 с.

- insanlar özlərinin süni deyil, təbii mövcudluqları üçün şəraitin yaradılmasına yönəlməlidirlər.

Yaşıllar hərəkatının üzvləri qlobal problemlərin həlli ilə bağlı öz konkret təklifləri ilə çıxış edirlər. Onlar silahlanmanın qarşısının alınması, sülhün qorunması məqsədilə kompleks analizin aparılmasını və bu əsasda praktik ölçülərin götürülməsini təklif edirlər. Yaşıllar hərəkatının nümayəndələrinin fikrincə, qlobal xüsusiyyət almış müharibə probleminin həlli məqsədilə polemologiya elmi inkişaf etdirilməlidir.[93]

Polemologiyanın ideya mənbəyi fransız alimi Q.Butulun tədqiqatları olmuşdur. Bu istiqamətin inkişafında müasir tədqiqatçılar R.Karrer, J.Frend və digərləri əsaslı rol oynamışlar. Polemologiyanın müasir məktəbləri müharibəni sosial xəstəlik hesab edirlər. Polemologiya nəzəriyyəçilərinin fikrincə, müharibə ölkələrin qarşılıqlı münasibətlərində sosial tarazlığın saxlanması funksiyasını yerinə yetirir. Buna görə də, müharibələrin ləğv edilməsi fikri yanlışdır. Müharibə, sülh və münaqişə məslələrini təhlil edən polemologiya bəşəriyyəti sosial tarazlığı mühafizə etmək yollarını tapmağa yönəldir. Yalnız cəmiyyətin bölünməsinin qarşısının alınması, münaqişə edən müxtəlif siyasi blokların ləğv edilməsi və bütün insanların gələcək inkişafın ümumi məqsədlərini dərk etməsi bəşəriyyəti müharibənin qarşısını almağa yönəldə bilər.[94]

Qloballaşma ilə bağlı tədqiqatlar XX əsrin 90-cı illərində daha geniş vüsət almış oldu. Bunun da başlıca səbəbi İnternetin kütləviləşməsi olmuşdur. XX əsrin 90-cı illəri həm də qloballaşma və qlobal manipulyasiyaya qarşı hərəkatın yeni mərhələsi kimi qiymətləndirilə bilər. Belə ki, bu dövrə qədər əsasən mənəvi, iqtisadi, ekoloji problemlərlə bağlı tədqiqatlar aparılırdısa XX əsrin 90-cı illəri və XXI əsrin ilk onilliyində qlobal manipulyasiya və onun gətirdiyi mənfi sosial proseslərə

[93] Савельева И.М. Альтернативный мир: модели и идеалы. ,М.: Наука, 1990, 207 с.

[94] Шевчук Д. Французская социологическая школа // Мировая экономика. Москва: Litres, 2015. 982 с.

qarşı nəzəri araşdırmaların tətbiqi istiqaməti olaraq antiqlobalistlər hərəkatı formalaşdı.

Antiqlobalizmin ideya rəhbəri Markos "Dünya tapmacasının yeddi amili" adlı əsərində qloballaşmanın yeddi təhlükəli amilini belə təsnif etmişdir:

1. dünya birliyi iki qütbə varlı və kasıblara bölünür;
2. bütöv dünyanın istismara məruz qalması;
3. miqrasiyanın genişlənməsi;
4. qlobal korrupsiyanın formalaşması, cinayət və hakimiyyət arasında əlaqənin genişlənməsi;
5. dövlətin qeyri-qanuni hakimiyyətinin qanuni zorakılığı;
6. meqa siyasətin eybəcərliyi;
7. bəşəriyyətin neoliberalizmə müqaviməti.[95]

Antiqlobalizmin digər ideoloqlarından biri Devid Kortendir. Onun fikrincə, antiqlobalist hərəkatı qloballaşmaya qarşı deyil, neoliberal qloballaşmaya qarşı olub bu prosesi yaxşılaşdırmağa yönəlir.

Antiqlobalizm hərəkatının əsas ideyasını aşağıdakı kimi ümumiləşdirmək olar:

1.İmperializmin yeni forması olan qloballaşma prosesi təkcə fəhlələrin deyil, həm də inkişaf etməkdə olan ölkələrin, etnik azlıqların və bütövlükdə təbiətin istismarına yönəlib.

2.Beynəlxalq təşkilatların destruktiv fəaliyyəti varlı və kasıb ölkələr arasındakı uçurumun dərinləşməsinə səbəb olub.

3.Kapitalist elita beynəlxalq maliyyə təşkilatları və digər dünyəvi təşkilatlar dövlətlər üzərində hakimiyyət əldə ediblər, bu təşkilatlar öz fəaliyyətlərini beynəlxalq konfranslar vasitəsilə əlaqələndirirlər.

4.Amerikanizasiya xalqların Milli özünəməxsusluqlarını, mədəni ənənələrini, yerli iqtisadiyyat və bütövlükdə dövlət universitetlərini məhv edir.

[95] Платонова Е.Д., Мусарский М.М. Всемирное движение за образование для всех как фактор развития мировой экономики. // https://cyberleninka.ru/article/n/vsemirnoe-dvizhenie-za-obrazovanie-dlya-vseh-kak-faktor-razvitiya-mirovoy-ekonomiki

5.Gen mühəndisliyi sahəsindəki elmi tədqiqatlar, heyvanların öyrənilməsi, həmçinin nüvə texnologiyaları bütün bəşəriyyəti təhlükə qarşısında qoyub və insanın bir növ kimi məhv olmasına gətirə bilər.

Antiqlobalistlər qloballaşma prosesinin üç mənbəyini fərqləndirirdilər. İlk növbədə onlar qloballaşmanın genişlənməsində ABŞ-ı günahlandırır və Beynəlxalq valyuta fondu, Dünya bankı, Dünya ticarət təşkilatı vasitəsilə inkişaf etməkdə olan ölkələri özünün neokalonial asılılığına saldığını bildirirdilər. İkinci yanaşmaya görə qloballaşma obyektiv prosesdir və texniki tərəqqi, informasiya inqilabı, beynəlxalq əlaqələrin inkişafı nəticəsində genişlənir. Bu nəticələrdən yalnız Qərbin yüksək inkişaf etmiş ölkələri istifadə edirlər, qalan dünya isə növbəti tənəzzülə məhkumdur. Üçüncü yanaşma isə, bu prosesin bütün dünya ölkələri üçün əhəmiyyətli olduğunu bildirirdi. Qərbi qloballaşmanın xeyrini digər ölkələrlə bölüşməyə məcbur etmək lazımdır, bu isə yalnız kütləvi aksiyalarla mümkündür.[96]

Antiqlobalistlərin baxışları XX əsrdə insan hüquqları konsepsiyası, vətəndaş iştirakı və özünüidarə, anarxizm, sosializm və antiimperializmlə bağlı fərqli demokratik, sol, radikal və alternativ ideyalara, həmçinin ekoloji, müharibə əleyhinə, feminist, mədəni müxtəliflik və s. tərəfdarlarının fikirlərinə təsir etdi. Antiqlobalist hərəkatının formalaşmasında bir sıra tədqiqatçıların böyük təsiri olmuşdur.

Texnoloji imperializmlə mübarizə aparan antiqlobalistlər sosial hərəkatların nəzəriyyəçisi olan Avropa tədqiqatçıları Antonio Negri və Mişel Hardtın irəli sürdükləri "İmperiya" nəzəriyyəsinə söykənirlər. "İmperiya" (2000) adlı kitabda onlar təsdiq edirdilər ki, əslində Milli imperialist dövlətlərin bir-biri ilə mübarizəsi sona çatıb və qloballaşma prosesi "birinci" və "üçüncü" dünya dövlətləri arasındakı sərhədləri aradan qaldırır. Onların fikrincə, yeni qlobal kapital BMT, Böyük səkkizlik,

[96] Денчев К. «Феномен - антиглобализма», издательский дом ГУ ВШЭ, Москва, 2005, стр.40.

Ümumdünya bankı və s. kimi institutları vasitəsilə yeni qlobal müstəmləkə suverenliyi yaradır və ümumdünya istismar sistemini birləşdirir. Bu sistemə mərkəzi iri hakim dairələr, həmçinin kənarlardakı qlobal sahibkarlar daxildirlər. Henri və Hardt antiamerikanizmə qarşı çıxırlar və güman edirlər ki, yaranmaqda olan İmperiyanın vahid mərkəzi yoxdur. Bu baxışlar antiqlobalist hərəkatının fəalları və nəzəriyyəçiləri, həmçinin sollar tərəfindən birmənalı qarşılanmır. 2003-cü ildə İrak müharibəsilə bağlı ABŞ və Böyük Britaniya, Fransa, Almaniya arasında kəskinləşən siyasi ziddiyyətlər "İmperiya" nəzəriyyəsinin mövqeyini zəiflətdi. Antiqlobalistlə mövcud ictimai nizama qarşı müxtəlif altenrnativlər təklif edirdilər. Onların sırasında "vətəndaş cəmiyyətinin möhkəmlənməsi", yaxud "yeni vətəndaşlıq" şüarları məhşurdur. Bu fikrin tərəfdarları vətəndaşların siyasi qərarlar qəbul edilməsi prosesində fəal iştirakını təbliğ edirdilər. Bu təsəvvürlərə görə, vətəndaşlar yaxşı məlumatlandırılmalı və idraklı olmalıdırlar ki, demokratiyanın mövcud mexanizmlərini düzgün istifadə edə bilsinlər və bu əsasda qloballaşmanı nəzarətdə saxlasınlar. "Yeni vətəndaşlıq" fikrinin tərəfdarları əmindirlər ki, antiqlobalist hərəkatın mənbəyi olan ictimai təşkilatlar (QHT) fəal vətəndaş cəmiyyətinin əsas subyekti kimi çıxış etməlidirlər. Xüsusilə də, Kəndli ittifaqı, sosial demokratların, kommunistlərin və trotskistlərin bir hissəsi bu fikri müdafiə edirlər. Bu nəzəriyyənin tərəfdarları olan solçular «partisipat (iştirakçı) demokratiya» ideyasını irəli sürürlər. 2001-ci ildə Port-Aleqrada keçirilmiş Ümumdünya sosial forumunun təşkilatçısı Braziliya sosioloqu Emir Sader qeyd edir ki, "*Milli suverenlik çox zəifləyib. Çıxış yolu Milli suverenliyin ifadəsi kimi əhalinin özünütəyinini möhkəmləndirməkdir. Bu hakimiyyətin və dövlətin siyasi iştirak üslubunda demokratikləşdirilməsidir. Siyasi demokratikləşmə prosesi vasitəsilə mövcud cəmiyyətlərdə kapitalın hakimiyyəti məhdudlaşdırılmalıdır*".

Təqdim olunan modeldə mövcud demokratik sistem və vətəndaşların siyasi qərarların qəbulunda iştirakını birləşdirmək

məqsədilə məsləhət və məşvərət funksiyalı ictimai Şura yaratmaq təklif olunurdu. [97]

Sol antiqlobalistlər isə, siyasi hakimiyyətə və mövcud quruluş daxilində islahatlar keçirilməsinə istiqamətlənməyi rədd edirlər və cəmiyyətin "alternativ" inkişaf yollarının tapılmasına çağırırlar. Sol antiqlobalistlər arasında Şotlandiya sosioloqu John Hollowayın "Hakimiyyətə yiyələnmədən dünyanı dəyişmək" ("Change the World Without Taking Power", 2002) kitabı məhşur idi. Bu kitabda əsas ideya dövlət və kapitaldan asılı olmayan sosial məkanların yaradılması ilə bağlı idi. J.Holloway əmindir ki, reformizm və inqilabçı marksizmin dövlət və hakimiyyəti ələ keçirməklə cəmiyyəti dəyişdirmək haqqındakı fikirləri süqut edib. Dövlət avtoritar struktur olduğu üçün ona inanmaq düzgün deyil. Hakimiyyətin canı dövlət deyil, azad olmayan, özgələşmiş kapitalist sosial münasibətlərdir və bu münasibətlər mövcud olduğu müddətdə adi hakimiyyət dəyişməsi cəmiyyətdə heç bir şeyi dəyişməyəcək. J.Holloway marksizmin "elmilik" və "elmi həqiqət"lə bağlı iddialarını tənqid edir. Onun fikrincə, bu avtoritar təcrübənin əsasıdır və bu əsasda istismar olunanlar bilikli olanlara (avanqard partiyalar və ya liderlər) və qeyri-düzgün şüurlu olanlara (kütlə) bölünürlər. Bu əsaslarda xalqın manipulyasiya edilməsi və yeni iyerarxiya yaranır. J.Holloweyə görə, kapitalist və ictimai münasibətlər yalnız alternativ sosial təcrübə yolu ilə dəyişdirilə bilər və bu sosial təcrübəni yalnız istismar olunanlar özləri müqavimət və özünütəşkilatlandırma, insanların yaradıcı qüvvəsini və "insan potensialını azad etmək uğrunda mübarizə aparmaq"la əldə edə bilərlər. Sistemə qarşı mübarizə prosesində hakimiyyət münasibətlərinə xidmət etməyən kooperasiya münasibətləri, həmrəylik əlaqələri yaranır. Müəllif bu yerli səviyyəli özünütəşkilatlandırma və qarşılıqlı kömәkdə ictimai "əks hakimiyyət" təzahürləri görür. [98]

[97] Emir Sader. The weakest link? Neoliberalism in Latin America. https://newleftreview.org/issues/ii52/articles/emir-sader-the-weakest-link-neoliberalism-in-latin-america

[98] Holloway John. Crack Capitalism. London: Pluto Press. 2010p. 133.

Qlobal inteqrasiyanın manipulyasiya vasitəsinə çevrilməsinin əleyhinə olan anti-qlobalistlər müəyyən məqamlarda uğur əldə etsələr də, XXI əsrdə texnoloji tərəqqi və süni intellektin tətbiqi qlobal idarəetmə imkanlarının dönməz olduğunu və beləliklə də, zənginlər və kasıblar dünyası arasındakı fərqlərin və sosial bərabərsizliyin dərinləşməsinə səbəb olduğunu deməyə əsas verir.

Müxtəlif istiqamətli qlobal manipulyasiyanın qarşısının alınmasına çalışan antiqlobalistlər 1990-cı illərdən başlayaraq dünyanı qlobal bazara çevirən qüvvələrə qarşı geniş qarşıdurma hərəkatına başladılar. Neoliberal mövqe tutan antiqlobalistlər zəngin ölkələrin yoxsul ölkələri öz nəzarətlərində saxlayaraq inkişaflarına mane olma cəhdlərinə qarşı idilər. Kasıb ölkələrin ərazilərini müxtəlif məqsədlərlə istifadə, işğal və ilhaq etməyə çalışan inkişaf etmiş dövlətlər həmin ölkələrdə “demokratiya” ideologiyasını psixoloji manipulyasiya metodları ilə ictimai şüura qəbul etdirirdilər. Qərbli “demokratlar” inqilablar, münaqişə və müharibələrlə müəyyən inkişaf mərhələsində olan ölkələrin zəifləməsinə və “qlobal bazara” qoşulmasına, “qlobal istehlakçıya” çevrilməsinə çalışırdılar. Bu zaman onlar özlərinin texnoloji üstünlüklərindən yararlanırdılar.

Neoliberalların görkəmli nümayəndələrindən olan Noam Chomsky hələ 2002-ci ildə texnoloji imperializmin qlobal manipulyasiya və qlobal idarəetmə cəhdləri ilə bağlı demişdi: *“Qloballaşma” termini – “güclülər tərəfindən, təsadüfi insanların maraqlarına və investorların hüquqlarına əsaslanan beynəlxalq iqtisadi inteqrasiyanın xüsusi forması kimi mənimsənilmişdir”.*[99]

Müasir dövrdə qloballaşma prosesinin, həmçinin qlobal bərabərsizliyin genişlənməsində BMT, «Böyük səkkizlər» (1997-ci ilədək Böyük yeddilik), Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Ümumdünya Ticarət Təşkilatı, Şimali Atlantika Sazişi Təşkilatı, Neft İxrac edən Ölkələr Təşkilatı kimi rəsmi

[99] Noam Chomsky Znet May 07, 2002 / The Croatian Feral Tribune April 27, 2002 "ZNet | Terror War | Noam Chomsky Interviewed".

səlahiyyətli təşkilatlarla yanaşı, Beynləxalq Qırmızı Xaç Komitəsi, Beynəlxalq Olimpiya Komitəsi, Ümumdünya Həmkarlar Federasiyası, Roma klubu, Qrinpis və digər qeyri-hökumət təşkilatları əsaslı rol oynaır. Bununla yanaşı qloballaşmanın sosial, iqtisadi, siyasi-hərbi və ekoloji nəticələrinə qarşı olan və 100-dən çox dövləti özündə birləşdirən Bitərəfələr (Birləşməmək) hərəkatı, bir çox ictimai birliklər, hərəkatlar və təşəbbüskar qruplarının antiqlobalist mübarizəsi də genişlənməkdədir.[100]

Antiqlobalist mövqedə olan alimlər qloballaşma prosesnin mənfi və müsbət cəhətlərini təsnif etməyə çalışırlar. K.V.Kolonçin əmindir ki, "*qloballaşmanın ziddiyyətləri və zəmanəmizin qlobal problemləri ən müxtəlif, bəzən diametrik şəkildə əks olan qiymətləndirmə və proqnozları əvvəlcədən müəyyənləşdirir*".

K.V.Kolonçinin şərhindən belə nəticəyə gəlirik ki, qloballaşma prosesi digər hadisə və proseslər kimi antiqlobalizmin də yaradıcısıdır və antiqlobalistlərin orijinal ideyaılarından bəhrələnir.

---

[100] Morrison Ch. Politische Schwachen der Anpassungspolitik // www.oecd.org/...

**Cədvəl. Qloballaşma: müsbət və mənfi cəhətləri**[101]

| **müsbət cəhətlər** | **mənfi cəhətlər** |
|---|---|
| beynəlxalq əmək bölgüsünün gücləndirilməsi, geridə qalmış ölkələrin qabaqcıl texnologiyalara çıxış əldə etməsinə şərait yaradılması | Fərdi dövlətin suverenliyinə xələl gətirmək. Qlobal iqtisadiyyata nəzarət tədricən iri korporasiyaların sahiblərinin əlinə keçir |
| Vəsaitlərin və resursların daha səmərəli bölüşdürülməsi | Resursların qeyri-bərabər paylanması |
| İstehsal miqyasının artması hesabına xərclərə qənaət | Zəngin və kasıb ölkələrin qütbləşməsi (nəzəriyyə "qızıl milyard") |
| Milli müəssisələr və TMK-lar arasında rəqabətin artması | Qloballaşmaya reaksiya olaraq millətçi hisslərin yüksəlişi |
| Texnoloji yeniliklərin yayılması nəticəsində məhsuldarlığın artması | Mədəniyyət sferasında ənənəvi dəyərlərin itirilməsi ilə müşayiət olunan neqativ proseslər baş verir |
| TMK-ların mövcudluğu şəraitində böyük maliyyə resurslarının səfərbər edilməsi | Ətraf mühitin pisləşməsi |

Qloballaşmanın məhz qeyd edilən mənfi tərəfləri antiqlobalizmin genişlənməsinə səbəb olmuşdur. Göründüyü kimi qloballaşmanın mənfi tərəfləri arasında iri korporasiyaların milli dövlətlərin idarəçiliyinə müdaxiləsi ilk yerdədir və antiqlobalistlər başa düşürdülər ki, adları sadalanan təşkilatların başlıca məqsədi bu yolla bəşəriyyəti asılı vəsiyyətə salaraq manipulyasiya etməkdir. Bu asılılıq vasitəsi isə daxili bazarın qloballaşmaya qoşulması məcburiyyəti, daxili siyasi münasibətlərin yönləndirilməsi, müəyyən fikir və ideologiyaların məcburi şəkildə

---

[101] Колончин К.В. Глобализация и антиглобализм: две стороны одной медали // Рыбное хозяйство. 2024. № 1. С. 8-13. DOI: 10.36038/0131-6184-2024-1-8-13

tətbiq edilməsində yaxından iştirakla bağlıdır. Antiqlobalistlər başa düşürdülər ki, qlobal siyasət yürüdən beynəlxalq təşkilatlar ayrı-ayrı cəmiyyətlərin və dövlətlərin fəaliyyətini nəzarətdə saxlamaqla və yönləndirməklə bəşəriyyəti manipulyasiya etməyə çalışırlar.[102]

Antiqloblist hərəkatı həm neoliberal model tərəfdarları, həm də kapitalizmə qarşı olan ənənəvi anarxistlər və marksistlər tərəfindən tənqid edilir. Hakimiyyət nümayəndələrinin böyük bir qismi, rəsmi siyasətçilər, iqtisadçılar, neoliberalizm və azad ticarət tərəfdarları əmindirlər ki, qloballaşma və iqtisadiyyatın liberallaşması obyektiv proses olduğundan heç bir alternativi yoxdur. Bununla əlaqədar olraq antiqlobalistləri ya mühafizəkarlar, ya bəşəriyyətin inkişafını əksinə yönəltməyə çalışan reaksioner-utopistlər, ya da dağıdıcı məqsədlərini gizlədən fundamentalistlər, kommunistlər, anarxistlər və s. kimi qəbul edirlər. KİV-ləri antiqlobalistləri qeyri-konstruktiv, zorakılığa meylli olmaqda, həmçinin heç bir alternativ inkişaf layihəsi və ssenarilərinə malik olmamaqda günahlandırırlar. Hərəkat iştirakçıları əks tərəfi korporasiyaların maraqlarını müdafiə etməkdə və korporativ maraqları təbii və obyektiv maraqlar kimi qələmə verməkdə təqsirləndirirlər.[103] Antiqlobalistləri tənqid edən sol qüvvələr qeyd edirlər ki, hərəkat çox dağınıqdır,ideyaları tam aydın deyil, kapitalizmə son qoymaq üçün proqramları yoxdur, həmçinin bəzi şüar və tələbləri Milli baxışlar və sağ qüvvələrin təklifləri ilə uyğundur. Sol radikallar hesab edirlər ki. Antiqlobalistlərin liderlərinin islahatçı layihələrini mövcud ictimai quruluş çərçivəsində xəyalpərvərlik kimi qəbul edirlər. Onlar əmindirlər ki, “sosial dövlətin” dağıdıldığı şəraitdə iqtisadi hakimiyyətə malik olan şəxslərə qarşı iqtisadi məhdudiyyətlər tətbiq etmək, bəlkə də, ədalətli və əsaslandırılmış iş ola bilər.

---

[102] Бузгалин А.В., Зуева А.А., Павлов М.Ю., Покровская Т.П. Знания и инновации в глобальном мире. // Вестник Российского философского общества. 2009, №4, с. 29–32

[103] Jacques Derrida. Enlightenment past and to come. // URL:https://mondediplo.com/2004/11/06derrida

Lakin mövcud tarixi şəraitdə bunun reallaşması qeyri-mümkündür. Antiqlobalistlərin təbliğ etdikləri “iştirakçı (partisipat) demokratiya” sol müxalifətə görə yalan, yaxud etiraz aksiyaların inteqrasiyası vasitəsidir. Tənqidçilər göstərirlər ki, vətəndaş qruplarının şəhərin büdcəsinin hazırlanmasında iştirakı yalnız məşvərət xüsusiyyətli olub, heç bir həlledici xarakterə malik ola bilməz, çünki büdcənin yalnız 10 – 15%-i ictimaiyyətlə razılıq əsasında formalaşır. Onlar qeyd edirlər ki, bu layihənin qloballaşma institutlarından olan Ümumdünya bankı, həmçinin bəzi korporasiyalar tərəfindən dəstəklənməsi sübüt edir ki, vətəndaşları bir daha əmin etmək olar ki, sosial ehtiyaclara ayrılmış məbləği azaltmaq zəruridir və bu yolla da fəhlə və digər təbəqəlrin narazılığını aradan qaldırmaq olar. Sosial hərəkatların məhşur tədqiqatçısı olan ispan sosioloqu Fransisko Xose Kuevas Noa “iştirakçı demokratiya” modelini etiraz hərəkatını “institutlaşdıran” və onların “reallıqla barışmasını” təmin edən tələ adlandırır. Bununla yanaşı antiqlobalist liderlərinin bəzilərinin hakim qüvvələr və hakimiyyətlə əməkdaşlığı tənqid olunur. Belə ki, 2003-cü ildə Parisdə keçirilmiş Avropa sosial forumunun təşkilatçıları müxtəlif səviyyəli hakimiyyət nümayəndələrindən maddi yardım almışdılar. [104]

*Antiqlobalist hərəkat*ın iştirakçıları birgə fəaliyyət göstərsələr də, onların fəaliyyəti formaca fərqlənir. Bu hərəkatın fəalları qloballaşmanın dərk edilməsində fərqli, bəzən isə, ziddiyyətli yanaşmalarla çıxış edirlər, bu prosesə alternativlər haqqında fərqli təsəvvürlərə malikdirlər və fərqli metod və fəaliyyət taktikası istifadə edirlər. “Antiqlobalist hərəkat” ifadəsi heç də onun bütün nümayəndələri tərəfindən qəbul edilmir. Çox vaxt “Alterqlobalist hərəkat” (ikinci qlobalist hərəkat), “Alternativ qloballaşma uğrunda hərəkat”, “Qlobal ədalət uğrunda hərəkat”, “hərəkatlar hərəkatı” və s. adları səslənir. Antiqlobalist hərəkat qloballaşmanın nəticələri və təsirlərinə qarşı mübarizə aparmaq üçün yaradılıb. Pasifist (müharibə əleyhinə),

[104] Кляйн Н. Заборы и окна. Хроники антиглобализационного движения. М.:Добрая книга, 2005. 304с.

ekoloji, "Üçüncü dünya dövlətləri", yaxud xalqları ilə həmrəylik, sol radikal, anarxist, kommunist və digər bu tipli hərəkatlar isə bu və ya digər ictimai, yaxud siyasi hərəkatlardır. Bəzi fəallar qloballaşma proseslərinin qeyri-demokratik və ədalətsiz mexanizmlərini rədd edirlər, digərləri isə, kapitalizm və ticarətə, üçüncülər – kapitalist cəmiyyətin neoliberal formasına qarşı mübarizə aparırlar. [105] Bütün antiqlobalist hərəkatlar kapitalizmin neoliberal variantının və beynəlxalq iqtisadi və maliyyə institutlarını (Ümumdünya bankı, Beynəlxalq valyuta fondu, İqtisadi əməkdaşlıq və inkişaf təşkilatı, Ümumdünyəvi ticarət təşkilatı), azad ticarət haqqında beynəlxalq müqavilələri (azad ticarət haqqında Şimali Amerika müqaviləsi, azad ticarətin Amerika sahəsi və s.), həmçinin siyasi və iqtisadi görüş və konfransları (Böyük səkkizliyin görüşləri, Ümumdünyəvi iqtisadi forum və s.) tənqid edirlər. Antiqlobalistlərin əksəriyyəti elan edirlər ki, bazarların "açılması" və kapitalın hərəkəti sərhədlərin və insanların azad yerdəyişməsi kimi açıq deyil. Bununla əlaqədar olaraq, onlar imiqrasiya və qaçqınların qəbulu ilə bağlı məhdudiyyətlərə qarşı mübarizə aparırlar. Antiqlobalist hərəkatların böyük bir hissəsi sol, yaxud solmərkəzli siyasi sahəyə aiddir. Bununla yanaşı bir çox Milli (Fransa Milli bloku və s.), həmçinin ultra sağ hərəkatlar da qloballaşmaya qarşı çıxış edirdilər. Onlar dəfələrlə antiqlobalist aksiyalarda iştirak ediblər.[106]

Antiqlobalizm orta sinfin neoliberal qloballaşmanın mənfi nəticələrinə ictimai etiraz forması kimi inkişaf etmişdir. Antiqlobalist hərəkatı mərkəzdən idarə edilən hərəkat deyil, burada institutlaşmış idarəçilik olmamışdır. İlk növbədə bu qeyri-rəsmi, mobil, təbii və vahid idarəetmə strukturu olmayan hərəkat olmuşdur. Antiqlobalizm qeyri-mərkəzləşmiş, şəbəkə prinsipi əsasında üfiqi təşkil olunmuş, vahid ideoloji mərkəzi, yalnız bir xarizmatik lideri, mərkəzləşmiş maliyyə sistemi olmayan, qeyri-

[105] Денчев К. Феномен антиглобализма. М.:ВШЕ, 2005. 218с.
[106] Антиглобализм и глобальное управление : Доклады, дискуссии, справочные материалы. М.: МГИМО (У) МИД России, 2006. 440 с

ənənəvi hərəkat olmuşdur. Antiqlobalist hərəkatı fərdlərin geniş və çoxsaylı şəbəkəsindən ibarətdir və hər bir şəxs bu strukturun bir hissəsini təşkil edir və şəxsi təşəbbüslə çıxış edir. Hər bir iştirakçı həm lokal, həm də qlobal səviyyədə məlumatçı mənbə və koordinator qismində çıxış edir, məhz bu şəbəkənin özünütəşkilatlandırmasını təmin edir. Ayrı-ayrı hissələrdən olan təşəbbüslər əsasında hərəkatın daimi fəallaşdırılr və bu əsasda belə bir təəsürat yaranır ki, hərəkatın mərkəzi hər tərəfdə mövcüddür, burada çıxış edən hər bir qrup müstəqil və tamdır. Bir tərəfdən antiqlobalistlər dağınıq və pis təşkil olunmuş kimi görünür, digər tərəfdən isə onlar çox yüksək mobillik, kütləvilik və aqressivlik nümayiş etdiririrlər. Bu təşkilat şəbəkəli strukturlar prinisipi əsasında qurulur, antiqlobalistlərin əsas əlaqələndirici mərkəzi İnternetdir. Hərəkat polisentrik və elastik xüsusiyyətli təşkilati sistem əsasında ayrı-ayrı qrupların problemlərini həll etməyə, hərəkat üzvlərinin bir yerdən digər yerə keçirməyə, yerləşdirməyə, yeməklə təmin etməyə, yerli hökumət orqanları və əhali ilə əlaqə saxlamağa, təbliğat aparmağa, məlumat ötürməyə və s. nail olurlar. Beləliklə, onlayn virtual struktur yeni ictimai etiraz təşkilatı formasına çevrilib.[107]

Qeyd etmək olar ki, Antiqlobalist hərəkatlar müxtəlif istiqamətli olduğu üçün onlar vahid və rəsmi təşkilati struktur yarada bilməyiblər. Hərəkat iştirakçıları belə dağınıqlığı hərəkatın üstünlüyü, yaxud şəbəkə və ya dialoq formalı yeni təşkilat tipi kimi qəbul edirlər. Antiqlobalist hərəkatın nəzəriyyəçilərindən olan İ.Vallerstayn bu təşkilati formanı mərkəzləşmiş və hakimiyyətin əldə edilməsinə yönəlmiş köhnə siyasi partiyaların alternativi adlandırır. Antiqlobalistlərdə mərkəzləşmiş struktur yoxdur, lakin “transmilliyyətçi, Milli və lokal hərəkatların koalisiyası” mövcuddur. Antiqlobalsit hərəkatın əsas forması kütləvi aksiyalar, etiraz və vətəndaş itaətsizliyi və minlərlə və yüz minlərlə insanın iştirak etdiyi nümayişlərlə müşayiət olunurdu. Güman edilir ki, belə hərəkatlar müxtəlif ölkələrdən olan fərqli

[107] Денчев К. «Феномен - антиглобализма», издательский дом ГУ ВШЭ, Москва, 2005, стр.40.

təşəbbüskarlıq qruplarını ümumi şüar altında birləşdirməli, aşağıdan başlayaraq həmrəyliyi inkişaf etdirməli və tədricən iştirakçılar arasında birlik yaratmalı idi. [108]

Antiqlobalist hərəkat 1970 – 1980-cı illərdə formalaşmış "yeni sosial hərəkatların" (ekoloji, müharibə əleyhinə, qadın, azlıqların hüquqları uğrunda və s.) davamçısı kimi çıxış edirdi, bəzi yerli təşəbbüskar qruplar əvvəlki sosial hərəkatlardan mənimsənilmiş "qlobal düşünmək lokal hərəkət etmək" prinsipini əsas götürürdülər. Lakin iri antiqlobalist nümayişlər bu çərçivədən çıxırdı. Baxmayaraq ki, onların bir çoxu müəyyən yerli fəaliyyətdən çox xarici görüntüyə üstünlük verirdilər. Antiqlobalist hərəkatın fəaliyyətində lokal problemlər və mövcud sistemə gündəlik qarşıdurma deyil, "qiyamçı turizm", yəni nümayişçilərin "yeni dünya nizamını" bütün dünyaya anlatmaq cəhdi nəzərə çarpırdı. Antiqlobalistlər öz kütləvi çıxışları ilə dünya ictimaiyyətinin fikrini qlobal kapitalizmin institutlarının və strukturunun fəaliyyətinə yönəltməyə çalışırdılar. Antiqlobalistlərin əsas məqsədi beynəxalq siyasi, maliyyə, iqtisadi və ticarət dairələrinin görüşlərinə mane olmaqdır. Nümayişçilər – "Ümumdünya iqtisadi forumu? Onu bağlayın!", "Kapitalizm? Yox, çox sağ olun! Öz lənətə gəlmiş banklarınızı bağlayın!", "Ümumdünya ticarət təşkilatına – yox!" şüarları ilə çıxış edirdilər. Əslində onlar çox nadir hallarda toplanmış siyasətçilərə və biznesmenlərə mane ola bilirlər, lakin min dəfələrlə keçirilən nümayişlər mübarizə ruhunu saxlamağa və hərəkatın tərəqqipərvər gedişini qorumağa imkan yaradır. 1990-cı illərin sonlarında Qərb ölkələrində qiyamçı hərəkat dalğası genişləndi. Onlar iqtisadi və siyasi qloballaşmaya qarşı çıxış edirdilər. Antiqlobalistlər hərəkatı 120 fərqli qrup və təşkilatı və 70 milyondan çox insanı öz ətrafında birləşdirir. Tələbələri, dini

---

[108] Кастельс М. Становление общества сетевых структур // Новая постиндустриальная волна на Западе: Антология. М., 1999. С. 494-505

icmaları, ekoloqları, həmkarlar ittifaqlarını və digər qrupları birləşdirən antiqlobalistlər yeni dünya nizamını qəbul etmirlər. [109]

Antiqlobalistlərin ilk çıxışları 1994-cü ildə Meksikanın cənubunda Çyapas ştatında başlamışdır. Bu çıxış ABŞ, Kanada və Meksika arasında Şimali Amerika ərazisində azad ticarətlə əlaqədar bağlanmış müqaviləyə qarşı çevrilmişdi. Meksika qiyamçılarına başçılıq edən Markos özü ədalətli cəmiyyət və iqtisadiyyat qurmağa çalışırdı. Markos hələ 1992-ci ildə Sapatist cəbhəsi yaratmışdı, sonradan sapatizm Meksikanın sərhədlərini aşaraq qlobal müqavimətin simvoluna çevrildi. Özünü subkomonante (kapitan) adlandıran Markos F.Kastro, E.Çe Qevaroy, K.Syenfueqos səviyyəsində rəhbər olduğunu göstərmək istəyirdi. Qiyamçılar bir neçə il partizan müharibəsi apardılar, nəticədə onlar Çyapas ştatının müəyyən bir ərazisində rəsmi dairələrə tabe olmayan və xüsusi “hindu demokratiyası» ilə idarə olunan cəmiyyət qurdular və «hindulara hindu kimi yaşamağa” mane olan yerli hakimiyyətə qarşı mübarizə aparırlar.

1996-cı ildə Çyapas ştatında antiqlobalistlərin ilk beynəlxalq görüşü keçirildi. Bu görüşdə lokal problemlərin qlobal strukturlarla əlaqəsi müzakirə olundu və qloballaşmanın nəticələri ilə işləyən təşkilatların birləşməsi nəzərdə tutulurdu.

1998-ci ildə Londonda və Amsterdamda sərmayə qoyuluşu ilə bağlı Beynəlxalq müqaviləyə qarşı keçirilən nümayiş hərəkatın inteqrasiyasında növbəti addım oldu.

Antiqlobalistlərin ən böyük qiyamlarının xronologiyası aşağıdakı kimidir:

1999-cu ilin noyabrında ABŞ-da Sietldə, 2000-ci ilin sentyabrında Praqada (Çexiya) 10 min nəfər, 2001-ci ilin yanvarında Davosda (İsveçrə) 30 min nəfər, 2001-ci ilin iyununda Qetebörqdə (İsveç) 25 min nəfər, 2001-ci ilin iyulunda Genuyada (İtaliya) 300 min nəfər, 2002-ci ilin martında Barselonada

---

[109] Зайко А.В. Антиглобализм как деконструктивизм // Глобализация в социально-философском измерении. / Сборник материалов конференции Санкт-Петербург: Санкт-Петербургское философское общество, 2003. С.41-43.

(İspaniya) 500 min nəfər, 2002-ci ilin noyabrında Florensiyada (İtaliya) 1 milyon nəfər, 2003-cü ilin avqustunda Plato Larzakda (Fransa) 300 min nəfər, 2004-cü ilin yanvarında Mumbaidə (Hindistan) 100 min nəfər, 2005-ci ilin yanvarında Port Aleqridə (Braziliya) 150 min nəfər antiqlobalist mitinqlərdə çıxış etmişdilər.[110]

Antiqlobalistlərin ilk kütləvi çıxışları 1999-cu il noyabrın 30-da Sietldə (ABŞ) keçirilən Ümumdünya ticarət təşkilatının görüşünə qarşı çevrilmişdi, keçirilmiş çıxışlarda 100 min nəfər iştirak edirdi, əsas iştirakçılar “yeni orta sinfin” nümayəndələri idilər. Qiyamçılar görüşün keçirildiyi ərazidə keçidləri blokadaya almağa çalışırdılar və onun planlı gedişinə mane ola bilmişdilər. Antiqlobalist aksiyaları polis tərəfindən sərt cəzalara məruz qalmışdı, yüzlərlə nümayişçi həbs olunmuşdu, bir çoxu yaralanmışdılar. Qəzəblənmiş nümayişçilər bankların və iri korporasiyaların ofislərinin şüşələrini qırırdılar. 2000-ci ildə Vaşinqtonda Beynəlxalq valyuta fondunun görüşlərinə, ABŞ-ın Respublikaçılar və Demokrtlar partiyaları arasında danışıqlara, Ümumdünya iqtisadi forum, Ümumdünya bankı və Beynəlxalq valyuta fondunun görüşlərinə qarşı yeni kütləvi etiraz aksiyaları başlandı. Sietldə keçirilən toqquşmadan sonra hakim dairələr bu görüşlərdə qabaqcadan təhlükəsizlik tədbirləri görmüşdülər. Respublikaçıların Filadelfiya qurultayından əvvəl polis nümayiş təşkilatçılarını həbs etmişdi, aksiya zamanı isə, Mobil telefonları olan nümayişçiləri saxlayaraq onların əlaqəli fəaliyyətini pozmağa çalışmışdı. Polis potensial nümayiş iştirakçılarının siyahısını tutmaqla onların dövlət sərhədlərini keçməsinə qadağa qoymuşdu. Tezliklə, məlum oldu ki, nümayişçilər arasında nümayiş keçirilməsi taktikası ilə bağlı fikir ayrılığı mövcuddur. Mülayim istiqamət qeyri-zorakı fəaliyyət tərəfdarı kimi blokada və vətəndaş itaətsizliyi nümayiş etdirməklə kifayətlənməi təklif edirdilər. Daha radikal antiqlobalistlər isə, pozucu, dağıdıcı fəaliyyətə üstünlük verirdilər. Onlar qloballaşmanın simvolu olan

[110] Денчев К. «Феномен - антиглобализма», издательский дом ГУ ВШЭ, Москва, 2005, стр.40.

"Makdonalds" kimi restoranların, zəngin mağazaların, supermarketlərin, bankların və korporasiya binalarının şüşələrini dağıtmaqla kifayətlənməyib, hakimiyyətə də ziyan yetirməyə çalışırdılar. Nümayişlərin gedişində radikallar "Qara blok" adlı cəbhə yaratmışdılar. Nümayişçilər qara rəngli gödəkçə, cins və maskalar geyindiklərinə görə birliyi belə adlandırmışdılar. İlk dövrlərdə mülayimlər və radikallar arasında əmək bölgüsü aparmağa cəhd edilmişdi.[111] 2000-ci ildə Praqada keirilən nümayişdə qiyamçılar üç qrupa bölünmüşdülər. Onların bir hissəsi olan «Sarı marş» müxtəlif formalı vətəndaş itaətsizliyi təşkil etmişdilər, ikinci hissə "Çəhrayı-gümüşü marş" teatrlaşmış və karnaval xüsusiyyətli səhnələr qurmuşdular, üçüncü hissə "Mavi marş" silahlanmış polislə zorakı toqquşmalara girirdilər. Antiqlobalistlərin 2001-ci il nümayişləri daha geniş miqyaslı oldu. Bu nümayişlərdə yüz minlərlə insan ABŞ prezidenti C.Buşun inaqurasiya mərasiminə, Ümumdünya iqtisadi forumuna, Amerika azad ticarət zonasının yaradılması ilə bağlı görüşlərə, Avropa İttifaqı ölkələri liderlərinin görüşlərinə və səkkiz böyük sənaye dövlətlərinin liderlərinin görüşlərinə və s. qarşı aksiyalar keçirmişdilər. Nümayişləri dağıtmaq məqsədilə polis gözyaşardıcı qazdan, şok vasitələrindən, dəyənəklərdən, su silahlarından, itlər, atlar və bəzən əsl silahlardan istifadə etmişdilər. Bu zaman polis radikallarla yanaşı sülhsevər nümayişçiləri də cəzalandırmışdı. Kvebekdə hökumət konfrans keçirilən ərazini hasara alaraq nümayişçilərin qarşısını almağa çalışmışdılar. [112]

2001-ci ildə Markos Mexikoya sülh yürüşü təşkil etmişdi. Bu yürüşdə bir çox görkəmli insanlar - rejissor Oliver Stoun, Nobel mükafatı laureatı Joze Saramaqo, Fransanın eks prezidenti

---

[111] Антиглобализм и глобальное управление : Доклады, дискуссии, справочные материалы. М.: МГИМО (У) МИД России, 2006. 440 с

[112] Fragments of an Anarchist Anthropology. Chicago:Prickly Paradigm Press, 2004, 106з. // URL: https://monoskop.org/images/b/b8/Graeber_David_Fragments_of_an_Anarchist_Anthropology_2004.pdf

Mitteranın dul arvadı, fransız sosioloq Reji Debre, redaktor İqnasio Ramone və başqaları Markosa qoşuldular.

Antiqlobalistlərin ən kəskin çıxışları 2001-ci ildə Genuyada keçirilmişdi. Bu nümayişdə mağazaları və ofisləri dağıdan "Qara blok" üzvlərinin böyük bir qismi həbs edildi, döyüldü, nümayişçi Karlo Culyani öldürüldü, yüzlərlə nümayişçi yaralandı, onlarla nümayişçiyə qarşı məhkəmə işi qaldırıldı. Genuyada baş verən hadisələr nümayişçilər arasında ziddiyyətlərin yaranmasına səbəb oldu. Mülayim liderlər radikalları zorakılıqda və hərəkatı dağıtmaqda günahlandırırdılar. Bu isə, radikalların narazılığına səbəb oldu. Solçular mülayimləri qiyamları ləngitməkdə, hakimiyyətlə əməkdaşlıqda və mövcud sistemin əlində silaha çevrilməkdə günahlandırırdılar. Antiqlobalistlər arasında rəsmi parçalanma olmasa da, həmin vaxtdan etibarən antiqlobalistlərin ayrı-ayrı istiqamətləri paralel tədbirlər keçirirlər. Antiqlobalistlərin çıxışları son dövrlərə qədər davam edirdi. 2002-ci ildə Avropa İttifaqına üzv olan ölkələrin liderlərinin, Böyük səkkizliyin, Ümumdünya bankının və Beynəlxalq valyuta fondunun görüşlərinə qarşı iri nümayiş aksiyaları keçirilmişdi. 2003-cü ildə yenə həmin görüşlərlə əlaqədar yeni nümayişlər təşkil olunmuşdu.[113]

2001-ci il 11 sentyabrda ABŞ-da baş verən terror aktından və Amerikanın Əfqanıstan və İrakda başladığı hərbi əməliyyatlardan sonra antiqlobalist hərəkatın əsas istiqaməti müharibə əleyhinə etiraz çıxışları oldu. 2002-ci ildə Vaşinqtonda keçirilən nümayişdə 12 min nəfər antiqlobalist iştirak edirdi. 2003-cü ildə müxtəlif ölkələrdə müharibə əleyhinə yeni etirazlar baş vermişdi. Antiqlobalist hərəkatın bir çox fəalları əmindirlər ki, sadə etirazları zəif fəaliyyət forması kimi qəbul edirlər və alternativ fəaliyyət istiqamətləri tapmağa çağırırlar. 2001 – 2002-ci illərdə Argentinada keçirilən çıxışlar kütləvi xalq özünütəşkilatlandırma – vətəndaş təşəbbüskarlıq qrupları,

---

[113] Rahmatullah Khan. The Anti-Globalization Protests: Side-show of Global Governance, or Law-making on the Streets?// URL: https://www.zaoerv.de/61_2001/61_2001_1_a_323_356.pdf

qarşılıqlı kömək layihələri və s. formasında təşkil olunmuşdu. Argentinada olan Naomi Kleyn nümayişçiləri boykot və vətəndaş itaətsizli, xam torpaqları tutmağa, istehsal ehtiyatlarını alıb paylamağa, elektriksiz evlərin icazə olmadan elektriklə təchizatına nail olmağa və s. kimi aksiyalara çağırırdı. Onun fikrincə, bu insanlara öz hüquqlarını təmin etməyə və dövlət olmadan özünütəşkilatlandırmağa imkan yarada bilər. Qloballaşma tərəfdarları bunu antiqlobalistlər tərəfindən törədilən ekstremizm kimi qəbul edildi. [114]

2001-ci ilin avqustunda bir çox Avropa ölkələrindən olan radikal partiya nümayəndələri Mexikoda keçirilən görüşdə əlaqələrin genişləndirilməsilə bağlı danışıqlar aparmışdılar. Burada cənub və şimal ölkələrindən olan kəndli təşkilatlarını özündə birləşdirən "Kəndli yolu" təşkilatı təmsil olunurdu. Bu təşkilatda 60 ölkədən 50 milyon adam birləşirdi. İspaniyada "Qlobal müqavimət hərəkatı", İtaliyda "Ağ xalatlılar", İngiltərədə "Vergiləri ləğv etmək" və "Qlobal müqavimət", ABŞ-da "Şəbəkəli fəaliyyət" və s. təşkilatlar bilavasitə gəncləri öz sıralarında birləşdirirdi.[115] Beynəlxalq antiqlobalist təşkilatlardan olan "Via kampesina" 1993-cü ildə yaradılıb və müxtəlif ölkələrdən olan kəndlilərin təşəbbüskarlıq qrupları və hərəkatlarını özündə birləşdirir. Bu təşkilatın əsas təşəbbüsçüsü Fransa kəndli konfederasiyasının rəhbəri Joze Bove Millo şəhərində "Makdonalds" restoranını nümayişkəranə şəkildə dağıtdıqdan sonra məhşurlaşmışdır. Konfederasiya ənənəvi kəndli təsərrüfatını müdafiə edir, kənd təsərrüfatının transmilli şirkətlər tərəfindən sənayeləşdirilməsinə qarşı çıxır və bu məqsədlə fərqli siyasi dairələrlə əlaqələr saxlayır. 1998-ci ildə "azad ticarət" və Ümumdünyəvi ticarət təşkilatına qarşı müqafimət şəbəkəsi kimi "Xalqların qlobal fəaliyyəti" təşəbbüskarlıq qrupu yaradılmışdır. Hal-hazırda nümayiş və etiraz aksiyaları koalisiya qrupları

[114] Амин С., Угар Ф. Глобализация сопротивления: борьба в мире.. — М.: Едиториал УРСС, 2004. 304 с.

[115] Денчев К. «Феномен - антиглобализма», издательский дом ГУ ВШЭ, Москва, 2005, стр.40.

tərəfindən keçirilir. Belə çıxışları qrup üzvləri tərəfindən yaradılmış birgə komitələr təşkil edirlər və ümumi razılıq əsasında qərarlar qəbul edilir. Bu zaman hər hansı bir rəhbər və rəsmi şəcərəli idarəetmə olmur. Antiqlobalist hərəkatın əsas subyektləri ictimai təşkilatlar, qeyri-hökumət təşkilatları, siyasi qrup və assosiasiyalardır. Onlar yerli, regional, Milli və beynəlxalq xüsusiyyətə malik ola, konkret dar çərçivəli problemlə məşğul ola, yaxud bütün cəmiyyət miqyasında problemin həll edilməsinə iddia edə bilərlər.[116]

Bu təşkilatların çərçivəsi lazımi qədər geniş ola bilər, məsələn, 2001-ci ildə İtaliyanın Genuya şəhərində Böyük səkkizliyin görüşünə qarşı etiraz aksiyası təşkil etmiş "Genuya sosial forumu"na 500-dən artıq təşəbbüskarlıq qrupu daxil idi. Nümayiş iştirakçıları arasında yerli vətəndaşlar, psifistlər, ekoloji, hüquq müdafiəçiləri, qadın, tələbə və gənclər təşkilatları, hərbə qarşı olanlar, katolik hərəkatlar, həmrəylik qrupları, "Üçüncü dünyanın" borclarının ləğv edilməsi uğrunda mübarizə aparan hərəkat, sosial özünüidarə mərkəzləri və onlarala bağlı olan strukturlar (mülayim mövqe tutan "hər şey ağ rəngdə" və daha radikal olan "Qlobal hüquqlar uğrunda şəbəkə", həmkarlar ittifaqları, solların siyasi təşkilatları və s.) var idilər. Adətən onlar müəyyən fəaliyyətlə (aksiyalar keçirilməsi, öz maraqlarının müdafiə olunması və s.) əlaqədar olaraq öz fəaliyyətdərini təşkilatlandırırlar.[117] Antiqlobalistlərin köhnə beynəlxalq təşəbbüskarlıq qruplarından olan "Xalqların qlobal hərəkatı" ümumdünyəvi koalisiya kimi Qərb və "Üçüncü dünya" ölkələrindən olan QHT, həmkarlar ittifaqları, ekoloji qrupları, sosial fəaliyyət qruplarını özündə birləşdirir. Təşkilatın tərkibi çox genişdir, buraya Braziliyanın torpaqsız zəhmətkeşlərinin hərəkatından Britaniyanın radikal-ekoloji təşkilatı olan «Küçəni özümüzə qaytaraq» hərəkatına qədər, Boliviya hindularının

[116] Walter Stefanie (2021). "The Backlash Against Globalization". Annual Review of Political Science. Vol.24: 421–442.

[117] Stiglitz, Joseph E., "Globalism's Discontents", The American Prospect, 13, 1, January 2002, PP. 1-14

konfederasiyasından Nigeriyada Oqoni xalq hərəkatına qədər, Hindistan kəndlilərinin ittifaqından Asiya və Avropa ölkələrinin həmkarlar ittifaqına qədər və s. təşkilatlar daxildir. Koalisiya daha ədalətli iqtisadi və sosial nizama nail olmaq üçün sadə insanların cəhdlərini qlobal miqyasda birləşdirmək niyyətindədir. «Xalqların qlobal fəaliyyəti» hərəkatı konfrans və forumlar, həmçinin simvolik aksiyalar (məsələn, 1988-ci ildə hindli kəndlilərin Qərbi Avropa üzrə nümayişlər keçirmişdilər və s.) keçirir. Çox vaxt antiqlobalist hərəkatlar siyasi dairələrin təşəbbüsü ilə yaradılır. Məsələn, 1998-ci ildə Fransada "Vətəndaşlara kömək məqsədilə vergilərin müəyyənləşdirilməsi ilə bağlı maliyyə güzəştləri assosiasiyası" yaradılmışdı. Bu hərəkatın əsasında bir qrup görkəmli siyasi xadim dururdu.[118] 2001-ci ilin əvvəllərində bu Assosiasiya əsasında 180 yerli komitə yaradılmışdı və onun 28 min nəfər üzvü var idi. Assosiasiyanın rəhbəri nüfuzlu "Mond diplomatic" qəzetinin redaktoru Bernar Kassen seçilmişdi. Sonrakı illərdə dünyanın digər ölkələrində də bu Assosiasiyanın şöbələri yaradılmışdı. Assosiasiyanın rəsmi məqsədi maliyyə bazarları və onun institutları üzərində demokratik nəzarət uğrunda beynəlxalq hərəkat təşkil etmək və bununla da kapitalın qeyri-məhdud dövriyyəsinə və spekulyativ əməliyyatlara mane olmaq idi. Assosiasiya maliyyə gəlirlərilə bağlı vergilərin yumuşaldılması, təqaüd sisteminin özəlləşdirilməsinin qarşısının alınması, "pulların yuyulması" ərazilərinə sanksiyaların tətbiq edilməsi, asılı ölkələrə kapital qouluşu məsələlərində aşkarlığın təmin olunması, maliyyə və bank əməliyyatlarının hüquqi tənzimlənməsi və asılı ölkələrin xarici borclarının ləğv edilməsi istiqamətində fəaliyyət göstərir.[119]

Antiqlobalistlər yeni informasiya texnologiyalarına xüsusi diqqət yetirirlər. Hələ 1990-cı illərdə Meksikada hinduların

---

[118] Hosseini S A Hamed (2010). Alternative globalizations: an integrative approach to studying dissident knowledge in the global justice movement. New York: Routledge.

[119] Альтерглобализм: теория и практика «антиглобалистского» движения / Ред. А.В. Бузгалин. Москва:Эдиториал УРСС, 256с.

«Sapatist Milli azadlıq ordusu»nun rəhbəri Markos yeni informasiya texnologiyalarında geniş istifadə etməyə çağırırdı. 1999-cu ildə ABŞ-da Sietldə Ümumdünya ticarət təşkilatının keçirdiyi görüşə qarşı "Müstəqil media-mərkəz" yaradılmışdı. Bu ümumdünyəvi sistem ictimaiyyətin məlumatlandırılmasına xidmət edir. Yerli "İndimedia" lokal şəbəkəsi bir çox Amerika, Avropa, Asiya, Afrika və Avstraliya ölkələrində mövcuddur. Bu şəbəkələr antiqlobalist qrupların fəaliyyəti haqqında informasiya yayır və bu hərəkatların öz fəaliyyətlərini əlaqələndirməyə şərait yaradır. Antiqlobalist hərəkatın bütün üzvləri nisbi bərabər mövqe tuturlar. Belə ki, bir sıra qrup və assosiasiyaların maliyyə və informasiya ehtiyatlarından istifadə imkanları, siyasi və intellektual hakimiyyətə çıxış imkanları, o cümlədən cəmiyyətə təsir imkanları eyni deyil. Məsələn, "Vətəndaşlara kömək məqsədilə vergilərin müəyyənləşdirilməsi ilə bağlı maliyyə güzəştləri assosiasiyası" bir neçə il ərzində antiqlobalist hərəkatda güclü mövqe qazana bilib, çünki dünyanın bir çox görkəmli və nüfuzlu şəxsləri bu qrupa qoşulub və bu assosiasiya antiqlobalistlərin bir çox beynləxalq forum və askiyalarının təşkil olunmasında əsaslı rol oynayır. Son illərdə Antiqlobalist hərəkatın əsas formalarından biri «sosial forumlardır». Bu forumlar qitə və ümumdünya səviyyəsində keçirilir və dünya iqtisadi, siyasi və sosial inkişafının əsas məsələlərini müzakirə edir. 1996-cı ildə Meksikanın Çyapas ştatında sapatistlərin təşəbbüsü ilə "Neoliberalizmə qarşı Qalaktikadaxili görüş" forumu təşkil olunmudu. [120]

Antiqlobalistlərin Londonda keçirilmiş Avropa sosial forumunda 50 min nəfər iştirak edirdi. Bu sosial forumun əsas iştirakçıları sosialistlər, marksistlər, trotskiçilər idilər. Eyni zamanda qadın hüquqları uğrunda mübarizə aparanlar, həbs olunanların müdafiəçiləri, nobel mükafatı laureatları, bask və irland separatistləri, latınamerikalı inqilabçılar, həmkarların sədrləri, müəllimlər, Avroparlamentin deputatları, görkəmli vəkillər və antiqlobalistlər iştirak edirdilər. 2001 – 2003-cü illərdə Brazili-

[120] Murray, Warwick E.; Overton, John (2014). Geographies of Globalization. Routledge. p. 203

yanın Port-Aleqri şəhərində Əmək partiyasının üzvləri tərəfindən ümumdünyəvi sosial forumlar keçirilmişdi. Bu formun rəsmi şüarı "Başqa bir dünya mümkündür" idi. Nəzəriyyəyə görə, bu konqreslər antiqlobalist hərəkatının "azad müxtəlifliyini" qoruyub saxlamalı və əks etdirməli idi. 2002-ci ilin yanvarında Port-Aleqrada keçirilən Ümumdünya sosial forumunda "qitə daxili sosial forumların" keçirilməsi təklif olunmuşdu və bu sosial forumlarda yalnız Port-Aleqrada qəbul edilmiş Sosial hərəkatlar bəyannaməsinə qoşulanlar iştirak edə bilərdilər. Forumun ideologiyası neoliberalizmə, müharibəyə, avtoritar hakimiyyətlərə, rasist meylli kəskin sağçılara qarşı mübarizəyə çağırırdı.[121]

Antiqlobalistlərin növbəti Forumları 2003-cü illərdə yenidən Porto Aleqridə keçirilmişdi və Amerikanın İraqa təcavüzünə qarşı dünya miqyasında etiraz aksiyası təşkil etmişdi. Forum 2004-cü ildə Asiya və Afrika əhalisi üçün daha əlçatan olmaq üçün Hindistanın Mumbay şəhərinə köçürüldü. Mumbay Forumunda 75.000 nümayəndə iştirak etmişdi. 2006-cı ildə Karakas, Venesuela, Bamako, Mali və Karaçi, Pakistanda, 2007-ci ildə Keniyanın Nayrobi şəhərində, 2009-cu ildə Braziliyanın Belem şəhərində, 2011-ci ildə Seneqalın Dakar şəhərində növbəti antiqlobalist Forumları təşkil edilmişdi, 2012-ci ildə Forumun mərkəzi Porto Aleqriyə qayıtdı.

Neoliberalizmə qarşı çıxan təşkilatlar və şəxslər üçün görüş yeri yaratmaq ideyası tezliklə başqa yerlərdə də təkrarlandı. Antiqlobalistlərin ilk Avropa Sosial Forumu (ESF) 2002-ci ilin noyabrında Florensiyada keçirilmişdir. Onların şüarı "Müharibəyə qarşı, irqçiliyə və neoliberalizmə qarşı" idi, 2003-cü ildə Parisdə, 2004-cü ildə Londonda, 2006-cı ildə Afinada, 2008-ci ildə Malmödə və 2010-cu ildə İstanbulda antiqlobalist çıxışlar baş vermişdir.[122]

---

[121] Éric Toussaint. Porto Alegre World Social Forum. 10 February 2001.// URL: https://internationalviewpoint.org/spip.php?article703

[122] The Brazil Reader. History, Culture, Politics / Edited by:James N. Green, Victoria Langland and Lilia Moritz Schwarcz. Duke University Press, 2019. 688p.

Bir çox ölkələrdə milli və yerli miqyaslı Sosial Forumlar da keçirilib.

Antiqlobalizmin ideoloqlarından hesab edilən Syuzen Corc transmilli korporasiyaları və beynəlxalq maliyyə bazarlarını «demokratik nəzarətə» götürməyi təklif edir. O, liberal kapitalist cəmiyyətin tərəfdarı kimi çıxış edir.[123] Parisdə Qloballaşma observatoriyasının prezidenti, yazıçı S.Corc sübut edir ki, "*bu gün hakimiyyət transmilli korporasiyalarının rəhbərləri və Ümumdünya ticarəti təşkilatları, İqtisadi əməkdaşlıq və inkişaf təşkilatlarında, Dünya bankı və Avropa komissiyasında onlların xidmətçilərindən ibarət olan 150 nəfərin idarə etdiyi maliyyə bazarlarına məxsusdur. Onlar Avropa sənayeçilərinin Dairəvi stolu, yaxud Transatlantik biznes-dialoqu kimi forumlarda görüşürlər və hər il Avropa komissiyasına və ya Şimali Amerika hakimiyyətinə müzakirə edilməli olan məsələlər və onların bu dövlətlərdən nə almaq istədikləri haqqında siyahı təqdim edirlər*". S.Corc "Luqanonun hesabatı" adlı kitabında göstərirdi ki, "*Şimali Amerika hökuməti ticarətlə bağlı maneələrə rast gəlməmək üçün sənaye federasiyaları ilə daim əməkdaşlıq edirlər*". Bu məqsədlə ictimai xidmətləri özəlləşdirirlər və s. S.Corca görə, bu bütün dünya üçün özünəməxsus "ticarət konstitusiyası"nın yaranması deməkdir.[124]

Amerikalı antiqlobalist Maykl Hardt və italiyan sosioloq Antonio Neqrinin "İmperiya" əsəri hərəkatın əsas ideya mənbələrindən hesab edilir. Müəlliflərin fikrincə, müasir mənada imperiya qeyri-mərkəzləşmiş sistem olub, metropoliyalara və müstəmləkələrə malikdir, planetar və şəbəkəli imperiya genetik olaraq ABŞ ilə əlaqədardır. Hər hansı bir ərazini, ölkəni, xalqı imperiyanın tərkibinə qatmaq üçün onu işğal, yaxud əmin etmək lazım deyil, onalara artıq imperiyanın tərkibində olduqlarını

---

[123] Adam Warner, A Brief History Of The Anti-Globalization Movement, 12 U. Miami Int'l & Comp. L. Rev. 237 (2005) // URL: https://repository.law.miami.edu/umiclr/vol12/iss2/2

[124] Anti-globalization movement. https://www.ebsco.com/research-starters/social-sciences-and-humanities/anti-globalization-movement

göstərmək lazımdır, çünki imperiya qlobal, aktual və alternativsizdir. İmperiyanın dövlətlər və xalqlarla heç bir işi yoxdur, o əvvəlcə dövlətləri və xalqları keyfiyyətcə çox kiçik hissələrə bölür, sonra isə onları miqrasiya axınına daxil edir. Bu prosesi dayandırmaq lazım dyil, oun inkişafını sürətləndirib nə ilə əvz olunacağını gözləmək lazımdır.[125]

Hərəkatın ideoloqları sırasında Kanada yazıçısı Naomi Kleyn, Hind ekoloqu Vandana Şiva, 2000-ci ildə Nobel mükafatı laureatı olmuş Amartiya Sena və bir çox digər müəlliflərin adını qeyd etmək olar. Naomi Kleyn "Söz yox" (*No Logo*) adlı əsərində transmilli korporasiyaların istehsal siyasətinə və hər yerdə hakim olan və xalq mədəniyyətinin dağılmasına yönəlmiş reklama qarşı çıxırdı. Vandana Şiva "Biopiratçılıq" (*Biopiracy*) adlı kitabında müstəmləkəçiliyi monomədəniyyətin yaradılmasında, aborogen xalqların və ekoloji regionların "təbii kapitalının" "intellektual kapitala" çevrilməsində günahlandırırdı. Amartiya Sena "İnkişaf azadlıq kimi" (*Development as Freedom*) adlı əsərində yeni pul sisteminin yaradılmasını təklif edirdi. Noam Çomski, Ziqmunt Bauman, David C.Korten və digər görkəmli elm və ictimai xadimlərinin əsərləri də antiqlobalist hərəkatın ideoloji mənbələrinə çevrilmişdir. [126]

Qlobal problemlərin həlli uğrunda mübarizə aparan antiqlobalistlərin başlıca məqsədləri həm də yeni tipli qlobal problemlərin formalaşma imkanlarının qarşısının alınması olmuşdur.

XXI əsrin ikinci onilliyində antiqlobalistlər adı altında aparılan qarşıdurma hərəkatının zəiflədiyini söyləmək olar. Lakin 2006-cı ildən bəri qloballaşmanın gətirdiyi proseslərə qarşı hərəkat yeni mərhələyə keçmişdir. Aparılan araşdırmalara görə, qlobal miqyasda müxtəlif məzmun və mahiyyətli qiyam və qarşıdurmaların sayı 2006-cı ildən 2020-ci ilə qədər yüksələn dinamika ilə davam etmişdir. Xüsusilə də 2007-2008-ci illərdə

---

[125] Денчев К. «Феномен - антиглобализма», издательский дом ГУ ВШЭ, Москва, 2005, стр.40.

[126] Jagdish N. Bhagwati. In Defense of Globalization. (2004). Oxford University Press. p.65

Qlobal maliyyə böhranı ilə bağlı yaranan sosial iqtisadi geriləmələr etirazların sayının artmasına gətirmiş oldu. 2010-cu ildən sonra bütün dünyada sərt qənaət tədbirlərinin qəbulu və islahatların aparılması ilə nümayişlər daha da gücləndi. 2012-2013-cü illər nümayiş və etirazların ən çox baş verdiyi illər hesab edilir. 2014-2015-ci illərdə etiraz nümayişlərinin bir qədər zəiflədiyi müşahidə olunsa da, 2016-cı ildən etibarən çox vaxt siyasi və iqtisadi sistemə qarşı çevrilən etirazlar yenidən genişləndi. Bu dövrlərdə baş verən nümayiş və qiyamları – "omnibus etirazlar" və ya bir neçə məsələni əhatə edən üzrə etirazlar kimi xarakterizə edirlər.[127]

Bu etirazlar mahiyyətinə görə belə təsnif edilir:

-Bitkilər və Rəngli inqilablar;
-Ərəb baharı;
-Ərəb qışı;
-İkinci ərəb baharı;
-2019-2022 Latın Amerikası etirazları;
-Qənaət əleyhinə;
-Müharibə əleyhinə;
-Muxtariyyət və ya müstəqillik;
-Seçkilərə qarşı;
-Ərəb baharından sonrakı etirazlar;
-Qadın hüquqları;
-Tələbə etirazları;
-Milli;
-Mühacirlərə qarşı etirazlar;
-Mühacirlərin etirazları.[128]

Dünyanın bütün regionlarını əhatə edən etirazların başlıca səbəbi sosial rifahla bağlı olmuşdur. Tədqiqatlara əsasən orta gəlirli ölkələrdə - 1327 hadisə, yüksək gəlirli ölkələrdə - 1122

[127] Изабель Ортис, Сара Бёрк, Мохамед Беррада и Эрнан Саенс Кортес. Мировые протесты: анализ ключевых проблем протестов в 21 веке. Palgrave Macmillan, 2022 г.

[128] List of protests in the 21st century. URL:https://en.wikipedia.org/wiki/List_of_protests_in_the_21st_century

etiraz aksiyası, aşağı gəlirli ölkələrə - 121 etiraz hadisəsi qeydə alınmışdır. Etirazların sayı ilə yanaşı etirazçıların da sayının artdığı qeyd deilir. 2006-2020-ci illərdə ümumilikdə bir milyon insanın etiraz aksiyalarının iştirakçısı olduğu məlum olmuşdur. Qeydə alınmış ən böyük tətil 2020-ci ildə Hindistanda hökumətin kənd təsərrüfatı və əməyin liberallaşdırılması planına qarşı keçirilmişdir və burada təxminən 250 milyon nəfər etirazçı iştirak etmişdir.

Ümumilikdə, bütün dünyada baş verən etirazlarda əsas tələblər –

-daha çox və daha yaxşı iş yerlərinin açılması;

-maaşlar və pensiyaların artırılması;

-səhiyyə, təhsil və ictimai xidmətlərə sərmayə qoyuluşunun yüksəldilməsi;

-fermerlərin müdafiəsi;

-iqlim dəyişikliyi ilə bağlı tədbirlərin həyata keçirilməsi;

-irqi ədalətin təmin edilməsi;

-qadınların və vətəndaş hüquqlarının təmin edilməsi və müdafiəsi;

-qənaət rejiminə, korrupsiyayanın və bərabərsizliyin qarşısının alınması ilə bağlı olmuşdur.

Ən çox yayılmış etiraz üsulları yürüşlər və yığıncaqlar (və ya mitinqlər), blokadalar, tətillər və işğallar, eləcə də onlayn fəaliyyət olmuşdur. Etira nümayişlərində zorakılıq, vandalizm və talanlarla müşayiət olunan iğtişaşlar və etirazlar ümumi sayın yalnız 20%-ni təşkil etmişdir.[129]

XXI əsrin ilk onilliklərində baş verən etriaz aksiyaları müəyyən mənada antiqlobalist xarakterlidir. Etirazçıların vahid mərkəzdən idarə edilməməsi, çox zaman sosial şəbəkələr vasitəsilə razılığa gəlinərək reallaşdırılması, daha çox milli xarakterli və lokal problemlərlər bağlı olması və ən başlıcası etirazçıların böyük bir hissəsinin gənclər və tələbələr olması belə

[129] Изабель Ортис, Сара Бёрк, Мохамед Беррада и Эрнан Саенс Кортес. Мировые протесты: анализ ключевых проблем протестов в 21 веке. Palgrave Macmillan, 2022 г.

bir qənaətə gəlməyə əsas verir. İlk antiqlobalistlər qloballaşmaya, xüsusilə də iqtisadi qloballaşmaya qarşı etiraz aksiyaları, qiyamlar həyata keçirirdilər və onlar milliləşmənin tərəfdarları olaraq çıxış edirdilər.

Antiqlobalistlərin nəzəri əsaslarının inkişafı istiqamətində 2005-ci ildən etibarən dərc edilməyə başlayan "Qloballaşma və Sağlamlıq" jurnalı əsaslı rola malikdir. Jurnal əsasən qloballaşmanın fərdin və əhalinin sağlamlığına müxtəlif yollarla təsiri, cəmiyyətlərin qloballaşmaya uyğunlaşması istiqamətlərilə bağlı araşdırmaları dərc edir. Jurnalın əsas ideyası belədir: "qlobal dəyişikliklər həyat tərzi, məşğulluq, mənzil, təhsil və sanitariya daxil olmaqla sağlamlığın müəyyənedicilərini formalaşdırır. Qloballaşma insan cəmiyyətlərini yenidən strukturlaşdırır, sağlamlıq və xəstəliklərin yeni modellərinə gətirib çıxarır. Qloballaşma səhiyyə və xidmətlərin maliyyələşdirilməsinə, tənzimlənməsinə və marketinqinə təsir göstərir". Jurnalda – sosial inkişaf və xəstəliklər, iqtisadiyyat və ticarət, ətraf mühit, sağlamlığın idarə edilməsi, xarici siyasətdə sağlamlıq, səhiyyə sistemləri, miqrasiya və mobillik, psixososial təsirlərlə bağlı nəzəriyyə, modellər və metodlar haqqında məqalələr yer alır[130] və müasir antiqlobalizmin ideya mənbəyi kimi müəyyən edilir.

Antiqlobalizm hərəkatı qlobal idarəçiliyə və "qlobal demokratiyaya" qarşı çevrilən proses kimi qloballaşmanın mənfi tərəflərinin aydınlaşdırılması, bu haqda fikirlərin kütləviləşdirilməsi, həmçinin alternativ inkişaf yolunun müəyyənləşdirilməsi istiqamətində fəaliyyətin formalaşmasına təkan vermiş oldu. O, da qeyd edilməlidir ki, qloballaşma konsepsiyasının yaradıcıları sonradan antiqlobalizm hərəkatının ideoloqları olmuşdurlar. Antiqlobalizm öz sıralarında müxtəlif fəaliyyət istiqamətli (ekoloji, anti-müharibə, iqtisadi, siyasi və s.) hərəkatları birləşdirmişdi. Ola bilər ki, antiqlobalistlər qlobal idarəçilikdə əsaslı dəyişiklik edə bilməmişdirlər, lakin alternativ idarəetmə formalarının tətbiqinə nail olmuşdurlar.

[130] Labonté, Ronald (18 May 2018). "Reprising the globalization dimensions of international health".Globalization and Health. Vol.14 (1): p.49.

Qloballaşmanın “törəməsi” olan antiqlobalizm özü də müəyyən məqamlarda qlobal manipulyasiya vasitəsinə çevrilmişdir.

## RƏQƏMSAL ELMİN SOSİOLOGİYASI. XXI ƏSRDƏ ELMİN İNSTİTUTLAŞMASI XÜSUSİYYƏTLƏRİ

Elm insanın özünü və onu əhatə edən mühiti dərketmə vasitəsidir. Elm - təbiətin, cəmiyyətin və insanın öyrənilməsinə,

dünyanın rasional-nəzəri əsaslarda dərk edilməsinə, inkişaf qanunlarının və qanunauyğunluqlarının müəyyən edilməsinə, müxtəlif hadisə və proseslərin izah edilməsinə, proqnostik fəaliyyətin həyata keçirilməsinə, yəni yeni elmi biliklərin istehsalına yönəlir.

Elm insanın daxil olduğu ictimai münasibətlər sisteminin özünəməxsusluğunu anlamaq cəhdi ilə bağlı fəaliyyətinin nəticəsi olaraq onun təhlil, müqayisə və ümumiləşdirmə bacarıqlarını formalaşdırır, dəyişikliklərə sövq edir. XXI əsrdə elm həm qurucu, həm də dağıdıcı amilə çevrilmişdir.

Müasir elm – Böyük elm adlandırılır. XX əsrin sonlarında dünyada 5 milyon nəfərdən çox alim var idi. Hazırda elm özündə 15 mindən çox disiplini birləşdirir və dünyada bir neçə yüz min elmi jurnal dərc edilir.[131]

Müasir dövrdə cəmiyyətin inkişaf səviyyəsi elmi tərəqqi ilə sıx bağlıdır. Təbiət və cəmiyyətin qanunauyğun inkişafı haqqında biliklər toplusu və mənəvi mədəniyyətin xüsusi bir istiqaməti olan elm müasir dövrdə cəmiyyətin və təbiətin mövcud olmasının əsaslarına çevrilmişdir. Müasir ETT hər an bəşər cəmiyyətində köklü və dönməz dəyişikliklərə gətirə bilər. Elmi tərəqqinin sosial əsaslarının araşdırılması ehtiyacı elm və onunla bağlı anlayışlar sisteminin araşdırılması problemini aktuallaşdırır.[132]

Elm anlayışı (ər. علم “elm”) “bilmək, məlumatlı olmaq” mənalarını verən علم “aləmə” kökündəndir. Alim ( ər. عالم, cəmi علماء “ üləma”) sözü də علم “elm” sözündən əmələ gəlmişdir.[133]

Azərbaycan dilinin izahlı lüğətində elm - təbiət və cəmiyyətin inkişafındakı qanunauyğunluqları və obyektiv aləmə

---

[131] Кохановский В.П., Золотухина Е.В., Лешкевич Т.Г., Фатхи Т.Б. Философия для аспирантов: Изд 2-е. – Ростов н/Д: Феникс, 2003. – С.19.
[132] Elmşünaslıq nəyi öyrənir?// URL: https://ikisahil.az/post/122541-elmshunasliq-neyi-oyrenir
[133] Firədun İbrahimov, Rüfət Hüseynzadə. Pedaqogika: 2 cilddə.I cild. – Bakı: Mütərcim, 2012,s.11-16

təsiri üsullarını meydana çıxaran biliklər sistemi və bu biliklərin ayrıca sahəsi adlandırılır.[134]

Elm - müşahidə və eksperimentlər vasitəsilə maddi dünyanın və təbiətin strukturunun sistemli tədqiqini əhatə edən intellektual və praktik fəaliyyətdir.[135] Elmin üç əsas konsepsiyası mövcuddur: elm bilik kimi, elm fəaliyyət kimi, elm sosial institut kimi.[136]

Elmi biliklər insanların malik olduqları bilik formalarından biridir. Bəşəriyyət tarix boyunca elmi biliklərin xaricində başqa bilik növlərinə də malik olmuşdur. ...İnsanlar dünyanı dərketmək üçün fərqli bilik formalarından istifadə edirlər. Tomson və Hickey bu bilik formalarını *təcrübə, mədəni dəyərlər, inanclar, nüfuz* və *elm* kimi beş qrupa bölürlər.[137 138]

Bernalın yazdığı kimi "*Müasir elm ikili mənşəyə malikdir: Bir tərəfdən o, maqların, kahinlərin, filosofların fərziyyələrindən, digər tərəfdən sənətkarların ənənəvi təcrübi fəaliyyətlərindən bəhrələnir. Birinciyə indiyə qədər də daha çox diqqət yetirilir. Nəzəri və təcrübi fəaliyyətin qarşılıqlı əlaqəsi insana elm tarixini dərk etməyə imkan verir*".[139 140]

T.Kunun qeyd etdiyi kimi: "*Normal elm faktlar haqqında biliklər paradiqması çərçivəsində inkişaf edir. Əldə edilən faktların müqayisəsi yeni paradiqmanın işlənməsinə şərait yaradır. Normal elm paradiqmada təqdim edilən təzahür və nəzəriyyələrin araşdırılmasına yönəldiyindən onun tədqiqat*

---

[134] Azərbaycn dilinin izahlı lüğəti. Dörd cilddə. I cildç Bakı, "Şərq-Qərb", 2006, 792 s. (Tərtibçilər Ə.Orucov, B.Abdullayev, N.Rəhimzdə) s.23

[135] New Oxford American Dictionary, 2nd Edition. © 2005 by Oxford University Press, p.

[136] Орешников И.М. Философия науки и техники. Уфа, 1999, с.69

[137] Veysel Bozkurt "Değişen dünyada sosyoloji". EKİN, Basım Yayın Dağıtım, 2007, s. 63, 64

**[138]** Məmmədova S.D. Elmşünaslıq nəyi öyrənir?// URL: https://ikisahil.az/post/122541-elmshunasliq-neyi-oyrenir

[139] «The Social Function of Science», London, 1943

**[140]** Məmmədova S.D. Elmşünaslıq nəyi öyrənir?// URL: https://ikisahil.az/post/122541-elmshunasliq-neyi-oyrenir

*sahələri məhduddur. Normal elmin mexanizmləri bu məhdudiyyətləri yumşaltmağa imkan verir*”. [141] T.Kun normal elmin araşdırdığı problemləri təsnif edərək, üç əsas qrupa bölür:

1.əhəmiyyətli faktların müəyyən edilməsi;

2.faktların və nəzəriyyələrin müqayisə edilməsi;

3.nəzəriyyənin işlənməsi.

Müəllifin qeyd etdiyi kimi, bu üç məqam bir-birindən ayrılmazdır və bir-birinin davamı kimi çıxış edir. Qeyd edilənlərlə yanaşı elmin qeyri-adi problemləri də meydana çıxır və onların düzgün həlli elmi tədqiqatları dəyərli edir. Qeyri-adi problemlər xüsusi hallarda təzahür edir və əvvəlki üç məqamı özündə əks etdirir. T.Kuna görə, normal elm özündə inqilablar üçün mənbə hazırlayır.[142]

Elmi inqilablar yalnız elmdə deyil, həm də ictimai şüurda dəyişikliklərlə müşayiət olunur. Belə deyə bilərik ki, elm yalnız sosial münasibətlər sisteminin deyil, həm də sosial dəyərlərin mahiyyətcə dəyişməsinə gətirir. Bu, elmin sosial institut olması ilə əlaqədar baş verir. Elmi kəşflərin sosial reallığa tətbiq edilməsi ictimai münasibətlərdə və ictimai quruluşda əsaslı dəyişikliklərlə müşayiət olunur.

Bu fikirdən çıxış edərək deyə bilərik ki, sosial fenomen olan elm üç əsas istiqamətdə çıxış edir: fəaliyyət forması kimi, disiplinar biliklər toplusu kimi, sosial institut kimi.

Elm ətrafdakı həqiqətlə bağlı predmet və proseslərin məntiqi nizamlanmış fəaliyyət forması olub, məqsədyönümlülük, qərarların qəbul edilməsi, seçim, maraqların izlənməsi, məsuliyyətin dərk edilməsinə yönəlir.

Eyni zamanda elm cəmiyyətin ideolji tələbatlarına cavab verərək siyasətin alətinə çevrilir. Elm reallığın dəqiq və adekvat inikasına cəhd edir, rəqabət aparan nəzəriyyələrə münasibətdə

---

**141** Məmmədova S.D. Elmşünaslıq nəyi öyrənir?// URL: https://ikisahil.az/post/122541-elmshunasliq-neyi-oyrenir

142Кун Т. Структура научных революций (Перевод с английского И.З.Налетова), “Прогресс», Москва, 1977,s.44-58

səbr göstərir, heç zaman əldə edilənlə kifayətlənmir və falsifikasiyaya məruz qalır.

Tədqiqatçılar elmin "daxili" və "xarici" sosiallığı haqqında danışırlar. "Xarici" sosiallıq dedikdə, bu və ya digər tipli cəmiyyətin, yaxud dövlətin sosial iqtisadi, ideoloji və mənəvi funksiyalaşması şərtlərindən asılı olaraq, həyata keçirdiyi elm siyasəti, elmin dəstəklənməsi vasitələri nəzərdə tutulur. "Daxili" sosiallıq, elmi birliyin və ayrılıqda hər bir alimin daxili təmayüllərini, norma və dəyərlərini, onların təfəkkür imkanlarını və özünüifadə xüsusiyyətlərini, dövrün və konkret zamanın xüsusiyyətlərindən asılılığını ifadə edir.

Yaradıcı fəaliyyət olan elm insanların mənəvi tələbatları ilə bağlı olub, real faktlar və onların ümumiləşdirilməsi əsasında təbiət, cəmiyyət və idrak haqqında yeni biliklərin istehsalına yönəlir.

Həqiqi elmin formalaşması mərhələsi 1662-ci ildə akademik müəssisə kimi Londonda kral cəmiyyətinin, 1662-ci ildə Fransa kral akademiyasının, 1700-cü ildə Prussiya elmlər akademiyasının, 1724-cü ildə Peterburq elmlər akademiyasının, 1780-ci ildə Amerika elmlər akademiyasının və digər akademik elmi müəssisələrin yaradılması hesab edilir.[143]

Müasir dövrdə elm heç zaman olmadığı inkişaf səviyyəsinə çatıb və xüsusilə də XX əsrin sonu və XXI əsrin başlanğıcı elmi inqilablar dövrü kimi xarakterizə edilə bilər. Əgər XIX əsrdə əldə edilən elmi yeniliklər yayılma sürətinə və tətbiq sahəsinə görə müəyyən məhdudiyyətlərlə üzləşirdisə, XX – XXI əsrlərdə elmi kəşflərin kəmiyyəti və tətbiqi imkanları inanılmaz dərəcədə genişlənib. Əvvəlki dövrlərdən fərqli olaraq, müasir elm hər an bəşər cəmiyyətinin bir mənalı olmayan dəyişilməsinə səbəb ola bilər. Beləliklə, təbiət və cəmiyyətin qanunauyğun inkişafı haqqında biliklər toplusu olan elm müasir dövrdə cəmiyyətin və təbiətn mövcud olmasının əsaslarına çevrilmişdir.

[143] Баканов Р.П.Актуальные проблемы современной науки и журналистика. Казань: Казанск. гос. ун-т, – 2010. – 152 с.

Müasir ETT hər bəşər cəmiyyətində köklü və dönməz dəyişikliklərə gətirə bilər.[144]

Bir sıra müəlliflər elmin tərəqqisində iki mərhələni fərqləndirirlər. Birinci mərhələdə elmin təkamüllü inkişafı tədricən ikinci mərhələdə inqilabi dəyişikliklərə səbəb olur. A.Əliyev, A.Şəkərəliyev və İ.Dadaşovun həmmüəllifliklə yazdıqları “Dünya iqtisadiyyatı: müasir dövrün problemləri” başlıqlı əsərdə qeyd edildiyi kimi: “*Elmi kəşflərin sayı artdıqca elmin tərəqqisinin sürətlənməsi üçün şərait yaranır. Müasir dövrün xarakterik cəhəti elmi inqilabların intensivliyindədir. “İctimai inkişafın ümumi mənəvi məhsulu”, “Ümumi ictimai bilik”, “Ümumi intellekt” olan elm müasir dövrdə sistemləşdirilmiş biliklər toplusunun qoruyucusundan istehsalın tərəqqisinin mühüm elementinə çevrilmişdir və eyni zamanda bu tərəqqini sürətləndirmək üçün nə lazımdırsa edə bilir. Elm məhsuldar qüvvəyə çevrilmişdir. Bu çevrilmə elmin əmək cisimlərinin və əmək alətlərinin yeni növlərinin yaradılması və fəaliyyətdə olanlarının təkmilləşdirilməsinə və istehsalın texnologiyasına aktiv təsir etməsi ilə xarakterizə olunur”*.[145]

Hər bir tarixi dövr özünəməxsus elmi nailiyyətlərə və uyğun olan inkişaf xüsusiyyətlərinə malikdir. Müxtəlif sosial sistemlərin (siyasi, hüquqi, etik, estetik, texnoloji, kommunikativ və s.) fəaliyyətində əsaslı rol oynayan elm dövlət quruluşunun və hakimiyyətin mövcud imkanlarının təkmilləşdirilməsi xüsusiyyətlərinin daşıyıcısıdır. Belə ki, müxtəlif istiqamətli elmi-tədqiqat işlərinin hüquqi status qazanması sosiumda tətbiqi imkanlarını genişləndirməklə total dəyişikliklərə əsas olur. Elmi tərəqqi və nailiyyətlərin təsiri ilə elmi həqiqətin nisbilik göstəricisi yüksəlir, mənəvi dəyərlərin, o cümlədən xeyirxahlıq və gözəllik arasındakı münasibətlərin mahiyyəti dəyişir. Elmin

**144** Məmmədova S.D. Elmşünaslıq nəyi öyrənir?// URL: https://ikisahil.az/post/122541-elmshunasliq-neyi-oyrenir

145 Əliyev A., Şəkərəliyev A., Dadaşov İ. Dünya iqtisadiyyatı: müasir dövrün problemləri . (Monoqrafiya).Bakı, “Bakı Universiteti” nəşriyyatı, 2003, s.281-312 (455 səh.)

inkişafı cəmiyyətin istehsal qüvvələri və əmək münasibətlərinin transformasiyasına, insan-insan deyil, insan-süni intellek, insan-maşın və s. arasında münasibətlərə keçir.

K.A.Kalduzova elmin inkişafında danılmaz təsirə malik olan sosial iqtisadi problemlərin yarandığını göstərərək onları aşağıdakı kimi müəyyənləşdirir:

-elmin nüfuzunun kəskin enməsi;

-alimlərin aşağı maddi təminatı;

-beyin axını; elmi jurnalistikanın populyarlığını itirməsi;

- elektron təlimin aşağı səviyyədə olması;

-dövlətin elm siyasətinin reallaşdırılması məsələləri.[146]

Beləliklə, elm bəşəri problemlərin həllinə yönəldiyi halda, həm də yeni sosial problemlərin yaranmasına səbəb olmuşdur. XXI əsrdə elmin inkişafı ilə bağlı yaranan problemlər spesifik və ümumi sosial xüsusiyyət daşıyır. Bir tərəfdən elmin inkişafı bilavasitə onun özü ilə bağlı resursların və reallıqların formalaşdırılması baxımından, digər tərəfədən elmlə məşğul olan insanların fəaliyyət imkanları ilə bağlı və ümumilikdə bəşəriyyətin elmi potensialının reallaşdırılması ilə bağlı özünəxas problemlərə səbəb olmuşdur.

Elm sosiomədəni fenomen kimi cəmiyyətdə müxtəlif qüvvələrin təsirinə məruz qalır, bu əsasda öz sosial prioritetlərini müəyyən edir, komprimisslərə çalışır və müəyyən dərəcədə ictimai həyatı determinə edir. Elmin sosiomədəni asılılığı bəşəriyyətin istehsal tələbatları, dünya haqqında həqiqi biliklərin əldə edilməsi ilə bağlıdır və bu əsasda ictimai həyatın bütün sahələrinin inkişafına təsir göstərir. Sosiomədəni fenomen kimi elm cəmiyyətin mədəni ənənələrinə, dəyər və normalarına söykənir[147] və bu dəyər və normalara təsir edərək onlara yeni mahiyyət verir.

---

[146]Social science and contemporary social problems // URL: https://items.ssrc.org/from-our-archives/social-science-and-contemporary-social-problems/

[147] Кохановский В.П., Золотухина Е.В., Лешкевич Т.Г., Фатхи Т.Б. Философия для аспирантов: Изд 2-е. – Ростов н/Д: Феникс, 2003. – С.19.

XXI əsrdə elmin ümumi sosial proseslərlə bağlı yaratdığı problemlər sosial mühitin virtuallaşması, real sosial mühitdə klonlaşdırma ilə yanaşı insanların virtual münasibətlərdə özlərinə ünsiyyət obyekti yaratması, bu obyektlərə istədiyi mənəvi və cismani xüsusiyyətlər verməsi və artıq virtual aləmdə fərqli xarakterli sosiallaşma imkanları əldə etməsi, canlı ünsiyyət və sosial reallıqdan təcrid olunma, artıq sosial institutların (təhsil, səhiyyə, mədəniyyət, siyasət və s.) virtual xarakter alması elmin tərəqqi və təsir imkanlarının sonsuzluğu haqqında düşünməyə vadar edir. Elmdə baş verən davamlı inqilabların bütövlükdə yer kürəsinə yeni mahiyyət qazandıracağı haqqında düşünməyə əsas verir.

Bu gün güclü ziyalı təbəqəsi, müasir texnika və texnologiyalara sahib olmaq hər bir cəmiyyətin və dövlətin inkişafının, qüdrətinin və təhlükəsizliyinin əsas amilləri hesab edilir. Müasir elm sosial və tarixi tərəqqinin təkanverici amili olaraq, sosial institut kimi çıxış edir. Sosial institut kimi elm - ictimai münasibətlərin möhkəmlənməsi və təkrar istehsalı, fəaliyyət nizamının və çərçivələrinin təmin edilməsi; cəmiyyət üzvləri arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsi; sosial təcrübənin ötürülməsi; cəmiyyətdə qarşılıqlı əlaqə və qarşılıqlı məsuliyyəti; digər institutlarla qarşılıqlı əlaqənin saxlanmasını və s. təmin edir. Onu da qeyd edə bilərik ki, elm sosial institutların və institutlaşmanın nəzəri əsaslarda müəyyənləşdirilməsinə və təcrübədə tətbiqinə xidmət edən xüsusi münasibətlər sistemidir. Elmin sosial mahiyyəti tarixi inkişaf prosesində dövrün tələblərinə uyğun olaraq, dəyişikliklərə uğrayır. Müasir elm bilavasitə təbiətin, cəmiyyətin və insanın öyrənilməsinə, dünyanın rasional-nəzəri əsaslarda dərk edilməsinə, inkişaf qanunlarının və qanunauyğunluqlarının müəyyən edilməsinə, müxtəlif hadisə və proseslərin izah edilməsinə, proqnostik fəaliyyətin həyata keçirilməsinə, yəni yeni elmi biliklərin istehsalına yönəlir. Elmin əsas məqsədi - elmi dünyagörüşün və dünyanın elmi mənzərəsinin işlənilməsi, insanın dünyaya münasibətinin araşdırılması, elmin dünyanı dərkini əsaslandırması ilə bağlıdır. Elmin sosial

əhəmiyyəti getdikcə dəyişir, çünki onun tərəqqisi birbaşa insanın və bəşəriyyətin özünüdərki ilə bağlıdır. Elmin inkişafı dünya şüurunda yeni perspektivlər açır, insanların təbiətə, cəmiyyətə münasibətini dəyişir, sosial münasibətlərin mahiyyəti dəyişir. Digər tərəfdən, elmi biliklər innovativ əsaslara malikdir və idarəetmə sistemində islahatlara, burada yeni metodların tətbiqinə təkan verir.

Elmin sosial inkişafa təsiri imkanları hüdudsuzdur. Bu, həm proqress, həm də reqress yönümlü qarşısıalınmaz təsirdir. Elmin inkişaf tarixinin müqayisəli araşdırılması deməyə əsas verir ki, sonsuz inkişaf xüsusiyyətlərinə malik olan elm bir tərəfdən insan zəkasının məhsuludursa, digər tərəfdən bu zəkanın və dünyagörüşünün yenidən formalaşdırılması üçün lokomotivdir. Elmin fəlsəfi xüsusiyyətləri insan həyatının mənasını və mahiyyətini araşdırmaqla məşğul olduğu halda, elmin sosioloji əsasları ayrılıqda sosiumun və bütövlükdə bəşər cəmiyyətinin həyat keyfiyyətinin yüksəldilməsinə yönələn tədqiqatları ehtiva edir. Elmin rəqəmsallaşması elm institutunun rəqəmsallaşmasıdır. Bu zaman elmi nailiyyətlər, elmi fəaliyyət, elmi əməkdaşlıq və tərəfdaşlıq, elmi ideya və elmin mübadiləs və təşviqi və s. rəqəmsallaşması baş verir.

Bu mənada elm sosial institut olmaqla yanaşı, həm də yaradıcı xüsusiyyətə malikdir.

Sosial institutlar dövlətin və cəmiyyətin əsasları kimi çıxış edir. Gələcək üçün daha zəruri olan insan ehtiyatlarını istifadə edən, unikal və çətin istehsal olunan ehtiyatların aşkar edilməsi və qorunub saxlanması texnologiyalarını axtaran sosial institutların dəstəklənməsi müasir dövlətlərin yürütdüyü sosial siyasətin əsas vəzifələrindən hesab olunur. Bu zaman ilk növbədə təhsil və elm institutlarının inkişafı nəzərdə tutulur. Dövlətin uğurlu sosial siyasəti ölkənin gələcək inkişafına şərait yaradılmasına yönəlir. [148]

---

[148] Səadət Məmmədova. XXI əsrdə elmin institutlaşması xüsusiyyətləri. // Şərq Fəlsəfəsi Problemləri. № 29, 2023 Проблемы Восточной Философии.//URL: http://doi.science.gov.az/pages/journals/jpeph/pdf/jpeph2023_29_94.pdf

Bu mənada sosial siyasəti sosial institutların, sosial iqtisadi və sosial siyasi münasibətlərin subyektlərinin fəaliyyətinin tənzimlənməsi mexanizmi kimi nəzərdən keçirmək olar. Dövlətin sosial siyasəti bilavasitə sosial fəallıq və digər sosial institutlarla bağlıdır. Sosial institutlar sosial mühiti strukturlaşdırır. Dövlətin sosial siyasətinin müvəffəqiyyəti sosial institutların fəallığına söykənir. Belə ki, dövlətin sosial siyasətinin uğuru məhz sosial institutların mövcud qanunvericilik çərçivəsində həyata keçirilən məqsədyönlü fəaliyyəti ilə bağlıdır. Dövlətin sosial siyasətində əsas məqsədlərdən biri sosial-peşə və sosial ərazi qrupları ilə münasibətlərin saxlanması, həmçinin əhalinin rifah halının, yaşayış səviyyəsinin yüksəldilməsi, sosial zəmanətin təmin edilməsidir. [149]Sosial siyasət vasitəsilə hakimiyyət bazar institutlarını və sosial institutları tənzimləyir və təchiz edir. Sosial siyasəti çox zaman elm və təhsil, səhiyyə, məşğulluq və sosial təminat kimi sosial xidmətlərlə eyniləşdirirlər. Lakin sosial siyasət həm də bölüşdürmə, vətəndaşların müdafiəsi və sosial ədalət məsələlərini özündə birləşdirir.

Ölkə həyatının bütün sahələrini əhatə edən sosial siyasət insan amili və iqtisadi inkişafı ideal şəkildə özündə birləşdirə bilər, bu isə, ölkədə tələbi artıra və sabit bütöv cəmiyyət yarada bilər. [150]

Sosial siyasət sosial institutların fəaliyyətini müəyyənləşdirdiyi kimi, sosial institutlar da sosial siyasətin həyata keçirilməsini təmin edir. İnstitusional mühit nə qədər səmərəli olarsa sosial siyasət o qədər səmərəli həyata keçirilər.

---

[149] Səadət Məmmədova. XXI əsrdə elmin institutlaşması xüsusiyyətləri. // Şərq Fəlsəfəsi Problemləri. № 29, 2023 Проблемы Восточной Философии.//URL: http://doi.science.gov.az/pages/journals/jpeph/pdf/jpeph2023_29_94.pdf

[150] Səadət Məmmədova. XXI əsrdə elmin institutlaşması xüsusiyyətləri. // Şərq Fəlsəfəsi Problemləri. № 29, 2023 Проблемы Восточной Философии.//URL: http://doi.science.gov.az/pages/journals/jpeph/pdf/jpeph2023_29_94.pdf

İnstitusional təcrübə insan fəaliyyətnin məhdudlaşdırılması və onun sabitləşdirilməsinə xidmət edir. [151]

Cəmiyyətin elementləri olan sosial institutlar ictimai həyatın təşkilatlanması və tənzimlənməsi ilə bağlı sabit formalar kimi çıxış edir. Dövlət, təhsil, ailə və digər institutlar sosial münasibətləri nizamlayır, insanların fəaliyyətini və onların cəmiyyətdəki davranışlarını tənzimləyir. Sosial institutlar (insitutum - müəssisə, qurum) dəyər-normativlər kompleksi (dəyərlər, qaydalar, normalar, təmayüllər, nümunələr, müəyyən vəziyyətlərdə davranış standartları) olub, onların cəmiyyət həyatında reallaşmasını və təsdiqini təmin edir. [152] "Sosial institutlar" anlayışını ilk dəfə T.Vebleyn 1899-cu ildə nəşr edilmiş "Bekar sinif nəzəriyyəsi" adlı elmi araşdırmasında istifadə etmişdir.

A.A.İvinə görə, sosial institutlar – təşkilatlanmış əlaqələr və sosial normalar sistemi olub, özündə cəmiyyətin əsas tələbatlarını ödəyən əhəmiyyətli ictimai dəyərləri və prosedurları birləşdirir. Sosial institut tarixən formalaşan, sabit əxlaq və hüquq normalarında möhkəmlənən ictimai münasibətlər sistemidir. Sosial institutlar bu və ya digər tələbatın təmin olunmasına, qoyulan məqsədə nail olunacağına inam yaradır.

Sosial institutlar möhkəmlənmiş sosial əlaqələr sistemi kimi çıxış edir. Sosial institut – formal və qeyri-formal normalar, qaydalar və prinsiplərin sabit sistemi olub, insan fəaliyyətinin müxtəlif sahələrini tənzimləyir və bu sahələri sosial statuslar və rollar sistemində təşkilatlandırır. [153]

---

[151] Səadət Məmmədova. XXI əsrdə elmin institutlaşması xüsusiyyətləri. // Şərq Fəlsəfəsi Problemləri. № 29, 2023 Проблемы Восточной Философии.//URL: http://doi.science.gov.az/pages/journals/jpeph/pdf/jpeph2023_29_94.pdf

[152] Səadət Məmmədova. XXI əsrdə elmin institutlaşması xüsusiyyətləri. // Şərq Fəlsəfəsi Problemləri. № 29, 2023 Проблемы Восточной Философии.//URL: http://doi.science.gov.az/pages/journals/jpeph/pdf/jpeph2023_29_94.pdf

[153] Səadət Məmmədova. XXI əsrdə elmin institutlaşması xüsusiyyətləri. // Şərq Fəlsəfəsi Problemləri. № 29, 2023 Проблемы Восточной Философии.//URL: http://doi.science.gov.az/pages/journals/jpeph/pdf/jpeph2023_29_94.pdf

Sosiologiyada sosial institutlar aşağıdakı kimi təsnif edilir:

1.ailə institutu - nəslin təkrar istehsalı və şəxsiyyətin sosiallaşması;

2. siyasi institutlar – təhlükəsizlik və ictimai nizama olan tələbat əsasında siyasi hakimiyyət yaradılır və dəstəklənir;

3.iqtisadi institutlar – yaşamaq üçün vasitələrin istehsalı və əldə edilməsi, nemət və xidmətlərin istehsalı və bölüşdürülməsi prosesini təmin edir;

4.elm və təhsil institutları – biliklərin əldə edilməsi və ötürülməsi və sosiallaşma tələbatı;

5. dini institut – ruhi problemlərin həlli, həyatın mənasının axtarışı ilə bağlıdır. [154]




[154] Səadət Məmmədova. XXI əsrdə elmin institutlaşması xüsusiyyətləri. // Şərq Fəlsəfəsi Problemləri. № 29, 2023 Проблемы Восточной Философии.//URL: http://doi.science.gov.az/pages/journals/jpeph/pdf/jpeph2023_29_94.pdf




Lakin bəzi müəlliflərə görə ictimai həyat sahələrinə uyğun olaraq sosial institutlar dörd əsas qrupa bölünür:

- iqtisadi institutlar - əmək bölgüsü, bazar, ticarət, əmək haqqı, bank sistemi, birja, menecment, marketinq və s.;
- siyasi institutlar - dövlət, ordu, polis, parlamentarizm, prezidentlik, monarxiya, məhkəmə, partiya, vətəndaş cəmiyyəti;
- təbəqələşmə və qohumluq - sinif, təbəqələşmə, kasta, cinsi ayrıseçkilik, irqi ayrıseçkilik, zadəganlıq, sosial təminat, ailə, nigah, analıq, övladlığa götürmə, qardaşlıq;
- mədəniyyət institutu - məktəb, ali məktəb, orta peşə təhsili, elm, teatr, muzeylər, klublar, kitabxanalar, kilsələr və s.

Əslində sosial institutların təsnifatı bununla bitmir. Böyük institutlar daha aşağı səviyyəli institutları özündə birləşdirə bilər.[155]

Hər bir sosial institut aşağıdakı xüsusiyyətlərə malikdir:

[155] Səadət Məmmədova. XXI əsrdə elmin institutlaşması xüsusiyyətləri. // Şərq Fəlsəfəsi Problemləri. № 29, 2023 Проблемы Восточной Философии.//URL: http://doi.science.gov.az/pages/journals/jpeph/pdf/jpeph2023_29_94.pdf

1. davranış qaydaları və nümunələrinə, hüquqlar, vəzifələr və məsuliyyətlər bölgüsünə, həmçinin dəyərlər və məqsədlər toplusu olan statuslu rollar bölgüsünə;

2.simvolik mədəni əlamətlərə, yəni mövcud münasibətlər sisteminin məcazi ifadəsinə;

3. faydalı mədəni əlamətlərə, yəni insanlar tərəfindən onların həyatı üçün zəruri olan tələbatlarının və həmçinin institutların normal funksiyalaşmasının təmin edilməsi məqsədilə yaradılmış süni yaşayış mühitinə;

4. Şifahi və yazılı davranış qaydaları, normaları kodeksinə, həmçinin onların yerinə yetirilməməsi ilə bağlı cəza tədbirlərinə;

5.ideologiyaya, yaxud insanların və bütövlükdə institutun fəaliyyətini xarakterizə edən hakim baxışlar, nəzəriyyələr sisteminə.[156]

Sosial institutların strukturu aşağıdakıları yaradır:

- qrupların, şəxsiyyətlərin tələbatlarını təmin edən sosial qruplar və sosial təşkilatlar;
- davranış normaları, nümunələri, sosial dəyərlər sistemi ilə bağlı tələbatları təmin edir;
- iqtisadi fəaliyyət sahəsi ilə bağlı münasibətləri tənzimləyən simvollar sistemi (ticarət markası, bayraq, brend və s.);
- sosial institutların ideoloji əsasları;
- institutun fəaliyyətində istifadə edilən sosial ehtiyatlar.

Geniş mənada sosial institut – insanların tələbatlarını təmin etmək üçün onları təşkilatlandıran dəyərlər, normalar və əlaqələr sistemi kimi izah edilir.[157]

Bu mənada sosial institutlar sosial nəzarəti həyata keçirir. Bu, yalnız insanların davranışına nəzarət deyil, həm də cəmiyyət

[156] Səadət Məmmədova. XXI əsrdə elmin institutlaşması xüsusiyyətləri. // Şərq Fəlsəfəsi Problemləri. № 29, 2023 Проблемы Восточной Философии.//URL: http://doi.science.gov.az/pages/journals/jpeph/pdf/jpeph2023_29_94.pdf

[157] Səadət Məmmədova. XXI əsrdə elmin institutlaşması xüsusiyyətləri. // Şərq Fəlsəfəsi Problemləri. № 29, 2023 Проблемы Восточной Философии.//URL: http://doi.science.gov.az/pages/journals/jpeph/pdf/jpeph2023_29_94.pdf

üzvlərinə konkret fəaliyyət formalarının qəbul etdirilməsi ilə bağlıdır.

Sosial institutlar tarixi mənşəyə malik olub daimi dəyişməyə və inkişafa məruz qalır. Onların formalaşması institutlaşma adlanır. İnstitutlaşma – sosial normaların, əlaqələrin, statusların və rolların müəyyənləşməsi və möhkəmlənməsi, onların sistemləşdirilməsi prosesi olub bir sıra ictimai tələbatların təmin edilməsinə yönəlir.

İnstitutlaşma - ictimai münasibətlərin tənzimlənməsi, dəqiq qaydalar, nümunələr və mərasimlərə əsaslanan sabit sosial qarşılıqlı təsir nümunələrinin formalaşması prosesidir. Məsələn, elmin institutlaşması prosesi - elmin fərdi fəaliyyətdən dərəcələr, elmi dərəcələr, tədqiqat institutları, akademiyalar və s. ibarət münasibətlər sisteminə çevrilməsidir. [158]

Cəmiyyətin institutlaşması xaotik, qeyri-sabit, qeyri-təşkilati, təsadüfü olana qarşı durur. Buna görə də məhz institutlaşma sosial həyatın təsdiq olunmuş, müntəzəm amili kimi bütövlükdə şəxsiyyətin və cəmiyyətin həyat fəaliyyətini müəyyən edir. İnstitutlaşma cəza və mükafatlandırma sistemi vasitəsilə birlik üzvlərinin davranışını idarə edir. Sanksiyalar sisteminin yaranması institutlaşmanın əsas şərti hesab edilir. İnstitut qarşılıqlı razılaşma əsasında formalaşmış davranış standartları sistemi vasitəsilə sosial fəaliyyətin və sosial münasibətlərin istiqamətini müəyyən edir.[159]

Sosial əlaqələrin institutlaşması aşağıdakılar əsasında mümkündür:

1.Xüsusi reqlamentləşdirmə tipi (sosial nəzarət, sanksiyalar əsasında).

[158] Səadət Məmmədova. XXI əsrdə elmin institutlaşması xüsusiyyətləri. // Şərq Fəlsəfəsi Problemləri. № 29, 2023 Проблемы Восточной Философии.//URL: http://doi.science.gov.az/pages/journals/jpeph/pdf/jpeph2023_29_94.pdf

[159] Səadət Məmmədova. XXI əsrdə elmin institutlaşması xüsusiyyətləri. // Şərq Fəlsəfəsi Problemləri. № 29, 2023 Проблемы Восточной Философии.//URL: http://doi.science.gov.az/pages/journals/jpeph/pdf/jpeph2023_29_94.pdf

2.İnstitutlaşmış qarşılıqlı fəaliyyət iştirakçılarının funksiyalarının, hüquqlarının və məsuliyyətlərinin dəqiq müəyyənləşdirilməsi.

3.Sosial institutların böyük əksəriyyətinin müntəzəmliyi və özünü yeniləşdirməsi institutun fəaliyyətinə qoşulanlara qarşı olan tələblərin şəxssizləşməsini təmin edir.

4.Müəyyən vəzifələr dairəsinin yerinə yetirilməsi əmək bölgüsünə və funksiyaların yerinə yetirilməsinin təkmilləşməsinə gətirir.

5.Öz funksiyalarının yerinə yetirməsi üçün institut müəssisəyə malik olur və bu və ya digər institutun fəaliyyəti həmin müəssisə çərçivəsində təşkil edilir, fəaliyyətinin idarə edilməsi və nəzarəti həyata keçirilir. [160]

Sosial institutlar müxtəlif istiqamətli tələbatların təmin edilməsinə yönəlir. İctimai mahiyyətli funksiyaları yerinə yetirən sosial institutlar adətən nisbi sabit sosial əlaqələr və münasibətlərə nail olunmasını təmin edir, lakin sosial institutlar tərəfindən təmin edilməyən sosial tələbatlar yeni qüvvə və tənzimlənməyən fəaliyyət formalarının yaranmasına gətirir. Təcrübədə belə bir vəziyyətdən çıxmaq üçün aşağıdakı yollardan istifadə edilir:

1.köhnə sosial institutların yenidən yönəldilməsi;

2.yeni sosial institutların yaradılması;

3.ictimai şüurun yönəldilməsi. [161]

Sosial institutlar aşağıdakı funksiyaları yerinə yetirir:

1.təkrar istehsal – ictimai münasibətlərin möhkəmlənməsi və təkrar istehsalı, fəaliyyət nizamının və çərçivələrinin təmin edilməsi;

---

[160] Səadət Məmmədova. XXI əsrdə elmin institutlaşması xüsusiyyətləri. // Şərq Fəlsəfəsi Problemləri. № 29, 2023 Проблемы Восточной Философии.//URL: http://doi.science.gov.az/pages/journals/jpeph/pdf/jpeph2023_29_94.pdf

[161] Səadət Məmmədova. XXI əsrdə elmin institutlaşması xüsusiyyətləri. // Şərq Fəlsəfəsi Problemləri. № 29, 2023 Проблемы Восточной Философии.//URL: http://doi.science.gov.az/pages/journals/jpeph/pdf/jpeph2023_29_94.pdf

2.tənzimləyici – davranış nümunələri hazırlamaqla cəmiyyət üzvləri arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsi;

3.sosiallaşma – sosial təcrübənin ötürülməsi;

4.inteqrativ – institusional normalar, qaydalar, qərarlar və rollar sisteminin təsiri ilə qrup üzvlərinin toplanması, qarşılıqlı əlaqəsi və qarşılıqlı məsuliyyəti;

5.kommunikativ – institut daxilində və xarici mühitdə informasiyanın yayılması, digər institutlarla qarşılıqlı əlaqənin saxlanması;

6.avtomatlaşma – müstəqilliyə cəhd.

İnstitutların yerinə yetirdiyi funksiyalar açıq və gizli ola bilər.

Sosial institutlar cəmiyyətdə sosial idarəetmə və sosial nəzarət funksiyalarını yerinə yetirir. [162] Bu mənada elmin gizli və aşkar funksiyaları fərqləndirilir. Elmin aşkar funksiyaları dedikdə, aşağıdakılar nəzərdə tutulur:

1.inteqrativ funksiya – elmi cəmiyyətin birliyi;

2.kommunikasiya – ünsiyyətin təmin edilməsi;

3.təcrübənin ötürülməsi;

4.təşkilati – məhdudiyyətlərə malik olan birgə fəaliyyətdə insanın davranışının qabaqcadan müəyyənləşdirilməsinin təmin edilməsi.

Gizli funksiyalar və disfunksiyalar:

1.insanın nüfuzunun yüksəldilməsi;

2.zənginləşmə;

3.ictimai rəyin manipulyasiyası;

4.ordudan yayınma.[163]

Elmin əsas funksiyaları kimi aşağıdakıları göstərmək olar:

---

[162] Səadət Məmmədova. XXI əsrdə elmin institutlaşması xüsusiyyətləri. // Şərq Fəlsəfəsi Problemləri. № 29, 2023 Проблемы Восточной Философии.//URL: http://doi.science.gov.az/pages/journals/jpeph/pdf/jpeph2023_29_94.pdf

[163]Тешаев У.У., Бахтиёров Н.Ж. Основные функции науки в современных условиях. // “Инновации в науке и практике”. Сборник трудов по материалам IV Всероссийского конкурса научно-исследовательских работ. Уфа, 2021, с.114-118

1) **idraki funksiya** elmin mahiyyəti ilə bağlı olub, təbiətin, cəmiyyətin və insanın öyrənilməsinə, dünyanın rasional-nəzəri əsaslarda dərk edilməsinə, inkişaf qanunlarının və qanunauyğunluqlarının müəyyən edilməsinə, müxtəlif hadisə və proseslərin izah edilməsinə, proqnostik fəaliyyətin həyata keçirilməsinə, yəni yeni elmi biliklərin istehsalına yönəlir.

2) **dünyagörüşü funksiyasının** əsas məqsədi elmi dünyagörüşün və dünyanın elmi mənzərəsinin işlənilməsi, insanın dünyaya münasibətinin araşdırılması, elmi dünyanıdərkin əsaslandırılması.

3) **istehsal**, texniki-texnoloji funksiya innovasiyaların, yeni texnologiyaların, təşkilati formaların və s. tətbiq edilməsilə bağlıdır. Eyni zamanda elmin sosial funksiyası birbaşa onun mahiyyətini əks etdirir, belə ki, elmin tərəqqisi bilavasitə bəşərin və bəşəriyyətin rifahının yüksəldilməsinə yönəlib. Bu baxımdan elmin sosial funksiyaları tədricən dəyişir.

4) elm birbaşa mədəniyyətin inkişafının nəticəsi və səbəbi kimi çıxış edir və bu baxımdan elmin əsas funksiyaları sırasında **mədəni, təhsil funksiyası** xüsusi qeyd edilməlidir.

5) bu gün elm **sosial qüvvə** kimi çıxış edir. Bu, özünü həyatın bütün sahələrində reallaşdırılan sosial yönlü proqramlarda əks etdirilir. Əslində yuxarıda qeyd edilən funksiyaların hər biri elmin sosial funksiyası kimi çıxış edir. **Aksiloji, mədəni-tərbiyəvi, təhsil, proqnostik, tənzimləyici-idarəetmə, ideya ötürücü,** yaxud **varislik, təcrübi-fəaliyyət** və digərləri də elmin sosial funksiyalarına aid edilir.[164]

Elmin funksiyalarının təsnifatı ilə bağlı problem hələ də mübahisəli qalır. Hazırda elmin sosial funksiyaları ilə bağlı məsələ xüsusilə aktualdır. Elmin sosial funksiyaları sırasında aşağıdakı 3-nü xüsusi olaraq vurğulayırlar:

1.Mədəni-dünyagörüşü;

2.istehsal qüvvəsi funksiyası;

3.Sosial güc funksiyası.

---

[164] Киселева Э.С. Социальные функции науки. Социологические науки. №45-1, 2016 г., s.302, 303

Üçüncü funksiyaya əsasən elmin metodları və onun göstəriciləri sosial və iqtisadi inkişafla bağlı iri miqyaslı planların hazırlanması üçün istifadə edilir. Elm müasir qlobal problemlərin (təbii ehtiyatların tükənməsi, atmosferin çirklənməsi, ekoloji təhlükənin miqyasının müəyyən edilməsi) həlli zamanı sosial güc kimi çıxış edir.

Müasir şəraitdə elmin səmərəli təşkili və inkişafı ilkin əhəmiyyət qazanır. Elmin əsas məqsədi istehsalat və obyektiv biliklərin sistemləşdirilməsi ilə bağlı olduğundan elmin qanunları mövcud proses və təzahürlərin təsvirinə, izah edilməsinə və proqnozlaşdırılmasına yönəlir. Beləliklə, elmi biliyin əsas funksiyaları istehsal və elmi biliyin yenidən yaradılması hesab edilir.[165]

Elmin sosial funksiyaları ilə bağlı qeyd edə bilərik ki, tarixi inkişaf prosesində bu funksiyaların mahiyyəti dəyişikliklərə uğrasa da, dövrün tələblərinə uyğun olaraq, hər zaman aktual olaraq qalır. Belə ki, elmin inkişafı ilə əlaqədar olaraq, insanların dünyagörüşündə, dünyanı qavramında yeni istiqamətlər açılır, bu isə onların təbiətə və cəmiyyətə münasibətlərinin dəyişməsinə və nəhayət, sosial münasibətlərin yeni mahiyyət qazanmasına gətirir. Elmi-texniki tərəqqi biliklərin genişlənməsilə nəticələnir və tədricən bu biliklər təhsil sistemi vasitəsilə kütləyə çatdırılır. Elmi biliklər innovasion xüsusiyyət daşıyır və idarəetmə sistemində islahatlar aparılmasına, yeni idarəetmə üsullarının tətbiq edilməsinə gətirir. Qeyd etmək lazımdır ki, elmin funksiyaları bir-biri ilə qarşılıqlı bağlı olub, bir-birindən çıxış edir. Belə ki, tənzimləyici-idarəetmə funksiyası həm də təcrübi-fəaliyyət funksiyasının əsası olub, əldə edilən nəzəri biliklərin tətbiqinə yönəlir.

Elmin funksiyalarının dəyişkənliyi və istiqamətləri onun daim inkişaf edən sosial fenomen olması ilə bağlıdır. Belə ki, hər bir tarixi dövr özünəməxsus elmi nailiyyətlərə və uyğun inkişaf xüsusiyyətlərinə malikdir. Bu daimi inkişaf xüsusiyyətləri

---

[165] Баканов Р.П.Актуальные проблемы современной науки и журналистика. Казань: Казанск. гос. ун-т, – 2010. – 152 с.

müəyyən dövrlərdə elmin inkişafında müəyyən durğunluqların yaranması ilə meydana çıxan problemlər və onların aradan qaldırılması məsələlərini aktuallaşdırır.

Qeyd edilən funksiyalar elmin sosial əsaslarının öyrənilməsini asanlaşdırır və hazırda xüsusi aktuallıq kəsb edən bu problem insanın hərtərəfli inkişafına yönəlmiş fəaliyyətin genişləndirilməsinə şərait yaradır. Hazırda inkişaf etmiş ölkələrdə sosial siyasət elmi araşdırmalardan əldə edilmiş nəticələrə uyğun formalaşır və burada elmin sosial institut kimi inkişafı dövlətin inkişaf strategiyasının aparıcı məsədlərini təşkil edir.

Onu da qeyd etmək lazımdır ki, sosial institutlar üzərində qurulan cəmiyyətin inkişafı prosesində bəzi norma və dəyərlər aradan çıxır, bəziləri isə yeni formada təzahür edir, yaxud yeni norma və dəyərlər sistemi müəyyənləşir. Dövlət siyasətinin həyata keçirilməsi mühiti və aləti kimi çıxış edən sosial institutlar cəmiyyətin ayrı-ayrı sosial sahələrinin perspektivli inkişafına şərait yaradır. Sosial siyasətin reallaşdığı institusional mühitin səmərəliliyini müəyyən edən kəmiyyət göstəriciləri bilavasitə iqtisadiyyat,siyasət, elm, mədəniyyət, səhiyyə mühitilə bağlıdır. [166]

Elm sosial institut və ictimai şüur forması kimi elmi-nəzəri biliklər istehsalı ilə bağlıdır və elmi təşkilatlar, elmi birlik üzvləri, norma və dəyərlər sistemi arasında müəyyən qarşılıqlı əlaqəlilik sistemi kimi çıxış edir. Yetkin elmin göstəricisi sadəlik və aydınlıq, dərin nəzəri, konseptual səviyyə hesab edilir. [167]

Elmin sosial institut olması haqqındakı ilk fikir R.Mertona məxsusdur. R.Merton alimlərin fəaliyyətini araşdıraraq, bu fəaliyyəti institutlaşmış elmi fəaliyyət kimi müəyyənləşdirmişdir. O, “Peşəkar davranış modeli olan "elm ethosu"nu formalaşdıraraq, etosun – “universalizm”, “kollektivizm”,

---

[166] Səadət Məmmədova. XXI əsrdə elmin institutlaşması xüsusiyyətləri. // Şərq Fəlsəfəsi Problemləri. № 29, 2023 Проблемы Восточной Философии.//URL: http://doi.science.gov.az/pages/journals/jpeph/pdf/jpeph2023_29_94.pdf

[167] Кохановский В.П., Золотухина Е.В., Лешкевич Т.Г., Фатхи Т.Б. Философия для аспирантов: Изд 2-е. – Ростов н/Д: Феникс, 2003. – С.19.

"fədakarlıq" və "mütəşəkkil skeptisizm" kimi dörd normadan ibarət olduğunu bildirmişdir.[168]

Elmin sosial institut olması onun sosial təbiətinin göstəricisidir və ictimai şüur kimi onun varlığını obyektivləşdirir. Elmin din, siyasət, hüquq, ideologiya, incəsənət və s. ictimai şüur formaları ilə əlaqəli olması onun sosial institut olmasının göstəricisidir.

Elmin institutlaşması xüsusi bir prosesdir.

Elm sosial institut kimi özündə:

- bilikli, ixtisaslaşmış və təcrübəli alimləri;
- elmi əmək bölgüsü və əməkdaşlığı;
- elmi informasiya ilə bağlı fəaliyyət sistemini;
- elmi məktəb və birlikləri;
- eksperimental və laborator təchizatı və s. birləşdirir.[169]

Elm – inkişaf edən həqiqi biliyin alt sistemi olub, reallığı işarələrlə ifadə edir. Elm – peşəkarlıqla hazırlanmış subyektlərin (alimlərin və elmi kollektivin) xüsusi metodologiyadan istifadə etməklə elmi biliklər əldə etməyə yönəlmiş xüsusi sosial fəaliyyətini əks etdirən alt sistemdir. Elm – təşkilati formaların alt sistemidir (akademiyalar, institutlar, laboratoriyalar, observatoriyalar, poliuonlar v.s.).

Qeyd edilən əsas əlamətləri ümumiləşdirərək və sosial tərəfə xüsusi diqqət ayıraraq, demək olar ki, *elm – sosial fəaliyyətin və onun təşkilatlanmasının xüsusi formasıdır. Bu zaman əsas məqsəd təbii və süni dillərin işarəli formalarında ifadə olunan reallığın həqiqi bilik sistemində əks olunması ilə bağlı olur.*

Elm – üzvi şəkildə bir-biri ilə qarşılıqlı təsirdə olan dəyişənlər kompleksinin xüsusi sistemi və özünəməxsus fəaliyyət formasıdır. Bu kompleks özündə üç amili birləşdirir: predmet-

---

168 Мирская Е.З. Р.Мертон и его концепция социология науки // Современная западная социология науки /Под ред. В.Ж.Келле, Е.З.Мирской. М., 1988. С. 42–60.

169 Баканов Р.П. Актуальные проблемы современной науки и журналистика. Казань: Казанск. гос. ун-т, 2010, s.121-123 (152 с.)

məntiqi (elmin metodologiyası), sosial-elmi (elmin sosiologiyası), şəxsi-psixoloji (elmin psixologiyası).

Son onilliklərdə yeni elmi istiqamətlərin meydana çıxması, bir çox elmlərin çulğaşması elmin tarixi təcrübəsinin, onun yollarının və perspektivlərinin dərk edilməsi tələbatlarını genişləndirdi. Bu, yeni elmi istiqamət kimi elm haqqında elm olan – elmşünaslığın yaranmasına səbəb oldu.

*Elmşünaslıq - müstəqil olaraq formalaşan elmi sahə və elmi istiqamətlər kompleksidir. Elmşünaslığın obyekti – mürəkkəb sosial təzahür olan elmin ayrı-ayrı blokları, fraqmentləri, tərəfləri, qanunauyğun əlaqə və münasibətləridir***.**

Elmin strukturu hələ ki, yaradıcı müzakirə və yaranma mərhələsindədir, belə ki, burada hələ ki, predmet yoxdur və fənlərarası sərhədlər şərti səviyyədədir.Bununla belə elmşünaslığın strukturunda bəzi fənləri fərqləndirmək olar:[170]

*Elmin fəlsəfəsi* – elmi təfəkkürün ümumi qanunauyğunluqlarını tarixi və sosial-mədəni kontekstdə inkişaf meyllərini öyrənir;

*Elmin ümumi nəzəriyyəsi* – elmi biliklərin, elmi fəaliyyətin və onların elmi təşkilinin ümumnəzəri konsepsiyalarını və modellərini işləyir, həmçinin ümumilikdə elmin quruluşu, funksiyalaşması və inkişafı qanunauyğunluqlarını məntiqi şəkildə nizamlayır. Elmin ümumi nəzəriyyəsində elmi tədqiqat və onun texnologiyaları, yəni yeni elmi biliyin sintezi prosesinin əməli tərəfinin (prinsipləri, yanaşmaları, metodları, vasitələri, prosedurları) mahiyyəti və məzmunu ilə bağlı məsələlər mərkəzi yer tutur.Bu komopleks məsələlər həm də *elmin metodologiyası (elmi tədqiqatın metodologiyası)* adlanır.

*Elmin tarixi* – cəmiyyətin müxtəlif mərhələlərində elmin köklərini və məkan – zaman hərəkətini öyrənir, sistemləşdirir.

[170] Понятие социального института. Признаки, роль и значение социальных институтов.(2022). http://www.e-reading.mobi/chapter.php/99772/40/Davydov_-Sociologiya__konspekt_lekciii.html

*Elmin sosiologiyası* – elm və cəmiyyətin qarşılıqlı əlaqəliliyini və qarşılıqlı təsirini, sosial əlaqələrini və statusunu, həmçinin alimlərin və elmi kollektivlərin fəaliyyətini ifadə edir.

*Elmin etikası* – elmi münasibətlərin etik və əxlaqi problemlərini öyrənir, elmi münasibətlərin, məqsədlər seçiminin, nailiyyətlərin və onları istifadə etməyin üsullarını, alimin və elmi kollektivin peşəkar və sosial məsuliyyəti ilə bağlı prinsip və normalarını müəyyənləşdirir;

*Elmimetriya* – indikatorları (göstəriciləri, parametrləri) əsaslandırır, nəzəriyyə və meyarlar qurur, kəmiyyət metodlarını və modellərini hazırlayır, funksional asılılıqları, elmi fəaliyyətin və onun təşkilinin funksiyalaşması və inkişafı nisbətlərini və qanunauyğunluqlarını müəyyənləşdirir;

*Elmin psixologiyası* – burada alimlərin və elmi kollektivlərin fəaliyyətinə və təşkilinə təsir edən psixoloji amilləri (tədqiqatçıların və bu tip şəxslərin maraqları, motivləri, yönümləri, intuisiyaları, təxəyyülləri, fərdi xüsusiyyətləri) araşdırılır.

*Elmin metodologiyası* – normativlər sisteminin – prinsiplər, yanaşmalar, proqramlar, prosedurlar, metodlar və üsulların, elmi tədqiqat prosesinin, elmi biliyin təşkili və sistemləşdirilməsi, metodoloji dilin hazırlanması, metodun ümumi nəzəriyyəsinin işlənib hazırlanması ilə bağlı təlimin və metodun təkmilləşdirilməsi və hazırlanması və səmərələşdirilməsi məqsədilə elmi təfəkkür prosesinin və onun nəticələrinin qanunlarını və qanunauyğunluqlarını analiz edən elmi disiplindir. Elmin metodologiyasının predmetinin düzgün dərk edilməsi üçün elmi rasionallığın, elmi tədqiqatın və elmi təfəkkürün xüsusiyyətlərini və mahiyyətini dərk etmək zəruridir.[171]

Elmin ayrılmaz bir sistem kimi təhlil edilməsi, heç şübhəsiz, onun çoxsəviyyəli mahiyyətinin olmasına görədir. Müasir elm artıq müxtəlif sahələrdə araşdırılır. Bu sahələrdən biri

[171] Wuletaw Wondmagegn. Social institutions: a review.// Sociology International Journal. Volume 8 Issue 5 – 2024. https://medcraveonline.com/SIJ/SIJ-08-00395.pdf

də elmşünaslıqdır. Elmşünaslıq – elmi biliklərin və elmi fəaliyyətin, o cümlədən, elmin kəmiyyət metodları ilə araşdırılması, elmmetriya, elm sosiologiyası, elm fəlsəfəsi, elmin iqtisadiyyatı, elmin kulturologiyası, elmi yaradıcılıq psixologiyası daxil olmaqla fənlərarası tədqiqat sahəsidir.

Müasir dövrdə Elmşünaslığın əsas inkişaf istiqamətləri olan Elm tarixi, Elmşünaslıq və Elmimetriya ilə bağlıdır. F.Məmmədovun vurğuladığı kimi: "*Elmin metodologiyası – elmin fəlsəfəsi, elmin sosiologiyası, elmi biliyin sosiologiyası, elmin iqtisadiyyatı, elmin psixologiyası, elmin mədəniyyəti sahələrində aparılan nəzəri-praktiki araşdırmalar üzərində qurulur*.

*Elmin inkişafı hər zaman çətin, ağır yolla gedir. ...yalnız evin tikintisi fundamentdən başlayır, elmin tikintisində isə onun əsasları adətən çox gec üzə çıxır*".[172]

Elm haqqında elm olan elmşünaslığın formalaşması və inkişafı XVII əsrdə aiddir. Dövrünün ən böyük mütəfəkkirlərindən biri kimi qəbul edilən və yaşadığı məkanı mütərəqqi fikirli şəxslər üçün toplanış yeri olaraq müəyyən edən Fransanın riyazi dühalarından olan Rene Dekart "Metod haqqında düşüncələr" (1637) əsərində individual məhsuldarlıq problemini elmi təhlil etmişdir. [173]

XX yüzilin başlanğıcında D.İ.Mendeleyev praktika ilə nəzəriyyəni, elmi təsisatların strukturunu, tədqiqatçı-alimlərin statistik göstəricilərinin təbii yüksəlişini və elm sahəsində təzahür edən problemləri geniş aspektdə təhlil etmişdir. Həmin vaxtlarda kimyaçı-alim P.Valden elmin təşkilatlanması, idarə edilməsi və istiqamətləndirilməsilə bağlı apardığı tədqiqatlarda fərqli dövlətlərdə tədqiqatçı-aıimlərin elmin, cəmiyyətin və dövlətin tərəqqisinə təkan verən əsərlərini təhlil etmişdir.

---

[172] Məmmədov F.T.. Kulturologiya, mədəniyyət, sivilizasiya.- Bakı, "OL" MMC, 2016. 260.

[173] Descartes René. Discours de la Méthode pour bien conduire sa raison, et chercher la Vérité dans les sciences. — Leiden, 1637.

Elmi araşdırmalarının pronblemləri əsas olaraq XIX əsrin ortalarında tədqiqata cəlb edilsə də elmin öyrənilməsi XX əsrin birinci yarısında ortaya çıxmışdır.

XX əsrin ilk onilliyində Nobel mükafatı laureatı, alim-fizik Vilhelm Ostvald "Böyük insanlar" adlı əsərində bioqrafik və özünün qeyd etdiyi kimi psixoqrafik metodlardan istifadə etməklə yalnız elmin deyil, bütövlükdə bəşər cəmiyyətinin tərəqqisində inqilab edən, əsaslı dəyişikliklərə və tərəqqiyə səbəb olan elm adamlarının (Qalileyin, elektrokimyanın banisi Humphry Davy, elektromaqnit sahəsi nəzəriyyəsinin banisi Maykl Faradeyin və 19-cu əsrin ən böyük alimlərindən biri Hermann Helmholtzunvə başqalarının) həyat və fəaliyyətlərini analiz edir, böyük şəxsiyyəti uşaqlıqdan və gənclikdən necə tanımaq və yönəltməyin mümkünlüyü haqqında konsepsiya inkişaf etdirir.[174]

Elmşünaslığın inkişafında V.İ.Vernadskinin rolu danılmazdır. Moskva Universitetində "Müasir elmi dünyagörüşünün tarixi" kursunu tədris edən V.İ.Vernadski "elmi iş və elmi yaradıcılığın" mahiyyətini izah edərkən bildirirdi ki: "*Paradoksal səslənir, amma həqiqətdir: elmi dünyagörüşünün yayılması bəzən hətta elmi işə və elmi yaradıcılığa da mane ola bilər, çünki bu, istər-istəməz müəyyən bir dövrün elmi səhvlərini gücləndirir, müvəqqəti elmi mövqelərə əslində olduğundan daha Fəlsəfi anlayışlarçox etibarlılıq verir. Həmişə elmdən kənar olan fəlsəfə din, ictimai həyat və bədii yaradıcılıq konstruksiyaları ilə doludur*".[175] XX əsrin əvvəllərində elm tarixi ixtisasının yaradılmasına cəhd etdə də, yalnız 1921-ci ildə SSRİ Elmlər Akademiyasında Bilik Tarixi Komissiyası yaradılmasına nail olmuşdu və 1932-ci ildə bu komissiya əsasında Vernadskinin

---

[174] Оствальд В.Ф. Великие люди : Со ст. проф. Эмиля Бауэра / Вильгельм Оствальд; Пер. с 2 нем. изд. Г. Кваша. — Санкт-Петербург : Вят. книго-издат. т-во, 1910. — XII, 398, IV с. : 23.

[175] Вернадский В.И. Мысли о современном значении истории знаний / В.И. Вернадский // Избранные труды по истории науки. – М. : Наука, 1981. – 359.

rəhbərliyi ilə SSRİ Elmlər Akademiyasında Təbiət Elmləri və Texnika Tarixi İnstitutu açılmışdı.

XX əsrin əvvəllərində elmin fəlsəfəsini inkişaf etdirən şəxsiyyətlərdən biri də Çikaqo Universitetinin professoru Rudolf Karnap olmuşdur. Elmi anlayışların məntiqi inkişaf prosesini araşdıran R.Karnapa görə "*Cümlələrdə rast gəlinən sözlərin ("anlayışların") mənasını müəyyən etmək üçün elmi cümlələrin məzmununun məntiqi təhlilindən istifadə etməyi qarşısına vəzifə qoyan "tətbiqi məntiq" və ya "bilik nəzəriyyəsi" üzrə araşdırmalar müsbət və mənfi nəticələrə gətirib çıxarır. Empirik elm sahəsində müsbət nəticə əldə edilir; Müxtəlif elm sahələrində ayrı-ayrı anlayışlar izah edilir, onların formal-məntiqi və nəzəri-idraki əlaqələri üzə çıxarılır*".[176]

Elmi anlayışlar bazasının formalaşmasını tarixi aspektdə nəzərdən keçirən R.Karnap belə nəticəyə gəlir ki, müəyyən elmi kateqoriyaların formalaşması bir elmin hüdudlarında məhdudlaşmır, əslində yeni yaranan anlayış müxtəlif elm sahələrində istifadə edilərək yeni məzmunla zənginləşir.

Elmi inqilablar tarixini araşdıran T.Kun "elm" və "alim" anlayışlarının .ərhini təqdim edərək qeyd edir: "*Elmə dövriyyədə olan ...faktların, nəzəriyyələrin və metodların məcmuəsi kimi baxılırsa, alimlər bu toplunun yaradılmasına az-çox uğurla töhfə verən insanlardır. ...elmin inkişafı faktların, nəzəriyyələrin və metodların birləşərək getdikcə artan nailiyyətlər fondunu formalaşdıran, elmi metodologiya və biliyi təşkil edən mərhələli prosesdir. ...elm tarixi ...ardıcıl artımı, ...biliklərin toplanmasına mane olan çətinlikləri qeyd edən bir fənnə çevrilir. ...elmin inkişafı ilə maraqlanan tarixçi qarşısında iki əsas vəzifə qoyur. ...elmi faktı, qanunu, nəzəriyyəni kimin və nə vaxt kəşf etdiyini və ya icad etdiyini müəyyən etməlidir. ...müasir elmi biliyin tərkib*

[176] Карнап Рудольф. Преодоление метафизики логическим анализом языка // «Вестник МГУ», сер. 7 «Философия», № 6, 1993, с. 11–26.

*hissələrinin sürətlə toplanmasına mane olan çoxlu səhvlərin, miflərin və qərəzlərin mövcudluğunu təsvir və izah etməlidir*”.[177]

Elmin tarixinin öyrənilməsi və ya Elmşünaslığın tərəqqisində R.Mertonun tədqiqatları xüsusi bir mərhələdir. Əsasən elmin sosioloji və sosial psixoloji aspektlərinin öyrənilməsinə çalışan Robert Merton elmin ilk sosioloji modelini təqdim etmişdi. Bu modelin sadələşdirilmiş şərhi belədir: “*Elm etibarlı bilik istehsal edən bir qurumdur. Elmin fəaliyyətini müəyyən edən əsas mexanizm elmi birlikdə fəaliyyət göstərən və alimlərin peşə fəaliyyətini tənzimləyən normalar məcmusudur. Bu mexanizmin hərəkətini təmin edən qüvvə hər bir alimin institusional olaraq dəstəklənən peşəkar tanınma istəyidir*”.[178]

Elmşünaslığın bir disiplin olaraq formalaşmasında böyük rolu olan, həmçinin “Elmin sosial funksiyası” kitabının (1938) müəllifi Con Desmond Bernal ilk dəfə olaraq, “*elmi inqilab*” anlayışını istifadə etmişdi. Bernal Yeni elmin yaradılmasına gətirən elmi inqilabları “*kritik dövrdə elmi ideyalardakı dəyişikliklər... ...yunanlardan miras qalmış və həm İslam, həm də Xristian ilahiyyatçıları tərəfindən müqəddəsləşdirilən bütün intellektual fərziyyə binasını məhv edən və yerinə tamamilə yeni bir sistem qoyan, həqiqətən elmi bir inqilab idi. Müsəlman və xristian sxolastiklərinin yunanlardan miras qoyduğu dünyanın köhnə, keyfiyyətcə, davamlı, məhdud və dini mənzərəsinin yerini yeni kəmiyyət, atomistik, sonsuz genişlənmiş və dünyəvi reallıq anlayışı tutdu*”. Yeni elmin yaranması mərhələsini elmdə keçid dövrü kimi xarakterizə edən müəllif bu mərhələni belə şərh edir: “*...dağıdıcı tənqidlə konstruktiv sintez bir-birinə o qədər yaxınlaşıb ki, onların arasında sərhəd çəkmək mümkün deyil*”.

---

[177] Кун Т. Структура научных революций / пер. с англ. И. З. Налётова ; общ. ред. и послесл. С. Р. Микулинского и Л. А. Марковой. М. : Прогресс, 1975. 288 с

[178] Мирская Е.З. Р.Мертон и его концепция социология науки // Современная западная социология науки /Под ред. В.Ж.Келле, Е.З.Мирской. М., 1988. С. 42–60.

Bernal elmi inqilaba qədərki mərhələni kritik dövr kimi müəyyənləşdirir və elmi inqilab tarixinin üç mərhələsini fərqləndirirdi: "*İntibah (Renessans) (1440-1540), dini müharibələr (1540-1650) və Bərpa (Restovrasiya) (1650-1690) mərhələləri*" və qeyd edirdi ki: "*onlar bir-birindən kəskin şəkildə fərqlənən üç dövr deyil, feodal iqtisadiyyatından kapitalist iqtisadiyyatına keçid zamanı elmin vahid modifikasiya prosesinin üç mərhələsini təmsil edir*".[179]

Elmşünaslıq və elmin tarixi əsaslarının öyrənilməsi bir cərəyan kimi əsasən İkinci Dünya müharibəsindən sonra geniş intişar tapdı. Bu dövrdə elmin sosial-psixoloji, sosioloji, fəlsəfi, iqtisadi, təşkilati və digər problemləri geniş şəkildə öyrənilməyə başlandı, elmin öyrənilməsi sahəsi üzrə elmi-tədqiqat qrupları yaradıldı, xüsusi jurnallar nəşr edildi, konfranslar keçirilməyə başlandı.

XXI əsrdə elm haqqında elmin – Elmşünaslığın inkişafında intensivlik nəzərə çarpır. Müasir Elmşünaslıq yalnız elmlərarası araşdırmalarla məşğul olan elmi istiqamət kimi elmin təbiətini və məzmununu, struktur quruluşunu, dinamikasını və mobilliyini, mexanizmlərini, cəmiyyətin digər sosial təsisatları ilə qarşılıqlı əlaqəliliyini və qarşılıqlı fəaliyyətini deyil, həm də rəqəmsallaşmanın genişlənməsində elmin rolunu, həmçinin elmin inkişafına rəqəmsallaşmanın təsirini öyrənir. Bu zaman elmşünaslığın digər bir istiqaməti – elmimetriyanın inkişafı sürətlənir. Müxtəlif elm sahələrinə aid elmi kəşflər və elmi nailiyyətlərin, alimlərin, elmi müəssisələrin və s. statistikasının toplanması elmimetriyanın inkişafının başlıca göstəricisidir. Məhz elmimetrik göstəricilər əsasında Elmşünaslıq müasir elmin cəmiyyətdə hansı dəyişikliklərə səbəb ola biləcəyi potensialı müəyyənləşdirməyə çalışır. Elmin yeni sahələrinin, metodlarının və metodologiyasının, yanaşma və nəzəriyyələrinin tətbiqi əsaslarının və cəmiyyətin tərəqqisindəki rolunun

[179] Бернал Дж. Наука в истории общества. М.: Издательство иностранной литературы, 1956.

müəyyənləşdirilməsi də müasir elmşünaslığın araşdırmalarına daxil olmuşdur.

XXI əsrdə təbiət elmlərinin inkişaf dinamikası, ictimai elmlər sahəsində əldə edilən nailiyyətlər, texniki elmlərlə bağlı yeniliklər, elmlərarası tədqiqatlar, elmin populyarlaşdırılması və bu istiqamətdəki digər proseslər elmin diferensiasiyasının dərinləşdiyini göstərir. Sosial institut olan elmin təbiətinin, strukturunun və sosial funksiyalarının öyrənilməsi və təbliği onun sosial fəaliyyət formasına çevrilməsini aktuallaşdırır, elmin sosial problemləri istiqamətində araşdırmaların aparılması zərurətini yaradır.

Elmin sosial institut olaraq fəaliyyət istiqamətlərini aşağıdakı tezislərlə ümumiləşdirə bilərik:

1.Elmin tərəqqisi bilavasitə bəşərin və bəşəriyyətin rifahının yüksəldilməsinə yönəldiyindən onun sosial mahiyyəti tədricən dəyişir. Elmin inkişafı insanların dünyagörüşündə, dünyanı qavramında yeni istiqamətlər açır, onların təbiətə və cəmiyyətə münasibətlərinin dəyişməsinə, sosial münasibətlərin yeni mahiyyət qazanmasına gətirir. Digər tərəfdən, elmi biliklər innovasion xüsusiyyət daşıyır və idarəetmə sistemində islahatlar aparılmasına, yeni idarəetmə üsullarının tətbiq edilməsinə səbəb olur.

2.Aid olduğumuz sivilizasiyada elm heç zaman olmadığı inkişaf səviyyəsinə çatıb. XX əsrin sonu və XXI əsrin başlanğıcından etibarən bəşər tarixində elmi inqilabların yeni, daha sürətli bir dövrünün başlandığını qeyd edə bilərik. Əgər XIX əsrdə əldə edilən elmi yeniliklər yayılma sürətinə və tətbiq sahəsinə görə müəyyən məhdudiyyətlərlə üzləşirdisə, XX – XXI əsrlərdə elmi kəşflərin kəmiyyəti və tətbiqi imkanları inanılmaz dərəcədə genişlənmişdir. Müasir elmin inkişaf səviyyəsi deməyə əsas verir ki, bu gün elm bəşəriyyətin inkişafında əsaslı dəyişikliklərə gətirir.

3.Müasir elmin inkişafında bir sıra problemlər meydana çıxır. Bu problemlər aşağıdakı kimi təsnif edilə bilər:

-Elmin müxtəlif sosial sistemlərin (siyasi, hüquqi, etik, estetik, texnoloji, kommunikativ və s.) fəaliyyətində əsaslı rolu ilə bağlı yaranan problemlər.

-Qarşılıqlı əlaqəli elmi fənlərlə bağlı yaranan problemlər.

- Elmin sosial-iqtisadi problemləri.

# RƏQƏMSAL CƏMİYYƏTİN YARADICISI: ALİM FENOMENİ

Elmin araşdırılması, onun tarixi əsaslarının öyrənilməsi əslində, elmi şüurun inkişafı problemi ilk növbədə praktik düşüncəni elmi idrakın süzgəcindən keçirərək yeni anlamda və tərəqqiyönlü təqdim edən insanların – ailmərin psixologiyasının, düşüncə və təfəkkür tərzinin öyrənilməsini tələb edir. Elmlə məşğul olan deyil, məhz elmi fikri inkişaf etdirən alimin təfəkkür imkanlarının açılması elmin, elmi təfəkkürün yaranma və inkişaf imkanlarının izahını təqdim etməyə imkan verə bilər. Alimlərin psixologiyasının araşdırılması ilə məşğul olan Orteqa y Qasset kimi bir çox müasir mütəfəkkirlər əmindirlər ki, hazırda orta səviyyə biliklərə malik olan insanlar da elmlə məşğul olurlar. Onun tədqiqatlarında qədim və orta əsr mütəfəkkirlərilə yeni dövr alimləri arasında müqayisə aparılaraq, göstərilir ki, yeni dövrdə texnologiyaların inkişafı orta səviyyə biliklərə malik olan insanların empirik tədqiqatlar apararaq, konsepsiyalar irəli sürməsi imkanlarını genişləndirmişdir. Qədim dövr mütəfəkkirləri isə həqiqətən qeyri-adi istedada malik, bir çox elm sahələrində əsaslı yeniliklər edən həqiqi dahilər olmuşlar. Qədim və orta əsrlərdə yaşamış mütəfəkkirlər çox zaman tək müəllif olaraq çoxtərəli fəaliyyət göstərmişilər, müasir elm isə çox zaman kollektiv tədqiqatlar əsasında inkişaf edir.

XXI əsrdə ayrı-ayrı alimlərin deyil, çox zaman böyük alim kollektivlərinin birgə araşdırmalarına üstünlük verilir və bu zaman həqiqətən də mühüm nailiyyətlər təqdim edilir. Belə ki, tək bir alim tərəfindən aparılan tədqiqatlara 10 illərlə vaxt sərf edilə bildiyi halda alim kollektivləri hərtərəfli və çox qısa zaman çərçivəsində elmi araşdırmalar apararaq fundamental nəticələri reallaşdırırlar. Nəticədə elm və elmin təsiri ilə cəmiyyət çox sürətli dəyişikliklərə məruz qalır. Beləliklə, insan cəmiyyətində davamlı dəyişikliklərin mənbəyi və mənşəyini müəyyənləşdirməyə, yönəltməyə çalışan şəxsiyyətlər – alimlər sosial hadisə və proseslərin yaradıcısı və yönləndiricisi kimi çıxış edirlər.

Professor İlham Məmmədzadə müasir rəqəmsallaşma prosesinin elmi tədqiqat prorsesinə və alimə təsiri imkanlarını təhlil edərək vurğulayır ki, "*texnologiyaların inkişafı və həyatın praktik olaraq bütün sahələrinin rəqəmsallaşması alimin özünün şüurunun, tədqiqat metodlarının dəyişilməsinə və bunun nəticəsi kimi, dünya nizamını dərk etməyimizi genişləndirə biləcək yeni nəzəriyyə və konsepsiyaların inkişafına səbəb olur*".[180]

Bəs elmi araşdırmalar aparmağa olan meyli necə izah etmək olar? Deleuze və Guattari əmindirlər ki, elmi maraq yaradıcılığa olan meyllə çox bağlıdır. Deleuze və Guattari bu çoxistiqamətli və çoxölçülü fəaliyyətlə bağlı *"heterogenez"* terminini işlədirlər. *"Bu cür yaradıcı doğuşun həlledici cəhəti ondan ibarətdir ki, o, mürəkkəb bir-birindən asılı olan, lakin qətiyyən gözlənilməz "oluş" ("hələ gələcək") növlərini əhatə edir*". "Qara qutu" nəzəriyyəsinə əsaslanan müəllif insan psixologiyası ilə bağlı belə bir nəticəyə gəlir ki, "*müxtəlif girişlər məlum olsa belə, dəqiq çıxışlar əvvəlcədən bilinə bilməz*".

Deleuze və Guattari qara qutunu xatırladan insan təfəkkürünün "mürəkkəb yaradılış" imkanlarını nəzərə alaraq, göstərirlər ki, "*yaradıcılıq hansısa özünəməxsus şəkildə "xaotik", "mürəkkəb" və ya "fövqəladə"dir*". Alimin yaradıcı fəaliyyətinin köklərini müəyynələşdiməyə çalışan mütəfəkkirlər aşağıdakı suallara cavab tapmağa çalışırlar: "*Yaradıcılıq nə dərəcədə mütləq başlanğıc və sonluqdur, ortada paralel və ya çoxlu "kainatların" davamlı qurulması ilə bağlıdırmı? Yaradıcılıq bütün həyatın təbii və zəruri tərəfidir, yoxsa yalnız insanlara xasdır? "Məxluq" özünü "yaratmağa" çatanda nə baş verir? Yaradıcılıq insanların yeganə səlahiyyətidir, yoxsa (digər) maşınlara da şamil edilir? Dəyişiklik və transformasiya üçün bu qədər potensiala baxmayaraq, yaradıcılıq haqqında bu qədər xüsusi və ya ümumi olan nədir?*"

Deleuze və Guattari yaradıcılığın baş verə biləcəyi üç əsas sahəni və ya "kəsişən müstəviləri" fərqləndirirlər:

---

[180] Мамедзаде И., Дадашова С. О философии искусственного интеллекта и научной революции // Вопросы философии. 2023. Т. № 4. С. 206–215

"*1.anlayışların yaradılması (fəlsəfə);*

*2.incəsənət;*

*3. qavrayışların yaradılmasında iştirak etdiyi üçün elm*".[181]

İnsan ilk olaraq onu əhatə edən mühiti, sonra isə özünü, öz yaradılışını dərk etməyə çalışaraq elmi təfəkkürü formalaşdırmışdır, desək bəlkə də yanılmarıq. Onu da qeyd edə bilərik ki, eyni təbiət, sosial, mədəni, siyasi və s. hadisə və proseslərə fərqli münasibətlər və fərqli qavrayış imkanları çoxsaylı konsepsiya və nəzəriyyələrin formalaşmasına əsas olur. Hadisə və proseslərlə bağlı fərqli konsepsiya və nəzəriyyələr yaradıcı təfəkkürün çoxşaxəliliyinin təzahürüdür.

Dean Keith Simonton psixologiyada yaradıcılığın mahiyyətinin dərk edilməsi məqsədilə "*problem həll etmə*", "*dərketmə*", "*zəka*", "*istedad*" və "*dahi*" kimi anlayışlara müraciət edildiyini göstərərək, yaradıcılığın "*eksklüziv deyil, inklüziv perspektivli*" olduğunu bildirir.[182]

Bu qeyd edilənlərə istinadən yaradıcı təfəkkür və meyl alimlərin başlıca psixi vəziyyəti olaraq səciyyələndirilə bilər. Yaradıcı alim şəxsiyyəti əsasən sosial aləmə deyil, öz daxili dünyasına yönəlmiş təfəkkürlə bağlıdır. Xarici aləm alimi dərk edilmə obyekti olaraq cəlb edir, o, axtarışlarının nəticəsinin sosial rezonansa deyil, sosial və idraki tərəqqiyə gətirəcəyinə inanır. Belə demək olarsa, alim idrakı daha mürəkkəb sistemlidir.

A.Y.Aqafanov "şüur" və "dərketmə" anlayışlarını bir-birindən fərqləndirərək, göstərir ki, "*şüur və təfəkkürün fərqli ontologiyası var. Təfəkkütdən fərqli olaraq, nəzəri "şüur" anlayışı real deyil, hipotetik və buna görə də empirik olaraq etibarlı*

---

[181] Rob Pope. Creativity. Theory, history, practice. http://elibrary.bsu.edu.az/files/books_400/N_134.pdf. S.4-5

[182] Dean Keith Simonton. The Psychology of Creativity: A Historical Perspective // History of Creativity Research. University of California, Davis. 2015, N 8. https://simonton.faculty.ucdavis.edu/wp-content/uploads/sites/243/2015/08/HistoryCreativity.pdf. İstifadə edilib: 28.06.2022

*olmayan, əlaqələndirilmiş və dərk edilmiş təcrübə yaradan mexanizmlər sistemini təyin etmək üçün təklif olunur. Empirik hadisə kimi idrak psixologiyanın əsas problemidir və onu aşağıdakı kimi formalaşdırmaq olar: "Dərketmə necə baş verir?". İdrakın təhlili bizə xaricdən müşahidə olunmayan və təfəkkürün introspeksiyaya qapalı proseslərini təqdim etməyə imkan verir... ...təfəkkürün fenomenologiyasını izah etmək üçün empirik təcrübədə olmayanı təsvir edən idrak nəzəriyyəsi lazımdır".*[183]

İlk elmi fikir necə yaranmışdır? İlk alim kimdir? Hansı fikirlərdən və düşüncələrdən çıxış edərək elmi təfəkkür formalaşmışdır? İnsan dünyanı elm vasitəsilə dərk edirmi, yoxsa bu da bir illyuziyadır? Elmin başlanması dərk edilmiş həyatın başlanması hesab edilə bilərmi? Elmin sonu, bəşərin sonudurmu? İlk özünüdərkə cəhd edən insanı alim adlandırmaq olarmı?

Bu və digər suallara axtarılan cavablar elmin və alimin psixologiyasının öyrənilməsini və dərkini aktual edir.

Elmi təfəkkürdə iştirak edən genetik və beyin mexanizmlərini anlamağa çalışmaq elmin psixologiyası üçün mükəmməl bir araşdırma mövzusudur, lakin bu, mütləq çətin bir işdir. Elmi əsaslandırma və problem həllinin real vaxt rejimində beyin şəkillərini əldə etmək asan və ya ucuz deyil. Ancaq son vaxtlar bir neçə psixoloq Conatan Fugelsang və Kevin Dunbar ilə bu cür araşdırmalara başlayıb. Onlar elmi və səbəb-nəticələrin əsasını təşkil edən sinir mexanizmlərinə diqqət yetiriblər. Məsələn, Fugelsang və Dunbar iddia edirlər ki, insanlar inandırıcı nəzəriyyələrə malik olduqda sübuta daha çox diqqət yetirirlər, nəinki inandırıcı olmayan nəzəriyyələr. Onlar kəşf etdilər ki, məlumatlar bir nəzəriyyə ilə uyğunlaşdıqda, beynin öyrənmə və yaddaş mərkəzi olan hipokampusu əhatə edən bölgədə sinir mexanizmləri işə düşür. Verilənlər nəzəriyyə ilə uyğun gəlmədikdə, prefrontal korteksdəki beyin mexanizmləri, səhvlərin

---

[183] Агафонов А.Ю. Сознание: где искать «черный ящик»? // Методология и история психологии. 2009. № 1. С. 151–165.

aşkarlanması, diqqət və ziddiyyətli baxış nöqtələrinin monitorinqi ilə məşğul olan sahələr işə düşür.[184]

Bu fikirlər elmi yaradıcılıq qabiliyyətinin genetik olub olmaması problemini ortaya qoyur. L.S.Vıqotskinin sosial mədəni mühitin insanın psixoloji inkişafındakı rolu və proksimal zona nəzəriyyələrinə istinad edərək deyə bilərik ki, genetik amillər danılmaz olsa da, mühitin münbitliyi istedadlı şəxsin yaradıcı alim kimi yetişməsində əsaslı təsirə malikdir. Sağlam psixikanın, maraq və meyllərin inkişaf etdirilməsi və yönləndirilməsi genetik amillər qədər böyük əhəmiyyətə malikdir.

Elm tarixində ilk alim Aristotel hesab edilir. Aristotelin genetik şəcərəsi haqqında verilən məlumata əsasən onun atası Nikomax qədim həkimlər nəslindən idi. Saray həkimi olan Nikomax təbabət və fəlsəfə ilə bağlı əsərlərin müəllifi olmuşdur. Arisotelin himayəçisi olan atası onun təhsilinə xüsusi diqqət yetirmişdir. Mənbələrdə bilik və təcrübələrin ötürülməsinin Nikomaxın nəsilində ənənəvi mahiyyət daşıması haqqında da məlumat verilir. Beləliklə, deyə bilərik ki, tarixdə ilk alim hesab edilən Aristotel sağlam analiz və sintez etmək bacarıqlarna malik olmaqla yanaşı onun yaxın əhatəsinin himayədarlığı ilə bu bacarıqlarını təkmilləşdirməyə, ən ali səviyyəyə çatdırmağa nail olmuşdur.

Aristotel elmləri sistemləşdirmiş, ayrı-ayrı elmlərə xas anlayışlar bazasını təqdim etmiş və müxtəlif istiqamətli tədqiqatlar aparmışdır. Özünüdərkə və insanın varlığının əsaslarını tapmağa, insan təfəkkürünün xassə və məğzini açmağa çalışan Aristotel "Ruh haqqında" adlı əsər yazmışdır. Psixologiya elmi ilə bağlı ilk araşdırma hesab edilən bu əsərdə Aristotel bəşərin mövcudluq xüsusiyyətlərini təhlil edir. Ruhu canlı varlıqların daxili qüvvəsi kimi xarakterizə edən mütəfəkkir onun fərqli pillərini (bitki, heyvan, insan) təqdim edir. O, göstərir ki, "*İnsan heyvanlar aləmindən xüsusi bir qabiliyyətilə - yalnız onu əhatə edən aləmdə öz fəaliyyətini tənzimləməklə deyil, həm də bu*

[184] Kevin Dunbar, Jonathan Fugelsang. Scientific Thinking and Reasoning. // The Cambridge Handbook Of Thinking And Reasoning. 2004, p.705-726.

*dünyanı düşüncə ilə dərk etmək qabiliyyəti ilə seçilir. Yəni insanın ağlı var və ona münasibətdə rasional ruhdan danışmaq olar".* Aristotel ağılı bədənlə birbaşa bağlı olmayan bir şey kimi görür. Aristotel üçün ağıl bədəndən asılı deyil, "*insan öldükdən sonra nə isə qorunub saxlanılırsa, bu, onun ruhunun ağlı, rasional başlanğıcıdır*".[185] "Vahid dünya ağlı" haqqında danışan Aristotel əmindir ki, bəşəriyyət məhz bu ağıl vasitəsilə özünü və yaşam imkanlarını dərk edir. Aristotel ağlı fəaliyyətin başlanğıcı kimi qəbul edir. Aristotelə görə: "*Ağıl zehni obyektlərə bağlandıqda əzab içində olur. ...Yalnız bədəndən ayrıldıqda, o, həqiqətən olduğu şeyə çevrilir, yəni: ölməz və əbədi olur* ".

Aristotel qeyd edir ki, biz bildiklərimiz və hiss etdiklərimizlə yaşayırıq: "*yaşadığımız və hiss etdiyimiz şey iki şəkildə başa düşülür, bildiklərimiz – elmdir, ikincisi, ruhdur".* Aristotel ruhu yaşanan, hiss edilən və düşünülən kimi izah edir. Aristotelə görə "*ruh – canlı cismin səbəbi və başlanğıcıdır. ...Ruh mövcud olan hər şeyi əhatə edir. ...Ruhun iki əsas qabiliyyəti mühakimə və hərəkətdir".* Aristotel idrakın praktikadan yaranması fikrindədir və o, ağlı hərəkətverici qüvvə kimi xarakterizə edərək, nəzəri və praktiki ağlı fərqləndirir.[186]

Beləliklə, ilk alim kimi Aristotelin xarakterk xüsusyiyyətlərini müəyyənləşdirərkən deyə bilərik ki, alim hər zaman axtarışda olan şəxsiyyətdir. Bu axtarış bacarığını və hissini onda oyadan himayəçinin olması vacib şərtlərdəndir. Yaşadığı zamanın və sosial mühitin xüsusiyyətləri onun yaradıcılığında mütləq şəkildə öz əksini tapır. Alim yaşadığı sosial mühitdə baş verən hadisə və proseslərə münasibətsiz qala bilməz, bu münasibət idraki analiz və müqayisəli sintez bacarıqlarının təzahürüdür. Aristotelin həyatı və yaşam tərzi, onun ruhun təbiəti haqqında ideyaları belə deməyə əsas verir ki, alim varlığın və var olmanın mənasını və mahiyyətini dərk etməyə çalışır, dərin praktiki müşahidələrdən nəzəri nəticələr, konsepsiyalar irəli sürür.

---

[185] Аристотель. О душе. М.: «РИПОЛ Классик», 2018, стр.10 (12 с.)
[186] Аристотель. О душе. Москва: Государственное Социально - экономическое издательство, 1937. с.41, 46 (179 с.)

Aristotel antik dövrdə yaşamışdır, müxtəlif istiqamətli, əsasən ictimai elmlərlə bağlı əsərlərin müəllifidir. Aristoteli dahi adlandıra bilərikmi? Yaradıcılığının izlənilməsi Aristotelə dahi deməyə əsas verir. Aristotel elmi metodlardan istifadə etməklə elmin təsnifatını təqdim etmişdir. Eyni zamanda Aristotelin yaradıcılığı hansısa bir elm sahəsi ilə məhdudlaşmır. O, fərqli elm sahələrinə dair ilkin sistemli məlumatlar verir.

Aristotelin və dgər antik dövr alimlərinin elmi düşüncüləri təbiətlə bağlı idi. Onlar hər şeyin başlanğıcını təbiətlə bağlayırdılar. Orta əsr alimlərinin tədqiqatlarının başlıca istiqamətlərini onların yaradılışın banisi fövqəl qüvvə olan Allaha güclü inamları müəyyənləşdirmişdir. Bu dövrdə həm Qərb, həm də Şərq mütəfəkkirləri ilahi başlanğıc və mövcudluğun əsasları ilə bağlı fikirlər inkişaf etdirir, tədqiqatlar aparırdılar. Orta əsrlər bəşər tarixinin 1500 illiyini əhatə edən bir dövrdür və həm dinlə, həm də elmlə bağlı fərqli yanşmaların formalaşdığı zaman kəsiyidir. Ellinizmin süqutu, yeni elmi ənənələrin formalaşmağa başladığı erkən orta əsrləri elmi təfəkkürün Şərq tərəqqisi mərhələsi adlandırmaq olar. Bu dövrdə Aristotel və Ptolemeyin əsərləri orta əsrlər Şərq universitetlərinin kafedralarında ərəb dilinə tərcümə edilərək, yenidən təhlil edilirdi. Elm tarixinin erkən Şərq mərhələsi nəzəri biliklərin təcrübi tədqiqatlarla əlaqələndirilməsi dövrüdür. Belə ki, sənətkarlığın ayrı-ayrı sahələrinin inkişafı bu yöndə fərdi ixtiraların genişlənməsilə müşaiyət edilir və erkən feodalizm dövrü mütəfəkkirlərinin bir çoxu sənətakrlar ailəsində böyümüş şəxslər idilər. Sonralar axtarışlara olan maraq onların nəzəri biliklərə yiyələnmə həvəslərinin genişlənməsinə və yeni, təkmilləşdirilmiş əsaslarla təcrübədə tətbiqinə əsas vermişdir. Bu dövr mütəfəkkirləri universal biliklərə və tədqiqatlara malik olan böyük şəxsiyyətlər idilər.

Renosans dövrü bəşər tarixinin ən parlaq simalarının doğulduğu mərhələdir. Bu dövrün görkəmli mütəfəkkirləri sırasında Leonardo da Vinçinin adı xüsusi qeyd edilir. Leonardo da Vinçi şəxsiyyəti həm dahi rəssam, həm də böyük ixtiraçı

olaraq psixoanalizin banisi Ziqmunq Freyd tərəfindən öyrənilmişdir. Ziqmund Freyd qeyd edirdi ki: "*Əslində, Leonardo duyğusuz deyildi. O, bütün bəşəri işlərin birbaşa və ya dolayı mühərriki - il primo motore olan bu ilahi qığılcımdan məhrum deyildi. Lakin o, ehtiraslarını ixtiraçılığa yönəltmişdi. O, yalnız ehtirasdan qaynaqlana bilən əzmkarlıq, davamlılıq və dərinlik ilə özünü tədqiqata həsr etmiş və mənəvi gərginliyin zirvəsində yeni biliyə nail olmuşdur*".[187]

Z.Freydin dahi Leonardo Da Vinçi yaradıcılığının psixoloji məqamları ilə bağlı araşdırmasının təsdiqini E.Kantın etiraflarında görmək olar: "*Mənim dərketməyə böyük həvəsim var... Vaxt var idi ki, bütün bunların bəşəriyyət üçün şərəf ola biləcəyini düşünürdüm və heç nə bilməyən kütləyə xor baxırdım. Russo məni düzəltdi. Dedi ki, korluq üstünlüyü yox edir; İnsanlara hörmət etməyi öyrənirəm...*". [188]

E.Kant yalnız tədqiqatçı deyil, dahi idi. O, özü-özünü tədqiqat obyektinə çevirmiş, insanın idarki mahiyyətini təhlil etmişdir. Kant düşünürdü ki, insan idrakı hüdudsuzdur. Elmin inkişafında təcrübənin ilkinliyini vurğulayan Kant əmin idi ki, həqiqi elm insanın xeyirxahlığının inkişafına zəmin olmalıdır. Bununla da E.Kant alimin davranışlarının psixoloji əsaslarını tədqiq edən ilk mütəfəkkir olmuşdur.

Alimin psixologiyasının araşdırılması elmin psixologiyası istiqamətinin tədqiqat obyektlərindəndir. Elm psixologiyası alimin düşüncə və davranış tərzinin təhlilinə yönəlmişdir. Bu istiqamətdə tədqiqatlar XIX əsrdən başlayaraq aparılsa da ilk dəfə 1966-cı ildə Abraham Maslou elmin psixologiyasına dair məqaləsində elmin və alimin cəmiyyətin inkişafındakı rolunu araşdırmışdır.

---

[187] Фрейд З. Леонардо да Винчи. Воспоминание детства / З. Фрейд, s.10 https://litportal.ru/avtory/zigmund-freyd/kniga-leonardo-da-vinchi-vospominanie-detstva-987483.html

[188]Кант И. Критика способности суждения. Москва: Исскуство, 1994, S.38 (367 с.)

Müasir tədqiqatçılar qeyd edirlər ki, hazırda çox sayda akademiyalar vardır ki, burada tələbələrin yaradıcılıq qabiliyyətləri inkişaf etdirilir. Bu baxımdan yaradıcı insanların dahi adlandırılması doğru hesab edilmir. Belə demək olarsa dahilərdə yaradıcılıq qabiliyyəti fitrətən mövcud olur. İnsanların nəsil artırmaqla bağlı fitri qabiliyyəti kimi yaradıcı insanlarda yeni ideyalar və kəşflər təqdim etmək qabiliyyəti də fitri olur.

XX əsrdə alim və elmin inkişaf istiqamətlərinin araşdırılmasına olan maraq "Elmin psixologiyası" və "Elmin sosiologiyası" kimi yeni istiqamətlərin inkişafına əsas oldu. İlk olaraq Abraham Maslou elmin sosial psixoloji başlanğıcını öyrənməyə başladı. O, Maks Vertheimerin təsiri ilə həyatda özünü reallaşdırmağa nail olmuş insanları öyrənməyə başlayır.

Abraham Maslounun humanist psixologiyası XX əsrin 60-cı illərində formalaşmışdır. 1954-cü ildə Maslounun "Motivasiya və şəxsiyyət" adlı kitabı nəşr edildi. Burada insan tələbatları piramidasını təqdim edən Maslou ən yüksək zirvədə insanın özünüreallaşdırması tələbatını göstərmişdir. Yaradıcılığının sonrakı mərhələsində tələbatlar piramidasından uzaqlaşan Maslou insan tələbatlarını aşağı və ya ödənilən və yüksək, yaxud ödənilməyən olmaqla iki qismə ayırırdı. O, "İnsan psixikasının uzaq hüdudları" adlı kitabında qeyd edirdi ki, mənəviyyat, ruhla bağlı olan yüksək tələbatlar insanın inkişafına, kamilləşməsinə apardığı üçün ödənilmir və ya təmin edilməzdir.[189]

Maslounun ödənilməyən tələbatları həm də yaradıcılıq, öyrənməyə və yeni biliklərə yiyələnmə, yeni fikirlər irəli sürmək, analiz və sintez bacarıqları əsasında yeni olanı meydana çıxarmaq meyli ilə bağlıdır. Alimin psixologiyasının təhlili belə deməyə əsas verir ki, bu ödənilməyən tələbatlar axtarmaq, təhlil etmək, yeni fikirlər irəli sürmək və hər şeydən əvvəl dərk etmək ehtiyacından doğur və yaradıcılığın yeni mərhələlərinə aparır. Dahilikdə ifratçılıq, ideya ilə yaşamaq etirası olduğu halda,

---

[189] Maslow A. The psychology of science: a reconnaisance. New York: Harper and Row. 1966.// URL: https://fumaca.pt/wp-content/uploads/2022/12/The-Psychology-of-Science_-A-Reconnaissance-PDFDrive-.pdf

yaradıcı alimdə fitrətdən informasiya əldə etmək meyli var. Yaradıcı və axtarışda olan alim biliklərini zənginləşdirməyə və dərinləşdiməyə və bu əsasda da ümumiləşdirmələr təqdim etməyə çalışır. Dahi isə məhdud informasiya çərçivəsində belə qeyri-adi, hər kəsin görə və dərk edə bilməyəcəyini aşkar etmək niyyətilə axtarış fəaliyyətindədir. Hər iki fəaliyyətdə yaradıcılıq var, lakin birində informasiya əldə edilməsilə ödənilən, digərində isə ifratçı və ödənilməyən ruhi tələbat təzahur edir.

Bu geniş zolaqlı yaradıcılıq fərdin qəribə, sirli və bütövə olan səciyyəvi marağından irəli gəlir. Bundan əlavə, Maslou vurğulayır ki, fəaliyyət göstərən, özünürealizə edən yaradıcı insanlar tənqiddən qorxmadan fikir və hisslərini ifadə etmək qabiliyyətinə malikdirlər və bununla da yaradıcılıq ideyalarını daha yaxşı təqdim və ifadə etmək qabiliyyətinə malikdirlər.

Rocers yaradıcılıq qabiliyyətinin "psixoloji təhlükəsizlik" və "psixoloji azadlıq" amillərinin hakim olduğu şəraitdə tərbiyə olunmuş insanlarda formalaşdığını vurğulayır. Son tədqiqatlar Rocers-in müsbət, sərbəst və təhlükəsiz mühitlərin bir qayda olaraq yaradıcı davranışlara səbəb olduğu fikrini dəstəkləyib. Bu baxımdan yaradıcı davranış nəinki hər kəs üçün bir fürsətdir, həm də optimal fəaliyyət və sağlamlıq ilə sıx bağlıdır. [190]

Humanist psixologiyanın görkəmli nümayəndələrindən olan Karl Rocers "Şəxsiyyət, yoxsa elm. Fəlsəfi sual" adlı məqaləsində özünü psixoanaliz edərək, belə nəticəyə gəlir ki, elmi tədqiqata meyl daxili münaqişədən yaranır. Özü öz Mənini tədqiqat obyekti kimi qəbul edən K.Rocers bu prosesi "*özü ilə münasibətə qoşulmaq*" adlandıraraq belə izah edir: "*Münasibətdə bu, tam birlik, təklik, təcrübə dolğunluğu ..., ..."bu dünyadan kənar"..., münasibətlərdə bir növ transa bənzər hissi əldə edir*". Müəllif özü ilə üz-üzə qalaraq, tədqiqatçı-alimin psixologiyasını

---

**190** Dean Keith Simonton**.** Cognition, Creativity, Genius, and Truth in Advertising. ttps://www.researchgate.net/publication/247428890_Cognition_Creativity_Genius_and_Truth_in_Advertising/link/54b696ce0cf2e68eb27ea2f9/download. S.165

təhlil edir, bu prosesi "özünə baxmaq" kimi müəyyənləşdirir. K.Rocersin araşdırmasından belə qənaətə gəlmək olar ki, özünü və ya başqa bir həqiqəti axtaran alim tənhadır, müəyyən bir məqamda ona elə gəlir ki, axtarıb tapmağa çalışdığı çox sadə və məlum bir həqiqətdir. K.Rocers bu axtarışları "özünü kəşf etmək", "həqiqi subyektivlik" olaraq müəyyənləşdirir.

K.Rocers göstərir ki, alimlər "*insanlar, şəxsiyyətlərarası münasibətlər və ya kainatla bağlı hər hansı reallığı kəşf edə bilmir. ... ...elm meydana çıxacaq reallığın ...hisslərlə dərk edilən reallıqdan çox uzaqlaşdığını*" göstərir.[191]

Harringtonun bu konsepsiyalarını təsdiq edən başqa konsepsiya mövcuddur: "*dahi insanlar daha tez vəfat edirlər, alimlər isə uzunömürülü olurlar. Alimləri yaradıcı insanlar kimi səciyyələndirmək olar. Dahilər isə fitri qabiliyyətləri ilə kəşflər və araşdırmalar edirlər. Yaradıcılıq vərdişə çevrilə bilir, dahilik isə özünəməxsusluğu ilə seçilir*".

Csikszentmihalyi, Maslow, May, Rogers və bu istiqamətdə tədqiqat aparmış bir sıra elm adamlarının fikrincə, "*yaradıcılıq və dahi – optimal fəaliyyət və sağlamlıqla əlaqəlidir*".[192]

Beləliklə, Csikszentmihalyi, Maslow, May, Rogers və digərləri dahiliyi xüsusi üzvi vəziyyət kimi izah edirlər, yəni fərdin normal sağlam düşüncədən yüksək əqli vəziyyəti və çoxşahəli və arasıkəsilməz zehni və fiziki fəaliyyəti dahiliyin meyarı ola bilər.

Ziya Göy Alp isə qeyd edirdi ki: "*dahi mahiyyət etibarilə xalqdadır. Sənətkar ancaq ona görə dahi ola bilər ki, o, xalqın estetik zövqünün təzahürüdür*".[193]

---

[191] Carl Rogers. Persons or Science? A Philosophical Question. https://www.all-about-psychology.com/carl-rogers.html

[192] Мирошников Ю.И. Психология научной деятельности. http://ifp.uran.ru/files/publ/eshegodnik/2004/12.pdf

[193] Ziya Göy alp Türkçülüğün Esasları. Türkiye: Anadolu Universitesi yayınları, S.37-38

Təki deyil, bütövü dahiliyin meyarı olaraq müəyyənləşdirən Ziya Göy Alpın şərhi düşünməyə vadar edir. Həqiqətən də öz əsrinin övladı olaraq dünyaya gələn insan mövcud elmi nailiyyətərdən yararlanaraq ona yeniliklər əlavə edə bilir. Eyni zamanda əcdadlarının genetik yaddaşı ilə ona ötürülən xüsusiyyətlərin vahidləşmiş təcəssümü olur və fitrətən sahib olduğu yaradıcılıq qabiliyyətini optimist fantaziyaları ilə zənginləşdirərək tətbiqinə çalışır.

Bir çox tədqiqatçılar yaradıcılığın üç başlıca xüsusiyyətini fərqləndirirlər:

- Birincisi, yenilik, yəni innovativlik meyarı.
- İkincisi, problemə uyğunluq meyarı.
- Üçüncüsü tamlıq meyarı.

Yaradıcılığın psixoloji əsaslarının öyrənilməsini elmin fəlsəfəsilə bağlılığını iddia edən Y.İ.Miroşnikov intellekt, emosiya və iradəni elmi idrakın başlıca elementləri kimi təqdim edir. Bernar Fontenelin – "*Bütün həyatlarını gözlərinin gördüklərinə inanmamağa sərf edən əsl filosoflar, tamamilə gizli qalan şeyləri üzə çıxarmağa çalışırlar*" fikrinə istinad edərək Y.İ.Miroşnikov sanki həqiqi tədqiqatçı alimin tərifini verməyə çalışır.[194]

Bu fikrə istinadən deyə bilərik ki, yaradıcı alim öz psixikasının dərinliyinə nüfuz edə bilən, xəyal gücü ilə fərqlənən fanatik kəşfiyyatçıdır.

XXI əsrdə biz alimləri və dahiləri fərqləndirən xüsusiyyətləri daha aydın şəkildə müşahidə edə bilirik. XXI əsr alimlərinə xas başlıca xüsusiyyət kollektiv araşdırmadır. Tarixin bütün dövrlərində olduğu kimi dahilər dövrünü qabaqlayan ideyalar irəli sürən və bu ideyaları çox zaman özləri və ya öz nəzarətləri altında həyata keçirilməsinə nail olan şəxsiyyətlərdir.

Ensklopedik lüğətdə dahilərə xas xüsusiyyətlər belə müəyyən edilir: "...fitri yüksək yaradıcılıq potensialının praktiki təcəssümü..., ...yaradıcılıq prosesinə yeni və gözlənilməz

---

[194] Мирошников Ю.И. Психология научной деятельности. http://ifp.uran.ru/files/publ/eshegodnik/2004/12.pdf

metodoloji yanaşma..., ...inqilabi intellektual nəticələr..., ...yüksək iş sürəti və məhsuldarlığı, ...keyfiyyətcə yeni əsərlərin yaradılması”. [195]

XXI əsr dahilərini müəyyənləşdirərkən elə şəxsiyyətləri göstərirlər ki, onların kəşfləri bəşəriyyəti sürətli inqilabi transformasiyalara gətirib çıxarmışdır.

Son dövr dahiləri sırasında Maykl Veberin adı xüsusi qeyd edilir. Maykl Veberin süni intellekt alqoritmləri, məlumatların təhlili, təbii dil emal modellərinin inkişafı ilə bağlı dərin araşdırmaları sayəsində Sİ modelləri insan dilini diqqətəlayiq dəqiqliklə başa düşmək və şərh etmək qabiliyyətinə malikdir, bu isə daha təkmil chatbotlar və virtual köməkçilərin yaradılmasına yol açır.

Maykl Veberin süni intellekt sahəsindəki nailiyyətləri müxtəlif sənaye sahələrini dəyişdirmək və bütün dünyada insanların həyatını yaxşılaşdırmaq potensialına malikdir. Veberin Sİ alqoritmləri böyük miqdarda maliyyə məlumatlarını təhlil etmək və investisiya qərarlarını məlumatlandıra biləcək nümunələri müəyyən etmək üçün istifadə edilir.[196]

Müasir dövrün dahiləri sırasında adları daha çox çəkilənlər – Ilon Mask, Cenifer Dudna, Tim Berners-Li, Cek Ma, Byork, Masayuki Son, Kristofer Vieira, Jeff Bezos, Mark Zukerberq, Malala Yusufzay, Demis Hassabis, Boyan Slat və başqalarıdır.

Həmin şəxsiyyətləri dahi olaraq müəyyənləşdirərkən əsas xüsusiyyətlər kimi – innovasiya və təşəbbüskarlıq ruhu, qlobal düşünmək və cəsarətlə hərəkət etmək, mövcud nailiyyətlərə meydan oxumaqdan çəkinməmək, başqalarının yalnız elmi sirr gördüyü potensialı görmək, inqilabi texnologiya yaratmaq və onu inkişaf etdirməyə davam etmək, maneələri deyil imkanları görmək bacarığı, ideyalar və onların inkişafını dəstəkləmək, onları qlobal problemlərin həlli üçün tətbiq etmək bacarığı, onları qlobal səviyyəyə çatdırmaq, transformasiya etmək, qlobal sosial

---

[195] Гениальность // Газлифт Гоголево. М.: Советская энциклопедия, 1971.
[196] The Genius of the 21st Century.//URL: https://vvv.code.blog/2023/11/26/the-genius-of-the-21st-century/

dəyişiklikləri ruhlandırmaq bacarığı, insan biliklərinin sərhədlərini genişləndirən alətlər yaratmaq, innovativ həllər tapmaq – vurğulanır.[197]

Xüsusi olaraq vurğulamaq lazımdır ki, dahi olaraq qəbul edilən insanlar çalışdıqları sahələrdə müasir texnologiyanın və bilavasitə süni intellektin inmkanlarından müvafiq şəkildə istifadə edən şəxsiyyətlərdirlər. XXI əsr dahilərinin fəaliyyət istiqamətlərini müəyyənləşdirərək görürük: kosmik industriya, avtomobil quruculuğu, genetik dəyişikliklər, İnternet şəbəkəsinin yaradılması və təkmilləşdirilməsi, müxtəlif elm və incəsənət sahələrində yeni texnologiyaların tətbiqi, regenerativ tibbin inkişafı, iqtisadiyyatın transformasiyasına nail olmaq, rəqəmsallaşmanın genişlənməsinə və süni intellektin inkişafına təkan vermək və s.

Qeyd edilməlidir ki, müasir texnologiyaların fərqli sahələrdə tətbiqi bu texnolofiyaların potensial imkanlarının açılmasına şərait yaradır. XXI əsrdə elm və mədəniyyətin müxtəlif sahələrində rəqəmsal imkanların tətbiqi və ya rəqəmsallaşması innovasiya olaraq qəbul edilir.

Araşdırma onu da göstərir ki, müasir dövr dahiləri rəqəmsallaşmanın nəzəri-metodoloji əsaslarını inkişaf etdirən, həmçinin özlərinin bu istiqamətdəki ideyalarının reallaşdırılması məqsədilə sərmayə qoyan və bu istiqamətdəki tədüqiqatları idarə edən liderlərdirlər. XXI əsr dahiləri ideya generatorları olaraq çıxış edirlər. Lakin onlar öz ideyalarının qısa zaman müddətində reallaşmasına çalışan və alim kollektivlərinin birgə fəaliyyətini təşviq edən şəxslərdirlər.

Psixologiyada dahi şəxsiyyətin mübahisəli xarakterə malik olması vurğulanır və göstərilir ki, dahilər mənəvi prioritetləri formalaşdırmağa, insanın və cəmiyyətin inkişafında perspektivli xətləri müəyyən etməyə qadir insanlardırlar. Dahilər "*yüksək, bəzən müstəsna, istedad və eyni zamanda böyük iş qabiliyyəti*" olan insanlardırlar. Qeyd edilir ki, "*ziyalılar nə qədər istedadlı*

[197] Гении 21 века: размышления о выдающихся умах нашего време-ни. https://www.securitylab.ru/blog/personal/SimlpeHacker/354007.php

*olsalar, onun əhatə dairəsi nə qədər geniş və yaşayış şəraiti nə qədər əlverişli olsa, onun sıralarından dahi şəxsiyyətin çıxma ehtimalı bir o qədər yüksəkdir. Ziyalıların yoxsulluğu şəraitində çoxlu sayda dahi insanın meydana çıxacağını gözləmək çətindir*".[198]

Bəzən özünə güvənc dahiliyin başlıca məqamı kimi çıxış edir. Bu zaman, gələcəyə optimist yanaşma dahiliyin başlıca amilinə çevrilir. Tomas Edison əmin idi: "*Dahi 99 faiz zəhmət və bir faiz təxəyyüldür*". V.P. Efroimson qeyd edirdi ki: "*Bütün zamanların və xalqların dahilərinin tərcümeyi-hallarını öyrənmək dönməz nəticəyə gətirib çıxarır: dahi doğulurlar*".

Y.S.Tokatlıgil elmi tədqiqat fəaliyyətində uğurun subyektiv determinasiyası məsələlərini araşdıraraq, belə nəticəyə gəlmişdir ki:

"1. Elmi-tədqiqat fəaliyyəti - əldə edilmiş nəticələrin etibarlılığının sonrakı sübutu, onların praktikada tətbiqi və cəmiyyətdə populyarlaşdırılması ilə tədqiqat fəaliyyətinin təşkili və həyata keçirilməsi prosesinə yönəlmiş idrak fəaliyyətinin spesifik növüdür.

2. Elmi-tədqiqat fəaliyyətinin uğurunun subyektiv təyini tədqiqatçının yenilikçilik, özünütəşkilatçılıq, məqsədyönlülük, inam, maraq, tədqiqat potensialı kimi ciddi və qarşılıqlı əlaqəli xassələri və keyfiyyətləri ilə bağlıdır.

3. Tədqiqat potensialının yenilik, özünütəşkiletmə, məqsədyönlülük, inam, maraq komponentlərin təzahürləri arasında əlaqələrin məcmusu tədqiqat fəaliyyətində müxtəlif səviyyələrdə uğurun xarakterik xüsusiyyətlərini ifadə edir.

Belə qənaətə gəlmək olar ki, xüsusi yaradıcılıq istiqaməti olan elmlə bağlı insanların zehni imkanları geniş olmaqla yanaşı, araşdırmaya, yeniliyə olan meylləri və potensialları daha yüksəkdir. Axtarışlara olan maraq psixikanın xüsusi meyli kimi zaman, məkan, sosial mühitdən asılı olub, müxtəlif formalarda

---

[198] Кольцова В.А., Холондович Е.Н. Гениальность: Психолого--историческое исследование. // Психологический журнал, 2012, том 33, № 2, с. 101–118

təzahür edə bilər. Bəlkə də, insanın sağlam qavrama imkanları məhz elmi yaradıcılığa sövq edir. Bəzən dahiliklə dəliliyin müəyyən psixi məqamla qovuşması ideyası irəli sürülür. Deyə bilərik ki, əqli şüurun ən yüksək (pik) sağlamlıq məqamı (normal sağlamlıq deyi, daha yüksək olan sağlamlıq halı) həqiqi elmi yaradıcılıqla bağlıdır və fərqli düşüncə tərzi ilə müəyyənləşən fəaliyyət və davranışlar əsl alimlərin qəribə, qeyri-adi insanlar kimi qəbul edilməsinə və çox zaman təcrid olunmasına gətirir.

# "SOSİAL SİNERGETİK İNSTİTUTLAŞMA" RƏQƏMSAL ELMİN METODOLOJİ ƏSASLAR KİMİ

Müasir elmin əsas məqsədi - elmi dünyagörüşün və dünyanın elmi mənzərəsinin işlənilməsi, insanın dünyaya münasibətinin araşdırılması, elmin dünyanı dərkini əsaslandırması və müəyyən mənada elmin idarə edilməsi imkanlarının təkmilləşdirilməsi ilə bağlıdır. Elmin sosial mahiyyəti tarixi inkişaf prosesində dövrün tələblərinə uyğun olaraq, dəyişikliklərə uğrayır. Tarixi inkişafın digər mərhələlərindən fərqli olaraq XXI əsrdə elmin tənzimlənməsinin, elmi nailiyyətlərin əvvəlcədən və məqsədyönlü şəkildə istiqamətləndirilməsinin, bir sözlə elmin sosial institut olaraq elmi idarəçiliyinin formalaşmasının şahidi oluruq. Elmin idarəçiliyi onun gələcək perspektivlərinə yönəldiyindən bu istiqamətdə yeni nəzəriyyə və paradiqmaların inkişaf etdirilməsi aktual problem olaraq təzahür edir.[199]

XXI əsrdə elmin rəqəmsallaşması elm institutunun sinerjik mahiyyətinin dərinləşməsi anlamına gəlir. Məlumdir "sinerji" – deyərkən qarşılıqlı razılaşma və uyğunlaşma üzərində qurulan vəhdət nəzərdə tutulur. Elmin rəqəmsallaşması və ümumilikdə rəqəmsallaşma prosesi məhz belə bir sinerji xüsusiyyətinə malikdir.

Prof. Əbülhəsən Abbasovun "*biliklərarası sistemliliyin və sinergizmin təmin olunması zərurəti*" haqqında fikirlərinə istinadən deyə bilərik ki, məhz elmin rəqəmsallaşması "*elmi fənlər arasında ...çoxnisbətli münasibətlərin*" genişlənməsini sürətləndirmişdir. Əbülhəsən Abbasovun "*elmlərin vahidliyi*"[200]

---

[199] Saadet Mammadova. Opportunities of Application of the Social Synergistic Institutionalization Concept in a Social State // Metafizika jurnalı, 2019, cild 2, say 2, sıra 6 pp. 7-24 // URL: https://metafizikajurnali.az/yukle/files/Metafizika.Vol.2%2CNo.2%2CSerial.6%2CPP.7-24.pdf

[200] Abbasov Ə.F. Fəlsəfədə və elmdə epistemologiya problemləri: elmi rasionallıq paradiqmalarının səciyyəvi xüsusiyyətləri // Müasir fəlsəfə, süni intellekt və qeyri-səlis məntiq.Bakı: Elm və Təhsil, 2022, s.67 (364 s.)

konsepsiyası həm də sosial sinergetik institutlaşma metodologiyasının rəqəmsal sinerjini ehtiva edən mahiyyəti ilə bağlı anlayış olaraq qəbul edilə bilər.

Elmin rəqəmsallaşması çoxməkanlı və ya çoxəzalı (poliakt) sinerjini ehtiva edir. Bu zaman yalnız bir sistemin vəhdətli fəaliyyəti deyil, bir neçə vəhdətli fəaliyyəti olan sistemlərin ümumi vəhdətli və davamlı traspozisiyası nəzərdə tutulur. Bu vəziyyəti müəyyən mənada sistemin sinergerik mobilliyi kimi də izah etmək olar. Bu zaman vəhdətdə olan sistemlər (keçmiş, indiki və gələcək) zamandan asılı olmayan məkan dəyişiklikləri edə bilirlər və özünütəşkilatlandırma bacarıqları ilə rubikslər kimi sistem mübadiləsi edə bilirlər.

Professor Füzuli Qurbanov "sinergetik təkamül" anlayışını izah edərkən göstərir ki, "*birgə təkamül lokal özünütəşkilatlandırma sahələrinin inteqrativ təşkilatlanma yaratması halı kimi təzahür edə bilər. Qlobal səviyyədə səbəbiyyət dairəviliyi ilə iki sistemin bir-birinin təkamülünü uyğunlaşdırmasına imkan yaradır*".[201] Burada müəllif ekosistem və sosial sistemlərin vəhdətdə təkamülü fikrindən çıxış edir. Fikri inkişaf etdirərək, deyə bilərik ki, sosial sistemlərin "sinergetik təkamülü" sinergetik tarazlığın qorunmasına istiqamətlənmiş proses olaraq, həm də eyni zaman, lakin fərqli məkan çərçivələrində ayrı-ayrı sosial sistemlərdə oxşar idarəçilik formasının (məsələn, rəqəmsal idarəçilik) inkişafı zərurətini yaradır. [202]

Yuxarıda qeyd edilənlərdən çıxış edərək, deyə bilər ki, rəqəmsallaşmanın nəticəsi olaraq elmin mürəkkəbliyinin dərinləşməsi və yeni inkişaf tendensiyalarının müəyyənləşdirilməsində "*sosial sinergetik institutlaşma*"

---

[201] Qurbanov F. Sinergetika: xaosun astanasında. Bakı: Bakı Universiteti nəşriyyatı, 2004, s.289 (315 s.)

[202] Saadet Mammadova. Opportunities of Application of the Social Synergistic Institutionalization Concept in a Social State // Metafizika jurnalı, 2019, cild 2, say 2, sıra 6 pp. 7-24 // URL: https://metafizikajurnali.az/yukle/files/Metafizika.Vol.2%2CNo.2%2CSerial.6%2CPP.7-24.pdf

konsepsiyasının nəzəri-metodoloji əsas kimi götürülməsi elm və ayrı-ayrı elm sahələrinin öyrənilməsi baxımından geniş imkanlar açır. "*Sosial sinergetik institutlaşma*" konsepsiyası aşağıdakı hallarda geniş və əhəmiyyətli şəkildə tətbiq edilə bilər:

1.Elmin inkişafında sosial institutların təsir imkanlarının araşdırılması. Bu zaman sosial, siyasi, iqtisadi, mədəni institutların inkişaf səviyyəsinin elmin inkişafına təsir imkanları araşdırılır.

2.Elmin sosial problemlərinin tədqiqi. Bu zaman elmin maddi-texniki bazasının təkmilləşdirilməsi və alimlərin sosial və psixoloji problemlərinin təhlili imkanları nəzərdə tutulur.

3.Elmdə baş verən müxtəlif hadisə və proseslərin proqnozlaşdırılması. Elmi texniki tərəqqi və elmdə böhran prosesləri ilə bağlı göstəricilərin aşkar edilməsinə və qarşısının alınması yollarının tapılmasına yönəlir.

4.Elmşünaslığın əsaslarının öyrənilməsi: nəzəri və praktiki təcrübənin analizi və sintezi əsasında sosial, tarixi və fəlsəfi kontekstdə elmin strukturunun, dinamikasının, onun müxtəlif sosial institutlar, maddi və mənəvi həyatla qarşılıqlı təsirinin öyrənilməsi.

5.Konkret elm və onun sahələrinin araşdırılması. Bilavasitə bəşəriyyətin tərəqqisinə təkan verən elmlərin və onların ayrı-ayrı qollarının müasir inkişaf tendensiyasının araşdırılması.

6.Müxtəlif istiqamətli elmi tədqiqatların nəzəri-praktik əsaslarda təhlil edilməsi. Bu zaman konkret elm və konkret mövzu ilə bağlı aparılan araşdırmaların hazırda və mümkün inkişaf meyllərinin öyrənilməsi səviyyəsinin təhlili nəzərdə tutulur. [203]

Elm sosial institut olduğu və digər institutlarla qarşılıqlı təsir və qarşılıqlı asılılıq şəraitində fəaliyyət göstərdiyi üçün yuxarıda

---

[203] Saadet Mammadova. Opportunities of Application of the Social Synergistic Institutionalization Concept in a Social State // Metafizika jurnalı, 2019, cild 2, say 2, sıra 6 pp. 7-24 // URL: https://metafizikajurnali.az/yukle/files/Metafizika.Vol.2%2CNo.2%2CSerial.6%2CPP.7-24.pdf

qeyd edilən və elmin inkişafına yönəlmiş təsnifatın əsaslandırılması məqsədilə ilk növbədə İnstitutlaşma nəzəriyyəsinin mahiyyətini açıqlayaq.

Sosial institutlar qaydalar, normalar, sərəncamlarla təsdiqlənmiş sosial münasibətlər məcmusu kimi çıxış edərək, institutlaşırlar.[204]

İnstitutlaşma nəzəriyyəsi sosial institutların mahiyyətini və təyinatını təhlil etməyə kömək edir.

İnstitusional nəzəriyyənin banisi T.Veblenə görə, institutlar - insan və şəxsiyyət arasında münasibətlər toplusu kimi özünəməxsus funksiyaları yerinə yetirir. İnstitutlar – ictimai sistem kimi cəmiyyətin müəyyən inkişaf mərhələsində təsnif olunmuş fəaliyyətə malik olur və psixoloji cəhətdən cəmiyyətin həyat tərzi haqqında yayılan mənəvi mövqe kimi xarakterizə oluna bilər. [205]

T.Veblen qeyd edir ki, institut bu və ya digər sosiumda informasiyanın yayılması ilə bağlı “adət olunmuş təfəkkür tərzidir”. Sivilizasiyanın inkişafını institutlarla bağlayan T.Veblenə görə -

- institutların inkişafı, həm də cəmiyyətin inkişafı deməkdir.
- İnstitutlar cəmiyyət və şəxsiyyət arasında xüsusi münasibətlər sistemi kimi özünəməxsus funksiyaları yerinə yetirir.
- institutlar cəmiyyətdə hakim olan və adət olunmuş təfəkkür tərzidir.
- institutlar keçmişdə baş verən və daha çox keçmiş zamana uyğunlaşmış proseslərin nəticəsi kimi təzahür edir və mühafizəkar

[204]The Sage Dictionary of Sociology.SAGE Publications Ltd1 Oliver’s. London EC1Y 1SP © Steve Bruce and Steven Yearley 2006. P.154

[205] Saadet Mammadova. Opportunities of Application of the Social Synergistic Institutionalization Concept in a Social State // Metafizika jurnalı, 2019, cild 2, say 2, sıra 6 pp. 7-24 // URL: https://metafizikajurnali.az/yukle/files/Metafizika.Vol.2%2CNo.2%2CSerial.6%2CPP.7-24.pdf

xüsusiyyətlərə malik olduğundan müasir dəyişikliklərə uyğunlaşmaqda çətinlik çəkir.[206] [207]

Təkamüllü institutlaşma nəzəriyyəsinin görkəmli nümayəndələri Riçard Nelson, Sidney Qrehem Uitner, Geoffery Hodgson hesab edilir. Bu istiqamətin əsas müddəaları aşağıdakılardan ibarətdir:

1.Optimallaşdırmanın əsaslarının və metodoloji individualizmin inkarı.

2.İqtisadi dəyişikliklərin tədqiqinin vurğulanması.

3. Bioloji analogiyaların aparılması.

4. Tarixi zamanın rolunun nəzərə alınması.

5. Trafaret (rutin) və firmanın təkamülü nəzəriyyəsi.[208]

Yeni instituonalizmin görkəmli nümayəndəsi O.Uilyamson institutları müqaviləli münasibətlərin idarə edilməsi mexanizmləri kimi nəzərdən keçirir. Ona görə firmalar, bazarlar və müqaviləli münasibətlər başlıca iqtisadi institutlar hesab edilməlidir.[209]

Ənənəvi və yeni institualizm bir-birilərindən üç məqama görə fərqlənirlər:

- Birincisi, "əgər ənənəvi institualizm digər ictimai elmlərin metodlarından istifadə etməklə əsasən iqtisadi problemləri araşdırırdısa, "yeni" institualizm müasir mikro-iqtisadiyyatın və oyun nəzəriyyəsinin anlayışlar aparatına söykənən neoklassik nəzəriyyənin metodlarından istifadə edirlər.

---

[206]Веблен, Т. Теория праздного класса / Т. Веблен. - М.: Прогресс, 1984. - С.202.

[207] Saadet Mammadova. Opportunities of Application of the Social Synergistic Institutionalization Concept in a Social State // Metafizika jurnalı, 2019, cild 2, say 2, sıra 6 pp. 7-24 // URL: https://metafizikajurnali.az/yukle/files/Metafizika.Vol.2%2CNo.2%2CSerial.6%2CPP.7-24.pdf

[208] Васильцова В.М., Третышный С.А. Институциональная экономика: Учебное пособие. Стандарт третьего поколения. Спб.: Питер, 2014, с..224-240; Основные концепции неоинституционализма: теория эволюционно-гонеоинституционализма. http://studopedia.org/6-37923.html.Студопедия.Орг - 2014-2016 год.

[209] Уильямсон О. Экономические институты капитализма. СПб., 1996. С.48.

- İkincisi, ənənəvi institualizm ayrı-ayrı vəziyyətlərin ümumiləşdirilməsində induktiv metoda söykənir, neoinstitualizm isə konkret təzahürlərin şərhində deduktiv metod və ümum-elmi prinsiplərdən istifadə edir.

- Üçüncüsü, əgər ənənəvi institualizm əsas diqqəti kollektiv fəaliyyətə yönəldirdisə, yeni institualizmin əsas tədqiqat obyekti ayrıca şəxsiyyət, onun fərdi davranışıdır".[210] [211]

D.Nort İnstitusional dəyişikliklər nəzəriyyəsinin banisi hesab edilir. Bu nəzəriyyənin əsas məqsədi həm ayrı-ayrı institutlar daxilində, həm də cəmiyyətin institusional strukturunda baş verən dəyişikliklərə gətirən endogen (daxili) amillərin aşkar edilməsi ilə bağlıdır. D.Norta görə, institutlar – insanlar arasında təkrarlanan qarşılıqlı fəaliyyəti strukturlaşdıran qaydalar, mexanizmlər, davranış normalarıdır.[212] O, qeyd edir ki, institusional nəzəriyyənin əsas vəzifəsi cəmiyyətin institusional strukturunda baş verən dəyişikliklərin gedişini göstərməkdir.[213]

D.Nortun fikrincə, insanlar tərəfindən yaradılmış institutlar onlar tərəfindən inkişaf etdirilir və dəyişdirilir. İnstitutlar insanların davranışlarına təsir edir və seçimlərini məhdudlaşdırır, məhz institutlar hüdudunda insanların qarşılıqlı fəaliyyəti müəyyənləşir. İnstitutlara aiddir:

-qayda və göstərişlər (məsələn, konstitusiya, müqavilələr, sərəncamlar və s.) formasında rəsmi (yazılı);

---

[210]Файзуллин Т.Ф., Файзуллина А.И. "Сущность институционализма и его значение в исследовании социально-экономических явлений". Вестник ОГУ №9/сентябрь, 2007, с.37

[211] Saadet Mammadova. Opportunities of Application of the Social Synergistic Institutionalization Concept in a Social State // Metafizika jurnalı, 2019, cild 2, say 2, sıra 6 pp. 7-24 // URL: https://metafizikajurnali.az/yukle/files/Metafizika.Vol.2%2CNo.2%2CSerial.6%2CPP.7-24.pdf

[212]Норт Д. Институты и экономический рост: историческое введение // Тезис. Т.1. Вып.2. М., 1993. С.73.

[213]ГулъбинаН.И.Теория институциональных изменений Д. Норта. «Экономические науки» 15 марта 2004 г., s.123-127

- qoyulan qaydalardan yayınan davranışları aşkar və qadağan edən prosedurlar;

-rəsmi qayda və prosedurları məhdudlaşdıran qeyri-rəsmi (yazılmamış) davranış kodeksləri, adətlər, vərdişlər.[214] [215]

D.Norta görə, "İnstitusional quruluş oyunun qaydalarını müəyyən edir... yaxud, insanlar tərəfindən kəşf edilmiş məhdudiyyətlər kimi insanlar arasındakı qarşılıqlı münasibətləri yaradır".[216] D.Nort və R.Tomas institusional təkamülün "optimist" modelini inkişaf etdirmişdilər. Bu modelə görə, institusional dəyişikliklər gedişində kiçik itkilər şəraitində qeyri-səmərəli institutlar səmərəli olanlarla əvəz edilirlər ki, bu da transaksion itkilərin azaldılmasına və iqtisadiyyatın yüksək templə inkişafına şərait yaradır.[217]

C.Kommonsun sosial-hüquqi institualizmi bu yöndə yeni istiqamətdir. C.Kommonsa görə, institut – fərdi davranışa nəzarət edilməsi, azad edilməsi və genişləndirilməsi ilə bağlı kollektiv fəaliyyətdir. Con Kommons belə hesab edirdi ki, sosial iqtisadi inkişafın əsasında hüquqi münasibətlər, hüquqi normalar durur və buna görə də işçi aristokratiyanın, yəni "orta sinfin" bir hissəsinin maraqlarını ifadə edən iqtisadi institutlar əslində hüquqi nizamın kateqoriyaları kimi çıxış edir. C.Kommons sosial institutlara ailəni, istehsal korporasiyalarını, ticarət birliklərini, həmkarlar ittifaqlarını, dövləti aid edirdi. Onun fikrincə, kapitalizmin bütün çatışmazlıqları hüquqi normaların natamamlığı ilə bağlıdır və bu natamamlıq ədalətsiz rəqabətə aparır. C.Kommons bu problemin

---

[214]Гулъбина Н.И. Теория институциональных изменений Д.Норта. «Экономические науки» 15 марта 2004 г., s.123-127

[215] Saadet Mammadova. Opportunities of Application of the Social Synergistic Institutionalization Concept in a Social State // Metafizika jurnalı, 2019, cild 2, say 2, sıra 6 pp. 7-24 // URL: https://metafizikajurnali.az/yukle/files/Metafizika.Vol.2%2CNo.2%2CSerial.6%2CPP.7-24.pdf

[216]Норт Д. Институты, идеология и эффективность экономики // от плана к рынку: будущее посткоммунистических республик., М., 1993, с.307

[217]Гулъбина Н.И. Теория институциональных изменений Д.Норта. «Экономические науки» 15 марта 2004 г., s.123-127

həllini dövlətin qanunvericilik orqanlarının istifadə edilməsində görürdü.[218 219]

İnstitualizmin digər bir istiqaməti U.Mitçellin konyuktur-statistik institualizmi hesab edilə bilər. U.K.Mitçell institutlaşma konsepsiyasının – iqtisadiyyata sosial nəzarətin həyata keçirilməsi – ilə bağlı əsas ideyasının tərəfdarı kimi çıxış edir.[220]

İnstitualizmin digər istiqamətlərindən biri institusional konstruktivizmdir. Klassik sosial nəzəriyyə sosial konstruktivizmi sosial dəyişikliklərin əsas mexanizmi kimi qəbul edir və hesab edir ki, sosial fəaliyyətin səmərəliliyi subyektlərin tarixin gedişini, onun qanunlarını və sabit meyllərini dərk etmə səviyyəsindən asılıdır.[221] İnstitusional konstruktivizm bəşəriyyətin təkamül yolu ilə dayanıqlı inkişafının müəyyənləşdirilməsinə və fenoloji qavrayışına yönəlir və bu əsasda Yer kürəsinin noosferasının qorunub saxlanmasını, ictimai münasibətlərin transformasiyası proseslərinə uyğun olaraq enerjinin dəyişməsi, istehlakı və yayılması şəraitində insan potensialının gücünün qorunub saxlanmasını xarakterizə edir. İnstitusional konstruktivizm siyasi və ictimai münasibətlər sisteminin inkişafını nəzərdə tutur, dayanıqlı inkişaf amillərinin formalaşmasında, mənfi nəticələrin, o cümlədən insanın Yer kürəsində və ola bilər ki, gələcəkdə onun hüdudlarından kənardakı fəaliyyətinin nəticəsi olan sosial-psixoloji, texnogen və

---

[218]Коммонс Дж. “Институциональная экономика” (Перевод Курышевой А.А). История экономической мысли. Экономический вестник Российского государственного университета, 2007, №4, стр.59-70

[219] Saadet Mammadova. Opportunities of Application of the Social Synergistic Institutionalization Concept in a Social State // Metafizika jurnalı, 2019, cild 2, say 2, sıra 6 pp. 7-24 // URL: https://metafizikajurnali.az/yukle/files/Metafizika.Vol.2%2CNo.2%2CSerial.6%2CPP.7-24.pdf

[220]Митчел У. «Экономические циклы. Проблема и его постановка». М.-Л., 1930.

[221]Токарева С.Б. Методология социального конструирования и социальный конструктивизм. Социальная философия и социальное проектирование. ISSN 1998-9946. Вестн. Волгогр. гос. ун-та. Сер. 7, Филос. 2011. № 2 (14) 113

ekoloji halların aradan qaldırılmasında dövlətin və ictimai münasibətlərin rolunu və yerini müəyyən edir. İnstitusional konstruktivizm sosial iqtisadi münasibətlərin konvergensiyasına yönəlir.[222] [223]

İnstitutlaşma nəzəriyyəsi elmin inkişaf xüsusiyyətlərinin və istiqamətlərinin, sosial problemlərinin araşdırılması və təkmilləşdirilməsi baxımından əhəmiyyətli yanaşma olsa da, bir qədər tamamlanmamış metodologiya təsiri bağışlayır. Belə ki, institutlaşma nəzəriyyəsi mövcud şəraitin təhlilinə yönəlir və tətbiqi-dəyişdirici, yaxud praktik təhlil imkanları açmır. Bu baxımdan elmin sistemli öyrənilməsində institutlaşma nəzəriyyəsinin əhəmiyyətini nəzərə alaraq, o cümlədən sosial institutlarda mövcud münasibətlərin inkişafında və ümumiyyətlə, sosial institutların idarə edilməsində sosial sinergetik yanaşmadan istifadə edərək "*sosial sinergetik institutlaşma*" konsepsiyasının metodoloji əsaslar kimi daha geniş imkanlara malik olduğunu düşünürük.

T.Allahyarovanın qeyd etdiyi kimi "*Sinergetika mürəkkəb, açıq və özünütəşkil prosesində olan sistemləri təhlil edir*". Bu mənada T.Allahyarova qeyd edir ki, *"Sinergetikanın ...elmin yeni nəzəri əsaslarının müəyyənləşdirilməsində evristik potensialı çox böyükdür*". Belə ki, "*bu nəzəriyyələr cəmiyyətin 1) tarazlıqda və 2) tarazlığa yaxın vəziyyətlərdə mövcudluğunun tədqiqinə*

---

[222] Наумов Е.А. Устойчивое развитие и теория институционального конструктивизма. Электронное научное издание «Международный электронный журнал. Устойчивое развитие: наука и практика» www.yrazvitie.ru вып. 2 (9), 2012, ст. 3 Выпуск подготовлен по итогам Второй Международной конференции по фундаментальным проблемам устойчивого развития в системе «природа – общество – человек» (29 и 30 октября 2012 г., проект РФФИ №12-06-06085-г).

[223] Saadet Mammadova. Opportunities of Application of the Social Synergistic Institutionalization Concept in a Social State // Metafizika jurnalı, 2019, cild 2, say 2, sıra 6 pp. 7-24 // URL: https://metafizikajurnali.az/yukle/files/Metafizika.Vol.2%2CNo.2%2CSerial.6%2CPP.7-24.pdf

*hesablanmışdır; onun nisbi sabitlik, təkamül yolu ilə tərəqqiyə gedən dövrləri üçün nəzərdə tutulmuşdur*".[224] [225]

Cəmiyyətin öyrənilməsinə yönələn sosial sinergetika zamanın, bir qədər də dəqiqləşdirsək tarixi məqamın və sosial məkanın, ayrı-ayrı institutların qarşılıqlı fəaliyyətinin elmdə əksi problemini təhlil edə bilər. Bu əsasda sosial sinergetika elmdə baş verən tərəqqi və böhran proseslərini, buna səbəb olan amilləri araşdıra və aşkar edə, əvvəlcədən yönəldilməsini təmin edəcək plan-proqnozun hazırlanmasına kömək edə bilər. Beləliklə, T.Allahyarovanın qeyd etdiyi kimi "*Sosial sinergetika cəmiyyətin vəhdətdə özünütəşkilinin qanunauyğunluqlarını öyrənən və təhlil edən istiqamətdir*".[226]

Yuxarıda qeyd etdiyimiz fikirlərdən çıxış edərək, elmin tədqiqat obyekti kimi araşdırılmasında sosial sinergetik-institutlaşma nəzəriyyəsinin böyük əhəmiyyəti olduğunu qeyd edə bilərik.

Belə ki, sosial sinergetika sosial institut olan elmin özünüdeterminasiya, özünütəşkilatlandırma və özünüidarəetmə meyllərini öyrənir və onun inkişaf istiqamətlərinin müəyyənləşdirilməsinə geniş imkanlar açır. Digər tərəfdən, sosial sinergetika sosial öznütəşkilatlandırmanın ümumi qanunauyğunluqlarını, yəni sosial nizam və sosial xaosun qarşılıqlı münasibətlərini tədqiq edir. Burada "nizam" deyərkən, aralarında sabit, zaman və məkanda təkrarlanan münasibətlər

---

[224]Allahyarova T.B. Sosial sinergetika cəmiyyət haqqında elmlərin yeni metodoloji əsası kimi: Fəlsəfə üzrə elmlər doktoru (ixtisas: 09.00.11 - sosial fəlsəfə) dissertasiyası. Bakı, 2007, s.44, s.81

[225] Saadet Mammadova. Opportunities of Application of the Social Synergistic Institutionalization Concept in a Social State // Metafizika jurnalı, 2019, cild 2, say 2, sıra 6 pp. 7-24 // URL: https://metafizikajurnali.az/yukle/files/Metafizika.Vol.2%2CNo.2%2CSerial.6%2CPP.7-24.pdf

[226]Allahyarova Tahirə Bəkir qızı. Sosial sinergetika cəmiyyət haqqında elmlərin yeni metodoloji əsası kimi. Fəlsəfə üzrə elmlər doktoru (ixtisas: 09.00.11 - sosial fəlsəfə) almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2007

olan çoxsaylı elementlər nəzərdə tutulur.[227] [228] T.B.Allahyarovanın qeyd etdiyi kimi: *"...xaos nizamla bərabər inkişafın qanunauyğun mərhələsidir. O, yeni inkişaf kanalının təkanı ola bilər. ...inkişaf prosesi nizamla xaosun qanunauyğun və dəfələrlə növbələşməsidir (determinik xaos)... ...xaos ...yeni nizam yaratmaq üçün yaradıcı qüvvəyə malikdir".*[229] Dissipativ strukturlar reallığın bu aspektləri arasındakı fərqin aradan qalxaraq sintez yaratması məsələsini araşdırır. Sadə dissipativ strukturların daha mürəkkəb dissipativ strukturlarla davamlı birləşməsi iyerarxiyalaşmaya səbəb olur.[230] [231]

İyerarxiya mürəkkəb çoxsəviyyəli sistemlərin struktur təşkilatlanması prinsipi kimi yuxarıdan aşağıya doğru nizamda səviyyələr arasındakı qarşılıqlı təsirin tənzimlənməsinə yönəlir. Bu zaman hər iki, yaxud daha çox səviyyələr bütün yuxarı səviyyələrə nisbətdə tabe, aşağı səviyyələrə nisbətdə isə idarə edən kimi çıxış edir. İyerarxik quruluşa malik olan sistemdə həm struktur, həm də funksional diferensiasiya yer alır, yəni hər bir səviyyə müəyyən funksiyalar dairəsini həyata keçirir və daha

---

[227] Бранский В.П.Социальная синергетикакак постмодернистская философия истории. ОбщественныеНауки и Современность 1999 • № 6, s.117-127

[228] Saadet Mammadova. Opportunities of Application of the Social Synergistic Institutionalization Concept in a Social State // Metafizika jurnalı, 2019, cild 2, say 2, sıra 6 pp. 7-24 // URL: https://metafizikajurnali.az/yukle/files/Metafizika.Vol.2%2CNo.2%2CSerial.6%2CPP.7-24.pdf

[229] Allahyarova, T.B. Sosial sinergetika cəmiyyət haqqında elmlərin yeni metodoloji əsası kimi : fəlsəfə elm. dok. ... dis. avtoreferatı: 09.00.11 / T. B. Allahyarova ; Bakı Dövlət Universiteti. – Bakı, 2007. – 53 s. ;

[230] Бранский В.П.Социальная синергетикакак постмодернистская философия истории. Общественные Науки и Современность 1999, № 6, s.117-127

[231] Saadet Mammadova. Opportunities of Application of the Social Synergistic Institutionalization Concept in a Social State // Metafizika jurnalı, 2019, cild 2, say 2, sıra 6 pp. 7-24 // URL: https://metafizikajurnali.az/yukle/files/Metafizika.Vol.2%2CNo.2%2CSerial.6%2CPP.7-24.pdf

yüksək səviyyələrdə iyerarxiya razılaşma, inteqrasiya funksiyalarını yerinə yetirir.[232 233]

İyerarxiyalaşma və deiyerarxiyalaşma proseslərinin növbələşməsi sosial özünütəşkilatlandırmaya gətirir. Deiyerarxiyalaşma daha mürəkkəb dissipativ strukturların daha sadə dissipativ strukturlara bölünməsi ilə bağlı olur. Sosial aspektdə bu proses sosial institutların davamlılığı və nizamsızlığı əsasında müşahidə edilir. Bu prosesdə sosial seçim əsaslı rola malik olur və sosial təşkilatlanmanın mahiyyətini aydınlaşdırır. Burada tezaurus, detektor və selektor sosial seçimin əsası kimi çıxış edir. Tezaurus mövcud struktur daxilində uyğun bifurkasiyanın nəticəsi kimi potensial olaraq yaranan çoxsayda mümkün dissipativ strukturlardan ibarət olur. Sosial sistemin elementlərinin daxili qarşılıqlı təsiri detektor rolunda çıxış edərək, tezaurusdan müəyyən bifurkasion strukturu seçir və mümkün olanı real olana çevirir. Detektor rəqabət və əməkdaşlığın vəhdəti kimi çıxış edərək, sosial dinamikanı müəyyən edir. Bu zaman sosial seçim prosesinə üçüncü amil kimi selektor daxil olur. Daxili seçim qanunu belədir ki, xarici qarşılıqlı təsir və dayanıqlılıq prinsipi əsasında detektor çoxsaylı bifurkasion strukturlar arasında mövcud mühit üçün ən dayanıqlı olanı seçir. Beləliklə, yalnız hər üç amilin – tezaurus, detektor və selektor əsasında sosial seçimin yaradıcı qüvvəsi aydınlaşır.[234 235]

---

[232] Философский энциклопедический словарь, М., «Советская энциклопедия», 1983, с.201

[233] Saadet Mammadova. Opportunities of Application of the Social Synergistic Institutionalization Concept in a Social State // Metafizika jurnalı, 2019, cild 2, say 2, sıra 6 pp. 7-24 // URL: https://metafizikajurnali.az/yukle/files/Metafizika.Vol.2%2CNo.2%2CSerial.6%2CPP.7-24.pdf

[234]Бранский В.П.Социальная синергетикакак постмодернистская философия истории. Общественные Науки и Современность 1999 • № 6, s.117-127

[235] Saadet Mammadova. Opportunities of Application of the Social Synergistic Institutionalization Concept in a Social State // Metafizika jurnalı, 2019, cild 2, say 2, sıra 6 pp. 7-24 // URL:

İctimai proseslərin sinergetik idarə edilməsinin mahiyyəti belədir ki, mürəkkəb qeyri-xətti sistem insan bütün Kainat kimi özünüyaratmaq, özünüstrukturlaşdırmaq, özünüqurmaq imkanlarına malikdir. Burada sosial sistemlərin fatal idarəçiliyi deyil, sosial sistemlərlə insan üçün daha yaxşı yönümdə dialoq qurulması yollarının reallaşdırılması nəzərdə tutulur.[236]

Sosial sinergetika sosial sistemlərin inkişafının çoxvariantlı inkişaf yollarını təqdim edir. Sosial sinergetika elmin digər sosial institutlarla qarşılıqlı inkişaf perspektivləri ilə bağlı istiqamət kimi qəbul edilə bilər. Belə ki, sosial sinergetika sosial dinamikanın öyrənilməsinə yönəlir, sosiumun transformasiyasına səbəb olan gözlənilməz, qeyri-xətti sosial dəyişikliklərin və onların nəticələrinin izahına çalışır. Sosial sinergetika əsasən sosial reallığı diqqətdə saxlayır ki, bu da böhran vəziyyətlərində həlledici rol oynaya bilər. Sosial sinergetika çərçivəsində sosial institutların inkişafı özünüformalaşdırma kimi qiymətləndirilə bilər, belə ki, burada sosial institutlar və bu institutlarla qarşılıqlı təsir və qarşılıqlı asılılıq prosesində olan şəxsiyyət faktoru da nəzərə alınır.[237]

**Tədqiqatın metodologiyasının xarakteristikası.**

İnstitusional yanaşma sosial münasibətlərin, sosial davranış, adət və ənənələrin təsnifatlı və qarşılıqlı təsir və qarşılıqlı fəaliyyət çərçivəsində araşdırılmasına kömək edir. Bu yanaşma elmin tədqiqi üçün əhəmiyyət kəsb etsə də, natamam təsir bağışlayır. Belə ki, institutlaşma nəzəriyyəsi real şəraitin təhlilinə yönəlib və tətbiqi-dəyişdirici imkanlar açmır. Sosial institutlar

---

https://metafizikajurnali.az/yukle/files/Metafizika.Vol.2%2CNo.2%2CSerial.6%2CPP.7-24.pdf

[236] Колосова О.Ю. Социальная синергетика в управлении социальными системами. Исторические, философские, политические и юридические науки, культурология искусствоведение. Вопросы теории и практики. Тамбов: Грамота, 2011. № 1 (7). С. 118-120. ISSN 1997-292X. www.gramota.net/materials/3/2011/1/

[237]Пономарева Ю.Е.Возможности и ограничения социальнойсинергети-кипри исследовании прогресса реформирования. Общество Вчера, Сегодня, Завтра., s.31-33. http://www.novapdf.com

arasındakı münasibətlərin inkişafı, sosial institutların elmin inkişafı və idarə edilməsinə təsiri xüsusiyyətlərinin araşdırılması *“sosial sinergetik institutlaşma”* konsepsiyasını metodoloji əsaslar kimi müəyyənləşdirməyi məqsədəuyğun edir.

Sosial sinergetikanın köməkliyi ilə sosiumun bütün formalarının (fərd, ailə, sosial qrup, mədəniyyət, elm, təhsil, din, iqtisadiyyat və s. institutlar) mahiyyəti, təkmilləşməsi və gələcək inkişafı analiz edilə və proqnozlaşdırıla bilər. Sosial sinergetikanın üstünlükləri sosial risklərin, sosial böhranların və transformasiyaların, inqilabi və islahatlı dəyişikliklərin öyrənilməsi, dövlətin və cəmiyyətin inkişafının, o cümlədən sosial institutların rekonstruksiyası, yaranması və yenidən özünütəşkilatlandırması, birinin öz əhəmiyyətini itirərək yenisi ilə əvəzlənməsi, və s. proseslərin təhlilinin mümkün olması ilə bağlıdır. [238]

İnstitusional yanaşma diferensial qarşılıqlı təsir və qarşılıqlı əlaqə əsasında sosial münasibətlərin, sosial davranış və adətlərin tədqiqi imkanlarını açır.

Sosial institutların formalaşması və inkişafı, onların təkamül istiqamətləri bu inkişafa təsir edən endogen və ekzogen sosial amillərlə sıx bağlıdır. Sosial sinergetik yanaşma şəxsiyyətin və sosial institutların özünütəkmilləşdirməsi, özünütənzimləməsi, böhranlı vəziyyətlərdə daxili və xarici amillərin təsiri ilə şəxsiyyətin əsas tələbatlarının təmin edilməməsi, sosial institutlarda baş verən innovasion dəyişikliklər nəticəsində şəxsiyyətin sosial təcrid olunması, marginallaşması, müharibə və faciəli hadisələr nəticəsində şəxsiyyətin mənəvi-psixoloji zədə alması və bütövlükdə şəxsiyyət sisteminin və sosial institutların struktur transformasiyaya məruz qalması və s. məsələlərin şərhi, təhlili, proqnozlaşdırılması və perspektivlərin müəyyən edilməsi

[238] Saadet Mammadova. Opportunities of Application of the Social Synergistic Institutionalization Concept in a Social State // Metafizika jurnalı, 2019, cild 2, say 2, sıra 6 pp. 7-24 // URL: https://metafizikajurnali.az/yukle/files/Metafizika.Vol.2%2CNo.2%2CSerial.6%2CPP.7-24.pdf

baxımından xüsusi aktuallıq kəsb edir. Sosial sinergetika bifurkasion (şaxələnmiş) seçim şəraitində sosial institutlar və şəxsiyyətin (elmlə məşğul olan insanın) özünütəşkilatlandırması və gələcək inkişafı üçün müəyyən, özünə uyğun bir yolu seçmək imkanlarını açır. Sosial sinergetika bu zaman destruktiv təsirlərin gələcək inkişaf imkanlarını ləngitməsi və böhran vəziyyətinin yarana biləcəyi ehtimallarını da nəzərə alır. Belə ki, əks təsirlərə müqavimət göstərə bilməyən sosial sistem (sosial institutlar və şəxsiyyət) özünütəşkilatlandırma və özünütənzimləmə bacarığını itirərək reqressiyaya məruz qala bilər. Bu zaman sosial institutların və şəxsiyyətin gələcək inkişafla bağlı seçim imkanları məhdudlaşır. Bununla belə sinergetik alimlərin qeyd etdikləri kimi, sosial sistem hər zaman öz imkanlarını nəzərə alaraq, daha optimal olan inkişaf istiqamətini seçmək, qabaqcadan müəyyən etmək, mövcud maneələri dəf edərək, təkamül imkanlarını sürətləndirmək iqtidarındadır. [239]

Digər tərəfdən, tədqiqatın nəzəri-metodoloji əsaslarını təşkil edən institutlaşma nəzəriyyəsi sosial institutlara, o cümlədən şəxsiyyətə idarəetmənin təsiri imkanlarını açmağa kömək edir.

"Sosial-sinergetik institutlaşma" nəzəriyyəsi sosial institutların nəzəri və tətbiqi əsaslarda öyrənilməsi və onların gələcək inkişafını proqnozlaşdırmaq və müəyyən etmək imkanlarını açır. Sosial sinergetika və Sosial İnstitutlaşma nəzəriyyələrinin qovşağında "sosial sinergetik institutlaşma"nın tədqiqatın metodoloji əsasları kimi qəbul edilməsində əsas səbəblər aşağıdakılarla bağlıdır:

1.Məlum olduğu kimi, nə qədər mükəmməl inkişaf strategiyası seçilsə də, mürəkkəb sistemlərin inkişaf istiqamətlərini konkret olaraq müəyyənləşdirmək və gözlənilən

---

[239] Saadet Mammadova. Opportunities of Application of the Social Synergistic Institutionalization Concept in a Social State // Metafizika jurnalı, 2019, cild 2, say 2, sıra 6 pp. 7-24 // URL: https://metafizikajurnali.az/yukle/files/Metafizika.Vol.2%2CNo.2%2CSerial.6%2CPP.7-24.pdf

nəticələr əldə etmək qeyri-mümkündür. Bu baxımdan sosial sinergetika proqnozlu inkişafa yönəldiyi üçün daha əlverişlidir.

3. T.Allahyarovanın fikirlərindən çıxış edərək deyə bilərik ki: "*Sinergetika mürəkkəb, açıq və özünü təşkil prosesində olan sistemləri təhlil edir. Bu cür sistemlər özlərinin inkişafı üçün ətrafla enerji, maddə və informasiya mübadiləsi də olmaqla bərabər, həm də mütləq öz daxili imkanlarından istifadə edirlər*".[240]

4.Sosial institut olan elmin və alim şəxsiyyətinin inkişafı və tərəqqisi və müəyyən məqamlarda idarə edilməsi dövlətin elmin inkişafı strategiyası ilə bilavasitə bağlıdır. İnstitutlaşma nəzəriyyəsi həm də elmin sosial institut olaraq sistemli şəkildə araşdırılmasına şərait yaradır. İnstitutlaşma və sosial sinergetik yanaşmaların birgə tətbiqi, yaxud "*sosial sinergetik institutlaşma*" sosial institutların müəyyən tarixi məqamlarda seçim etmək imkanlarını nəzərə almağa kömək edə bilər ki, bu da özünütənzimləmə və özünütəşkilatlandırma və kritik anda sosial institutların tənəzzülünün qarşısının alınması imkanları ilə bağlı olan çox vacib məqamdır. Sosial sinergetik yanaşma sosial institutlar üçün bifurkasion inkişaf və uyğun attraktanın seçilməsi və beləliklə də xaosun, böhranlı şəraitin idarə olunması imkanlarını açır. Bu zaman həm mürəkkəb sosial sistem olan sosial institutlar, həm də şəxsiyyət ayrılıqda özünü qoruyub saxlamaq imkanlarına malik olurlar.

5. İnstitutlaşma nəzəriyyəsi böhran vəziyyətlərində meqa, mezo və mikro sistemlərin (sosium, sosial institutlar, fərd) ümumi və sistemli inkişaf istiqamətlərini şərh edir, sosial sinergetika isə mürəkkəb sistemlərin böhran vəziyyətlərini nəzərə alır, böhranın idarə edilməsi məqsədilə proqnozlu ssenarilər təklif edir. Bu baxımdan sosial institutların və şəxsiyyətin inkişaf imkanlarının "sosial sinergetikinstitutlaşma" konsepsiyasına uyğun olaraq, İnstitutlaşma nəzəriyyəsi əsasında sistemli araşdırılması və Sosial

[240] Allahyarova T.B. Sosial sinergetika cəmiyyət haqqında elmlərin yeni metodoloji əsası kimi. Fəlsəfə üzrə elmlər doktoru (ixtisas: 09.00.11 - sosial fəlsəfə) almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2007, s.44

sinergetik yanaşma əsasında daim dəyişən dünyamızda həm təməl, həm də alt sistemlərin özünütəşkilatlandırması, özünütənzimləməsi və özünüidarəetməsi prosesinin proqnozlu inkişafı imkanlarının araşdırılması xüsusi aktuallıq və əhəmiyyət kəsb edir. [241]

Sosial institut olan elmin və alim şəxsiyyətinin inkişaf imkanlarının şərhi və proqnozlaşdırılmasına yönələn "Sosial sinergetik institutlaşma" konsepsiyasının qısa xülasəsini aşağıdakı kimi təqdim etmək olar:

- sosial institutlar mərkəzəyönəlmiş idarəçilik sisteminə daxil olub, konstitusion əsaslarda formalaşır;

- sosial institutların inkişafı obyektiv və subyektiv, ekzogen və endogen amillərin nisbi qarşılıqlı asılılığına, sivilizasiyanın inkişaf qanunauyğunluqlarına və milli xüsusiyyətlərə əsaslanan mürəkkəb proses kimi şərh edilə bilər.

- sosial institut olaraq elmin inkişafı onun struktur elementlərinin transformasiyasına, bəzi hallarda diferensiasiya yaxud inteqrasiya olunmasına, yaxud tamamilə öz əhəmiyyətini itirərək məhv olmasına, destruksiyasına gətirir ki, bu da sosial subyektlərin davranışlar sisteminin və onun əlaqələndirilməsi mexanizmlərinin dəyişməsi ilə nəticələnir.

-sosial tarixi böhranlar, müharibələr, inqilablar, sinfi toqquşmalar və digər hadisələr, sosial subyektlərin tələb və maraqlarının inkişafı, texnoloji tərəqqi, sosial institutlar arasındakı rəqabət, məqsədyönlü innovasion fəaliyyət, sosial agentlərin fəaliyyəti və s. elmdə institusional dəyişikliklərin ilkin səbəbi kimi çıxış edir.

-sosial böhranlar dövründə sosial institutlarda baş verən keyfiyyət dəyişikləri sosial norma və qaydaların, sosial münasibət

[241] Saadet Mammadova. Opportunities of Application of the Social Synergistic Institutionalization Concept in a Social State // Metafizika jurnalı, 2019, cild 2, say 2, sıra 6 pp. 7-24 // URL: https://metafizikajurnali.az/yukle/files/Metafizika.Vol.2%2CNo.2%2CSerial.6%2CPP.7-24.pdf

və əlaqələr sisteminin dəyişilməsi ilə müşayiət olunur və elmi innovasiyaların tətbiqi zərurətini yaradır.

- elmdə islahatlara yönələn strategiya onun strukturunun yenidən formalaşmasına, funksiyalaşmasının innovativ əsaslarda müəyyənləşməsinə, həmçinin sosial tələbatı nəzərə alan yeni elm sahələrinin yaradılmasına istiqamətlənir.

- institusional dəyişikliklər bir çox hallarda səmərəli institusional strukturların formalaşması ilə nəticələnmir, yaxud yeni yaranan və ya innovativ əsaslarda bərpa olunan sosial institutların effektli funksiyalaşması üçün müəyyən zaman müddəti tələb olunur.

- böhranlı vəziyyətlərin, institusional qeyri-sabitliyin, sosial transformasiya prosesinin idarə olunması məqsədilə sosial sinergetik proqnoz ssenarilərdən istifadə edilir və sosial tələbatdan doğan və dominanat xüsusiyyət daşıyan qeyri-formal qayda və normalar sistemi qanuni əsaslarda möhkəmlənməyə, institutlaşmağa başlayır və bu, öz növbəsində sosial gərginliyin zəifləməsinə, sosial adaptasiya prosesinin asan davam etməsinə kömək edir. Sosial subyektlərin uyğunlaşma meyli institutların yenidən formalaşması prosesinə ziddiyyətli təsir göstərir, belə ki, bir tərəfdən yeni xüsusiyyətlər mənimsənilir, digər tərəfdən isə əvvəlki xüsusiyyətlərdə durğunluq yaranır. Bu zaman sosial tələbatları nəzərə alaraq, innovasiyaların mənimsənilməsi, yeni elmi istiqamətlərin inkişaf etdirilməsi, elmlər arasında kommunikasiya və koordinasiyanın qorunub saxlanması və genişləndirilməsi strateji əhəmiyyət kəsb edir. [242]

[242] Saadet Mammadova. Opportunities of Application of the Social Synergistic Institutionalization Concept in a Social State // Metafizika jurnalı, 2019, cild 2, say 2, sıra 6 pp. 7-24 // URL: https://metafizikajurnali.az/yukle/files/Metafizika.Vol.2%2CNo.2%2CSerial.6%2CPP.7-24.pdf

# AZƏRBAYCAN ELMİNİN İNKİŞAF İSTİQAMƏTLƏRİ. RƏQƏMSALLAŞMA

XXI əsrdə bir tətəfdən Azərbaycan elminin təşkilatlanması, digər tərəfdən isə elmi tədqiqatların aparılması ilə bağlı davam edən innovativ dəyişikliklər danılmazdır. Azərbaycan elminin son onilliklərdəki inkişaf xəttini izlədikdə nəzərə çarpan yeniliklər ölkəmizdə həyata keçirilən elm siyasətinin başlıca istiqamətlərini müəyyənləşdirməyə imkan verir. Hazırda Azərbaycan elminin qarşısında duran başlıca məqsədlər yalnız ölkəmizdə deyil, bütövlükdə dünya elmində əldə edilən nailiyyətlərin sosial rifahın yüksəldilməsinə istiqamətləndirilməsilə bağlıdır.

XXI yüzillikdə Azərbaycan elminin inkişafını əks etdirən başlıca göstəricilər –

-Elmin təşkilatlandırılması xüsusiyyətləri;

-Elmə ayrılan maliyyə;

-Elmi tədqiqatların genişləndirilməsi;

-Elmi tədqiqatla məşğul olan insanların statistikası ilə bağlıdır.

XXI əsrdə Azərbaycan elminin yenidən təşkilatlaması prosesi baş verir. Bu proses iki aspektdə nəzərə çarpır:

1.Elm dövlətin ideoloji institutu kimi çıxış edir;

2.Özəl mənbələrdən maliyyəşmə əsasında elmi tədqiqatlar aparılır.

Azərbaycan Dövlət Statistika Komitəsinin 2023-cü il üçün təqdim etdiyi məlumatlara əsasən Azərbaycanda elmi tədqiqatla məşğul olan müəssisələrin 65,7%-i dövlət, 32,1%-i özəl və 2,2%-i təhsil müəssisələrinə aiddir.[243]

Dövlət büdcəsindən maliyyələşən elmi müəssisələrin statistikası 2005 – 2023-cü illərdə azalma tempinə malik olmuşdur.

[243] Azərbaycanda Təhsil,Elm və Mədəniyyət. Bakı: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2024. (494 s.) 299-302

| İllər | Elmi müəssisələr | elmi tədqiqat müəssisələri | ali təhsil müəssisələri |
|---|---|---|---|
| **2005** | 146 | 97 | 49 |
| **2010** | 145 | 93 | 52 |
| **2015** | 141 | 91 | 50 |
| **2020** | 127 | 86 | 41 |
| **2022** | 131 | 86 | 45 |
| **2023** | 134 | 88 | 46 |

Dövlət büdcəsindən maliyyələşən və dövlət idarəetmə orqanı xarakterli klassik struktura malik olan tədqiqat institutlarına ayrılan vəsait illər üzrə aşağıdakı kimi müəyyənləşdirilmişdir.

**Dövlət büdcəsindən elmə ayrılan xərclər, milyon manat [244]**

| | 2000 | 2005 | 2010 | 2015 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|
| **Dövlət büdcəsindən elmə ayrılan xərclər, milyon manat** | 9.3 | 28.8 | 92.8 | 113.2 | 143.6 | 151.8 | 167.8 | 193.6 |
| ümumi daxili məhsula nisbətdə, faizlə | 0.20 | 0.23 | 0.22 | 0.21 | 0.20 | 0.16 | 0.13 | 0.16 |
| dövlət büdcəsinin xərcləri ilə müqayisədə, faizlə | 1.22 | 1.35 | 0.79 | 0.64 | 0.54 | 0.55 | 0.52 | 0.53 |

[244] Dövlət büdcəsindən elmə çəkilən xərclər, milyon manat. https://www.stat.gov.az/source/education/

Ölkənin iqtisadi inkişafı sosial sahəyə, o cümlədən elmə ayrılan maliyyənin də artmasına imkan yaratmışdır. Cədvəldən göründüyü kimi 2005-ci illə müqayisədə 2023-cü ildə elmi tədqiqatlara ayrılan vəsait 8,1 dəfə çox olmuşdur.

Qeyd edilməlidir ki, elmə dövlət büdcəsindən ayrılan vəsait MDB ölkələrilə müqayisədə əhəmiyyətli məbləğdir, bu ölkələrin ümumi əhalisinin və alimlərinin statistik göstəricilərinin nisbəti belə bir fikir söyləməyə əsas verir. Cədvəldən göründüyü kimi elmə ən çox maliyyə ayıran ölkə Belorusiyadır. Nəzərə alınmalıdır ki, MDB ölkələri arasında Sovet elminin ənənələrinin qorunub saxlanmasına çalışan Belorusiyada ümumi əhalinin və alim heyətinin statistik göstəriciləri daha böyükdür.

**MDB ölkələri üzrə yerinə yetirilmiş işlərin həcmi[245]**
**(ÜDM-ə nisbətən faizlə)**

| | 2000 | 2005 | 2010 | 2015 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|
| Azərbaycan | 0,3 | 0,2 | 0,2 | 0,2 | 0,2 | 0,2 | 0,2 | 0,2 |
| Belarus | 0,8 | 0,8 | 0,7 | 0,5 | 0,5 | 0,5 | 0,5 | 0,6 |
| Ermənistan | 0,3 | 0,3 | 0,2 | 0,2 | 0,2 | 0,2 | 0,2 | 0,2 |
| Qazaxıstan | 0,2 | 0,3 | 0,2 | 0,2 | 0,1 | 0,1 | 0,1 | 0,1 |
| Qırğızıstan | 0,2 | 0,2 | 0,2 | 0,1 | 0,1 | 0,1 | 0,1 | 0,1 |
| Moldova | 0,5 | 0,4 | 0,4 | 0,3 | 0,2 | 0,2 | 0,2 | 0,2 |
| Rusiya | 1,1 | 1,1 | 1,1 | 1,1 | 1,1 | 1,0 | 0,9 | ... |
| Tacikistan | 0,1 | 0,1 | 0,1 | 0,1 | 0,1 | 0,1 | ... | ... |
| Türkmənistan | ... | | | | | | | |
| Özbəkistan | 0,4 | ... | ... | ... | ... | 0,1 | 0,1 | ... |
| Ukrayna | 0,9 | 1,0 | 0,8 | 0,6 | 0,4 | ... | ... | ... |

Elmin təşkilatlanması ilə bağlı məlumatların analizi belə deməyə əsas verir ki, yalnız Azərbaycanda deyil, bütün dünyada elm özünün ilkin təşkilatlanma xüsusiyyətlərini yenidən nəzərdən keçirir. Məlumdur ki, Qədim dövr və Orta əsrlərdə elmlə maraqlanan insanlar məbədlərdə, kilsə və məscidlərdə toplanaraq müstəqil şəkildə elmi mübahisə və araşdırmalarla məşğul

[245] MDB ölkələri üzrə yerinə yetirilmiş işlərin həcmi (ÜDM-ə nisbətən faizlə). https://www.stat.gov.az/source/education/

olurdular ki, bu da müasir elmi mərkəzlərin ilk forması kimi qəbul edilə bilər. Yeni dövrdə elmin institutlaşması və sosial institut olaraq fəaliyyəti genişlənmiş oldu. XXI əsrdə yenidən müəyyən elm sahələrilə bağlı mütəxəssislərin daha kiçik mərkəzlərdə birləşməsi prosesi baş verir, belə demək olarsa köhnə təcrübə yeni formatda tətbiq edilir.

Azərbaycanda elmin institutlaşması prosesi XX əsrin 40-cı illərinə təsadüf edir. 1945-ci ildə yaradılan AMEA – Azərbaycan Milli Elmlər Akademiyası XX əsrdə ölkəmizdə elmin mərkəzləşməsi və təşkilatlanmasına xidmət edən müəssisə rolunu yerinə yetirməli idi. Düşünən beynlərin dövlət nəzarəti və idarəçiliyi ilə tənzimlənməsi SSRİ-nin bütün respublikalarında olduğu kimi Azərbaycanda da Elmlər Akademiyasının dövlətin ideoloji mərkəzinə çevrilməsinə səbəb olmuşdur. Vaxtı ilə SSRİ-də yaradılan Elmlər Akademiyası sistemi XXI əsrdə parçalanma və tənəzzül mərhələsindədir. Elmlər Akademiyalarının İnstitutları əsasında yeni tipli araşdırma Mərkəzlərinin yaradılması ideyasının uğursuzluğu bu institutların müvafiq ali təhsil müəssisələrinin nəzdində məhdudlaşdırılmış fəaliyyətinin davam etdirməsinə təşviq edir. Elmlər Akademiyalarının İnstitutlarının araşdırma Mərkəzlərinə çevrilməsinin uğursuzluğu bilavasitə buradakı strukturun transformasiyası prosesində meydana çıxan çətinliklərlə bağlıdır. Məhz SSRİ akademiyaları setinə xas ənənəvi tədqiqat sisteminin dəyişməzliyi bu elmi strukturların müasir tipli tədqiqat mərkəzləri ilə müqayisədə zəif templə fəaliyyət göstərməsinə səbəb olmuşdur.

Statistika Komitəsinin məlumatlarına əsasən dövlət büdcəsindən maliyyələşən elmi-tədqiqat müəssisələrində 2005 – 2023-cü illərdə elmi tədqiqatla məşğul olan insanların statistik göstəriciləri aşağıdakı kimi olmuşdur: [246]

---

[246] Azərbaycanda Təhsil,Elm və Mədəniyyət. Bakı: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2024. (494 s.) 299-302

| **Illər** | **Ümumi Nəfərlə** | **Akademiklər** | **Müxbir üzvlər** | **Elmlər doktorları** | **Fəlsəfə doktorları** |
|---|---|---|---|---|---|
| **2005** | 11603 | 58 *(0,5%)* | 102 *(0,88%)* | 705 *(6,1%)* | 3306 *(28,5%)* |
| **2010** | 11037 | 57 *(0,5%)* | 109 *(0,99%)* | 838 *(6,1%)* | 3531 *(32%)* |
| **2015** | 16137 | 65 *(0,4%)* | 113 *(0,7%)* | 1519 *(9,4%)* | 6428 *(39,9%)* |
| **2020** | 14984 | 63 *(0,42%)* | 95 *(0,5%)* | 1429 *(9,5%)* | 6124 *(40,9%)* |
| **2022** | 14520 | 57 *(0,39%)* | 87 *(0,64%)* | 1422 *(9,8%)* | 5785 *(39,9%)* |
| **2023** | 14062 | 56 *(0,4%)* | 86 *(0,61%)* | 1382 *(9,8%)* | 5467 *(39%)* |

Statistik göstəricilər deməyə əsas verir ki, elmi tədqiqatla məşğul olanların çox az bir hissəsi elmi dərəcə və ad alan ixtisaslaşmış alimlərdirlər. Belə ki, 2005-ci ildə - 7432 nəfər, 2010-cu ildə - 6502 nəfər, 2015-ci ildə - 8012 nəfər, 2020-ci ildə - 7273 nəfər, 2022 – 7169 nəfər, 2023-cü ildə - 7071 nəfər magistr dərəcəli elmi işçilərin statistikasıdır. Ola bilər ki, onların müəyyən bir hissəsi 10 illərlə doktorant və dissertant olan, lakin müdafiə etməyən şəxslərdir. Elmi karyerada yüksəlişə meylin az olması elm sahəsində müəyyən bir durğunluq amili kimi də qəbul edilə bilər.

MDB ölkələrindəki Elmi müəssisələrdə sırf tədqiqatla məşğul olan heyətin statistik göstəriciləri Rusiyada alimlərin institutlaşmış fəaliyyətinin daha böyük həcimli olduğunu göstərir.

**MDB ölkələri üzrə tədqiqat və işləmələri yerinə yetirən işlərin sayı**[247]

| | Cəmi (min nəfər) | | Tədqiqatçılar | |
|---|---|---|---|---|
| | **2022** | **2023** | **2022** | **2023** |
| Azərbaycan | 19,9 | 19,5 | 14,5 | 14,1 |
| Belarus | 25,2 | 26,7 | 16,4 | 17,2 |
| Ermənistan | 4,9 | | 3,8 | ... |
| Qazaxıstan | 22,5 | 25,5 | 18,0 | 21,5 |
| Qırğızıstan | 4,3 | 4,5 | 3,3 | 3,6 |
| Moldova | 3,9 | 3,5 | 2,8 | 2,6 |
| Rusiya | 669,9 | | 340,7 | ... |
| Tacikistan | 4,5 | | 3,1 | ... |
| Türkmənistan | | | ... | ... |
| Özbəkistan | 17,1 | | 12,9 | ... |
| Ukrayna | ... | | ... | ... |

XXI əsrdə Azərbaycan elminin nailiyyətləri onun dünya elmində uğurlu mövqeyinin göstəricisidir. Azərbaycan dövlətinin elm siyasəti elmin tərəqqisinə yönəlmişdir.

XXI əsrdə elmin və cəmiyyətin sürətli rəqəmsallaşması məhz kiçik mütəxəssis alim kollektivi tərəfindən aparılan dərinləşdirilmiş tədqiqatların nəticəsidir.

Özəl tədqiqat müəssisələri müstəqil və ya yarım müstəqil Elmi Tədqiqat Mərkəzləri olaraq, layihələr əsasında fəaliyyət göstərirlər. Əsasən QHT-lər və ictimai birliklər qismində çıxış edən belə təşkilatlar apardıqları tədqiqatların məzmun və mahiyyətindən asılı olaraq, maliyyə mənbələri tapırlar. Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin verdiyi məlumata görə Azərbaycanda 4000-dən çox QHT Ədliyyə Nazirliyində qeydiyyatdan

[247] MDB ölkələri üzrə tədqiqat və işləmələri yerinə yetirən işlçiərin sayı. (min nəfər)
https://www.stat.gov.az/source/education/

keçmişdir.[248] Bu təşkilatlar müxtəlif istiqamətli – sosial, ekoloji, tibbi, iqtisadi, hüquqi və s. əsasən empirik tədqiqatlar aparırlar.

Azərbaycanda ixtisaslaşmış və müstəqil Elmi Mərkəzlərin formalaşması prosesi ilkin mərhələsində olsa da, dünya təcrübəsində müxtəlif istiqamətlərdə geniş tədqiqatlar aparan müstəqil elmi tədqiqat Mərkəzləri fəaliyyət göstərməkdədir. Məsələn, CERN - Avropa Nüvə Tədqiqatları Mərkəzi, JINR – Birgə Nüvə Tədqiqatları İnstitutu, IARC – Beynəlxalq Xərçəng Araşdırmaları Agentliyi, "RiceAfrica" – kənd təsərrüfatı tədqiqat mərkəzi, BKS – Beynəlxalq Kosmik Stansiya, EMBL – Avropa Molekulyar Biologiya Laboratoriyası, IFPR – Beynəlxalq Qida Siyasəti Tədqiqat İnstitutu, HUGO – İnsan Genom Təşkilatı, MIRI – Maşın İntellektinin Tədqiqatı İnstitutu, SIAI – "Singularity" Süni İntellekt İnstitutu, ITER – Beynəlxalq Thermonuclear Experimental Reactor layihəsi və s.

Qeyd edilən beynəlxalq tədqiqat mərkəzlərinin daha mobil olmasının səbəblərindən biri burada ən yeni texnologiya və avadanlıqlardan istifadə edən mütəxəssislərin çalışmasıdır. Digər tərəfdən, belə tədqiqat mərkəzləri çox zaman sahibkarlar tərəfindən maliyyələşdirilir və əldə edilən nəticələrin tətbiqi cəmiyyətdə dəyişikliklərə əsas olur və daha çox gəlir gətirir. Beləliklə, müasir elm böyük gəlir mənbəyinə çevrilir, özünü və sosial mühiti dəyişir. Bu mənada, müasir elmi tədqiqat mərkəzləri kollektiv araşdırmaların aparılması və sürətli elmi nailiyyətlərin əldə edilməsi və tətbiqi baxımından xüsusi əhəmiyyət kəsb edir.

XXI əsrdə elmin rəqəmsallaşması ilk növbədə elmi mərkəzlərin rəqəmsallaşması ilə başlanmışdır. Elmin rəqəmsallaşması elmi müəssisələrdə rəqəmsallaşma texnologiyalarının, elmi tədqiqatlarda rəqəmsal metod və vasitələrin tətbiqi, elmi biliklərin qlobal səviyyədə mübadiləsi və inteqrasiyası, elmi əməkdaşlığın genişləndirilməsi məqsədilə süni intellektin imkanlarından yararlanma və s. ilə bağlıdır.

[248] Azərbaycanda qeydiyyatdan keçən QHT-lərin sayı açıqlanıb. https://report.az/daxili-siyaset/azerbaycanda-qeydiyyatdan-kecen-qht-lerin-sayi-aciqlanib/

E.P. Qrafova, D.M. Ottinger tərəfindən elmin rəqəmsallaşması aşağıdakı istiqamətlərdə müəyyənləşdirilir:

"- *Elmin maddi infrastrukturunun inkişafı;*

- *Rəqəmsal proqramların həyata keçirilməsi;*

- *Onlayn tədqiqatların inkişafı;*

- *Yeni elmi idarəetmə sistemlərinin inkişafı.*

- *Universal identifikasiya sisteminin inkişafı.*

- *Elmi müəssisə modellərinin yaradılması.*

- *Rəqəmsal texnologiyalar sahəsində bilik və bacarıqların artırılması".*[249]

Elmin maddi infrastrukturu dedikdə, elmi müəssisələrin yerləşdikləri binaların yararlığı, elmi-tədqiqatlar aparılması üçün uyğun şəraitin yaradılması, həmçinin rəqəmsal texnologiyalarla təchiz edilmə səviyyəsi və s. nəzərdə tutulur. Elmi tədqiqatların rəqəmsallaşmanın tələblərinə uyğun proqramlı reallaşdırılması, elmi tədqiqat zamanı rəqəmsal metod və texnologiyaların tətbiqi və s. ehtiva edilir. Qnlayn tədqiqatların inkişafı – onlayn şəkildə təşkil edilən konfrans və toplantılar, məqalə və kitabların çapı və beynəlxalq indeksləşdirilmiş bazalarda yerləşdirilməsi, müəyyən mövzularla bağlı müxtəlif ölkə alimlərinin birgə onlayn layihələrinin reallaşdırılması və s. ilə bağlıdır. Rəqəmsallaşma elmin yeni tələblərə müvafiq şəkildə idarəedilməsi problemini aktuallaşdırır. Elmin idarə edilməsi texniki və texnoloji bazanın qurulması ilə yanaşı, alimlərin fəaliyyət istiqamətlərinin yönləndirilməsini də nəzərdə tutur. Əslində elmin idarəedilməsi dedikdə, yuxarıda elmin rəqəmsallaşması prosesi ilə bağlı təqdim edilən fəaliyyət planının bütün bəndələrini özündə birləşdirir.

Bir çox müəlliflər elmi müəssisələrin kompüter və texniki vəsaitlərlə təmin edilməsini elmi tədqiqatların avtomatlaşdırılması prosesi kimi şərh edirlər. Elmin rəqəmsallaşması tədqiqat istiqamətləri ilə bağlı sərbəst seçimi ehtiva edir. Belə ki,

---

[249] Е.П. Графова, Д.М. Оттингер Уральский государственный аграрный университет (г. Екатеринбург) ЦИФРОВИЗАЦИЯ КАК ФАКТОР РАЗВИТИЯ НАУКИ И ОБРАЗОВАНИЯ.// АГРАРНОЕ ОБРАЗОВАНИЕ И НАУКА. 2021. № 4. С. 11.

tədqiqatçı alim sərbəst şəkildə müxtəlif tədqiqat mərkəzlərilə əlaqələr yaradaraq beynəlxalq layihələrə qoşulur, beynəlxalq elmi asossiasiyalların online və offline iştirakçısı kimi fəal elmi yaradıcılıqla məşğul olur. Rəqəmsal elm hər bir alimin tədqiqatının aktuallığı ilə bağlı göstəricilər (data) üzərində qurulur, həmçinin bu tədqiqatın yayılması imkanlarının, beynəlxalq elmi əməkdaşlığın genişləndirilməsi üzərində qurulur.

Hazırda elmin rəqəmsallaşması və elmimetriya istiqamətində geniş tədqiqatlar aparan "İstinad edilmiş Alimlər İnstitutu" (Institute of Cited Scientists) elmin rəqəmsallaşması istiqamətdə müəyyən nailiyyətlər əldə etmişdir. Bu tədqiqat mərkəzi tərəfindən həyata keçirilən tədbirlər bilavasitə elmdə rəqəmsallaşmanın xüsusiyyətlərinin şərhi ilə bağlı olmuşdur. Mərkəzin 2017-ci ildə Moskva şəhərində keçirilən İnformasiya Texnologiyaları Elmi (MosITS'17) mövzusundakı Beynəlxalq Konfransında informasiya texnologiyaları elmi və informasiya texnologiyalarının müxtəlif elm sahələrində tətbiqinə dair araşdırmalar və statistika təqdim edilmişdir. 19-21 oktyabr 2018-ci il tarixlərində Monteneqronun Budva şəhərində "Rəqəmsal Elm" mövzusunda keçirilmiş Beynəlxalq Konfransda (DSIC'18) elmin rəqəmsallaşması ilə bağlı ən son yeniliklər, tendensiyalar, təcrübələr və problemlər haqqında müzakirələr aparılmış, burada təbiət və sosial elmlər, incəsənət və humanitar elmlər sahəsində orijinal tapıntıların səmərəli şəkildə yayılması məsələsi səsləndirilmişdir. DSIC'18 konfransında aşağıdakı mövzuları əhatə edən disskusiyalar aparılmış Rəqəmsal elmin başlıca istiqamətləri müəyyənləşdirilmişdir:

1.Rəqəmsal Kənd Təsərrüfatı və Qida Texnologiyası;
2.Rəqəmsal İncəsənət və Humanitar Elmlər;
3.Rəqəmsal İqtisadiyyat;
4.Rəqəmsal Təhsil;
5.Rəqəmsal Mühəndislik;
6.Rəqəmsal Ətraf Mühit Elmləri;
7.Rəqəmsal Maliyyə, Biznes və Bankçılıq;
8.Rəqəmsal Səhiyyə, Xəstəxanalar və Reabilitasiya;

9.Rəqəmsal media;
10.Rəqəmsal Tibb, Əczaçılıq və İctimai Səhiyyə;
11.Rəqəmsal Dövlət İdarəçiliyi;
12.Rəqəmsal Texnologiya və Tətbiqi Elmlər;
13.Rəqəmsal Virtual Reallıq.

"İstinad edilmiş Alimlər İnstitutu"nun "Rəqəmsal Əsrdə Elmlərin İnteqrasiyası" adlı üçüncü Beynəlxalq Konfransı (ICIS 2019) 10-12 may 2019-cu il tarixlərində Gürcüstanın Batumi şəhərində baş tutmuşdur. Bu konfransda "Kompüter hüququ və təhlükəsizliyi", "Saxta xəbərləri müəyyən etmək üçün yanaşmalar: Sistemli ədəbiyyat icmalı", "Rəqəmsal Mühasibatlıq və Audit", "Yeni Rəqəmsal Texnologiyanın İşığında: Ukrayna Təcrübəsi", "Rəqəmsal əsrdə Rəqəmsal Təhsil", "Rəqəmsal əsrdə ağıllı şəhərlər", "Ağıllı Mobillik: Mobilliyin Sistematik Ədəbiyyat İcmalı" və s. mövzularda fikir mübadiləsi aparılmışdır.[250]

"İstinad edilmiş Alimlər İnstitutu"nun əsas fəaliyyəti göründüyü kimi bilavasitə elmimetrik göstəricilərlə bağlıdır və konfranslar haqqında verilən məlumatlarda mütləq şəkildə konfrans materiallarının Scoups və Spinger kimi beynəlxalq data bazalarda yerləşdirildiyi və konfransların bilavasitə bu ideksləşdirmə bazalarının təşəbbüsü ilə təşkil edildiyi vurğulanır. Qeyd edilənlər onu deməyə əsas verir ki, hazırda rəqəmsal elmin başlıca istiqaməti kimi Elmimetriya xüsusi aktuallıq kəsb edir və data bazalar üzərində qurulan fəaliyyət prosesi rəqəmsal elmimetriyanın tərəqqisinə gətirmişdir. Elmimetrik göstəricilər alimlərin və elmi tədqiqatların nəticələrinin qısa zaman müddətində tanınmasına şərait yaradır, müəyyən mənada elmin inkişafını stimullaşdırır.

XXI əsr bütün dünyada olduğu kimi Azərbaycan elminin də rəqəmsallaşması mərhələsi kimi Azərbaycan alimlərinin əsərlərinin müxtəlif tipli elmimetrik bazalarda əks olunması məsələsini aktuallaşdırmışdır. Azərbaycan Respublikası Təhsil Nazirliyinin verdiyi məlumata əsasən 2024-cü ildə digər illərlə

[250] Institute of Cited Scientists. https://ics.events/past-events/

müqayisədə azərbaycanlı alimlərin “Scopus” elmimetrik verilənlər bazasında “*məqalə sayı 2382-ə çatıb. ...məqalələrin 11,2%-i dünyanın ən çox istinad alan 10% elmi işi arasındadır. ...dərc olunan məqalələrin 1481-i Q1 (996) və ya Q2 (485) kvartilli jurnallarda dərc olunub. ...məqalələrin 67%-i (1594) beynəlxalq əməkdaşlıq çərçivəsində xarici həmmüəlliflərlə birgə dərc edilib*”.[251]

Beynəlxalq indeks bazalarında məqalələrin yer alması tədqiqatçı alimin imzasının beynəlxalq səviyyədə tanınması ilə yanaşı beynəlxalq elmi əməkdaşlığın genişlənməsinə şərait yaradır. Lakin bu gün digər dövlətlərdə olduğu kmi Azərbaycanda da Scopus və digər məhşur elmimetrik bazalarda məqalələrin yerləşdirilməsi müəyyən çətinliklərlə müşaiyət olunur:

1.Elmi tədqiqatların uyğun elmi səviyyədə olmaması;

2.Beynəlxalq bazalara daxil olan jurnalların fərqli, bəzən dolayı tələbləri;

3. Elmi tədqiqatların araşdırılma səviyyəsindən asılı olmayaraq dərc olunması məqsədilə böyük məbləğdə ödənişin tələb edilməsi;

4. Qəbul edilən məqalələrin uzun müddətə çap edilməsi və s.

Qeyd edilməlidir ki, rəqəmsallaşmanın gəlir mənbəyinə çevrilməsi sosial həyatın bütün tərəflərində spekulyativ meyllərin inkişafına rəvac vermişdir. Məsələn, elmin rəqəmsallaşması biznesin yeni bir istiqamətinə çevrilmişdir. Tanınmış rəqəmsal bazalarda yerləşdirilən məqalələr yeni ideya daşıyıcısı olmasa belə, böyük pullar müqabilində data bazalarda yer ala bilir.

Ödənişsiz data bazalarda yer alan həqiqi innovativ ideyaların daşıyıcısı olan tədqiqat işləri isə inkişaf etdirilərək tətbiqi əsaslarını tapır və sosial tərəqqiyə təkan verir, bu ideyaları tətbiq edən insanlara daha böyük gəlir gətirir. Beləliklə, rəqəmsallaşma elmin iqtisadiyyatının, bəlkə də, “elm bazarının” formalaşmasına səbəb olmuşdur. Tarixin bütün mərhələlərində

---

[251] Azərbaycan alimlərinin beynəlxalq elmi fəaliyyətində böyük yüksəliş: 2024-cü ilin nailiyyətləri. https://edu.gov.az/az/announcements/21528-1

elmin inkişafı daha çox elmin özünün tərəqqisinə xidmət etmişdir. Müasir böyük və rəqəmsallaşan elm sosial həyatın bütün sahələrini öz nəzarəti altında saxlayır, elmin tərəqqisi artıq rifah halı ilə birbaşa bağlı olur, hətta deyə bilərik ki, rəqəmsallaşan elm insanın özünü yenidən yaratmaq qabiliyyəti əxz etmişdir. Bu proses sadə plastik cərrahiyələrdən gen dəyişikliyinə qədər mürəkkəb istiqamətləri əhatə edir. Rəqəmsallaşan elm ən ali xeyirxahlıq məqamında belə maddiyyata, daha çox qazanc əldə edilməsinə yönləndirilmiş olur. Eyni zamanda ən qəddar faciələrin törədilməsində də rəqəmsal xarakter alan, süni intellektin yaradıcısı olan elmin nailiyyətləri istifadə edilir.

# AZƏRBAYCANDA RƏQƏMSAL DÖVLƏT VƏ RƏQƏMSAL CƏMİYYƏT

XXI əsrdə bəşər cəmiyyətinin inkişafı rəqəmsallaşma dövrünə daxil olmuşdur. İlkin mərhələsi informasiyalaşdırma olan rəqəmsallaşma artıq növbəti, bəlkə də üçüncü mərhələsinə keçid etmək üzrədir. Bu mərhələ süni intellektin reallaşması ilə xarakterizə edilir. Rəqəmsallaşma kütləviləşərək həyatın ayrılmaz hissəsinə çevrildiyi halda, süni intellekt hələ ilkin tətbiq şəraitindədir və sosial rifaha mütərəqqi təsiri imkanları proqnostik xüsusiyyət daşıyır. Rəqəmsallaşmanın səmərəliliyinin yüksəldilməsi həyat keyfiyyəti ilə bağlı prosesdir. Bu gün bütün dünyada olduğu kimi Azərbaycanda da rəqəmsallaşmanın nailiyyətləri sürətli şəkildə həyatımızın bütün sahələrində öz tətbiqini taparaq insanların həyat keyfiyyətinə təsir edir. Sosial reallığın tərkib hissəsinə çevrilən rəqəmsallaşma cəmiyyətin və dövlətin yeni mahiyyət kəsb etməsilə, sosial idarəçilikdə əsaslı dəyişikliklərlə müşayiət olunur. Rəqəmsallaşma əsrində "rəqəmsal dövlət" konsepsiyası "rəqəmsal cəmiyyət" anlayışı ilə müqayisədə daha çox dəqiqləşmə tələb edir.

Rəqəmsal Dövlət rəqəmsallaşma və sosial hüquq arasındakı münasibətlərin tənzimləməsinə yönəlir. Rəqəmsal dövlətin konstitusion əsasları, hakimiyyətin rəqəmsallaşması, rəqəmsal hakimiyyətin təşkili mexanizmi, rəqəmsal suverenlik və s. məsələlər bu dövlətin mahiyyəti ilə bağlı istiqamətlərdir. Müasir dünyada dövlətilərin tətbiq etdikləri *smart power* (ağıllı güc) siyasəti *digital power* (rəqəmsal güc) siyasəti ilə əvəz edilir. Dövlət idarəçilində rəqəmsal gücün tətbiqi yeni rəqəmsal texnologiyalar vasitəsilə idarəçiliyi nəzərdə tutur. Rəqəmsal dövlət varsa deмək ki, rəqəmsal vətəndaşlıq da var. Rəqəmsal vətəndaşlıq nədir və bizə hansı imkanları açır?

"*Rəqəmsal vətəndaşlıq texnologiyadan məsuliyyətli, təhlükəsiz və hörmətlə istifadə etmək bacarığıdır. Bu, şəxsi məlumatları onlayn qorumaq, kibertəhlükələr və ya onlayn təhdidlərlə bağlı riskləri azaltmaq, məlumat və mediadan*

*hörmətli, bilikli və qanuni şəkildə istifadə etmək qabiliyyətinə aiddir. Texnologiya mürəkkəbləşdikcə rəqəmsal vətəndaşlıq inkişaf etməyə davam edir, lakin rəqəmsal vətəndaşlığın əsas mövzusu eyni qalır: rəqəmsal texnologiyadan istifadə edərkən təhlükəsiz və məsuliyyətli olmaq*".[252]

Rəqəmsal dövlət vətəndaşlarının rifahını yüksəltmək və onların təhlükəsizliyini təmin etmək məsuliyyəti daşıyır. Rəqəmsal dövlətin inkişafı rəqəmsallaşma ilə bağlı maarifləndirmə işini başlıca vəzifəyə çevirir. Rəqəmsal və ya virtual dünyada hərəkət edən vətəndaş qarşılıq olaraq rəqəmsal məsuliyyətlərin daşıyıcısıdır. Mütəxəssislər əmindirlər ki, onlayn etdiyimiz hər şey rəqəmsal dünyamıza və mənliklərimizi yenidən müəyyən etməyimizə təsir edir.

Rəqəmsal məkanda aid olduğumuz rəqəmsal sosial birliklər formalaşır. Artıq real həyatın ayrılmaz hissəsinə çevrilən rəqəmsal dövlətin vətəndaşı olmaq və rəqəmsal vətəndaş fərqli anlayışlar kimi təzahür edir. Rəqəmsal vətəndaş virtual və ya rəqəmsal dövləti formalaşdıran və burada dəyişikliklər etməyi bacaran vətəndaşdır.

Rəqəmsal dövlət və rəqəmsal hökumət sosial təhlükəsizliyi möhkəmləndirmək üçün öz vətəndaşları haqqında yaşamın bütün sahələrinə aid rəqəmsal məlumatlara malikdir. İnternet vasitəsilə hər bir vətəndaş haqqında lazımi məlumatların əldə edilməsi sadə bir əməliyyatla mümkündür. Rəqəmsal vətəndaş elektron təhsil, elektron səhiyyə, elektron vergi, elektron iqtisadi, mədəni, siyasi və s. proseslərə qoşulur və daha sürətli və səmərəli xidmətlərlə təmin edilir.

Dövlətin rəqəmsallaşması nəticəsində formalaşan "rəqəmsal cəmiyyət" və ya texnologiya cəmiyyəti sosial məxfiliyi məhv edir.

D.A.Paşintsev "rəqəmsal dövlət" konsepsiyasının mahiyyətini açıqlayarkən burada rəqəmsallaşmanın tətbiqi istiqamətlərini müəyyənləşdirir:

---

[252] What Is Digital Citizenship? // https://www.learning.com/blog/what-is-digital-citizenship/

-İnstrumental və texnoloji (informasiya və kommunikasiya texnologiyaları hakimiyyət orqanları tərəfindən geniş istifadə olunur);

-Təşkilati və idarəetmə (dövlət hakimiyyətinin rəqəmsal strukturunun təşkili);

-Prosedur-prosessual (informasiya-kommunikasiya texnologiyalarının köməyi ilə siyasi rejimin rəqəmsallaşması).[253]

Beləliklə, dövlət idarəşiliyində *rəqəmsal güc siyasətinin* tətbiqi hakimiyyətin rəqəmsallaşması, yaxud rəqəmsal texnologiyaların bütün sferalarda (idarəçilik, hüquq, iqtisadiyyat, siyasət, sosial, təhlükəsizlik və s.) tətbiqi və məqsədəuyğun istifadəsini nəzərdə tutur. Onu da qeyd etmək lazımdır ki, bu zaman *smart power* və *soft power* siyasətləri *rəqəmsal güc* siyasətinin tərkib hissələrinə çevrilir.

XXI əsrdə Azərbaycan dövləti *rəqəmsal gücün* tətbiqi, həmçinin rəqəmsal suverenliyin təmin edilməsi istiqamətində davamlı fəaliyyət proqramı həyata keçirir. Qeyd edilməlidir ki, Azərbaycan dövlətinin rəqəmsallaşması prosesi cəmiyyətin rəqəmsallaşması ilə müqayisədə daha erkən tarixə malikdir. Azərbaycanda elektron hökumətin qurulması ölkə rəhbəri, prezident İlham Əliyev tərəfindən təsdiqlənmiş "Azərbaycan Respublikasında rabitə və informasiya texnologoyalarının inkişafı üzrə 2010 – 2021-ci illər üçün Dövlət Proqramının övlət Proqramı (Elektron Azərbaycan)" haqda Sərəncam, həmçinin 2011-ci ildə qəbul edilmiş "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqda" Fərmanla başlanmışdır. 2018-ci ildə prezident İlham Əliyevin "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqda"kı Fərmanına əsasən Elektorn Hökumətin İnkişafı Mərkəzi yaradılmışdır.[254] Asan Xidmətlər fəaliyyəti (Asan İmza, Asan

[253] Н. Н. Черногор, Д. А. Пашенцев, М. В. Залоило [и др.] Концепция цифрового государства и цифровой правовой среды : монография. — М.: ООО «Юридическое издательство НОРМА», 2021. — С. 14—15. — 244 с.

[254] Elektron hökumət haqqında ümumi məlumat. https://www.e-gov.az/az/content/read/2

ödəniş, eGov, Asan Viza və s.) üzərində qurulan elektron hökumət əhalinin sosial rifahının inkişafı istiqamətində uğurlu addımdır.

Azərbaycanda rəqəmsal hökumətin yaradılması əslində rəqəmsallaşmanın elektron hökumətdən sonrakı, ikinci mərhələsi kimi qəbul edilə bilər. Azərbaycan hökuməti dövlət və sosial idarəçilikdə rəqəmsal xidmət və texnologiyaların tətbiqinin inkişafı və davamlı təkmilləşdirilməsi siyasətini həyta keçirir.

Azərbaycan dövləti ölkənin tam şəkildə rəqəmsallaşdırılmasının reallaşdırılması və nəzarəti məqsədilə Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi kimi icra orqanlarınl təsis etmişdir. Azərbaycan dövlətinin rəhbəri, prezident İlham Əliyevin 2021-ci il 11 oktyabr tarixli "*Azərbaycan Respublikasında rəqəmsallaşma, innovasiya, yüksək-texnologiyalar və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında*" Fərmanında ölkədə rəqəmsal inkişafın təmin edilməsi məsədləri aşağıdakı kimi müəyyən edilmişdir:

1.rəqəmsallaşmanın və innovasiyaların tətbiqinin genişləndirilməsi;

2.radiospektr idarəçiliyinin, rabitə və informasiya texnologiyalarının inkişafının, tənzimləmə mexanizmlərinin təkmilləşdirilməsi;

3.sağlam rəqabət mühitinin formalaşdırılması və bu sahələrdə keyfiyyətin artırılması;

4.innovativliyin, investisiya cəlbediciliyinin və istehlakçıların maraqlarının qorunmasının təmin edilməsi. [255]

[255] 21 oktyabr 2022-ci il tarixli 1860 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı 21 oktyabr 2022-ci il, "Xalq" qəzeti 22 oktyabr 2022-ci il № 231, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 10 maddə 1137)

Rəqəmsallaşmanın hüquqi bazasının yaradılması, yaxud suveren rəqəmsallaşma fəaliyyəti ilə bağlı 2025-ci ilin 16 yanvarında ölkə başçısı İlham Əliyev tərəfindən qəbul edilən "*Rəqəmsal inkişaf konsepsiyası*" haqqında Fərman növbəti uğurlu fəaliyyət kimi dəyərləndirilə bilər. "Rəqəmsal inkişaf konsepsiyası" ölkəmizdə rəqəmsal suverenliyin və sosal təhlükəsizliyin təmin edilməsilə bağlı çox mühüm sənəddir.

"Rəqəmsal inkişaf" konsepsiyasının başlıca məqamları –

- "*ali kateqoriya dövlət orqanları, habelə mühafizə olunan şəxslərin, qorunan və strateju obyektlərin təhlükəsizliyini təmin edən dövlət orqanları, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri istisna olmaqla, digər dövlət orqanları (qurumları) tərəfindən dövlət informasiya sistemlərinin və ehtiyatlarının formalaşdırılması və təkmilləşdirilməsi üzrə layihələrin (büdcədənkənar dövlət fondlarının vəsaitləri hesabına həyata keçirilən layihələr istisna olmaqla) maliyyələşdirilməsi*", həmçinin

- *informasiya təhlükəsizliyinin gücləndirilməsi məqsədilə son istifadəçi kompüterlərinin ...mərkəzləşdirilmiş antivirus mühafizə vasitəsilə, həmçinin ...lisenziyalı əməliyyat sistemləri və ofis poqramları ilə təmin edilməsi"* ilə bağlıdır.[256]

XXI əsr rəqəmsallaşmanın nəzəriyyədən reallığa çevrilməsi dövrüdür. Rəqəmsal texnologiyaların sürətli inkişafı və sosial həyatın müxtəlif sahələrində dərinləşdirilmiş tətbiqi tendensiyası sosial rifahın yüksəlməsinə, sosial xidmətlərin əlçatanlılığına şərait yaratmışdşr. Müasir dövrdə tərəqqi meylli dövlətlər rəqəmsallaşmanın səmərəli dərinləşdirilməsində maraqlıdırlar. Rəqəmsallaşmanın səmərəliliyi sosial təhlükəsizlik problemlərinin təmin edilməsi ilə sıx bağlıdır, bu isə rəqəmsallaşmanın suverenliyi məsələlərinin aktuallaşmasına səbəb olmuşdur.

---

[256] "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti. Bakı şəhəri, 16 yanvar 2025-ci il. https://president.az/az/articles/view/67937

Rəqəmsal suverenlik rəqəmsallaşmanın hüquqi bazasının möhkəmləndirilməsi, rəqəmsal məkanın təhlükəsizliyinin təmin edilməsi məqsədilə dövlətlərin "*öz rəqəmsal məlumatlarına və rəqəmsal mühitinə nəzarət etmək hüququnu və qabiliyyətini təsvir edir*".

"Rəqəmsal Suverenlik" kitabının müəllifi Pierre Bellanger bunu belə müəyyənləşdirir: "*Rəqəmsal suverenlik texnologiya və kompüter şəbəkələrinin istifadəsi ilə təzahür edən və idarə olunan bu günümüzə və taleyimizə nəzarətdir*".[257]

Rəqəmsal suverenliyin tərifini verməyə çalışarkən onu iki aspektdə - dar və geniş mənalarda müəyyən etmək olar:

-birincisi, makro səviyyədə rəqəmsal məkanda dövlət suverenliyinin tərkib hissəsi kimi və

-ikincisi, mezo və mikro səviyyədə rəqəmsal məkanda sosial birliklərin və şəxsiyyətin suveren fəaliyyətinin təmin edilməsi kimi.

Birinci halda, rəqəmsal suverenlik dövlətin informasiya məkanının qanuni əsaslarda müdafiəsi və məxfiliyinin təmin edilməsini nəzərdə tutaraq, ümumi dövlət suverenliyinin tərkib hissəsi kimi çıxış edir.

İkinci halda, rəqəmsal suverenlik sosial institutların, sosial təşkilat və birliklərin və nəhayət, hər bir şəxsiyyətin və vətəndaşın sosial təhlükəsizliklə bağlı hüquq və azadlıqlarının təmin edilməsini ehtiva edir.

Beləliklə, rəqəmsal suverenlik cəmiyyətin rəqəmsallaşmasının hüquqi tənzimlənməsilə bağlı olub, həm lokal, həm də qlobal səviyyədə rəqəmsal münasibətləri müəyyənləşdirir. Qeyd edildiyi kimi rəqəmsal suverenliyin qlobal və lokal səviyyələri mövcuddur və hər bir səviyyə özlüyündə bir neçə istiqamətdə fəaliyyətin reallaşdırılmasını ehtiva edir.

[257] What is digital sovereignty? https://www.apizee.com/digital-sovereignty.php#:~:text=Digital%20sovereignty%20describes%20a%20party's ,hardware%2C%20and%20other%20digital%20assets.

**I.Qlobal səviyyədə rəqəmsal suverenlik** –

1.sülh şəraitində dövlətlərarası münasibətlərdə rəqəmsal təhlükəsizliyin təmin edilməsi;

2. müharibə və münaqişələr şəraitində dövlətlərarası münasibətlərdə rəqəmsal təhlükəsizliyin təmin edilməsi;

2.beynəlxalq təşkilatların rəqəmsallaşan münasibətlərinin hüquqi tənzimlənməsi;

3. sosial və şəxsi təhlükəsizliyin tənzimlənməsi məqsədilə fərdlərin müxtəlif istiqamətli fəaliyyətlərinə nəzarət.

**II.Lokal səviyyədə rəqəmsal suverenlik** –

1.dövlətin daxili siyasətində rəqəmsallaşmanın tətbiqi istiqamətləri;

2.dövlət idarəçiliyi institutlarının rəqəmsallaşmasının mərkəzləşdirilməsinin hüquqi tənzimlənməsi;

3.ölkə vətəndaşlarının sosial təhlükəsizliyinin təmin edilməsilə bağlı rəqəmsal tənzimləmə siyasətinin tətbiqi.

Burada **sosial təhlükəsizlik** deyərkən, "*şəxsiyyətin, ailənin, sosial qrupların və cəmiyyətin həyati mənafelərinin siyasi, hüquqi, iqtisadi, ideoloji və təşkilati xarakterli tədbirlər kompleksi ilə təmin edilən daxili və xarici təhlükələrdən müdafiə vəziyyəti*" nəzərdə tutulur.[258]

Dövlət suverenliyinin mühüm tərkib hissəsi olan rəqəmsal suverenlik **qlobal – lokal – fərdi,** həmçinin **dövlət – cəmiyyət – şəxsiyyət** münasibətlərinin tənzimləyici və müəyyən məqamlarda müəyyənləşdirici faktoruna çevrilir.

"Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023 – 2027-ci illər üçün Strategiyası"nda sosial təhlükəsizliyin təmin edilməsi dedikdə - Müasir İKT-dən dövlətin, cəmiyyətin və insanların təhlükəsiz istifadəsini təmin etmək, milli informasiya təhlükəsizliyinin səviyyəsini yüksəltmək, dövlət və özəl şəbəkələrin və mühüm informasiya infrastrukturlarının təhlükəsizliyinin təmin edilməsi üzrə tədbirlərin müəyyənləşdirilməsini və həyata keçirilməsini

[258] Социальная политика и социальная безопасность. https://moodle.kstu.ru/mod/book/view.php?id=102350

təşkil etmək, habelə fərdi məlumatların qorunması, Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilmiş insan hüquq və azadlıqlarına riayət olunması üçün daha əlverişli şərait yaratmaq – nəzərdə tutulur.

Strategiyanın reallaşdırılması istiqamətində görülən tədbirlər belə açıqlanır:

-Azərbaycanda ISO/IEC 20000 və ISO/IEC 27001 standartlarına uyğun TIER III səviyyəli Data Mərkəzi yaradılıb və fəaliyyəti təmin edilib;

-"Elektron hökumət"in inkişafı, "Dövlət informasiya təminatının yaradılması və optimallaşdırılması üçün zəruri olan dövlət texnologiyalarının yaradılması və optimallaşdırılması məqsədilə "Hökumət Buludunun" ("G-bulud") yaradılmasına başlanılıb;

- Dövlət qurumları tərəfindən elektron xidmətlərin göstərilməsi, informasiya sistemlərinin fəaliyyətinin daha müasir standartlara əsaslanan yüksək keyfiyyətli, dayanıqlı və təhlükəsiz infrastrukturda təşkilinin təmin edilməsi, vətəndaşların bu imkanlardan sərbəst istifadə etməsi üçün “bulud texnologiyası”nın tətbiqi həyata keçirilirb.[259]

Mütəxəssislərin fikrinə əsasən informasiyalaşma prosesi ilə müqayisədə rəqəmsallaşma məkanın idarə edilməsi və müxtəlif istiqamətli münasibətlərin tənzimlənməsi baxımından daha yüksək xidmətlərlə təmin edir. Rəqəmsal dövlətin və rəqəmsal hökumətin inkişafı rəqəmsal cəmiyyətin formalaşmasını sürətləndirən başlıca məqamdır. Belə ki, saslı hüquqi baza olmadan uğurlu rəqəmsal cəmiyyətin yaradılması və sosial təhlükəsizliyin təminatı qeyri-mümkündür. Cəmiyyətin rəqəmsallaşması burada İnternet istifadəsinin miqyası, keyfiyyəti

[259] Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023 – 2027-ci illər üçün Strategiyası. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli Sərəncamı ilə təsdiq edilmişdir. https://static.president.az/upload/Files/2023/08/29/80f2ffe2545b66274d2eed810cc704d4_5019787.pdf

və təhlükəsizliyindən çox asılıdır. Azərbaycanda İnternetin istifadəsilə bağlı Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən 2019 – 2023-cü illər arasında ölkəmizdə əhalinin hər 100 nəfərinin internetdən istifadəsi imkanları yüksələrək 81 nəfərdən 89 nəfərə çatmışdır, sabit internet istifadəçiləri 2019-cu ildə 9,1%-dən 2023-cü ildə 16,7%-ə çatmışdır ki, bu da sabit internet istifadəçilərinin 1,8 dəfə artdığını göstərir.

| | **2019** | **2020** | **2021** | **2022** | **2023** |
|---|---|---|---|---|---|
| Ölkə üzrə ev təsərrüfatlarının ümumi sayında kompüteri olan ev təsərrüfatlarının payı, faizlə | 65,0 | 69,7 | 71,6 | 75,8 | 76,8 |
| Ev təsərrüfatlarının ümumi sayında internetə çıxışı olan ev təsərrüfatlarının payı, faizlə | 79,1 | 84,8 | 86,5 | 87,8 | 88,6 |
| 100 nəfərə düşən internet istifadəçilərinin sayı, adam | 81 | 85 | 87 | 88 | 89 |
| 100 nəfərə düşən sabit internet abunəçilərinin sayı, faizlə | 9,1 | 11,6 | 12,9 | 14,3 | 16,7 |

Statistik göstəricilərə əsasən Azərbaycanda İnformasiya Kommunikasiya Texnologiyalarının inkişaf indeksi 2019-cu ildə 6,49%-dən – 2023-cü ildə 7,09%-ə yüksəlmişdir. Bunun əsas səbəbi ölkəmizdə İKT məhsullarının idxalının genişlənməsi ilə bağlıdır. Belə ki, 2019-cu ildə İKT məhsullarına (kompüterlər, noutbuklar, planşetlər, smatrfonlar, printerlər, monitör və işıqlandırma sistemləri, aksesuarlar və dugər İKT) sərf edilən ümumi vəsait 901,6 milyon manatdan 2023-cü ildə 1510,2 milyon manata çəkmişdir və nəticə olaraq, kompüter texnologiyalarına malik olan ev təsərrüfatlarının həcmi 2019-cu ildə 65,0%-dən 2023-cü ildə 76,8%-ə çatmışdır. Əhalinin komüter bacarıqlarının yüksəlməsi, eyni zamanda peşə və ali təhsil müəssisələrində İKT

üzrə ixtisasların açılması İKT indeksinin yüksəlməsinə təsir edən başlıca amillərdir. 2019-cu ildə Azərbaycanda İKT indeksi 6,49 olduğu halda 2023-cü ildə bu rəqəm 7,09 olmuşdur. Bu illər ərzində İKT mütəxəssislərinin sayının artması xüsusi diqqət çəkir. 2019-cu ildə İKT sektorunda çalışan işçilərin sayı 19,3 min nəfərdən 2023-cü ildə 23,5 min nəfərə qədər artmışdır. Eyni zamanda İnternetə çıxışın optimallaşdırılması, internetə çıxışı olan ev təsərrüfatlatlarının artmasına səbəb olmuşdur. Ölkənin ucqarlarında da əhalinin internetlə təmin edilməsi və rifah halının yüksəldilməsi məqsədilə "Onlayne Azərbaycan" layihəsi həyata keçirilir. Regionlarda İnternet təchizatının təminatı layihəyə əsasən 2021-ci ildən başlanmışdır.[260] Statistikaya əsasən ölkə üzrə internet istifadəçisi olan evlər 2019-cu ildə 79,21 faizdə 88,6 faizə qədər artmışdır.

| | **2019** | **2020** | **2021** | **2022** | **2023** |
|---|---|---|---|---|---|
| İKT İnkişaf İndeksi | 6,49 | 6,64 | 6,67 | 6,88 | 7,09 |
| İKT sektorunda məhsul (xidmət) istehsalı, milyon manat | 2 083,2 | 2 158,2 | 2 249,7 | 2 514,8 | 2 988,8 |
| İKT məhsullarının idxalı, milyon manat | 901,6 | 1055,9 | 1 083,2 | 998,7 | 1 510,2 |
| kompüter və periferik avadanlıq | 198,1 | 287,0 | 299,8 | 345,0 | 417,8 |
| İdxal olunan İKT məhsulları. Ölkəyə idxal olunan bütün növ məhsulların dəyərində payı, faizlə | 3,9 | 5,8 | 5,4 | 4,0 | 5,1 |
| İKT sektorunda çalışan işçilərin sayı, min nəfər | 19,3 | 20,5 | 21,1 | 22,5 | 23,5 |
| 3G şəbəkəsinin əhatə dairəsi (əhali üzrə), faizlə | 75 | 79 | 80 | 82 | 84 |

[260] Onlayn Azərbaycan. https://mincom.gov.az/az/layiheler/onlayn-azerbaycan

| | | | | | |
|---|---|---|---|---|---|
| İnternetə çıxışı olan ev təsərrüfatlarının ümumi ev təsərrüfatlarında payı, faizlə | 79,1 | 84,8 | 86,5 | 87,8 | 88,6 |

Qeyd edilməlidir ki, internet iştirakçılarının sayı və yaşqrupları da İnternetdən istifadənin genişlənməsinə səbəb olmuşdur. Statistik göstəricilər və gündəlik müşahidələrimiz deməyə əsas verir ki, həm uşaqlar, həm də böyüklər təhsil və işlərinin İnternet üzərindən qurulmasında daha maraqlıdırar.

Statistik göstəricilərə əsasən fəal internet istifadəçiləri 15-25 yaş arası gənclər internetin fəal istifadəçiləridirlər. Bunun əsas səbəbi gənclərin əksəriyyətinin tələbə olması və dərs hazırlığı ilə bağlı internet məlumatlardan istifadə edilməsi, həmçinin bir çox özəl firma və şirkətlərin işçilərinin əksəriyyətinin gənclər olması ilə bağlıdır. Statistikadan göründüyü kimi 2023-cü ildə 15-25 yaşlı gənclərin İnternetdən istifadə imkanları 89,7%-ə qədər yüksəlmişdir. Bunun başlıca səbəblərindən biri 2018-ci ildə təhsilin informasiyalaşdırılması ilə bağlı qəbul edilən qanun olmuşdur.

| | **2019** | **2020** | **2021** | **2022** | **2023** |
|---|---|---|---|---|---|
| İnternetdən istifadə edən əhalinin (15 yaşa qədər) ölkə əhalisinin ümumi sayına nisbəti (%) | 84,1 | 85,7 | 89,8 | 91,3 | 89,7 |
| İnternetdən istifadə edən əhalinin (15-24 yaş qrupu) ölkə əhalisinin ümumi sayına nisbəti (%) | 86,4 | 88,4 | 93,5 | 94,8 | 95,8 |
| İnternetdən istifadə edən əhalinin (25-74 yaş qrupu) ölkə əhalisinin ümumi sayına nisbəti (%) | 79,8 | 80,9 | 84,0 | 85,4 | 86,8 |
| İnternetdən istifadə edən əhalinin (74 yaşdan yuxarı) ölkə əhalisinin ümumi sayına nisbəti (%) | 25,3 | 26,0 | 26,5 | 28,4 | 29,1 |

Ölkəmizdə İnternet xidmətlərinin istifadəsi ilə bağlı vəziyyətdə fərqliliklər nəzərə çarpır. Belə ki, avtomatlaşdırılma

fəaliyyəti rəqəmsallaşmadan daha öndədir. Statistik göstəricilərə əsasən ölkəmizdə insanların böyük bir qismi, təxminən 80%-ə dək əhali -

- fayl və ya qovluğu silmək və ya köçürmək;

-sənəddəki eyni məlumatı yenidən yazmaq və ya köçürmək üçün onun surətinin çıxarılması;

- e-poçt vasitəsilə faylları (sənədlər, şəkillər, videolar və s.) göndərmək bacarığına malik olmaq.

Eyni zamanda çox az qism əhali, təxminən 15 – 30% insan:

-elektron cədvəllərdə əsas hesablama düsturlarından;

-əlavə qurğuların kompüterə qoşulması (modem, kamera, printer və s.);

-proqram təminatının axtarışı, yüklənməsi, quraşdırılması və konfiqurasiya edilməsi;

-elektron təqdimatların hazırlanması;

-faylların kompüterdən digər qurğulara ötürülməsi əməliyyatlarını yerinə yetirə bilirlər.

Ölkə əhalisinin yalnız 5%-i xüsusi proqramlaşdrıma dilindən istifadə etməklə kompüter proqramının yazılması haqqında biliklərə malikdirlər[261] və qeyd edilməlidir ki, İKT sahəsində mütəxəssis hazırda bütün dünyada olduğu kimi Azərbaycanda da çox tələb olunandır və əmək haqqısı ilə digər peşələrdən seçilir. Bunun başlıca səbəblərindən biri kibercinayətkarlıqdır. Qlobal problemə çevrilən kibercinayətkarlığı rəqəmsallaşmanın mənfi tendensiyalarından biri kimi şərh etmək olar. Həm real, həm də virtual münasibətlərin mürəkkəbləşməsinə gətirən kibercinayətkarlıq individual səviyyədən müxtəlif sosial institutlar səviyyəsində həyatımızda tez-tez rast gəlinən bir təzahürə çevrilmişdir. Mütəxəssislər cəmiyyətin bütün təbəqə və pozisiyalarında insanların kibercinayətkarlıqla üzləşə biləcəklərini və bununla əlaqədar rəqəmsallaşmanın hüquqi bazasının möhkəmləndirilməsi,

[261] Azərbaycanda rəqəmsal inkişaf. Statistik məcmuə. Bakı:Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. 2024, s.26 (146)

həmçinin cəmiyyətdə bu istiqamətdə davamlı maarifləndirmə işinin təşkilini zəruri hesab edilər.

Hazırda kibercinayətkarlıqla mübarizədə 6 müxtəlif qitədə 25-dən çox ölkədən olan aparıcı ekspert və alimlərin birgə səyinin nəticəsi olaraq yaradılan E4J (Education for justice) Təşəbbüsü proqramı tətbiq edilir. "*Ədalət naminə Təhsil (E4J) təşəbbüsü ibtidai, orta və ali təhsil müəssisələrində maarifləndirici fəaliyyətlər vasitəsilə korrupsiyanın qarşısını almaq və qanuna hörmət mədəniyyətini formalaşdırmaq məqsədi daşıyır. Bu cür tədbirlər təhsil işçilərinə qanunun aliliyinə xələl gətirə biləcək problemləri daha yaxşı başa düşməyə və həll etməyə kömək edəcək və tələbələri öz icmalarında və gələcək karyeralarında bu baxımdan daha fəal rol almağa təşviq edəcək. Hazırda YUNESKO ilə əməkdaşlıq çərçivəsində ibtidai və orta təhsil müəssisələri üçün bir sıra materiallar və tədbirlər hazırlanır*".[262]

E4J Təhsil təşəbbüsünə əsas məqamlardan biri korrupsiyaya qarşı maarifləndirici tədbirlərin davamlılığını təmin etmək və lap kiçik yaşlarından başlayaraq qanuna və digər insanlara hörmət edən nəsil yetişdirməkdir. Burada korrupsiya anlayışının başlıca məqamı kibercinayətkarlıqla bağlı olduğundan proqram çərçivəsində təhsil müəssisələrində təhsil alanlara – kibercinayətkarlıq nədir, onun növləri, kibercinayətkarlığa qarşı mübarizənin hüquqi əsasları, rəqəmsallaşma və rəqəmsal kriminalistika, rəqəmsal məhkəmə ekspertizası, kibercinayətkarlğın qarşısının alınması məqsədilə rəqəmsal suverenliyin inkişafı, kibertəhlükəsizliklə bağlı strategiya və beynəlxalq birgə mübarizə proqram və siyasətlərinin inkişafı istiqamətlərində məlumatlar çatdırılır. Qeyd edilməlidir ki, kibercinayətkalığa qarşı rəqəmsal suverenliyin tərəqqisi həm şəxsiyyət, həm cəmiyyət, həm də dövlət səviyyəsində məxfiliyin və məlumatların qorunması, əqli mülkiyyət cinayətlərinin qarşısının alınması, fərdi və mütəşəkkil kibercinayətlərin vaxtında aşkar edilməsi, haktivizm və ya hakerlik, terrorizm, casusluq, dezinformasiya kampaniyaları və kiberməkanda müharibələrin

[262] Образование во имя правосудия.https://www.unodc.org/e4j/ru/index.html

qanuni çərçivədə qarşısının alınması və cəzalandırılması məqsədini daşıyır.

Azərbaycan dövləti kibercinayətkarlıq və kiberterrorizmin qarşısının alınması məqsədilə Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təlükəsizliyi Dövlət Xidmətini təsis etmişdir. Bu müəssisə əsasən:

"• *şəbəkə bazası qovşaqlarının və böyük server resurslarının funksionallığının pozulmasına, sistem məlumatlarının məhvinə və ya nüfuzdan düşməsinə səbəb ola biləcək, həmçinin inzibatçı imtiyazlarının əldə edilməsinə yönəlmiş istənilən şəbəkə hücumlarının;*

*Dövlət orqanlarının və ayrı-ayrı hostların informasiya resurslarına DoS (Denial of Service) və DDoS hücumlarının;*

• *kompüter viruslarının məqsədyönlü şəkildə göndərilməsi, məlumat şəbəkəsinin mühafizə sistemlərinin, o cümlədən zərərli proqramların (sniffer, rootkit, keylogger və s.) istifadəsi yolu ilə məhv edilməsinin;*

• *milli informasiya şəbəkələrinin və hostların skan edilməsinin;*

• *parolların və digər autentifikasiya məlumatlarının seçilməsi və ələ keçirilməsinin;*

• *informasiya ehtiyatlarından icazəsiz istifadənin*" – qarşısının alınması yöndə fəaliyyət gösrtərir.[263]

Mərkəzin məlumatına əsasən "2024-cü ildə "AzStateNet" şəbəkəsi üzrə 814370000 zərərli keçid, mərkəzi antivirus sistemi vasitəsilə 4480400 zərərverici, həmçinin "Sandbox" mühafizə sistemi vasitəsilə 195082 zərərverici tərkibli elektron sənəd blok edilmişdir, dövlət qurumlarının domenlərinə bənzədilmiş 100 saxta domen aşkar edilərək bloklaşdırılmışdır. 2024-cü ildə 1069 kiberhücumun bloklanması nəticəsində dövlət qurumlarına qarşı hazırlanmış və xüsusi hədəflənmiş APT kiberhücumların qarşısı alınmışdır, dövlət elektron poçt xidmətində 30 255 757 elektron poçta hücumların nəticəsində 28142767 elektron poçt emal

[263] Kompüter İnsidentlərinə qarşı Mübarizə Mərkəzi. // URL: https://cert.gov.az/az/page/about

edilmiş, 2112990 elektron poçt isə zərərli tərkibli olduğu üçün bloklanmışdır.[264]

Mərkəzin həyata keçirdiyi fəaliyyət bilavasitə dövlətimizin həm də kibermәkanda rəqəmsal suverenliyinin təmin edilməsinə yönəlmişdir. Ölkəmizdə rəqəmsal suverenliyin təmin edilməsi, kibercinayətkarlıq və kibertəhlükəsizliyə qarşı fəaliyyətin özlçülməsi məqsədilə Azərbaycan dövləti Beynəlxalq Telekommunikasiya İttifaqının reytinqinə daxil edilmişdir.

Rəqəmsal suverenliyin təmin edilməsi məqsədilə Beynəlxalq Telekommunikasiya İttifaqı tərəfindən 2014-cü ildə "Qlobal təhlükəsizlik indeksi 2020" müəyyən edilmişdir və həyata keçirilir. Burada kibercinayətkarlıqla mübarizədə əsas məqsədlər aşağıdakı təsnifatla təqdim edilmişdir:

1. Hüquqi tədbirlər (qanunvericilik, tənzimləmə və nəzarət);
2. Texniki tədbirlər (CERT, standartlar, sertifikatlaşdırma);
3. Təşkilati tədbirlər (siyasət, strategiya, məsul təşkilat, milli qiymətləndirmə);
4. İnsan resurslarının gücləndirilməsi üzrə tədbirlər (standartların hazırlanması, kadr potensialının inkişafı, mütəxəssislərin və təşkilatların sertifikatlaşdırılması);
5. Əməkdaşlıq (idarələrarası, dövlət-özəl, beynəlxalq). [265]

Azərbaycan dövləti rəqəmsal suverenliyin möhkəmləndirilməsi və kibercinayətkarlıqla mübarizə istiqamətində proqramlı fəaliyyət həyata keçirir. Burada rəqəmsal suverenlik dedikdə, müxtəlif tipli və müxtəlif müəssisələrə xas informasiyanın məxfiliyinin qorunması ilə bağlı suverenlik,

[264] 2024-cü il ərzində dövlət qurumlarının informasiya təhlükəsizliyinin təmin edilməsi üçün əhəmiyyətli tədbirlər görülmüşdür. Kompüter İnsidentlərinə qarşı Mübarizə Mərkəzi // URL: https://cert.gov.az/az/news/2024-cu-il-erzinde-dovlet-qurumlarinin-informasiya-tehlukesizliyinin-temin-edilmesi-ucun-ehemiyyetli-tedbirler-gorulmusdur-8470

[265]Beynəlxalq reytinqdə Azərbaycanın kibertəhlükəsizlik indeksi xeyli irəliləyib.https://mincom.gov.az/az/media/xeberler/beynelxalq-reytinqde-azerbaycanin-kibertehlukesizlik-indeksi-xeyli-irelileyib1234

həmçinin rəqəmsallaşma ilə bağlı texnoloji suverenlik, yəni rəqəmsallaşma məkanına xas texniki və texnoloji vasitələrin kiberhücumlardan mühafizəsinin təminatı nəzərdə tuturlur. Rəqəmsal suverenliyin təmin edilməsi müasir dövrdə ölkənin öz suveren ərazisi üzərindəki legitimliyi qədər aktualdır. Belə ki, rəqəmsal suverenlik bu gün dövlətin müstəqil siyasi inkişaf xəttinin bir istiqaməti kimi təzahür edir.

Azərbaycan Respublikası Prezidentinin 28 avqust 2023-cü il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının 2023-2027-ci illərə dair informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair Strategiyası" təsdiq edilib.[266]

Bundan əlavə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi İsrailin texnologiya sahəsində nüfuzlu ali təhsil müəssisəsi olan Technion İnstitutu ilə birlikdə Azərbaycan Kibertəhlükəsizlik Mərkəzini yaradıb. 2023-cü il 28 mart tarixində fəaliyyətə başlayan Azərbaycan Kibertəhlükəsizlik Mərkəzində 3 il ərzində 1000-dən çox şəxsə təlim verilməsi nəzərdə tutulmuşdur. Mərkəzdə 15 təlimçinin yetişdirilməsi sayəsində gələcəkdə ölkəmizdə kibertəhlükəsizlik sahəsində Red Team, Blue Team, SOC (hücum, müdafiə və analitiklər) mütəxəssislərin hazırlanması planlaşdırılmışdır. Hazırda Mərkəz tərəfindən "Rəqəmsal Azərbaycana doğru" layihəsi həyata keçirilir. Layihə regionlarda rəqəmsal savadlılığın artırılması, İKT üzrə bilik və bacarıqların inkişaf etdirilməsi, regionun İKT sahəsində mövcud bacarığının ölçülməsi və inkişafa dəstək verilməsi məqsədini daşıyır.[267]

---

[266] Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023 – 2027-ci illər üçünStrategiyası. Bakı şəhəri, 28 avqust 2023-cü il. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli 4060 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.
[267] Azərbaycan Kibertəhlükəsizlik Mərkəzi. https://mincom.gov.az/az/layiheler/azerbaycan-kibertehlukesizlik-merkezi

Mərkəz tərəfindən reallaşdırılan bir sıra laihələr arasında "Holberton Azerbaijan School" layihəsi xüsusi əhəmiyyət kəsb edir. Maarifçilik xarakterli bu layihə ölkəmizdə kibertəhlükəsizliklə bağlı mütəxəssislərin hazırlanması istiqamətində geniş fəaliyyət dairəsinə malikdir. Kibertəhlükəsizliyin təmin edilməsi istiqamətində həyata keçirilən maarifləndirmə fəaliyyəti nəticəsində Qlobal Kibertəhlükəsizlik İndeksi (GCI) 2020 hesabatının məlumatlarına əsasən Azərbaycan kibertəhlükəsizlik indeksində əvvəlki illərlə müqayisədə 15 addım irəliləyərək 40-cı yerdə qərar tutmuşdur.

Kibertəhlükəsizliyin təmin edilməsi və rəqəmsal suverenliyin inkişafı müasir dövrdə sosial təhlükəsizliyin və sosial rifahın təmin edilməsinin başlıca amilləridir.

## RƏQƏMSAL, YOXSA AĞILLI KƏND

"Smart kəndlər" IDEA Universal Assosiasiyası tərəfindən dünyanın yoxsul bölgələrində həyata keçirilən vahid və inteqrasiya olunmuş davamlı inkişaf proqramıdır. Ağıllı kəndlərin yaradılması su, qida, enerji, təhsil və gəlir problemlərini daimi həll etmək məqsədi daşıyır. Ağıllı Kəndlər Layihəsinə görə burada bərpa olunan enerjidən istifadə etməklə hər evə 24 saat su verilməsi, kənd təsərrüfatı bağı və suvarma sisteminin qurulması, toxum dəstəyi, toxum bankçılığı və davamlı kənd təsərrüfatı təhsili, hər evə gündə 15 saat enerji verilməsi mümkündür. Layihənin məqsədi yerli potensialın üzə çıxarılması, yoxsulluğun azaldılması, hərtərəfli və daimi inkişafın təmin edilməsidir.[268] Ağıllı kəndlər sinerji xüsusiyyətli olub, özünü transformasiya proseslərində kənar resurslara ehtiyacı olmayan icmalardır.

2009-cu ildə başlanan ağıllı kənd proqramı dünyada kənd təsərrüfatını ağıllı sistemlər vasitəsilə yenidən qurmaq məqsədi daşıyır. Elektrik və Elektronika Mühəndisləri İnstitutunun (IEEE) ağıllı kənd proqramı (IEEE Smart Village) çərçivəsində IEEE Afrika, Asiya və Şimali Amerikanın bəzi regionlarında ağıllı enerji istehsalı reallaşdırılmışdır. 2016-cı il Cork Bəyannaməsində kənd yerlərinin iqtisadi, sosial və ekoloji potensialının daha hərtərəfli öyrənilməsi, kəndlərdə həyat səviyyəsini yüksəltmək üçün regionlara investisiya qoyulmasına, nəticəyönümlü, sadə və çevik kənd və kənd təsərrüfatı siyasətinin işlənib hazırlanmasıma təşviq edilirdi. 2019-cu ildə 4-cü Avropa Kənd Parlamentindən sonra dərc olunan Kandas Avstriyası Kənd Xalqları Bəyannaməsində Avropanın kənd ərazilərinin inkişafı üçün real kənd gündəliyinin yaradılması zərurəti vurğulanırdı. Bu məlumatlandırma rəqəmsallaşma yolu ilə kənd yerlərinin inkişafına kömək edən bir çox investisiya və layihələrə səbəb oldu. 2016-cı ildə aparılmış ağıllı kənd araşdırması nəticəsində Finlandiya kəndlərində sosial

---

[268] Akıllı köyler. https://www.ideauniversal.org/akilli-koyler/

problemlərin həlli və xidmətlərin rəqəmsallaşdırılması üçün 7 əsas xidmət və 19 layihə təklif etmişdir. Almaniyada 2019-cu ilə qədər yerli xidmətlərin rəqəmsallaşdırılmasına və icmalarla yerli hakimiyyət orqanları arasında kommunikasiyanın gücləndirilməsinə yönəlmiş layihələrə ümumilikdə 4,5 milyon avro sərmayə qoyulmuşdur.[269]

Qeyd edilməilidir ki, 2021-ci ildə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı "Rəqəmsal kənd Avropa və Mərkəzi Asiyada hərəkətdə" layihəsinin reallaşdırılmasına başlamışdır. Dünyanın səkkiz regionunda reallaşdırılan bu layihənin əsas məkanlarından biri də Azərbaycandır. Bununla əlaqədar olaraq, ölkəmizdə 2021-ci ildə "İlkin mərhələdə pilot layihə olaraq Quba və Qusar rayonlarında fəaliyyət göstərən 4 iqlim stansiyası əhatəsindəki alma, gilas, şaftalı və nektarin təsərrüfatları ilə məşğul olan 5800-dən artıq fermer hədəf seçilib".[270] İlk olaraq, təsərrüfatın səmərələşdirilməsi və məhsuldarlığın artırılmasını hədəf seçən layihənin əsas məqamlarından biri də kənd həyatının müasir tələblərə uyğunlaşdırılması, əhalinin həyat şəraitinin yaxşılaşdırılması, rifah halının yüksəldilməsi və təsərrüfat fəaliyyətinin yüksək səviyyədə rəqəmsallaşdırılması ilə bağlıdır.

R.Ə.Balayevin qeyd etdiyi kimi "*Rəqəmsal texnologiyaların kənd təsərrüfatı sektorunda təklif etdiyi bəzi imkanlar aşağıda verilmişdir:*

- *əmək məhsuldarlığının artırılması (bitkiçilik və heyvandarlıqda);*
- *davamlı inkişafın təmin edilməsi;*
- *riskin azaldılması;*
- *iqlim dəyişikliyinin monitorinqi;*
- *düzgün hesablamalar hesabına xərclərin azalması;*

[269] Ceren Tunay. 'Akilli Köy' Projesinde Teknolojik Bir Yanilsama. // Sosioloji araştırmalar dergisi. Cilt 27, Sayı 2 (Ekim/2024 – October/2024), s.98 (s.94-122)

[270] "Rəqəmsal Kənd Təsərrüfatı" layihəsinin əhatə dairəsi genişlənir. https://atm.gov.az/az/news/532/reqemsal-kend-teserrufati-layihesinin-ehate-daires/

*- ixtisaslı işçi qüvvəsi çatışmazlığının aradan qaldırılması;*

*- kənd təsərrüfatı istehsalçılarının böhran vəziyyətləri barədə vaxtında məlumatlandırılması (geniş mənada)*”.[271]

Qeyd edə bilərik ki, kənd təsərrüfatının rəqəmsallaşdırılması “ağıllı kənd” layihəsinin başlıca istiqamətlərindəndir. Regionların rəqəmsallaşdırılması, “ağıllı kəndlərin” inkişafı yalnız kənd təsərrüfatının yenidən canlandırılması ilə bağlı deyil. Bu həm də urbanizasiya prosesi nəticəsində boşalan kəndlərə yeni həyat vermək məqsədini daşıyır. Ağıllı kəndlər yaradılarkən əsas məqsəd “*qlobal bazarlara çıxmaq üçün rəqəmsal texnologiya və açıq innovasiya platformaları ilə güclənmiş bir cəmiyyət*” formalaşdırmaq olmuşdur. “*Ağıllı kənd strategiyası innovativ yerli inkişaf strategiyası, konsepsiyası və ya planıdır. O, yerli səviyyədə iştirakçı yanaşmanı nəzərdə tutur*”.[272]

“Ağıllı kənd” layihəsinin yerli xüsusiyyətlərlə bağlılığının vurğulanmasının başlıca səbəbi, hər hansı konsepsiyanın tətbiqi zamanı sosial mədəni mühit amillərinin özünəməxsusluğunun təsir imkanlarının nəzərə alınmasıdır. Eyni zamanda fərqli təbii coğrafi mühit, həmçinin burada əsrlərlə mövcud olan təsərrüfat ənənələri və bu ənənələr üzərində qurulan münasibətlər fərqli regionlarda fərqli “ağıllı kənd” modellərinin formalaşmasına səbəb olmuşdur.

“Ağıllı kənd” və “ağıllı şəhər”lərin inkişafı əsasən üç başlıca amilin qarşılıqlı təsirinə əsaslanan tərəqqini nəzərdə tutur:

“*1.bilik və innovasiyaya əsaslanan iqtisadiyyatın inkişaf etdirilməsini nəzərdə tutan ağıllı inkişaf;*

*2.daha səmərəli, daha yaşıl və rəqabətədavamlı iqtisadiyyatın təşviq edilməsini nəzərdə tutan davamlı artım və*

[271] Balayev R.Ə. Aqrar Sahədə Rəqəmsal Mühitin Formalaşmasının Əsas Amilləri və Təcrübi Aspektləri. // Kənd təsərrüfatının iqtisadiyyatı 2020, № 1 (31) Agricultural Economics. s.93-100

[272]

*3.sosial birliyi təmin edə bilən yüksək məşğulluq iqtisadiyyatının təşviqini nəzərdə tutan inklüziv artım”.*[273]

Dünyanın səkkiz regionunda reallaşdırılan “ağıllı kənd” və “ağıllı şəhər” layihələrinin başlıca məqsədi dayanıqlı və səmərəli ağıllı inkişafa nail olmaqla kəndlərə ikinci həyatın verilməsini, yaxud şəhərlərdə yaranan sıxlığın azaldılmasını, ekoloji mühitin yaxşılaşdırılmasını, yaşıl iqtisadiyyatın tərəqqisini başlıca amil olaraq müəyyən etmişdir.

Ölkə başçısı İlham Əliyev Azərbaycanın rəqəmsallaşdırılmasını ölkənin inkişafının başlıca hədəfi olaraq müəyyənləşdirmişdir və XXI əsrdə Azərbaycanda yeni tipli yaşayış məskənlərinin “Rəqəmsal kənd” və “Rəqəmsal şəhərlər”in inkişafı həm də əhalinin müasir təhlükələrdən qorunması məqsədini daşıdığından geostrateji əhəmiyyət kəsb edir. Belə ki, “Rəqəmsal kənd” və “Rəqəmsal şəhərlər”də informasiya texnologiyalarının yüksək səviyyədə qurulması əhalinin müxtəlif (sosial, siyasi, hüquqi, müharibə təhlükəsi və s.) istiqamətli təhlükəsizliyinin təminatı məqsədini daşıyır. Belə kəndlər və şəhərlər həm də potensial düşməndən və ya müdaxilədən rəqəmsal müdafiə mexanizmlərinin olması ilə seçilir. “Rəqəmsal kənd” və “Rəqəmsal şəhərlər” sanki rəqəmsal qalalarla həm daxili, həm də xarici mühafizə mühafizə sisteminə malik olurlar.

Prezident İlham Əliyevin 19 aprel 2021-ci il tarixdə qəbul etdiyi “Ağıllı şəhər” və “Ağıllı kənd” Konsepsiyasının inkişafı haqqında Sərəncamında deyilir: “*Müasir telekommunikasiyalar, sensorlar, böyük verilənlər və digər rəqəmsal və süni intellekt texnologiyalarından, o cümlədən innovasiya və biliklərdən istifadə sosial-iqtisadi münasibətləri daha məhsuldar və səmərəli edir, bütövlükdə iqtisadiyyatda yeni gəlirlər yaratmaq imkanları yaradır”. ...texnologiyaların kompleks istifadəsi yolu ilə rəqəmsal məlumatların formalaşdırılması, toplanması, saxlanması, emalı*

---

[273] European Commission. Europe 2020: A strategy for smart, sustainable and inclusive growth: Communication from the commission. Publications Office of the European Union, 2010.

*və analitik təhlili əsasında qərarların qəbulu və idarəetmə keyfiyyətinin yüksəldilməsi...*" ölkəmizin rəqəmsal inkişafının əsas istiqamətləri kimi təqdim olunur.

Sərəncamda həmçinin qeyd olunur ki, ölkəmizdə rəqəmsal cəmiyyətin formalaşdırılması səmərəli və keyfiyyətli xidmətlərin göstərilməsi üçün geniş imkanlar açır: "*Bu imkanlar şəhər və kəndlərdə göstərilən xidmətlərin inkişafının növbəti mərhələsində funksional, irimiqyaslı "Ağıllı şəhər" və "Ağıllı kənd" xidmətlərinə keçid üçün zəmin yaradır.*"[274]

Sitatdan göründüyü kimi, Sərəncamda "Ağıllı şəhər" və "Ağıllı kəndlərin" nəzəri-konseptual əsasları müəyyənləşdirilmişdir.

Qlobal xarakter alan urbanizasiya prosesi Azərbaycada da aktual problemlərdədir. Xüsusilə də I Qarabağ müharibəsindən sonra işğal edilmiş ərazilərdən köçmək məcburiyyətində qalan əhalinin böyük bir qismi şəhərlərdə və xüsusilə də Bakı şəhərində məskunlaşmışlar. Eyni zamanda müharibə nəticəsində işğal edilmiş ərazilərin sosial və iqtisadi infrastrukturu tamamilə dağıdılmışdır.

II Qarabağ müharibəsində əldə edilən qələbə və işğal edilmiş ərazilərin geri qaytarılaraq ədalətin bərpa edilməsi Azərbaycan tarixində çox mühüm farixi faktdır. 2020-ci il 27 sentyabr – 10 noyabr tarixlərində baş verən və Azərbaycan dövlətinin suverenliyinin təmin edilməsi, ərazi bütövlüyünün bərpası məqsədini daşıyan II Qarabağ müharibəsində dövlətimiz öz rəqəmsal hərbi gücünü nümayiş etdirməklə, rəqəmsal hərbi texnologiyaların tətbiqi istiqamətində əsaslı addım atmış oldu. "*44 günlük müharibə zamanı Azərbaycan ordusu Azərbaycanda İsraillə birgə istehsal olunan "Harop" hücum pilotsuz təyyarələrindən, eləcə də digər PUA-lardan, o cümlədən "Bayraktar TB2" hücum pilotsuz uçuş aparatlarından fəal*

[274] "Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) konsepsiyasının hazırlanması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. İlham ƏLİYEV, Azərbaycan Respublikasının Prezidenti. Bakı şəhəri, 19 aprel 2021-ci il, № 2584

*şəkildə istifadə edib. Azərbaycan yalnız Bayraktar TB2 pilotsuz təyyarələrindən istifadə edərək bir milyard dollar dəyərində erməni hərbi texnikasını məhv edib. Azərbaycan Ermənistanın hava hücumundan müdafiə sistemlərinin mövqelərini aşkar etmək üçün özünün An-2 pilotsuz təyyarəsindən fəal istifadə edib. Azərbaycan ordusunun bu unikal taktikası dünya hərb tarixində yenilik kimi qiymətləndirilir*".[275]

Azərbaycanda *rəqəmsal gücün* tətbiqi istiqamətləri əsasən ölkəmizin sosial, siyasi, hüquqi təhlükəsizliyinin təmin edilməsi ilə bağlıdır. Bu şanlı qələbədən sonra geri qaytarılan ərazilərdə əhalinin yerləşdirilməsi burada yeni infrastrukturun qurulmasını tələb edir.

Qeyd edilməlidir ki, post-müharibə dövründə sosial, siyasi, iqtisadi və s. istiqamətli quruculuq müxtəlif ölkələrdə yeni və uyğun inkişaf modellərinin və konsepsiyalarının tətbiqini zəruri edir. Post-müharibə dövründə bərpa və quruculuq strategiyası seçən dövlət yerli mental xüsusiyyətləri nəzərə alan, həmçinin dövrün elmi texniki tərəqqisi və nailiyyətlərinin tətbiqini başlıca plan-prospekt olaraq müəyyən edən inkişaf modellərindən yararlanır. Azərbaycan dövləti və hökuməti əsasən azad edilmiş ərazilərdə rəqəmsallaşma, rəqəmsal/ağıllı kənd və rəqəmsal/ağıllı şəhər modellərinin reallaşdırılmasını hədəfləmişdir və bu istiqamətdə əsaslı fəaliyyət planı həyata keçirilir.

Eyni zamanda yeni qurulacaq şəhər və kəndlərin müasir tələblərə uyğun rəqəmsal olması burada əhalinin yerləşməsinin başlıca şərtlərindən biri kimi çıxış edir. Azərbaycan ərazisi insanların məskunlaşdığı ən qədim torpaqlardandır və burada qədim kənd ənənələri əsrlərlə formalaşmışdır. İşğaldan azad edilmiş ərazilərdə rəqəmsal kəndlərin və şəhərlərin quruculuğu urbanizasiya prosesinin məhdudlaşmasına, həmçinin repatriasiya prosesinin sürətlənməsinə təsir göstərir.

[275] Mirzəzadə A. Vətən müharibəsinin tarixi-siyasi dərsləri, Bakı, I nəşr — Qərbi Kaspi Universitetinin nəşriyyatı, II nəşr — "Azərbaycan" nəşriyyatı, səh. 282, 2022.

2022-ci ildə Zəngilan rayonunun Ağalı kəndində “Ağıllı kənd” layihəsinin birinci mərhələsinin açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva “Ağıllı kənd”in tikintisinin ilkin mərhələsi üçün xarakterik olan fəaliyyət istiqamətlərini müəyyənləşdiriblər: *“Azərpoçt” MMC-nin rayon filialı, “ASAN” Biznes mərkəzi, burada “ASAN xidmət” mərkəzləri, bu kəndlərdə kiçik xidmət mərkəzləri və kənd sakinlərinin inkişafı mərkəzləri fəaliyyət göstərəcək. Sosial təminat və məşğulluq sahəsində 100-dən çox xidmətlə təmin olunmaq üçün vətəndaşlar birbaşa videobağlantı vasitəsilə DOST mərkəzlərinin sosial agenti ilə əlaqə saxlayacaq və müraciətləri yerindəcə həll ediləcək*”.

Ağalı kəndində intellektual infrastrukturun yaradılması aşağıdakıları nəzərdə tutur:

-İntellektual həllərdən istifadə etməklə intellektual idarəetmə sisteminin yaradılması;

- "Ağıllı" küçə işıqlandırması;

- Soyuq və istiyə davamlı, ekoloji cəhətdən təmiz evlərin tikintisi;

- məişət tullantılarının atılması;

-günəş panellərinin quraşdırılması;

-sağlamlıq mərkəzlərində tele-tibb sisteminin və “Salam Doktor” platformasının qurulması;

- distant təhsil həlləri;

-İqtisadi səmərəlilik məqamları: bitki xəstəlikləri ilə bağlı erkən xəbərdarlıq, planlı suvarma, zərərvericilərin uzaqdan izlənilməsi, hava məlumatı almaq, əkin ərazilərinin xəritələnməsi, pivot suvarma sistemləri;

-məhsuldarlıqla bağlı süni intellekt və proqnozlaşdırıcı analiz.[276]

---

[276] İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunda “Ağıllı kənd” layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində iştirak ediblər. 22 may 2022. https://president.az/az/articles/view/56208

Qeyd edə bilərik ki, Ağalı kəndi Azərbaycnda ilk ağıllı kənd modeli olaraq yaradılır. İlkin mərhələdə bu modelin başlıca komponentləri –

-ağıllı idarəçilik strukturu;

-ağıllı infrastruktur və xidmətlər;

-ağıllı təsərrüfat və biznes mühiti təşəkkül tapmışdır.

Bu kənddin inkişafı ilə bağlı əldə edilən nailiyyətlər gələcəkdə ölkəmizdə ağıllı kəndlərin sayının artırılmasına imkan verəcək.

## AĞILLI ŞƏHƏRLƏR RƏQƏMSAL CƏMİYYƏTİN YENİ MƏRHƏLƏSİ KİMİ

Hazırda dünyanın bir çox ölkələrində ağıllı şəhərlər mövcuddur. Onlardan bir çoxu elm və texnologiyanın geniş tətbiqi əsasında təbii şəkildə formalaşmışdır. Lakin şüurlu şəkildə rəqəmsallaşmanın layihəli əsaslarda tətbiqi ilə formalaşan şəhərlər da çoxdur.

2013-cü ildə dərc edilmiş "Navigant Research" hesabatının məlumatına əsasən, dünyanın 178-dən çox şəhərində qlobal miqyasda 250 ağıllı şəhər layihəsi müəyyən edilmişdir ki, onların da əksəriyyəti hökumət və enerji təşəbbüslərinə yönəlmişdir. Grand ViewResearch Inc. Tərəfindən 2018-ci ildə təqdim edilən hesabata görə, ağıllı şəhərlərin 2025-ci ilə qədər 2,57 trilyon dollarlıq bazar dəyəri ilə böyük biznes imkanları yaratması nəzərdə tutulur. Bütün dünyada şəhər liderləri, texnologiya və xidmət təminatçıları ağıllı şəhər strategiyalarını tərtib etməklə ağıllı şəhər konsepsiyasını mənimsəməyə və geniş tətbiq etməyə çalışırlar.[277]

M. Batti, K. V. Axhausen, F. Giannotti, A. Pozdnoukhov, A. Bazzani, M. Vakhovich, G. Ouzounis və J. Portuqaliya kimi

---

[277] Tara Alshahadeh, Akin Marsap. Smart Cities, Smarter Management: Developing A Smart Framework For Smart City Projects Management In Europe. // GE-International Journal of Management Research. Volume 6, Issue 9, 2018, s.41-73

tədqiqatçılar rəqəmsal və ya ağıllı şəhərlərin tikintisinin xüsusiyyətlərini aşağıdakılarla əlaqələndirirlər:

-*"Şəhər problemlərinin yenidən dərki;*

*-Şəhər texnologiyalarını koordinasiya etməyin effektiv və mümkün yolları;*

*-Məkan və zaman ölçüsü üzrə şəhər məlumatlarından istifadə modelləri və metodları;*

*-Sosial münasibətlərdə yeni texnologiyaların tətbiqi;*

*-Şəhər idarəçiliyinin və təşkilatının yeni formaları;*

*-Şəhərlər, nəqliyyat və enerji ilə bağlı kritik problemlərin müəyyənləşdirilməsi;*

*-Ağıllı şəhərdə risk, qeyri-müəyyənlik və təhlükə məsələlərinin həlli istiqamətləri*".

Müəlliflər əmindirlər ki, "ağıllı şəhərlər"in inkişafı istiqamətində görüləcək silsilə işlər aşağıdakılarla bağlıdır:

*1.İdarəetmə, nəzarət və optimallaşdırma vasitəsilə ağıllı şəhərlərin infrastrukturunu onların əməliyyat fəaliyyəti və planlaşdırılması ilə əlaqələndirmək;*

*2.Şəhəri innovasiyalar laboratoriyası kimi araşdırmaq;*

*3.Gələcək layihələrin hazırlanmasında istifadə olunacaq şəhər simulyasiyaları portfelini təqdim etmək;*

*4.Bərabərliyi, ədaləti təmin edən və şəhər həyatının daha yaxşı keyfiyyətini reallaşdıran texnologiyaları inkişaf etdirmək;*

*5.Geniş iştirakı təmin edən texnologiyaları inkişaf etdirmək;*

*6.Şəhər əhalisinin mobilliyini təmin etmək və artırmaq*".[278]

Bu təqdimatı "ağıllı şəhər" modelinin əsas strukturu kimi qəbul etmək olar. Dünyada ilk "ağılı şəhər" 1994-cü ildə Amsterdamda qurulmuşdur və *De Digitale Stad* (Rəqəmsal şəhər) adlandırılmışdır. DDS internetə asan çıxışı təmin etmək və hökumətlə vətəndaşlar arasında ünsiyyəti yaxşılaşdırmaq üçün

[278] M. Batty, K.W. Axhausen, F. Giannotti, A. Pozdnoukhov, A. Bazzani, M. Wachowicz, G. Ouzounis, and Y. Portugali. Smart cities of the future // The European Physical Journal Special Topics. 2012. https://www.researchgate.net/publication/256305153_Smart_cities_of_the_future

nəzərdə tutulmuş pulsuz şəbəkə idi. 2001-ci ildən layihəni könüllülər təkbaşına davam etdirdilər və 2009-cu ildə Amsterdam Ağıllı Şəhər platforması istifadəyə verildi. Bu günə qədər Amsterdam ağıllı şəhər inqilabında lider olmaqda davam edir.[279]

"Ağıllı şəhər" İKT sistemin həlledici rol oynadığı binalar, enerji şəbəkələri, təbii ehtiyatlar, su idarəetməsi, tullantıların idarə edilməsi, mobillik və logistika kimi "sərt" sahələrlə yanaşı, təhsil, mədəniyyət, siyasət innovasiyaları, sosial inklüzivlik və hökumət kimi "yumşaq" sahələri də əhatə edir. Bu mənada "ağıllı şəhər" çoxşaxəli fenomendir və şəhərlərin ağıllılığının necə ölçülməsi ilə bağlı ümumi razılaşdırılmış fikir yoxdur.[280]

Ağıllı şəhərlərin nəzəriyyə və təcrübə olaraq inkişafının 4 mərhələsi fərqləndirilir:

Ağıllı Şəhər 1.0: Texnologiyaya əsaslanan inkişaf.

Ağıllı Şəhər 2.0: Şəhərin rəhbərlik etdiyi texnoloji inkişaf.

Ağıllı Şəhər 3.0: İnkişaf vətəndaşlarla birlikdə yaradılmışdır.

Ağıllı Şəhər 4.0: Şəhərin planlaşdırma təcrübələrinə inteqrasiyası.[281]

Hazırda Ağıllı şəhərlərin inkişafında yeni yanaşma izlənilir. Belə ki, bir çox tədqiqatçılar şəhərlərin mərkəzlərilə yanaşı şəhərkənarlarının da rəqəmsallaşdırılmasının vacibliyini vurğulayırlar. Bir çox mütəxəssislər və layihə rəhbərləri əmindirlər ki, Ağıllı şəhərlərdə – birgəyaşam, mobillik, mühit və

---

[279] Что такое умный город? https://digitalresearch.bsu.edu/immersive-learning-showcase-spring-2022/exhibits/show/smart-city-muncie/definition-and-history-of-smar#:~:text=Then%20in%201994%2C%20Amsterdam%20established,between%20the%20government%20and%20residents.

[280] Ralf-Martin Soe. Smart Cities and Smart Regions Roadmap. // In book: Smart Learning Ecosystems as Engines of the Green and Digital Transition (pp.75-100)

[281] Что такое умный город? https://digitalresearch.bsu.edu/immersive-learning-showcase-spring-2022/exhibits/show/smart-city-muncie/definition-and-history-of-smar#:~:text=Then%20in%201994%2C%20Amsterdam%20established,between%20the%20government%20and%20residents.

s. ağıllı olmalıdır. Ağıllı şəhərlərdə inkişaf edən rəqəmsal cəmiyyətlərdə qurulan **Ağıllı birgəyaşam** aşağıdakıları ehtiva edir:

-İKT-yə imkan verən həyat tərzi, davranış və istehlak;

-Müxtəlif mədəniyyət obyektlərinə malik mədəni cəhətdən canlı şəhərdə sağlam və təhlükəsiz yaşamaq;

-Yaxşı keyfiyyətli mənzil və yaşayış;

-yüksək səviyyəli sosial birlik və sosial kapital.

Ağıllı şəhərdə **ağıllı mobillik** başlıca amil olub aşağıdakılarla bağlıdır:

-İKT ilə dəstəklənən və inteqrasiya olunmuş nəqliyyat və logistika sistemləri;

-Smart Mobility təmiz və çox vaxt motorsuz seçimlərə üstünlük verir.

-Vaxta qənaət etmək və gediş-gəlişin səmərəliliyini artırmaq, xərclərə qənaət etmək və CO2 emissiyalarını azaltmaq və s.

Ağıllı şəhərin başlıca məqamlarından olan **ağıllı mühit** dedikdə:

-Ağıllı enerji, o cümlədən bərpa olunan mənbələr, İKT-yə əsaslanan enerji şəbəkələri, ölçmə;

-Çirklənməyə nəzarət və monitorinq;

-Binaların təmiri və abadlıq nəzərdə tutulur.

Ağıllı şəhər öz sələflərindən **Yaşıl şəhərsalma** ilə fərqlənir. Yaşıl şəhərsalmanın əsas prinsipləri – resursdan istifadənin səmərəliliyi, təkrar istifadə və ehtiyatların dəyişdirilməsi, həmçinin sistemi qiymətləndirmək, çirklənməni azaltmaq və keyfiyyəti yaxşılaşdırmaq üçün monitorinq edilən küçə işıqlandırması, tullantıların idarə olunması, drenaj və su ehtiyatları sistemlərinin qurulması ilə səciyyələnir.[282]

Sinerji mahiyyətli ağıllı şəhərlər gələcəkdə əhali artımı ilə ortaya çıxa biləcək çoxsaylı problemlərin və ilk növbədə ekoloji

[282] R. Soe. 2017. FINEST Twins: platform for cross-border smart city solutions. In Proceedings of 18th Annual International Conference on Digital Government Research, Staten Island, NY, USA, June 2017 (dg.o '17). 6 pages.

çirklənmənin qarşısının alınması, şəhərin bir təbii mühitə çevrilməsi məqsədini həqədfləyir. Süni intellektin və ya super kompüterlərin praktik tətbiqinə əsaslanan "Ağıllı şəhər" ekoloji layihəsi bu gün dünyanın bir çox inkişaf etmiş ölkələrində reallaşdırılmışdır.

2024-cü il Ağıllı Şəhərlər İndeksinə görə, ən yaxşı 10 ağıllı şəhər bunlardır: Sürix (İsveçrə), Oslo (Norveç), Kanberra (Avstraliya), Cenevrə (İsveçrə), Sinqapur, Kopenhagen (Danimarka), Lozanna (İsveçrə), London (İngiltərə). 2019-cu ilin yazında italyan memar Stefano Boeri Meksikanın Kankun şəhəri yaxınlığında ekoloji cəhətdən mümkün qədər təmiz olmaq üçün nəzərdə tutulmuş **Smart Forest City** (ağıllı meşə şəhəri) yaratmaq planlarını təqdim etdi.

Smart Forest City Kankun-un 557 hektar ərazidə salınması planlaşdırılır. Memarın sözlərinə görə, o, botanik və landşaft memarı Laura Qatti tərəfindən seçilmiş çoxsaylı ağac və kol növləri də daxil olmaqla, 7,5 milyon bitkidən ibarət meşə sahəsi ilə örtülü olacaq.

"Ağıllı Meşə Şəhəri" Maya irsinə, onun təbii və müqəddəs dünya ilə əlaqəsinə əsaslanan müasir şəhər daxilində yerləşən botanika bağıdır. Stefano Boeriyə görə, "Ağıllı Meşə Şəhəri" "*...təbiət və şəhərin bir-birinə qarışacağı və bütöv bir orqanizm kimi fəaliyyət göstərəcəyi bir şəhər ekosistemidir*".

Smart Forest City Kankun ildə 5800 ton CO2 ehtiyatı ilə 116000 ton karbon qazı udacaq. Sürətli iqlim dəyişikliyi, çirklənmə, yaşayış mühitinin məhv edilməsi və heyvanların yox olması kontekstində bu şəhər daha yüksək səviyyəli yaşıl inkişaflarda qabaqcıl olmaq potensialına malikdir. Smart Forest City Cancun müstəqil olaraq qida, enerji və şirin su istehsal edəcək. "Ağıllı şəhər" 130 min nəfəri mənzillə təmin edəcək və evlərin tipologiyası müxtəlif kateqoriyalı sakinləri əhatə edəcək.

Boerinin sözlərinə görə "*Bu layihənin məqsədi elmi institutların və tədqiqat mərkəzlərinin, eləcə də böyük transmilli korporasiyaların və dünyanın hər yerindən təhsil almağa gələn*

*tələbələrin və tədqiqatçıların yeni nəsillərinin görüşdüyü tədqiqat və innovasiyaya həsr olunmuş bir şəhər yaratmaqdır".*[283]

Sosial ekoloji problemlərlə bağlı narahatlıqlar Ətraf Mühit Mühəndisliyində Süni İntellekt Sistemlərinin və metodlarının davamlı təkmilləşdirilməsini tələb edir. Süni intellektin geniş istifadə edildiyi Ağıllı şəhərlərdə iqlim dəyişikliyi və sosial ekoloji problemlərlə bağlı təsiri imkanlarını araşdırmaq, insanların sosial rifahını yüksəltmək məqsədilə Süni intellekin potensialını müəyyən etmək vacib şərtdir. Müasir bəşəriyyət təbiətlə qarşılıqlı tarazlaşdırılmış münasibətlərini bərpa etməyə, vəhdətə nail olmağa cəhd edir və bu proses rəqəmsallaşmanın və ya süni intellektin fəlsəfəsi kimi müəyyənləşdirilə bilər.

Ə.Musayevin qeyd etdiyi kimi, "*kəndlər və qəsəbələr Dördüncü Sənaye İnqilabının, 5G texnologiyasının və s. təsirlərə məruz qalırlar. Nəinki ənənəvi görkəmini dəyişir, həm də idarəetmə, davranış, həyat tərzi və s.*" baxımından ciddi dəyişikliklərə məruz qalır. Müəllif qeyd edir ki, "*müasir şəraitdə urbanizasiya və texnoloji dəyişikliklər "ağıllı şəhər" və "ağıllı şəhər" layihələrinin həyata keçirilməsini "ağıllı şəhər" və "ağıllı şəhər" kimi layihələrin aktual tərkib hissəsidir. "ağıllı şəhər" və "ağıllı kənd" bütün digər komponentləri birləşdirərək və mahiyyətcə "sinir mərkəzi" rolunu oynayır. Xidmət infrastrukturu isə İKT komponentləri əsasında fiziki infrastrukturun idarə edilməsi funksiyasını yerinə yetirir*".[284]

Azərbaycan dövlətinin uğurla həyata keçirdiyi layişələr sırasında şəhərlərin rəqəmsallaşması, yaxud "Ağıllı şəhərlər"in qurulması xüsusi qeyd edilə bilər. XXI əsrdə Azərbaycan ağıllı şəhərlərin qurulmasını daxili siyasətin başlıca istiqaməti kimi müəyyənləşdirmişdir. Prezident İlham Əliyev Azərbaycanın işğal

[283] First Smart Forest City in Mexico Designed by Stefano Boeri Architetti. https://www.archdaily.com/927312/first-smart-forest-city-in-mexico-designed-by-stefano-boeri-architetti

[284] Akif Musayev. İşğaldan azad edilmiş ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" layihələrinin tətbiqi əhalinin rifahının yüksəldilməsinə hesablanıb.// https://science.gov.az/az/news/open/16960

olunmuş ərazilərdə Ağıllı şəhər və kəndlərin yaradılması ilə bağlı geniş tədbirlər planı reallaşdırır.

Ölkənin rəqəmsallaşdırılması, həmçinin rəqəmsal şəhər və kəndlərin yaradılması fəaliyyətinin əsaslı başlanğıcı 2020-ci il il hesab olunur. 2020-ci ilin dekabrında “Azərişıq” ASC ilə Almaniyanın “EKM Global Consulting GMbH” şirkəti arasında əməkdaşlıq haqqında niyyət protokolu imzalanıb və bununla da Azərbaycanda geoməkan məlumatlarının əldə edilməsi və istifadəsi əsasında yeni rəqəmsal məkanların formalaşdırılması layihələrinin həyata keçirilməsinə başlanılıb. Qeyd edilməlidir ki, həm sülh, həm də müharibə dövrlərində müvafiq münasibətlər sisteminin uğurlu tənzimlənməsi, ağıllı şəhər və kəndlərin yaradılması və inkişafı geoməkan məlumatlarının rəqəmsallaşdırılması təmin edilmədən mümkün deyil.

Geoməkan məlumatları təyyarələrdən alınan xəritələr, koordinatlar və ortofotolar əsasında yaradılmış informasiya sistemidir ki, onu interaktiv xəritə də adlandırmaq olar. Burada obyektlər və onların yeri haqqında vizual məlumat tapa bilərsiniz. Texnoloji irəliləyişlər nəticəsində ikiölçülü geoməkan məlumatları üçölçülü xəritələri, üçölçülü skanları və ortofoto planları əks etdirən yeni informasiya sistemi ilə əvəz edilmişdir.[285]

Geoməkan məlumatları əsasında yaradılacaq rəqəmsal məkanın virtual görüntüsü və inkişaf perspektivləri müəyyənləşdirilir. Virtual rəqəmsal şəhər əsasında qurulan Ağıllı şəhərin infrastukturunda baş verə biləcək dəyişikliklər yenə də əvvəlcə virtual maketdə tətbiq edilir, mənfi və müsbət tərəflər nəzərdən keçirilərək real şəhərlərdə tətbiq edilir.

---

[285] Əli Əhmədov. «Ağıllı» şəhər və «rəqəmsal əkizlər» dövrü - Azərbaycanda «3D inqilabı» başlayir. https://fed.az/az/ikt/agilli-seher-ve-kendlerin-reqemsal-ekizleri-azerbaycani-maraqli-yenilik-gozleyir-131578?fbclid=IwAR1BVO0YSdH11cVtij_c0sIjuDCki7TjiNZQ-DFvTcAU9R5iszqLoCu2G8U

[285]ABI Research: Research Resources Consulting.

"ABI Research" konsaltinq şirkətinin məlumatına görə, 2025-ci ilə qədər "rəqəmsal əkizləri" olan şəhərlərin sayı 500-ü keçəcək.[286]

Geoməkan xəritələrinin tərtibi şəhər və kəndlərdə iqlim enerjisinin idarə olunması imkanlarını genişləndirir. Belə ki, ABI Research konsaltinq şirkətinin hədəfləri arasında istiliyin təkrar istifadəsi çox maraqlı layihələrdəndir. Burada qeyd edilir ki: "*İstiliyin təkrar istifadəsi... (zamanı) ...texnologiyalar məlumat mərkəzində yaranan istiliyi tutur və onu yaxınlıqdakı evlərə və ticarət binalarına yönləndirir. ABI Research, istiliyin təkrar istifadəsinə qoşulan məlumat mərkəzlərinin sayının 2024-2030-cu illər arasında CAGR səviyyəsində 53% artaraq 135 obyektdən 1700-dən çox olacağını proqnozlaşdırır*".[287]

Ərazilərin rəqəmsallaşması istiqamətində müxtəlif aidiyyətli şirkətlərin çoxaspektli fəaliyyət istiqamətləri arasında iqlim tənzimləmələri və istiliyin təkrar istifadəsi ilə bağlı inqilabi nəticələr mövcuddur. Müəyyən mənada bu, bütün dünya ölkələrində təbii resursların bərabər bölgüsü və istifadəsi imkanlarını aça bilir. İqlimin tənzimlənməsi təsərrüfatın tənzimlənməsilə yanaşı, yeni sosial münasibətlərin formalaşmasına, enerji ehtiyatları ilə bağlı məhdudiyyətlərin həll edilməsinə, həmçinin iqlim dəyişiklikləri ilə bağlı mümkün fəlakətlərin faciəli nəticələrinin azalmasına və ya tamamilə aradan qaldırılmasına kömək edə bilər.

Ağıllı şəhərlərin geoməkan xəritələrinin yaradılması yuxarıda göstərilən istiqamətlərdə uğurlu nəticələrin əldə edilməsi və ümumiyyətlə uğurlu şəhərlərin qurulması deməkdir.

Azərbaycanda əsasən işğaldan azad edilmiş ərazilərdə ağıllı şəhərlərin qurulması məqsədilə bu ərazilərin geoməkan xəritələrinin yaradılması və "Yaşıl enerji" mərkəzlərinin inkişafı

---

https://www.abiresearch.com/research-resources/consulting

[287] Optimizing Data Center Infrastructure: Market Sizing Thermal Management & Energy Consumption Market Data Overview: 4Q 2024. https://www.abiresearch.com/news-resources/chart-data/number-of-data-centers-with-heat-reuse

başlıca hədəflərdəndir. Bu məqsədlə Prezident İlham Əliyev 3 may 2021-ci il tarixli Sərəncamı ilə ölkəmizin geri qaytarılan ərazilərində "yaşıl enerji" ərazisinin yaradılmasına qərar vermişdir. "Yaşıl enerji" ərazisinin formalaşdırılması məqsədilə dövlət büdcəsinin prezident ehtiyat fondundan 1392040,0 manat vəsait ayrılmışdır. "Yaşıl enerji" zonasının yaradılması ilə bağlı başlıca məsuluyyətli təsisat Azərbaycan Respublikasının Energetika Nazirliyi təsdiq edilmişdir.[288]

Dünyada iki növ enerji mənbəyi var: bərpa olunan enerji mənbələri və bərpa olunmayan enerji mənbələri.

Yaşıl enerji ətraf mühitə mənfi təsirini minimuma endirəcək şəkildə istehsal edilən və bərpa olunan enerjidir. Bərpa olunan enerji mənbələri Yerdəki ən təmiz enerji mənbələridir. Bərpa olunan enerji mənbələrinin bir çox növləri günəş enerjisi, biokütlə enerjisi, külək enerjisi, gelgit enerjisi, su enerjisi və geotermal enerjidir.

Bərpa olunmayan enerji mənbələri (qaz, neft, daş kömür) insan sağlamlığına ciddi təsir göstərə bilər, çünki onlar ekoloji cəhətdən təmiz deyil.[289]

Azərbaycan qaz və neft ehtiyatları olan qədim ölkələrdəndir və Azərbaycan iqtisadiyyatının inkişafı neft sənayesi üzərində qurulmuşdur. XXI əsrdə Azərbaycan hökuməti qeyri-neft sektorunun inkişafı siyasətini həyata keçirir. "*Qeyri-neft sektorunun inkişafının daha da sürətləndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş milli iqtisadiyyatın və iqtisadiyyatın əsas sektorlarının strateji yol xəritələrində yerli istehsalın rəqabət qabiliyyətinin gücləndirilməsi və bu sahəyə*

---

288 "Azərbaycan Respublikasının İşğaldan azad edilmiş ərazilərində "Yaşıl Enerji" Zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. İlham ƏLİYEV, Azərbaycan Respublikasının Prezidenti. Bakı şəhəri, 3 may 2021-ci il, № 2620

289 Vijay Laxmi Kalyani, Govt. Women Engineering College Ajmer, Manisha Kumari Dudy, Shikha Pareek. "Green energy: the need of the world". // Journal of Management Engineering and Information Technology (JMEIT) Volume - 2, Issue- 5, Oct. 2015.

*birbaşa xarici investisiyaların cəlb edilməsi, habelə bu sahəyə birbaşa xarici investisiyaların cəlb edilməsinin daha da artırılması strateji hədəflər kimi müəyyən edilib*".[290]

Azərbacanda qeyri-neft sektorunun inkişafı ideoloji olaraq Yaşıl enerjiyə keçidin başlangıcı olmuşdur. "*Azərbaycan bərpa olunan enerjinin istehsalını artırmaqla təbii qaz sərfiyyatını azalda bilər. Qənaət edilən təbii qaz isə metanol və karbomid istehsalına yönəldilməklə, qeyri-neft sektorunda əlavə dəyər yaratmağa imkan verə bilər*".[291]

Hələ 2004-cü ildə qəbul edilmiş "Azərbaycan Respublikasında bərpa olunan enerji mənbələrindən istifadəyə dair" Dövlət Proqramında bu istiqamətdə fəaliyyətin əsas məqsədi "*ölkənin təbii potensialından istifadə etməklə və karbohidrogen enerji ehtiyatlarından daha səmərəli istifadənin təmin edilməsi yolu ilə bərpa olunan və ekoloji təmiz mənbələrdən enerji istehsalının genişləndirilməsi*" kimi müəyyən edilmişdir.[292]

2020-ci ilədək Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında fəaliyyət göstərən kiçik struktur bölmələrdən biri, 2020-ci il sentyabrın 22-də isə ölkə prezidentinin Fərmanı ilə genişləndirilən "Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi"nin başlıca vəzifələri –

- ayrı-ayrı regionlar üzrə bərpa olunan enerji mənbələrinin potensialını və onlardan istifadənin əsas istiqamətlərini müəyyən etmək;

---

[290] Qeyri-neft sektorunda rəqabətqabiliyyətli daxili istehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti. Bakı şəhəri, 19 sentyabr 2018-ci il. https://president.az/az/articles/view/30044

[291] "Yaşıl enerji"nin inkişafi qeyri-neft sektorunda əlavə dəyər yaratmağa imkan verəcək. https://oxu.az/iqtisadiyyat/yasil-enerjinin-inkisafi-qeyri-neft-sektorunda-elave-deyer-yaratmaga-imkan-verecek

[292] Azərbaycan Respublikasında bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 21 oktyabr tarixli 462 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir. https://e-qanun.az/framework/5796

- bərpa olunan enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi və dəstəklənməsi;

- bərpa olunan enerji mənbələrindən səmərəli istifadə üçün təsdiq edilmiş təminat və dəstək və s.[293]

Dövlət Agentliyinin başlıca hədəfləri –

-elektrik enerjisi qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 30%-ə çatdırılması;

- geri qaytarılan ərazilərin "Yaşıl Enerji" Zonasına çevrilməsi və s. olmuşdur.[294]

"Yaşıl enerji" zonası bilavasitə "Ağıllı kəndlər"in və "Ağıllı şəhərlərin" inkişafı istiqamətində atılan əsaslı addımdır. Belə ki, "yaşıl enerji" zonaları, yaxud bərpa olunan enerji zonaları müəyyən bir məkan çərçivəsində günəş, külək, su və s. təbii resurslardan yararlanaraq ərazinin və əhalinin təmiz ekoloji mühitlə təmin olunmasına yönələn şəhər və kəndlər olaraq, rəqəmsal idarəetmə üzərində qurulur.

"Yaşıl zonalarda" rəqəmsallaşmanın başlıca məqsədi "*...məlumatlarının əldə edilməsi, saxlanması, idarə edilməsi və hər hansı bir istifadəçiyə/fərdə ötürülməsi üçün hesablama, saxlama və şəbəkə xidmətləri təklif edilməsilə*" bağlıdır. Əslində "Yaşıl zonalarda" "*istifadəçilərin sayının, məlumatlarının yaradılması və saxlama imkanlarının artması metadata (ehtiyatsız, qara məlumatlar, kritik məlumatlar) üçün məlumat saxlama vasitələri*" məhdud ərazidə potensial istehlak xüsusiyyətlərini və səviyyəsini müəyyənləşdirməyə, enerjinin bərpa edilməsi imkanlarının ölçülməsinə kömək edir.

"Ağıllı kəndlər" və "ağıllı şəhərlər" ekoloji təmiz ərazilər kimi əvvəlcədən müəyyənləşdirilmiş rəqəmsal sərhədlər

---

[293] Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin Əsasnaməsi. Azərbaycan Respublikası prezidentinin 2020-ci il 22 sentyabr tarixli 1159 nömrəli Fərmanı ilə təsdiq edilmişdir. https://e-qanun.az/framework/46009

[294] Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi. https://www.area.gov.az/az/page/haqqimizda

çərçivəsində sinerji xüsusiyyətli idarəetmə sisteminə malik olan "yaşıl zonalarıdır".

"Ağıllı şəhərlərdə" və "ağıllı kəndlərdə" istifadə olunan "*təmiz enerji atmosferi çirkləndirməyən enerjidir... ...təmiz enerji, yaşıl enerji və bərpa olunan enerji arasında aydın keçidlər var.*

*-Təmiz enerji = təmiz hava;*

*-Yaşıl enerji = təbiətdən qaynaqlar;*

*-Bərpa olunan enerji = təkrar istifadə edilə bilən mənbələr.*

*Bərpa olunan enerji, bərpa olunan mənbələrdən toplanan və zamanla təbii şəkildə doldurulan enerjidir. Buraya günəş, külək, yağış, gelgitlər, dalğalar və geotermal istilik kimi mənbələr daxildir".*[295]

Ölkəmizin azad edilərək geri qaytarılan torpaqlarında Yaşıl enerji Zonalarının yaradılması "*bərpa olunan enerji mənbələrindən elektrik enerjisi istehsalı, enerji səmərəliliyi tədbirləri, elektrik nəqliyyat vasitələrindən istifadə, tikililərin damlarında bərpa olunan enerji qurğularının (xüsusən günəş panellərinin) qurulması, həmçinin küçələrin və yolların işıqlandırılmasında günəş enerjisi əsaslı LED lampalardan istifadə, istilik, soyutma və isti su təchizatında bərpa olunan enerji texnologiyalarından istifadə, ağıllı enerji idarəetmə texnologiyalarıının tətbiqi, tullantıların enerji məqsədli idarə edilməsi kimi tədbirləri nəzərdə tutur*".[296]

Azərbaycanda "ağıllı şəhər" modelinin Ağdamda reallaşdırılması nəzərdə tutulmuşdur. Ağdam şəhərinin iqtisadiyyatı işğaldan əvvəl kənd təsərrüfatı və ticarət üzərində qurulmuşdu. İğal edildikdən sonra ermənilər tərəfindən tamamilə məhv edilərək, xarabazara çevrilən Ağdam şəhərinin sənaye mərkəzinə çevrilməsi planlaşdırılır.

[295] Daryl Mitchell. Significance of green energy. //Global Journal of Petroleum Resources and Alternate Fuels. Vol. 1 (1). pp. 003-004 February, 2022

[296] İşğaldan azad edilmiş ərazilərdə Yaşıl Enerji Zonası (YEZ). https://area.gov.az/az/page/layiheler/yasil-enerji-zonasi/yasil

“*Ağdamda yaradılan Sənaye Parkı bölmələrə - yeyinti sənayesi, kiçik sənaye və xidmət sahələri, iri sənaye müəssisələri, sosial-texniki zonalar, yük avtomobilləri parkı, tikinti materiallarının satışı bazası kimi bölmələrə bölünəcək. Burada tikinti materialları istehsalı müəssisələrinin yaradılması, o cümlədən kənd təsərrüfatı məhsullarının, meyvə-tərəvəz konservlərinin, ət və süd məhsullarının qablaşdırılmasının, şərabın, yemin, gübrələrin istehsalı və emalı, o cümlədən xidmət sahələrinin və soyuducu kameraların təşkili nəzərdə tutulur*.”.[297]

Ağdam “ağıllı şəhər” konsepsiyasına əsasən burada –

- “ağıllı şəhər infrastrukturu”;
- “ağıllı binalar”;
- “ağıllı mühit”;
- “ağıllı nəqliyyat sistemi”;
- “ağıllı enerji”;
- “sudan istifadənin ağıllı idarəetməsi”;
- “tullantıların ağıllı idarəedilməsi”;
- “ağıllı səhiyyə sistemi”;
- “ağıllı hökumət”;
- “ağıllı sosial təhlükəsizlik” və s. yaradılması nəzərdə tutulur.

“Ağıllı şəhər” və “ağıllı kəndlər” yaradılmasının sosial əhəmiyyəti haqda danışarkən, ilk növbədə sakinlərin yaşam keyfiyyətinin yüksəldilməsi ehtiva edilir. Yaşam keyfiyyəti əsasən “ağıllı şəhərlərin” mahiyyətilə bağlı və yuxarıda sadalanan xidmətlərin səmərəli və optimal şəkildə təmin edilməsi ilə bağlıdır. “Ağıllı şəhər” və “ağıllı kəndlər”in iqtisadiyyatı mühitin davamlılığının qorunub saxlanmasına yönəlir, yəni sənaye və kənd təsərrüfatı sistemləri innovativ texnologiyaların tətbiqi üzərində qurulur ki, bu da sağlam təbii mühitin qorunmasını nəzərdə tutur.

---

[297] Sevinc Azadi. Ağdam Şərqi Avropanın ən gözəl və “ağıllı” şəhəri olacaq. // “İki sahil”. 7 sentyabr 2021.
\\https://ikisahil.az/post/246005-agdam-sherqi-avropanin-en-gozel-ve-agilli-sheheri-olacaq

Azərbaycanda "ağıllı şəhər" sisteminin qurulması ilk olaraq Ağdamdan başlanır, lakin "*İşğaldan azad edilmiş ərazilərin müqayisəli üstünlükləri əsasında 4 regional mərkəzin yaradılması nəzərdə tutulur. Cəbrayılda logistika və ticarət mərkəzi, Şuşada mədəniyyət və turizm mərkəzi, Kəlbəcərdə istehsal və turizm mərkəzi, Ağdamda sənaye mərkəzi yaradılacaq*".[298]

Beləliklə, Azərbaycanda ilk olaraq 4 istiqamətdə "ağıllı şəhər" və "ağıllı kəndlər"in qurulması ilə bağlı fəaliyyət proqramı həyata keçirilir. Mütəxəssislər qeyd edirlər ki, "ağıllı şəhərlər" və "ağıllı kəndlər" yüksək sürətli və yüksək keyfiyyətli internet təminatı əsasında idarə edilir. "Ağıllı şəhər" və "ağıllı kəndlər"in əsasən işğaldan azad edilmiş ərazilərdə qurulması nəzərdə tutulduğundan, həmin ərazilərdə ilk növbədə minadan və digər hərbi tullantılardan təmizləmə işlərinin aparılması bu istiqamətdə fəaliyyətin sürətinə təsir edən əsas amillərdəndir. Eyni zamanda ölkə prezidenti qeyd edilən ərazilərə investisiyaların cəlb edilməsində maraqlıdır.

İnkişaf etmiş dünya ölkələrində artıq 5G xəritələməsi və süni intellekt vasitəsilə idarə edilən "ağıllı şəhər" və "ağıllı kəndlər"in qurulması hədəflənmişdir. Tarixi təcrübə göstərir ki, inkişafın müəyyən mərhələsində geri qalan ölkələr qısa bir zamanda, daha qısa yol və daha üstün imkanlarla yeni mərhələyə keçid nümayiş etdiriblər. Məsələn, SSRİ dağıldıqda İttifaqa daxil olan bir sıra respublikalar Avropa Birliyinə inteqrasiya edərək qısa müddətdə inkişaf etmiş ölkələr statusu ala bildilər. Bu mənada "ağıllı şəhər" və "ağıllı kəndlər"in quruculuğunun ilkin mərhələsində olan ölkəmizin bu istiqamətdə böyük müvəffəqiyyətlərə nail olacağı danılmaz faktdır.

---

[298] Sevinc Azadi. Ağdam Şərqi Avropanın ən gözəl və "ağıllı" şəhəri olacaq. "İki sahil" qəzeti. 07 sentyabr 2021. https://ikisahil.az/post/246005-agdam-sherqi-avropanin-en-gozel-ve-agilli-sheheri-olacaq

# NƏTİCƏ

Elmin tərəqqisi bilavasitə bəşərin və bəşəriyyətin rifahının yüksəldilməsinə yönəldiyindən onun sosial mahiyyəti tədricən dəyişir. Elmin inkişafı insanların dünyagörüşündə, dünyanı qavramında yeni istiqamətlər açır, onların təbiətə və cəmiyyətə münasibətlərinin dəyişməsinə, sosial münasibətlərin yeni mahiyyət qazanmasına gətirir. Digər tərəfdən, elmi biliklər innovasion xüsusiyyət daşıyır və idarəetmə sistemində islahatlar aparılmasına, yeni idarəetmə üsullarının tətbiq edilməsinə səbəb olur.

Aid olduğumuz sivilizasiyada elm heç zaman olmadığı inkişaf səviyyəsinə çatıb. XX əsrin sonu və XXI əsrin başlanğıcından etibarən bəşər tarixində elmi inqilabların yeni, daha sürətli bir dövrünün başlandığını qeyd edə bilərik. Əgər XIX əsrdə əldə edilən elmi yeniliklər yayılma sürətinə və tətbiq sahəsinə görə müəyyən məhdudiyyətlərlə üzləşirdisə, XX – XXI əsrlərdə elmi kəşflərin kəmiyyəti və tətbiqi imkanları inanılmaz dərəcədə genişlənmişdir. Tarixi inkişafın gedişatı göstərir ki, XXI əsrin elmi ani məqamda bəşəriyyətin bir mənalı olmayan dəyişilməsinə səbəb ola bilər.

Bu gün güclü ziyalı təbəqəsi, müasir texnika və texnologiyalara sahib olmaq hər bir cəmiyyətin və dövlətin inkişafının, qüdrətinin və təhlükəsizliyinin əsas amilləri hesab edilir. Müasir elm sosial və tarixi tərəqqinin təkanverici amili olaraq, sosial institut kimi çıxış edir. Sosial institut kimi elm -

-ictimai münasibətlərin möhkəmlənməsi və təkrar istehsalı, fəaliyyət nizamının və çərçivələrinin təmin edilməsi;

-cəmiyyət üzvləri arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsi;

-sosial təcrübənin ötürülməsi;

-cəmiyyətdə qarşılıqlı əlaqə və qarşılıqlı məsuliyyəti;

-digər institutlarla qarşılıqlı əlaqənin saxlanmasını və s. təmin edir.

Müasir elmin inkişaf xüsusiyyətlərinin mahiyyəti bir sıra nəzəri və tətbiqi problemlərin meydana çıxmasına gətirir. Bu problemlər aşağıdakı kimi təsnif edilə bilər:

1.Elm və texnologiyaların sürətli inkişafı nəticəsində elmin müxtəlif sosial sistemlərin (siyasi, hüquqi, etik, estetik, texnoloji, kommunikativ və s.) fəaliyyətində əsaslı rolu ilə bağlı yaranan problemlər.

2.Qarşılıqlı əlaqəli elmi fənlərlə bağlı yaranan problemlər.

3. Elmin sosial-iqtisadi problemləri.

4.Elmi-texnoloji inkişaf nəticəsində sosial münasibətlərin və sosial statusların mahiyyətinin dəyişməsi.

XXI əsr elmi sosial münasibətləri dəyişməklə, yeni cəmiyyətlərin formalaşmasına səbəb olmuşdur. Hazırda məhz elmi-texnoloji tərəqqinin törəməsi olan Rəqəmsal Cəmiyyət insanın öz üzərində nəzarət və manipulyasiya imkanlarını təkmilləşdirdiyi yeni formatlı sosium olaraq, sosial həyatın müxtəlif sahələrində -- idarəçilik, transformasiyalar, sosial mühitlər və texnologiyaların inkişafını tənzimləyir.

Rəqəmsal cəmiyyətdə sosial institut və təsisatların, şəxsiyyətin, onun sosial davranış və sosial münasibətlər sisteminin redefinisiyası (yenidən müəyyənləşməsi və qavranılması) müşahidə edilir.

Rəqəmsal Cəmiyyətin İnkişafı ilə müəyyənləşən texnolji imperialism rəqəmsal texnologiyaların təhsildə, sosial, siyasi, iqtisadi həyatda tətbiqi nəticəsində məhdudlaşdırıcı və manipulyativ fəaliyyət imkanlarını təkmilləşdirmişdir. Rəqəmsallaşma prosesinin sosial rifahın yüksəldilməsilə bağlı tərəqqi yönlü nəticələri olduğu kimi sosial aşınmaya səbəb olan xüsusiyyətləri də mövcuddur:

1.Siyasi sferada rəqəmsallaşma demokratikləşmə ilə qloballaşma arasındakı qarşılıqlı əlaqə və asılılıq prosesini sürətləndirir;

2.”Rəqəmsal təhsil”, “rəqəmsal elm”, “rəqəmsal mədəniyyət”, “rəqəmsal mənəvi həyat”, “rəqəmsal etika”,

"rəqəmsal ideologiya" və s. yenidən dərketmənin və yeni konseptual yanaşmaların formalaşmasını zəruri edir.

3. Rəqəmsal ədalət və rəqəmsal bərabərsizlik problemi "ədalət" və "sosial bərabərsizlik" anlayışlarına yeni anlam verir və sosial münasibətlərin mahiyyətində dəyişikliklərə səbəb olur;

3. Texnologiyaların inkişafı nəsillərarası münasibətlərdə rəqəmsal uçurum haqda danışmağa imkan yaradır.

4.Rəqəmsal cəmiyətdə yeni virtual reallıq və virtual mühitlər inkişaf edir, virtual etika və estetika, virtual əxlaqi mühit, şəbəkəli icmalar, virtual submədəniyyətlər və s. yaranır.

5.Qlobal və lokal Rəqəmsal İdarəetmə yeni prinsip və metodlar əxz edir, "rəqəmsal suverenlik", "rəqəmsal müstəmləkəçilik", "rəqəmsal konstitusionalizm" kimi rəqəmsal idarəetmə konsepsiyaları formalaşır.

Yuxarıda qeyd edilənlər texnoloji imperializmin və ya rəqəmsallaşmanın mahiyyətini ehtiva etməklə yanaşı, manipulyasiya gücünü də təcəssüm etdirir.

Rəqəmsallaşma prosesinin formalaşdırdığı cəmiyyətlər, şəhər və kəndlər ən yüksək səviyyədə idarə və ya manipulyasiya edilən sosial birliklər kimi qəbul edilə bilər. Belə ki, inkişaf etmiş ölkələrdə rəqəmsallaşan şəhərlərin təcrübəsi göstərir ki, ağıllı şəhərlərdə insanların fəaliyyət yönləri və davranışları əvvəlcədən müəyyənləşdirilmiş proqramlı inkişafın tərkib hissəsi kimi təzahür edir. Məsələn, şəhər və kəndlərdə ağıllı binalar və ağıllı evlərdə yaşayan insanların məişət davranışları, mənzillərinin mühafizəsi, onlayn münasibətlər sistemi, sosial xidmətlərdən istifadə imkanları və s. rəqəmsal əsaslarda idarə edilir. Yüksək sürətli internetdən asılılığı bu şəhər və kəndlərin həm müsbət, həm də mənfi tərəfi kimi qəbul etmək olar. Sosial rifahın yüksəldilməsi, sosial xidmətlərin təminatı, sosial problemlərin sürətli həlli və s. yaşam keyfiyyətini artıran fəaliyyətlər rəqəmsallaşmanın əhəmiyyətli tərəfləri kimi dəyərləndirilir. Lakin bir anlıq internetin zəifləməsi və ya kəsilməsi ilə yarana biləcək durğunluq nəticəsində proseslərin necə inkişaf edəcəyi ehtimalı ürəkaçan deyil. Bununla belə, rəqəmsal cəmiyyətlər XXI əsrdə

bəşəriyyətin başlıca hədəfidir və inkişaf prosesində təkmilləşdirmə texnologiyalarının və alternativlərin yaradılması və tətbiqi qaçılmazdır.

XXI əsrdə Azərbaycan dövlətinin də başlıca məqsədi ağıllı cəmiyyətlərin, ağıllı şəhər və kəndlərin yaradılması ilə bağlıdır. Qeyd edilməlidir jki, rəqəmsallaşma ilə bağlı problemlər ölkəmizdə də göürünür. Rəqəmsallaşma və süni intellektin tətbiqində lider ölkələrdə (Kanada, İsveç, Yaponiya və s.) rəqəmsallaşama və "*süni intellekt infrastrukturunu dəstəkləyən bulud infrastrukturu, xüsusən də AWS, Google Cloud Platform və ya Microsoft Azure kimi əsas bulud provayderlər*" istifadə edilir. Lakin Azərbaycanda bu proqramların "*olmaması süni intellektin sürətlə mənimsənilməsi üçün ciddi maneələr yaradır*". [299]

Azad edilərək geri qaytarılan torpaqların rəqəmsallaşma imkanlarının genişləndirilməsi Azərbaycan hökumətinin məqsədyönlü strateji siyasətidir. Belə ki, "ağıllı şəhər" və "ağıllı kənd" anlayışlarının mahiyyətinə dövlət xidmətlərinin təkmilləşdirilməsi, sosial xidmətlərin səmərəliliyinin artırılması, informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə əhalinin məlumatlandırılması, habelə "ağıllı" texnologiyalardan və məlumatların təhlilindən istifadə etməklə vətəndaşların sosial təminatının və həyat keyfiyyətinin yüksəldilməsi daxildir. İşğaldan azad edilmiş ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" layihələrinin həyata keçirilməsi əhalinin rifah halının yaxşılaşdırılmasına hədəflənmişdir.

[299] "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası. Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin 19 mart 2025-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir. https://static.president.az/upload/Files/2025/03/19/5a0fb1886a7316cb1b95458f366c1bd6_3415396.pdf

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

**Azərbaycan dilində**

Abbasov Ə.F. Fəlsəfədə və elmdə epistemologiya problemləri: elmi rasionallıq paradiqmalarının səciyyəvi xüsusiyyətləri // Müasir fəlsəfə, süni intellekt və qeyri-səlis məntiq.Bakı: Elm və Təhsil, 2022, 364 s.

Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 1859 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.

Adam Warner, A Brief History Of The Anti-Globalization Movement, 12 U. Miami Int'l & Comp. L. Rev. 237 (2005) // URL: https://repository.law.miami.edu/umiclr/vol12/iss2/2

Adefolake Ademuson. Social Institutions. // URL: https://www.researchgate.net/publication/350886847_Social_Institutions

Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) konsepsiyasının hazırlanması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. İlham ƏLİYEV, Azərbaycan Respublikasının Prezidenti. Bakı şəhəri, 19 aprel 2021-ci il, № 2584

Allahyarova T.B. Sosial sinergetika cəmiyyət haqqında elmlərin yeni metodoloji əsası kimi: Fəlsəfə üzrə elmlər doktoru (ixtisas: 09.00.11 - sosial fəlsəfə) dissertasiyası. Bakı, 2007, s.44, s.81

Allahyarova, T.B. Sosial sinergetika cəmiyyət haqqında elmlərin yeni metodoloji əsası kimi : fəlsəfə elm. dok. ... dis. avtoreferatı: 09.00.11 / T. B. Allahyarova ; Bakı Dövlət Universiteti. – Bakı, 2007. 53 s.

Azərbaycan alimlərinin beynəlxalq elmi fəaliyyətində böyük yüksəliş: 2024-cü ilin nailiyyətləri. https://edu.gov.az/az/announcements/21528-1

Azərbaycan Kibertəhlükəsizlik Mərkəzi. https://mincom.gov.az/az/layiheler/azerbaycan-kibertehlukesizlik-merkezi

Azərbaycan Respublikasında bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 21 oktyabr tarixli 462 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir. https://e-qanun.az/framework/5796

Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 16 yanvar tarixli Fərmanı ilə təsdiq edilmişdir.// URL: https://static.president.az/upload/Files/2025/01/16/7b72d9ce4de45ac4fee0c4b1c8ffb392_5253488.pdf

Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti. Bakı şəhəri, 16 yanvar 2025-ci il. https://president.az/az/articles/view/67937

Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası. Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin 19 mart 2025-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir.// URL: https://static.president.az/upload/Files/2025/03/19/5a0fb1886a7316cb1b95458f366c1bd6_3415396.pdf

Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin Əsasnaməsi. Azərbaycan Respublikası prezidentinin 2020-ci il 22 sentyabr tarixli 1159 nömrəli Fərmanı ilə təsdiq edilmişdir. https://e-qanun.az/framework/46009

Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi. https://www.area.gov.az/az/page/haqqimizda

Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023 – 2027-ci illər üçün Strategiyası. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust

tarixli Sərəncamı ilə təsdiq edilmişdir. https://static.president.az/upload/Files/2023/08/29/80f2ffe2545b66274d2eed810cc704d4_5019787.pdf

Azərbaycan Respublikasının İşğaldan azad edilmiş ərazilərində "Yaşıl Enerji" Zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. İlham ƏLİYEV, Azərbaycan Respublikasının Prezidenti. Bakı şəhəri, 3 may 2021-ci il, № 2620

Azərbaycanda qeydiyyatdan keçən QHT-lərin sayı açıqlanıb. https://report.az/daxili-siyaset/azerbaycanda-qeydiyyatdan-kecen-qht-lerin-sayi-aciqlanib/

Azərbaycanda rəqəmsal inkişaf. Statistik məcmuə. Bakı:Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. 2024, 146s.

Azərbaycanda Təhsil, Elm və Mədəniyyət. Bakı: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2024. 494 s.

Azərbaycn dilinin izahlı lüğəti. Dörd cilddə. I cildç Bakı, "Şərq-Qərb", 2006, 792 s. (Tərtibçilər Ə.Orucov, B.Abdullayev, N.Rəhimzdə)

Balayev R.Ə. Aqrar Sahədə Rəqəmsal Mühitin Formalaşmasının Əsas Amilləri və Təcrübi Aspektləri. // Kənd təsərrüfatının iqtisadiyyatı 2020, № 1 (31) Agricultural Economics. s.93-100

Beynəlxalq reytinqdə Azərbaycanın kibertəhlükəsizlik indeksi xeyli irəliləyib. // URL: https://mincom.gov.az/az/media/xeberler/beynelxalq-reytinqde-azerbaycanin-kibertehlukesizlik-indeksi-xeyli-irelileyib1234

Dövlət büdcəsindən elmə çəkilən xərclər, milyon manat. // URL: https://www.stat.gov.az/source/education/

Əhmədov Ə. «Ağıllı» şəhər və «rəqəmsal əkizlər» dövrü - Azərbaycanda «3D inqilabı» başlayir. // URL: https://fed.az/az/ikt/agilli-seher-ve-kendlerin-reqemsal-ekizleri-azerbaycani-maraqli-yenilik-gozleyir-131578?fbclid=IwAR1BVO0YSdH11cVtij_c0sIjuDCki7TjiNZQ-DFvTcAU9R5iszqLoCu2G8U

Elektron hökumət haqqında ümumi məlumat. // URL: https://www.e-gov.az/az/content/read/2

Əliyev A., Şəkərəliyev A., Dadaşov İ. Dünya iqtisadiyyatı: müasir dövrün problemləri (Monoqrafiya). Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2003, 455 səh.

İbrahimov F., Hüseynzadə R. Pedaqogika: 2 cilddə.I cild. – Bakı: Mütərcim, 2012, s.11-16

İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunda "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində iştirak ediblər. 22 may 2022. // URL:https://president.az/az/articles/view/56208

İşğaldan azad edilmiş ərazilərdə Yaşıl Enerji Zonası (YEZ). // URL: https://area.gov.az/az/page/layiheler/yasil-enerji-zonasi/yasil

MDB ölkələri üzrə tədqiqat və işləmələri yerinə yetirən işlçiərin sayı. (min nəfər). // URL: https://www.stat.gov.az/source/education/

MDB ölkələri üzrə yerinə yetirilmiş işlərin həcmi (ÜDM-ə nisbətən faizlə). // URL: https://www.stat.gov.az/source/education/

Məmmədov F.T.. Kulturologiya, mədəniyyət, sivilizasiya.- Bakı, "OL" MMC, 2016. 260.

Məmmədova S.D. Proqnozlaşdırma və layihələşdirmə. Bakı: Elm, 2009, 292 s. URL: https://ebooks.az/az/book/poR4Ie3V

Məmmədzadə İ.R. Süni intellektin arixi-mədəni epistemologiya kontekstində tətbiqi xüsusiyyətləri. // Müasir fəlsəfə, süni intellekt və qeyri-səlis məntiq.Bakı: Elm və Təhsil, 2022, 364 s.

Mirzəzadə A. Vətən müharibəsinin tarixi-siyasi dərsləri, Bakı: Azərbaycan nəşriyyatı, 2022, səh. 282

Musayev A. İşğaldan azad edilmiş ərazilərdə “ağıllı şəhər”, “ağıllı kənd” layihələrinin tətbiqi əhalinin rifahının yüksəldilməsinə hesablanıb.// URL: https://science.gov.az/az/news/open/16960

Onlayn Azərbaycan//URL: https://mincom.gov.az/az/layiheler/onlayn-azerbaycan

Qeyri-neft sektorunda rəqabətqabiliyyətli daxili istehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti. Bakı şəhəri, 19 sentyabr 2018-ci il. // URL:https://president.az/az/articles/view/30044

Qurbanov F. Sinergetika: xaosun astanasında. Bakı: Bakı Universiteti nəşriyyatı, 2004, 315 s.

“Rəqəmsal Kənd Təsərrüfatı” layihəsinin əhatə dairəsi genişlənir. // URL: https://atm.gov.az/az/news/532/reqemsal-kend-teserrufati-layihesinin-ehate-daires/

Sevinc Azadi. Ağdam Şərqi Avropanın ən gözəl və “ağıllı” şəhəri olacaq. // URL: “İki sahil”. 7 sentyabr 2021.

Yaşıl enerji”nin inkişafı qeyri-neft sektorunda əlavə dəyər yaratmağa imkan verəcək. // URL:https://oxu.az/iqtisadiyyat/yasil-enerjinin-inkisafi-qeyri-neft-sektorunda-elave-deyer-yaratmaga-imkan-verecek

**Türk dilində**

Bozkurt Veysel. Değişen dünyada sosyoloji. EKİN, Basım Yayın Dağıtım, 2007, s. 63, 64

Emin Baki Adaş, Borabay Erbay. Yapay Zekâ Sosyolojisi Üzerine Bir Değerlendirme. // Gaziantep Üniversitesi Sosyal Bilimler Dergisi. Yıl 2022, Cilt: 21 Sayı: 1, 326 – 337**.**

Ziya Göy Alp Türkçülüğün Esasları. Türkiye: Anadolu Universitesi yayınları, S.37-38

**İngilis dilində**

Alphonse de Candolle. Histoire des sciences et des savants depuis deux siècles. Genève-Bale: H. Georg, 1873

Alshahadeh Tara, Marsap Akin. Smart Cities, Smarter Management: Developing A Smart Framework For Smart City Projects Management In Europe. // GE-International Journal of Management Research. Volume 6, Issue 9, 2018, s.41-73

Amisha, Paras Malik, Monika Pathania, and Vyas Kumar Rathaur. 2019. "Overview of Artificial Intelligence in Medicine." Journal of Family Medicine and Primary Care 8(7):23–31.

Andrew Targowski.The Strategies of Informing Technology in the 21st Century. USA: Independent Researcher, 2022. Pages: 557

Anti-globalization movement. // URL: https://www.ebsco.com/research-starters/social-sciences-and-humanities/anti-globalization-movement

Antonio Padilla-Meléndez and Aurora Garrido-Moreno. Use of E-Collaboration Technologies Among Students of Management // Encyclopedia of E-Collaboration. USA: Texas A&M International University, 2008, 750 p.

Batty M., Axhausen K.W., Giannotti F., Pozdnoukhov A., Bazzani A., Wachowicz M., Ouzounis G., and Portugali Y., Best K. Living in the control society: surveillance, users and digital screen technologies . International Journal of Cultural Studies , 2010, V.13 (1), p.p.5 – 24

Carl Rogers. Persons or Science? A Philosophical Question. // URL: https://www.all-about-psychology.com/carl-rogers.html

Castells M. Materials for an exploratory theory of the network society. // British Journal of Sociology, 2000, 51 ( 1 ), p.p.5 – 24

Ceren Tunay. 'Akilli Köy' Projesinde Teknolojik Bir Yanilsama. // Sosioloji araştırmalar dergisi. Cilt 27, Sayı 2 (Ekim/2024 – October/2024), s.94-122

Christine Onyango. The knowledge society. // URL:https://www.academia.edu/22523854/The_knowledge_society

Chumakov Alexander. Technooptimism, technopessimism. // URL: https://www.researchgate.net/publication/292155355_technooptimism_technopessimism

Clarke S., Walsh A. Scientific Imperialism and the Proper Relations between the Sciences // International Studies in the Philosophy of Science. 2009. Vol. 23. No. 2. P. 195–207.

Danaher J. Techno-optimism: an analysis, an evaluation and a modest defence. Philosophy &Technology, 2022, 35(54), 8. // URL: https://doi.org/10.1007/s13347-022-00550-2 (PDF) What is Techno-Optimism?. // URL: https://www.researchgate.net/publication/361975237_What_is_Techno-Optimism.

Daryl Mitchell. Significance of green energy. //Global Journal of Petroleum Resources and Alternate Fuels. Vol. 1 (1). pp. 003-004 February, 2022

Dean Keith Simonton. The Psychology of Creativity: A Historical Perspective // History of Creativity Research. University of California, Davis. 2015, N 8. // URL: https://simonton.faculty.ucdavis.edu/wp-content/uploads/sites/243/2015/08/HistoryCreativity.pdf.

Deborah Lupton. Digital sociology. Routlege: Taylor&Francis Qroup. 2015, 236p.

Dekart Rene. Metod a me Meditasiyalar üzrə Diskurs. Laurence J. Lafleur (çev.). Nu Ioka: Liberal Arts Press, 1960, 172p.

Dickens D. Postmodernism and social inquiry / D. Dickens, A. Fontana. – New York : The Guilford Press, 1994. 260 p.

Digital. // URL: https://dictionary.cambridge.org/dictionary/english/digital

Edwards A. , Housley W., Williams M., Sloan L. a me Wil-liams M. Ke noi‘i hiki ke koho‘e, ka pilikanaka a me ka

no‘ono‘o sociological: surrogacy, augmentation and re-orientation. // Nūpepa Inter-national no ka ‘imi noi‘i ‘ana. 2013, V.16 (3), p.p. 245 – 260 .

Emir Sader. The weakest link? Neoliberalism in Latin America. // URL: https://newleftreview.org/issues/ii52/articles/emir-sader-the-weakest-link-neoliberalism-in-latin-america

Éric Toussaint. Porto Alegre World Social Forum. 10 February 2001.// URL: https://internationalviewpoint.org/spip.php?article703

European Commission. Europe 2020: A strategy for smart, sustainable and inclusive growth: Communication from the commission. Publications Office of the European Union, 2010.

Felluga, Dino (25 June 2003). Modules on Baudrillard: On Simulation. Introductory Guide to Critical Theory. // URL: https://www.cla.purdue.edu/academic/english/theory/postmodernism/modules/baudrillardsimulation.html

First Smart Forest City in Mexico Designed by Stefano Boeri Architetti. // URL: https://www.archdaily.com/927312/first-smart-forest-city-in-mexico-designed-by-stefano-boeri-architetti

Fortunato Sorrentino. Ambient Intelligence // Encyclopedia of Information Communication Technology (2 Volumes). Italy: University of Cassino and Southern Lazio, 2009. Pages:926

Fragments of an Anarchist Anthropology. Chicago:Prickly Paradigm Press, 2004, 106з. // URL: https://monoskop.org/images/b/b8/Graeber_David_Fragments_of_an_Anarchist_Anthropology_2004.pdf

Friedman M. Explanation and Scientific Understanding //Journal of Philosophy. 1974. Vol. 71. No. 1. P. 5–19. 13. Friedman N. L. New Orders and Old: Historians, Educationists, and the Dynamics of Academic Imperialism // The American Behavioral Scientist. 1965. October. P. 24–29.

Graham C., Laurier E., O’Brien V. and Rouncefi eld. M. New visual technologies: shifting boundaries, shared moments. // Visual Studies. 2011, V. 26 ( 2 ), p.p.87 – 91

Holloway John. Crack Capitalism. London: Pluto Press. 2010, p. 133.

Hosseini S A Hamed. Alternative globalizations: an integrative approach to studying dissident knowledge in the global justice movement. New York: Routledge. 2010. // URL: https://litportal.ru/avtory/zigmund-freyd/kniga-leonardo-da-vinchi-vospominanie-detstva-987483.html

Institute of Cited Scientists. // URL: https://ics.events/past-events/

Jacques Derrida. Enlightenment past and to come. // URL:https://mondediplo.com/2004/11/06derrida

Jagdish N. Bhagwati. In Defense of Globalization. Oxford University Press. 2004, p.65

Jones, Kyle M. L. "What is a data double?".Data Doubles. Retrieved May 3, 2023

Jose Ernesto Rangel Delgado and Antonina Ivanova Boncheva Higher Education and Employment: Highlights From the Economic History of Mexico //International Perspectives on the Youth Labor Market: Emerging Research and Opportunities. Mexico: University of Colima, 2020. 217 P.

Kelly Joyce, Laurel Smith-Doerr , Sharla Alegria ,Susan Bell, Taylor Cruz, Steve G. Hoffman ,Safiya Umoja Noble, and Benjamin Shestakofsky. Toward a Sociology of Artificial Intelligence: A Call for Research on Inequalities and Structural Change //Socius Sociological Research for a Dynamic World. 2021, 7(4):1-11

Kevin Dunbar, Jonathan Fugelsang. Scientific Thinking and Reasoning. // The Cambridge Handbook Of Thinking And Reasoning. 2004, p.705-726.

Klaus Schwab . The Fourth Industrial Revolution. // URL:https://www.weforum.org/about/the-fourth-industrial-revolution-by-klaus-schwab

Labonté, Ronald. Reprising the globalization dimensions of international health // Globalization and Health. 2018, Vol.14 (1): p.49.

Lech W. Zacher Modeling Knowledge Society// Encyclopedia of Information Communication Technology (10 Volumes). USA : Information Resources Management Association, 2015. Pages:10384

Leesha Nicole Roberts. Primary School Teachers' Perceived Factors Affecting the Integration of ICT in an Educational District // Redesigning Teaching, Leadership, and Indigenous Education in the 21st Century. The University of Trinidad and Tobago, Trinidad and Tobago, 2021. 350 p.

Leo Tan Wee Hin and R. Subramaniam. Handbook of Research on New Media Literacy at the K-12 Level: Issues and Challenges (2 Volumes). Singapore: National Institute of Education, Singapore. 2009. Pages: 1076

Leonor María Martínez Serrano. CLIL, Bilingual Education, and Pluriliteracies: Bridging the Language Gap in the Knowledge Society (pages 1-13) (University of Córdoba, Spain) // International Approaches to Bridging the Language Gap. Spain: University of Córdoba, 2020 |Pages: 31

List of protests in the 21st century. // URL:https://en.wikipedia.org/wiki/List_of_protests_in_the_21st_century

Lloyd Amoah. Digital Imperialism and the Cyberization of Contemporary Life: A Ghanaian Perspective. // In book: Examining the Rapid Advance of Digital Technology in Africa. Publisher: IGI GLOBAL, 2024, pp.1-25

Maki U. Scientific Imperialism: Difficulties in Definition, Identification and Assessment // International Studies in the Philosophy of Science. 2013. Vol. 27. No. 3. Pp. 325–339.

Marin Dinu. What is the Knowledge Society? // Theoretical and Applied Economics, Asociatia Generala a Economistilor din Romania - AGER, 2008. vol. 2(2(519)), pp. 45-50

Maslow A. The psychology of science: a reconnaisance. New York: Harper and Row. 1966.// URL: https://fumaca.pt/wp-

content/uploads/2022/12/The-Psychology-of-Science_-A-Reconnaissance-PDFDrive-.pdf

Massimo Ragnedda & Maria Laura Ruiu. Digital society: risks and challenges. // Culture e Studi del Sociale-CuSSoc, 2021, 7(1), pp. 3-9

Massimo Ragnedda, Felice Addeo, Maria Laura Ruiu. How offline backgrounds interact with digital capital.//New media society. April 2024, Vol.26(4): pp.2023-2045

Massimo Ragnedda, Giuseppe Destefanis. Blockchain. A distruptive technologies // In book: Blockchain and web 3.0: Social, economic, and technological challenges. Publisher: Routledge. July 2019.// URL: https://www.researchgate.net/publication/340716275_Blockchain_A_distruptive_technologies

Massimo Ragnedda, Maria laura Ruiu. Social capital and the three levels of digital divide. September 2017. // URL: https://www.researchgate.net/publication/333693226_Social_capital_and_the_th-ree_levels_of_digital_divide

Morrison Ch. Politische Schwachen der Anpassungspolitik // www.oecd.org/...

Murray Warwick E.; Overton John. Geographies of Globalization. Routledge. 2014, p. 203

Noam Chomsky Znet May 07, 2002 / The Croatian Feral Tribune April 27, 2002 "ZNet | Terror War | Noam Chomsky Interviewed".

Nwachukwu Prince Ololube. Computer Communication and ICT Attitude and Anxiety Among Higher Education Students. Nigeria: NOVENA University Ogume,. 2009. Pages: 6

Optimizing Data Center Infrastructure: Market Sizing Thermal Management & Energy Consumption Market Data Overview: 4Q 2024. // URL: https://www.abiresearch.com/news-resources/chart-data/number-of-data-centers-with-heat-reuse

Rahmatullah Khan. The Anti-Globalization Protests: Sideshow of Global Governance, or Law-making on the Streets?// URL:https://www.zaoerv.de/61_2001/61_2001_1_a_323_356.pdf

Ralf-Martin Soe. Smart Cities and Smart Regions Roadmap. // In book: Smart Learning Ecosystems as Engines of the Green and Digital Transition (pp.75-100)

Rob Pope. Creativity. Theory, history, practice. // URL: http://elibrary.bsu.edu.az/files/books_400/N_134.pdf. S.4-5

Rockwell Anyoha. The History of Artificial Intelligence. // URL: https://sitn.hms.harvard.edu/flash/2017/history-artificial-intelligence/

Rockwell Anyoha. The History of Artificial Intelligence. // URL: https://sitn.hms.harvard.edu/flash/2017/history-artificial-intelligence/

Semuels A. Millions of Americans Have Lost Jobs in the Pandemic—And Robots and AI Are Replacing Them Faster than Ever. 2020 // URL:https://time.com/5876604/machines-jobs-coronavirus

Shahrough Akhavi. Social Institutions // Vol. 31, No. 3/4, A Review of the "Encyclopaedia Iranica". 1998, pp. 691-701 (11 pages)

Sigismondi C. Gerbert of Aurillac: astronomy and geometry in tenth century Europe // Proceedings of the Third Galileo — Xu Guangqi meeting, October 11-15, 2011.

Smart cities of the future // The European Physical Journal Special Topics. 2012. // URL: https://www.researchgate.net/publication/256305153_Smart_cities_of_the_future

Social institutions //. Stanford Encyclopedia of Philosophy. // URL: https://plato.stanford.edu/entries/social-institutions/

Social science and contemporary social problems // URL: https://items.ssrc.org/from-our-archives/social-science-and-contemporary-social-problems/

Soe R. 2017. FINEST Twins: platform for cross-border smart city solutions. In Proceedings of 18th Annual International Conference on Digital Government Research, Staten Island, NY, USA, June 2017 (dg.o '17). 6 pages.

Stiglitz, Joseph E., "Globalism's Discontents", The American Prospect, 13, 1, January 2002, PP. 1-14

Susheel Chhabra and Muneesh Kumar. Civic Engagement Frameworks and Strategic Leadership Practices for Organization Development. Delhi: Maharaja Agrasen Institute of Technology, 2020. P.313

Talking Heads: A history of Conversational Interfaces from the Middle Ages to our days. // URL: https://cristinasantamarina.com/2020/01/11/history-of-conversational-interfaces/

Talking Heads: A history of Conversational Interfaces from the Middle Ages to our days. // URL: https://cristinasantamarina.com/2020/01/11/history-of-conversational-interfaces/

The Brazil Reader. History, Culture, Politics / Edited by:James N. Green, Victoria Langland and Lilia Moritz Schwarcz. Duke University Press, 2019. 688p.

The Genius of the 21st Century.//URL: https://vvv.code.blog/2023/11/26/the-genius-of-the-21st-century/

The Sage Dictionary of Sociology.SAGE Publications Ltd1 Oliver's. London EC1Y 1SP © Steve Bruce and Steven Yearley 2006. P.154

The Social Function of Science. London, 1943

Uskali Mäki. Scientific Imperialism: Difficulties in Definition, Identification, and Assessment // URL: https://tint.helsinki.fi/maki/materials/MakiScImperialismISPS3sept2012.pdf

Vijay Laxmi Kalyani, Govt. Women Engineering College Ajmer, Manisha Kumari Dudy, Shikha Pareek. "Green energy: the need of the world". // Journal of Management Engineering and Information Technology (JMEIT) Volume -2, Issue- 5, Oct. 2015.

Walter Stefanie. "The Backlash Against Globalization". // Annual Review of Political Science. 2021, Vol.24: 421–442.

What Is Digital Citizenship? // https://www.learning.com/blog/what-is-digital-citizenship/

What is digital sovereignty? // URL: https://www.apizee.com/digital-sovereignty.php#:~:text=Digital%20sovereignty%20describes%20a%20party's,hardware%2C%20and%20other%20digital%20assets.

What is Knowledge Society. // URL: https://www.igi-global.com/dictionary/knowledge-based-urban-development/16456

Wilmshurst P. Scientific Imperialism: poor people in the developing world should not be used in research if they do not benefit from the findings // Biological Medical Journal. 1997. Vol. 314. P. 840.

Wuletaw Wondmagegn. Social institutions: a review.// Sociology International Journal. Volume 8 Issue 5 – 2024. // URL: https://medcraveonline.com/SIJ/SIJ-08-00395.pdf

Yigitcanlar Tan. Knowledge based urban development. In Khosrow-Pour, M (Ed.) // Encyclopedia of information science and technology, 3rd edition. IGI Global, United States of America,. 2015, pp. 7475-7485 (Pages: 10384)

**Rus dilində**

Агафонов А.Ю. Сознание: где искать «черный ящик»? // Методология и история психологии. 2009. № 1. С. 151–165.

Альтерглобализм: теория и практика «антиглобалистского» движения / Ред. А.В. Бузгалин. Москва:Эдиториал УРСС, 256с.

Амин С., Угар Ф. Глобализация сопротивления: борьба в мире.. — М.: Едиториал УРСС, 2004. 304 с.

Антиглобализм и глобальное управление : Доклады, дискуссии, справочные материалы. М.: МГИМО (У) МИД России, 2006. 440 с

Аристотель. О душе. М.:«РИПОЛ Классик», 2018,12 с.

Аристотель. О душе. Москва: Государственное Социально - экономическое издательство, 1937. 179 с.

Баканов Р.П.Актуальные проблемы современной науки и журналистика. Казань: Казанск. гос. ун-т, – 2010. – 152 с.

Бернал Дж. Наука в истории общества. М.: Издательство иностранной литературы, 1956.

Бестужев-Лада И.В., Наместникова Г.А. Социальное прогнозирование. Курс лекций. М.: Педагогическое общество России. 2001.

Бранский В.П.Социальная синергетикакак постмодернистская философия истории. ОбщественныеНауки и Современность 1999, № 6, s.117-127

Бузгалин А.В., Зуева А.А., Павлов М.Ю., Покровская Т.П., Василенко Л.А. Социология цифрового общества : монография / Л.А. Василенко, Н.Н. Мещерякова ; Томский политехнический университет. Томск: Изд-во Томского политехнического университета, 2021. 226 с.

Васильцова В.М., Третышный С.А. Институциональная экономика: Учебное пособие. Стандарт третьего поколения. Спб.: Питер, 2014, с..224-240; Основные концепции неоинституционализма: теория эволюционногонеоинституционализма. // URL: http://studopedia.org/6-37923.html.

Веблен Т. Теория праздного класса / Т. Веблен. - М.: Прогресс, 1984. С.202.

Вернадский В.И. Мысли о современном значении истории знаний / В.И. Вернадский // Избранные труды по истории науки. – М. : Наука, 1981. 359с.

Все есть число? К интерпретации «основной доктрины» пифагореизма. //URL: https://www.academia.edu/3478799/

Гениальность // Газлифт Гоголево. М.: Советская энциклопедия, 1971.

Гении 21 века: размышления о выдающихся умах нашего времени. // URL:https://www.securitylab.ru/blog/personal/SimlpeHacker/354007.php

Герон Александрийский. Большая Российская Энциклопедия.// URL: https://bigenc.ru/c/geron-aleksandriiskii-899ba0

Графова Е.П., Оттингер Д.М. Уральский государственный аграрный университет (г. Екатеринбург) Цифровизация как фактор развития науки и образования.// Аграрное Образование И Наука. 2021. № 4. С. 11.

ГулъбинаН.И.Теория институциональных изменений Д. Норта. «Экономические науки» 15 марта 2004 г., s.123-127

Денисов П. В. Бюджетно-страховой механизм регулирования рынка социальных услуг. Экономические науки. 2009, с. 39–42.

Денчев К. Феномен антиглобализма. М.:ВШЕ, 2005. 218с.

Дзялошинский И. М. Искусственный интеллект: гуманитарная перспектива // Вестник НГУ. Серия: История, филология. 2022. Т. 21, № 6: Журналистика. С. 20–29.

Жигунов А. От Герона до робота – шпиона. // Control Engineering. Россия. 2013, №4 (46), с.28-31

Зайко А.В. Антиглобализм как деконструктивизм // Глобализация в социально-философском измерении. / Сборник материалов конференции Санкт-Петербург: Санкт-Петербургское философское общество, 2003. С.41-43.

Знания и инновации в глобальном мире. // Вестник Российского философского общества. 2009, №4, с. 29–32

Ивин А. А. Основы социальной философии: Учеб, пособие для вузов/ А. А. Ивин.–М.: Высш. Шк. 2005, 440с.

Институты реализации социальной политики и услуг на макро и микроуровне. Электронный научный журнал «Инженерный вестник Дона». 2007–2013. .// URL: https://worldacademy.org/trieste-forum/march-2013 [s.7]

Институты реализации социальной политики и услуг на макро и микроуровне. Электронный научный журнал «Инженерный вестник Дона». 2007–2013. https://worldacademy.org/trieste-forum/march-2013

Кант  И. Критика способности суждения. Москва: Исскуство, 1994, 367 с.

Карнап Рудольф. Преодоление метафизики логическим анализом языка // «Вестник МГУ», сер. 7 «Философия», 1993, № 6, с. 11–26.

Карпов М. Заводной монах XVI века, который молился за короля Испании. // URL: https://www.computerra.ru/217069/zavodnoy-monah-xvi-veka-kotoryiy-molilsya/

Кастельс М. Становление общества сетевых структур // Новая постиндустриальная волна на Западе: Антология. М., 1999. С. 494-505

Каширин В.П. Методология науки, Красноярск, 2007, 147с.

Киберизация - синонимы, произношение, значение, примеры предложений. // URL:https://ru.opentran.net/dictionary

Киселева Э.С. Социальные функции науки. Социологические науки. №45-1, 2016 г., s.302, 303

Кляйн Н. Заборы и окна. Хроники антиглобализационного движения. М.:Добрая книга, 2005. 304с.

Колончин К.В. Глобализация и антиглобализм: две стороны одной медали // Рыбное хозяйство. 2024. № 1. С. 8-13.

Колосова О.Ю. Социальная синергетика в управлении социальными системами. Исторические, философские, политические и юридические науки, культурология искусствоведение. Вопросы теории и практики. Тамбов: Грамота, 2011. № 1 (7). С. 118-120. ISSN 1997-292X. .// URL: www.gramota.net/materials/3/2011/1/

Кольцова В.А., Холондович Е.Н. Гениальность: Психолого--историческое исследование. // Психологический журнал, 2012, том 33, № 2, с. 101–118

Коммонс Дж. "Институциональная экономика" (Перевод Курышевой А.А). История экономической мысли. Эко-

номический вестник Российского государственного университета, 2007, №4, стр.59-70

Костин А.И. «Экополитология и глобалистика», изд. «Аспект Пресс», С-Петербург, 2005.

Кохановский В.П., Золотухина Е.В., Лешкевич Т.Г., Фатхи Т.Б. Философия для аспирантов: Изд 2-е. – Ростов н/Д: Феникс, 2003. – С.19.

Кун Т. Структура научных революций / пер. с англ. И. З. Налётова ; общ. ред. и послесл. С. Р. Микулинского и Л. А. Марковой. М. : Прогресс, 1975. 288 с

Латов Ю. Римский Клуб (Club of Rome). .// URL: www.oecd.org/...

Лесков Л. В. Синергетическое моделирование будущего России // Теория предвидения и будущее. М., 1997

Мамедзаде И.Р., Дадашова С.О философии искусственного интеллекта и научной революции // Вопросы философии. 2023. Т. № 4. С. 206–215

Мирошников Ю.И. Психология научной деятельности. // URL: http://ifp.uran.ru/files/publ/eshegodnik/2004/12.pdf

Мирошников Ю.И. Психология научной деятельности. http://ifp.uran.ru/files/publ/eshegodnik/2004/12.pdf

Мирская Е.З. Р.Мертон и его концепция социология науки // Современная западная социология науки /Под ред. В.Ж.Келле, Е.З.Мирской. М., 1988. С. 42–60.

Мирская Е.З. Р.Мертон и его концепция социология науки // Современная западная социология науки /Под ред. В.Ж.Келле, Е.З.Мирской. М., 1988. С. 42–60.

Митчел У. Экономические циклы. Проблема и его постановка. М.-Л., 1930.

Мобильные роботы, их типы, возможности и применение. // URL: https://top3dshop.ru/blog/mobile-robots-types-and-applications.html?srsltid=AfmBOopJMluvuJcMRZFvolSzm1X822NCH_aw-RFAZGXQjOTLRGIV0-zM

Наумов Е.А. Устойчивое развитие и теория институционального конструктивизма. Электронное научное издание

«Международный электронный журнал. Устойчивое развитие: наука и практика» www.yrazvitie.ru вып. 2012, 2 (9), ст. 3 // Выпуск подготовлен по итогам Второй Международной конференции по фундаментальным проблемам устойчивого развития в системе «природа – общество – человек» (29 и 30 октября 2012 г.

Норт Д. Институты и экономический рост: историческое введение // Тезис. Т.1. Вып.2. М., 1993. С.73.

Норт Д. Институты, идеология и эффективность экономики // от плана к рынку: будущее посткоммунистических республик., М., 1993, с.307

О мобильных роботах: роль и перспективы промышленного и бытового применения, популярные модели. // URL: https://vektorus.ru/blog/mobilnye-roboty.html

Образование во имя правосудия. // URL: https://www.unodc.org/e4j/ru/index.html

Орешников И.М. Философия науки и техники. Уфа, 1999, с.69

Ортиз Изабель. Социальная политика. Организация Объединённых Наций. Департамент экономических и социальных вопросов. Нью-Йорк. 2007, 201с.

Ортис Изабель, Бёрк Сара, Беррада Мохамед и Саенс Эрнан Кортес. Мировые протесты: анализ ключевых проблем протестов в 21 веке. Palgrave Macmillan, 2022 г.

Оствальд В.Ф. Великие люди. Сост. проф. Эмиля Бауэра / Вильгельм Оствальд; Пер. с 2 нем. изд. Г. Кваша. — Санкт-Петербург : Вят. книгоиздат. т-во, 1910. — XII, 398, IV с. : 23.

Печчеи Аурелио. Человеческие качества. Москва: Прогресс,1980 304 с.

Платонова Е.Д., Мусарский М.М. Всемирное движение за образование для всех как фактор развития мировой экономики. // URL: // https://cyberleninka.ru/article/n/vsemirnoe-dvizhenie-za-obrazovanie-dlya-vseh-kak-faktor-razvitiya-mirovoy-ekonomiki

Пономарева Ю.Е. Возможности и ограничения социальнойсинергетикипри исследовании прогресса реформирования. Общество Вчера, Сегодня, Завтра., s.31-33. // URL: http://www.novapdf.com

Понятие социального института. Признаки, роль и значение социальных институтов.(2022). // URL: http://www.e-reading.mobi/chapter.php/99772/40/Davydov_-Sociologiya__konspekt_lekciii.html

Попо Е., Попова Н., Кочетков Д., О научном империализме // Общество и Экономика, № 6, 2017 , стр. 106=123

Речкин А. Андроиды и говорящие машины эпохи Просвещения.// «Троицкий Вариант» №17(361), 2022. с.14-15. // URL:https://elementy.ru/nauchno-populyarnaya_biblioteka/436549/androidy_i_govoryashchie_mashiny_epokhi_prosveshcheniya

Речкин А. История роботов. Говорящая голова.// «Троицкий вариант» №354, 31 мая 2022 года.. с.15-16 URL: https://www.trv-science.ru/2022/05/istoriya-robotov-govoryashhaya-golova/

Савельева И.М. Альтернативный мир: модели и идеалы. ,М.: Наука, 1990, 207 с.

Серви К. Греческая мифология. Афины, 2008, 184с.

Социальная политика и социальная безопасность. // URL: https://moodle.kstu.ru/mod/book/view.php?id=102350

Социальные институты. (2022). https://www.nntu.ru/frontend/web/ngtu/files/org_structura/library/resurvsy/pervokursnik/ineu/sociolog/system/teor/t4.html#:~:text

Тешаев У.У., Бахтиёров Н.Ж. Основные функции науки в современных условиях. // “Инновации в науке и практике”. Сборник трудов по материалам IV Всероссийского конкурса научно-исследовательских работ. Уфа, 2021, с.114-118

Токарева С.Б. Методология социального конструирования и социальный конструктивизм. Социальная философия

и социальное проектирование. Вестн. Волгогр. гос. ун-та. Сер. 7, Филос. 2011. № 2 (14) 113

Уильямсон О. Экономические институты капитализма. СПб., 1996. С.48.

Файзуллин Т.Ф., Файзуллина А.И. Сущность институционализма и его значение в исследовании социально-экономических явлений. // Вестник ОГУ. 2007, №9, с.37

Федотов А.П. Глобалистика: начала науки о соврем. Мире, М.: Аспект Пресс, 2002. 224 С.

Фрейд З. Леонардо да Винчи. Воспоминание детства. М.: Мысль, 1912.

Черногор Н.Н., Пашенцев Д.А., Залоило М.В. [и др.] Концепция цифрового государства и цифровой правовой среды:монография. М.: ООО «Юридическое издательство НОРМА», 2021. 244 с.

Что такое умный город? // URL: https://digitalresearch.bsu.edu/immersive-learning-showcase-spring-2022/exhibits/show/smart-city-muncie/definition-and-history-of-smar#:~:text=Then%20in%201994%2C%20Amsterdam%20established,between%20the%20government%20and%20residents.

Шевчук Д. Французская социологическая школа // Мировая экономика. Москва: Litres, 2015. 982 с.

Яковец Ю.В. Глобализация и взаимодействие цивилизаций. Москва: ЗАО "Изд-во "Экономика", 2003. 441 с.